ISSN 2410-4108

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI
AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI

# ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR

## Elmi-praktik jurnal

# № 2 (14)

BAKI – 2020

**BAŞ REDAKTOR:**
**Hüseyn Qaraşov,** *sosiologiya elmləri doktoru, professor*

**BAŞ REDAKTORUN MÜAVİNİ:**
**Fəhrad Möhbalıyev,** *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**MƏSUL KATİBLƏR:**
**Vilayət İsmayılov,** *iqtisad elmləri doktoru*
**Zeynəddin Şabanov,** *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

**REDAKSİYA HEYƏTİ:**

i.e.d., professor Səttar Möhbalıyev - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

sos.e.d., professor Hüseyn Qaraşov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, baş redaktor

i.e.d., professor Ramiz İsgəndərov - Azərbaycan Texniki Universitetinin "Sənaye iqtisadiyyatı və menecment" kafedrasının müdiri

i.e.d., professor Tərbiz Əliyev - AMEA İqtisadiyyat İnstitutunun "Sahibkarlıq və inhisarçılığın tənzimlənməsi problemləri" şöbəsinin müdiri

fəl.e.d., professor İlham Məmmədzadə - AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru

tarix e.d., professor Vəkil Həsənov - Azərbaycan Dövlət İqtisad Universitetinin "Ümumi humanitar fənlər" kafedrasının müdiri

sos.e.d., professor Rəfail Həsənov – Bakı Dövlət Universitetinin "Sosiologiya" kafedrasının müdiri

i.ü.f.d., dosent Fəhrad Möhbalıyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Tədris və elmi işlər üzrə prorektoru, baş redaktorun müavini

i.ü.f.d., dosent Hicran Mirzəyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Maliyyə-iqtisad" fakültəsinin dekanı

i.e.d. Vilayət İsmayılov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat və idarəetmə" kafedrasının müdiri, məsul katib

fəl.ü.f.d., dosent Zeynəddin Şabanov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Həmkarlar ittifaqı hərəkatı və sosial fənlər" kafedrasının müdiri, məsul katib

i.ü.f.d., dosent Raziyyə Maniyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Həmkarlar ittifaqları kadr və fəallarının ixtisasartırma və yenidən hazırlanması" şöbəsinin müdiri

i.ü.f.d., dosent Əsgər Əliyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat və idarəetmə" kafedrasının müəllimi

*Azərbaycan Respublikası, Bakı şəhəri, Azadlıq pr. 181*
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*Tel.: (050) 631-57-90; e-mail: jurnal@aesma.edu.az*
*Jurnal Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının*
*Elmi Şurasının qərarı ilə çap olunur. (protokol №4, 26.12.2020)*
*Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 3883. 07.05.2014*
*Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının*
***fəlsəfə, sosiologiya və iqtisadiyyat** elmləri üzrə tövsiyə etdiyi elmi nəşrlər sırasındadır.*

# MÜNDƏRİCAT

## HUMANİTAR VƏ SOSİAL ELMLƏR

**Rəfail Həsənov**
Sosiologiyada keys-stadi metodu: nəzəri-metodoloji təhlil.................................. **4**
**Ağasəlim Həsənov**
Fərdin cəmiyyətə inteqrasiyasına təsir edən amillər ............................................ **15**
**Назиля Мамедова**
Феномен национального менталитета и толерантности в Азербайджане...... **20**
**Söhrab Məhərrəmov**
İnformasiyalaşdırma cəmiyyətin inkişafının əsas amili kimi ............................... **27**
**Sevinc Ələsgərova**
Din və incəsənətin qarşılıqlıtəsiri i milli və qlobal münasibətlər sərkisində ........ **38**
**Əliyar Orucov**
Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ideoloji əsasları: sosial-siyasi təhlil .......................................................................................................... **45**
**Rasim Quliyev**
Eposlarda hüquqi dövlət ideyaları......................................................................... **54**
**Südabə Haşımova**
Şəxsiyyətin peşə müqəddəratını müəyyənləşdirmənin bəzi nəzəri məsələləri....... **61**

## İQTİSADİYYAT VƏ İDARƏETMƏ

**Fəhrad Möhbalıyev**
İqtisadi təhlükəsizliyin aspektləri və ona təsir edən amillər................................. **69**
**Zakir Əlizadə**
Azərbaycanda sosial sahələrin inkişafının problemləri.......................................... **76**
**Саадат Гулиева**
Контроль и ревизия в коммерческих организациях........................................ **82**
**Vilayət İsmayılov, Aygün Səmədova**
Turizm sferası müəssisələrinin iqtisadi inkişafının proqnozlaşdırılması .............. **88**
**Abbas Səfərov, Xəqani Məmmədov**
Aqrar iqtisadiyyatda xarici iqtisadi fəaliyyətin inkişafının əsas prioritetləri......... **97**
**Vüsalə Kərimova**
Azərbaycanda kənd təsərrüfatı sahələrinin inkişafının makroiqtisadi göstəriciləri ....................................................................................................... **105**
**Türkan Hətəmova**
Azərbaycan - Türkiyə xarici ticarət dövriyyəsinin inkişaf prioritetləri................. **113**
**Anar Məlikov**
Əmək şəraitinin vəziyyətinin qiymətləndirilməsinə əsas metodoloji yanaşmalar **118**

# HUMANİTAR VƏ SOSİAL ELMLƏR

**UOT-316**

**Rəfail Həsənov**
***Bakı Dövlət Universiteti***
***kafedra müdiri,***
***s.e.d., professor***
has_rm62@yahoo.com

## SOSİOLOGİYADA KEYS-STADİ METODU: NƏZƏRİ-METODOLOJİ TƏHLİL

*Məqalədə keyfiyyət sosiologiyasının tərkib hissəsi olan keys-stadi metodunun tədqiqat strategiyası olaraq idraki imkanları araşdırılır və göstərilir ki, keyfiyyət tədqiqatları xüsusilə kəskin sosial dəyişikliklər şəraitində geniş yayılmayan yeni hadisə və ya proseslərin öyrənilməsinə imkan verir. Keys-stadinin tətbiqi iki məqsəd daşıyır: bir tərəfdən öyrənilən obyektin başa düşülməsinə nail olmaq, digər tərəfdən daha ümumi sosial proseslər haqqında yeni biliklər əldə etmək. Strategiya çərçivəsində müxtəlif metodlardan istifadə edilə bilər, lakin analizin ümumi məntiqi, şübhəsiz ki, keyfiyyət paradiqmasına meyllidir.*

***Məqsəd*** **–** Keyfiyyət sosiologiyasının tərkib hissəsi olan keys-stadi metodunun tədqiqat strategiyası olaraq idraki imkanlarının araşdırılması.

***Metodologiya*** **–** Sistemli yanaşma vasitəsilə keys-stadi metodunun keyfiyyət tədqiqatlarında öyrənilən obyektin başa düşülməsi və ümumi sosial proseslər haqqında yeni biliklər əldə etmək üçün imkanları təhlil olunur.

***Tədqiqatın nəticələri*** **–** Keys-stadi metodunun spesifikliyi nadir obyektin dərin tədqiqində və tədqiqatın nəticələrinin fəaliyyət üçün təkliflərin hazırlanmasına yönəlməsindədir. Bu metodun mahiyyəti həm də bir və ya bir neçə hadisəni ətraflı öyrəndikdən sonra cəmiyyətdə baş verən dərin proseslərin məzmununu verməkdən ibarətdir.

***Açar sözlər****:* keyfiyyət sosiologiyası, mikrososiologiya, keys-stadi, tədqiqat strategiyası, sosial proseslər

### Giriş

Keyfiyyət sosiologiyasının problemlərinə artan maraq sosioloji gerçəkliyin vacib hissəsidir. Sosioloji tədqiqatın ənənəvi sərt metodlarından uzaqlaşmanın əsas səbəbləri izahedici mühakimələrin fraqmentarlığı və əvvəlcədən məlum olmasıdır. Sosial proseslərin artan dinamikası şəraitində keyfiyyət analizinin metodologiyası daha səmərəlidir ki, bu onların formalaşmasının ilkin mərhələsində yeni inkişaf meyllərini nəzərə almağa imkan yaradır.

Keys-stadinin keyfiyyət tədqiqatları metodları arasında xüsusi əhəmiyyətə malik olması bu tədqiqatda müxtəlif informasiya mənbələri və onların toplanılması metodlarından geniş istifadənin mümkünlüyündən irəli gəlir.

**Kəmiyyət və keyfiyyət tədqiqatlarının qarşılıqlı münasibəti**

Kəmiyyət məlumat toplama metodları və onların təhlili "sərt" metodlara aid edilir. Onların nəzəri və metodoloji əsasını cəmiyyət haqqında bütöv bir sistem kimi düşünmək və onun nəzəriyyəsini yaratmaq, obyektiv reallığı rasional qaydada tənzimləmək və məntiqi şəkildə izah etmək təşkil edir. Qərb sosiologiyasında 60-cı illərin ortalarında "sərt" kəmiyyət metodlarından istifadə özünün pik səviyyəsinə çatdı. Lakin elə bu vaxt da sosioloqlar makro-sosioloji nəzəriyyələrin sosial hadisələr və proseslərin "insan təbiətini" düzgün izah etmə qabiliyyətindən məyus olduqlarını ifadə etməyə başladılar. Müasir sosiologiya üçün humanistləşmə dövrü – qlobal problemlərin rasional idrakından lokal birliklərin və insanların gündəlik sosial praktikasının dərk edilməsi, sosial hadisələrin makro analizindən mikroanalizinə istiqamətlənmə başladı.

Klassik sosiologiyada fərdlərin həyatı onlardan asılı olmayan supra-fərdi və ümumi sosial qanunların təzahürü kimi çıxış edir. Fərd sosial tipin nümayəndəsi hesab olunur. Bununla belə, bir insanın sosial dünyasını, xarici gerçəkliyi qavramasını və özünüdərk dünyasını anlamaq üçün kateqoriyalar və abstraksiyaların rasional dili bəs etmir, müxtəlif mülahizələrə və davranışa verdiyi mənaları yetərincə başa düşməyə lazımdır. Bundan əlavə, bir insanın davranışı həmişə onun tərəfindən lazımi səviyyədə dərk edilmir. Onların dərin mənasını başa düşmək üçün xarici müşahidə olunan hərəkət və ifadələrin sosioloji baxımdan şərh edilməsi üçün çox səy göstərmək lazımdır. İnsan davranışı ilə bağlı fikirlərin rasionallaşdırılması da bu hərəkətləri izah edə biləcək müəyyən nəzəriyyələr tələb edir. Başqa sözlə, kəmiyyət sosiologiyası əsasən strukturlar, sosial qurumlar və təşkilatlar arasındakı sosial qarşılıqlı fəaliyyət problemlərini öyrənməyə istiqamətlənmişdirsə, keyfiyyət sosiologiyasını bu münasibətlərin real praktikasının subyektiv tərəfi maraqlandırır: müəyyən bir cəmiyyətdə sahibkar və ya satıcı olmaq nə deməkdir və sahibkarla satıcı arasındakı münasibət praktikası nədən ibarətdir. Birinci sıra problemləri başa düşmək üçün ümumiləşdirilmiş məlumatların təsviri və izahatına əsaslanan sosial biliklər lazımdırsa, ikinci sıra problemləri – konkret insanların təcrübəsini, bacarıqlarını, hisslərini dərk etmək üçün başa düşməyə və şərhə əsaslanan biliklər zəruridir.

Keyfiyyət yanaşması elmi axtarışın bütün mərhələlərində - tədqiqatçının nəzəri yönümündən, maraqlarının fokusundan, araşdırılması aparılan obyektə münasibətindən tutmuş məlumatların toplanılması proseduru və onların şərhinə kimi - fərqli məntiqə arxalandığına görə yuxarıda qeyd olunan strategiya və prosedurlardan əhəmiyyətli dərəcədə fərqlənir. Məsələn, sistem təhlili baxımından müasir Azərbaycan cəmiyyətinin müxtəlif sosial qruplarının - Dağlıq Qarabağda döyüşən əsgərlərin; iki uşaq böyüdən tək anaların; vaxtından əvvəl istefa vermək məcburiyyətində qalan hərbçilərin - ümumi həyat şəraitini öyrənmək və izah etmək mümkündür. Onların hamısını bütövlükdə demək olar ki, eyni yaşda müəyyən bir şəhərdə yaşayan və ya "islahatlar yaşayan cəmiyyətin çətinlikləri ilə təkbətək qalmış” insanlar qrupu kimi götürmək olar.

Ancaq keyfiyyət (və ya humanist) sosiologiyasının nöqteyi-nəzərindən yanaşsaq, bu xüsusi insan vəziyyətlərinin hər biri özünəməxsusluğu, spesifik sosial təcrübəsi, xüsusi həyəcanları və əziyyətləri ilə seçilir ki, birlikdə onlar həmin insanların özünəməxsus “həyat dünyasını” təşkil edir. Bu "xüsusi" dünya bir araşdırma obyekti ola bilər. Onların keçmiş təcrübələri, gündəlik qayğıları yalnız bu qrupların nümayəndələrinin fərdi taleyini, qavrayış və davranış xüsusiyyətlərini ümumi sosial məzmun çərçivəsində - bu sosial-tarixi vəziyyətin öyrənilməsi yolu ilə başa düşülə bilər. Digər tərəfdən, bu insanların təcrübəsi ümumi ictimai təcrübənin xüsusi bir "parçası"dır. Özəl təcrübələrin mozaika tək birləşməsi bütövlükdə cəmiyyətin sosial mənzərəsini təqdim etməyə imkan verir.

Keyfiyyət tədqiqatlarında ümumi diqqət sosial təcrübələrin vahid mənzərəsinin

təsvirinə yönəlmişdir. Keyfiyyət metodologiyasının imkanlarını dəyişikliklərə məruz qalan cəmiyyət üçün ən münasib olan strategiyalardan birinin nümunəsində göstərmək olar. Bu, U.Tomas və F. Znanetskinin kəskin sosial dəyişikliklər dövründə icmalardakı qarışıqlıq və dəyişiklikləri öyrənməyə yönəlmiş "Polyak kəndlisi Avropada və Amerikada" adlı klassik əsəridir.

Beləliklə, keyfiyyət sosiologiyasının ümumi strategiyası problem vəziyyətin açıq və strukturlaşdırılmamış xarakterinin təhlilindən ibarətdir. Burada tədqiqatçının diqqəti fərdi subyektlərin obyektiv və subyektiv sosial təcrübələrinin vəhdətdə və genişləndirilmiş şəkildə müayinəsinə yönəlmişdir. Əgər tədqiqatçının diqqət mərkəzində fərdi bir sosial obyektin özünəməxsusluğunu, bir hadisənin ümumi mənzərəsini onun komponentlərinin vəhdətində öyrənmək, obyektiv və subyektiv amillərin qarşılıqlı təsirini müəyyənləşdirmək durursa, bu vaxt keyfiyyət metodlarından istifadə prioritetdir. Keyfiyyət tədqiqatları xüsusilə kəskin sosial dəyişikliklər şəraitində geniş yayılmayan yeni hadisə və ya proseslərin öyrənilməsinə imkan verir.

Bundan əlavə, keyfiyyət paradiqmasını bu istiqamətin əsasında duran nəzəri konsepsiyalara uyğun olaraq, bəzən humanist, interpretativ və ya anlayan sosiologiya da adlandırırlar. Fərdlərin sosial fəaliyyətin daşıyıcısı hesab olunduğu strukturalizmdə sosial strukturların fərd üzərində üstünlüyü qəbul olunur və cəmiyyətdə sosial qaydanın bunun sayəsində təmin olunduğu qənaətinə gəlinir (G.Zimmel, C.Mid, M.Veber). Bunlar ictimai aləmin nə məhsulu, nə də ki, “qurbanı” deyillər, əksinə düşünən, hiss edən və yaradıcılıqla ətrafdakı dünyanı yaratmaqda iştirak edən, həm öz davranışlarına, həm də başqalarının davranışlarına məna və əhəmiyyət verən aktorlardır. Bu yanaşmaya görə böyük sosial sistemlər ortaq "mənalar və əhəmiyyət"in qurulduğu və müəyyən dərəcədə sosial qarşılıqlı əlaqənin bütün iştirakçıları tərəfindən bölüşüldüyü mürəkkəb qarşılıqlı fəaliyyət prosesindən yaranmışdır. Məsələn, hər kəs toy şənliyində "vağzalı" rəqsinin səslənməsinin nə demək olduğunu başa düşür. O, rəmzi olaraq bütün hərəkətləri strukturlaşdırır və mərasimin bütün iştirakçıları üçün eyni simvolik məna daşıyır. Buna görə keyfiyyət sosiologiyasını həmçinin subyektiv sosiologiya da adlandırırlar. Maks Veberin ənənələrinə uyğun olaraq, keyfiyyət tədqiqatı aparan sosioloq subyektin öz fəaliyyətinə hansı mənanı verdiyini öyrənir. Bu subyektiv mənalar tədqiqatçı tərəfindən şərh olunur və insan davranışının tipik modellərinin qurulması üçün müəyyən məntiqi ardıcıllıqla təşkil edilir. Onu mikrososiologiya və ya "parçalanmış" sosiologiya da adlandırmaq olar, çünki bu yanaşmada diqqət xüsusi qarşılıqlı təsirlərin (interaksiyaların) mikroanalizinə yönəlir. G.Zimmel sosiologiyada qlobal sosial nəzəriyyələrin mümkünlüyünü qəbul etmirdi. Təhlilində, o, insan təcrübəsinin "mikroəsaslarına", ilk növbədə, onun mədəni tərkib hissəsinə arxalanırdı. Zimmelə görə, məhz bunun sayəsində bir tərəfdən real həyatın fərdi təcrübəsini başa düşmək, digər tərəfdən də cəmiyyəti bir çox "hissələrdən" toxunmuş bütöv bir mozaika kətanı kimi görmək mümkündür.

Keyfiyyət metodologiyası çox vaxt interpretativ və ya anlayan adlanır, çünki burada sosioloq sosial agentlərin hərəkətlərini əsaslandırılmış, mənalı və başqalarına yönəlmiş hesab edir. Bu hərəkətlər insanların özləri tərəfindən verilən mənalara nüfuz edərək, yəni ictimai hərəkətləri başa düşmək və şərh etməklə dəqiq təhlil edilir (M.Veber, G.Zimmel).

Simvolik interaksionizm (C.Mid, Y.Habermas, H.Blumer) keyfiyyət sosiologiyasına sosial ünsiyyətlərin mənalarını şərh etmək üçün əsas kimi dil ideyasını gətirdi. Bu yanaşmaya görə cəmiyyətdə qarşılıqlı əlaqə dil, jest, simvol mübadiləsi yolu ilə təmin edilir. İnsan hərəkətini yalnız xarici təzahürlərini müəyyənləşdirmək əsasında başa düşmək olmur, bunun üçün qarşılıqlı əlaqədə iştirakçılar tərəfindən başa düşülən bir dildə ifadə olunan daxili simvolik mənanı bilmək lazımdır.

Fenomenoloji ənənədə bu fikirlər insanın davranışının motivlərini yalnız onun bioqrafik vəziyyətinin ideyası əsasında (A.Şyutsun “həyat dünyası”) anlaya biləcəyi fikri qədər inkişaf etdirilmişdir. İnsanlar subyektiv olaraq hər bir sosial vəziyyətə (P.Berger və T.Lukman) öz motivlərini və davranışlarını təqdim edərək sosial gerçəkliyi qururlar və bu cür hallar təkrarlandıqda, eyni motivləri və davranışları tətbiq edərək onları səciyyələndirirlər. Beləliklə, subyektin daxili dünyası başqalarının mülkiyyətinə çevrilir, səciyyələndirilir və nəticədə "institusional" vəziyyətə gətirilir. Etnometodologiya, insanların gündəlik işlərini empirik müşahidə edərək davranış mənalarının öyrənilməsinə əsaslanır. Buradakı adi insanlar, peşəkar sosioloqlarla müqayisədə gündəlik təcrübələrində daha səriştəli mütəxəssislər hesab olunurlar. Bu fərdi sosial qrupların gündəlik təcrübəsi haqqında məlumat mənbəyi kimi istifadə olunur. Təhlilin bu aspektini həm də folklor sosiologiyası adlandırırlar (H.Qarfinkel).

Beləliklə, metodologiya baxımından keyfiyyət və ya humanist sosiologiya təbiətcə mikrososiologiyaya aid edilir; tədqiqatçı subyektə ictimai fəaliyyətin agenti olaraq diqqəti cəlb edir və ilk növbədə sözlər, kəlamlar, hekayələr ilə ifadə olunan şəxsi gündəlik təcrübəyə və başqaları ilə qarşılıqlı münasibətlərə istinad edir. İnteraktiv məlumatları (sözlər, jestlər, kommunikativ simvollar) təhlil edərək sosioloq insanların lokal sosial varlığının xüsusi formalarını dərk edir və şərh edir; müşahidələrini ümumiləşdirərək gizli sosial məna və ya sosial gerçəkliyin bu aspektinin fəaliyyət mexanizmlərini nəzəri bir şərh üçün elmi terminlər dilinə çevirir.

**“Keys-stadi” anlayışının mahiyyəti və məzmunu**

Keys-stadi termininin birinci hissəsi olan “keys” sözü ingilis dilində “case” -“vəziyyət, hadisə, fakt, hal, iş”, ikinci hissəsi olan “stadi” (“study”) isə “tədqiqat, öyrənmə, nəzərdən keçirmə” mənalarını verir. Bu termini biz Azərbaycan dilində “tək, ayrı, konkret, fərdi hadisənin araşdırılması”, “vəziyyətlərin tədqiqi”, “situasiyanın tədqiqi” kimi işlədə bilərik. Lakin bu terminin Azərbaycan dilində bu cür səslənməsi doğru olmasa da[*] hazırda onun qəbul edilmiş bir analoqu yoxdur və buna görə də sosioloji ədəbiyyatda “keys-stadi” terminindən istifadə olunması zənnimizcə daha məqsədəuyğundur.

Qeyd edək ki, müasir qərb sosioloji ədəbiyyatında “keys-stadi” metodunu ifadə etmək üçün müxtəlif terminlərdən istifadə olunur: “hadisə metodu” (case method), “hadisənin tədqiqi” (case study), “monoqrafik araşdırma” (monographic study), “monoqrafik yanaşma” (monographic approach), “iştiraklı müşahidə”, “etnoqrafiya”, “çöl işləri” və s. Bu terminlərin müxtəlifliyinə baxmayaraq əslində onlardan istifadə zamanı eyni metodlar nəzərdə tutulur.

Bu metodun mahiyyəti obyektin bütün əlaqələri ilə birlikdə öyrənilməsidir. Tədqiqat obyekti isə digər metodlarla öyrənilməsi çətinlik törədən qapalı bir icma (məsələn, sosial elitalar, cəmiyyətin “dib”i, dini sektalar), istehsalat və ya tədris kollektivləri ola bilər. Kəmiyyət tədqiqatları 10, bəzi hallarda isə 20-25 günlük vaxt çərçivəsinə malik olduqları halda, keyfiyyət tədqiqatlarında bu uzun müddətə hesablanmışdır və bir neçə aydan bir neçə ilədək uzana bilər. Keys-stadi metodunda tədqiqatçılar uzun müddətə insanların gündəlik həyatının iştirakçısına çevrilirlər. Keys-stadi metodikasında informasiya müşahidə, iştiraklı müşahidə, arxiv materialları, kinofotosənədlər kimi metodlardan istifadə oluna bilər. Tədqiqatçının diqqət mərkəzində əsas hadisələrin xronoloji ardıcıllığında qeydə alınan vahid bir hadisə ola bilər. Keys-stadi

[*] Məsələn, beynəlxalq münasibətlərin tədqiqində istifadə olunan “situasiyanın tədqiqi” ifadəsi tamamilə başqa bir metodu nəzərdə tutur (1, 255-258), “vəziyyətlərin tədqiqi” termini isə kifayət qədər mücərrəddir və müəyyən bir metodoloji istiqaməti bildirmir (11, 329-352).

metodunun spesifikliyi nadir obyektin dərin tədqiqindədir və tədqiqatın nəticələri fəaliyyət üçün təkliflərin hazırlanmasına yönəlmişdir (2). Bu metodun mahiyyəti həm də bir və ya bir neçə hadisəni ətraflı öyrəndikdən sonra cəmiyyətdə baş verən dərin proseslərin məzmununu verməkdən ibarətdir. Keys-stadi dedikdə, dolayı, qismən və müəyyən dərəcədə mücərrəd məlumatlardan fərqli olaraq, həyat hekayələrinin birbaşa və hər yerdə öyrənilməsi nəzərdə tutulur (8, 123).

Bir qayda olaraq, digər hadisələrlə müqayisə verilmiş unikal obyektin strukturunun öyrənilməsində ikincidir. Müqayisə olunan obyektlərin sayı üç və ya dörd hadisəni keçməməlidir. Müqayisəli təhlil üçün 3 və ya 4-dən artıq hadisə olduqda tədqiqatçı hadisənin dərinliyini itirə bilər və bunanla da onlardan hər birinin qeyri-adekvat təsvirinə gətirib çıxara bilər. Təhlil üçün məlumat mənbələri əsasən vəziyyətin intensiv öyrənilməsinin müxtəlif üsulları ilə əldə edilən nəticələrdir ki, bura müşahidə, iştiraklı müşahidə, fotoşəkillər, fokuslaşmış və ya ekspert müsahibələri, arxiv materialları və videomateriallar aid edilir. Tədqiqatçı "hadisəni" adətən əsas hadisələrin xronoloji ardıcıllığı ilə təsvir edir, daha vaciblərini daha detallı təsvirinə yönəldir. Bir neçə "hadisədən" istifadə edərkən onların hər birinin sərhəddi dəqiq müəyyənləşdirirlir və ardıcıl olaraq təsvir olunur, daha sonra onların çarpaz təhlil aparılır.

Hadisənin vaxt sərhəddinin müəyyənləşdirilməsi prosesi keys-stadinin ikinci vəzifəsidir. Lakin çox vaxt hadisənin vaxt çərçivəsini müəyyənləşdirmək, bir hadisənin başlanması, digərinin isə bitməsi vaxtını dəqiq müəyyənləşdirmək çətin olur və buna görə də bu, şərti şəkildə müəyyənləşdirilir.

Beləliklə, keys-stadinin spesifikliyi obyektin unikallığının dərindən öyrənilməsindədir. Burada müşahidənin nəticələri çox vaxt lokal, tətbiqi xarakter daşıyır və fəaliyyət üçün təkliflərin hazırlanmasına yönəlmişdir.

Fikrimizcə, bütün müxtəlif nəzəri təriflər və praktiki tədqiqatlar üçün hazırda bu metodu başa düşmək üçün ən azı iki fərqli yanaşma ayırd edilə bilər. Birinci yanaşma keys-stadini müstəqil tədqiqat növü və ya strategiyası, ikinci isə yalnız sosioloji tədqiqatın ayrı-ayrı mərhələlərində istifadə olunan metodların məcmusu kimi müəyyənləşdirir. Bu anlayışlar arasındakı fərq prinsipial xarakter daşıyır. Müstəqil tədqiqat strategiyası olaraq keys-stadi digər tədqiqat metodları ilə əldə edilə bilməyən müəyyən bir sosioloji məlumatı əldə etməyə imkan verirsə, ikinci halda o, bir empirik məlumat toplamaq üçün keyfiyyət üsulları ilə müəyyənləşir (3, 65-90).

Keys-stadi konsepsiyasının formalaşması üçün, bizcə, iki fikir fundamental əhəmiyyətə malikdir: Frederik Le Plenin adı ilə əlaqəli "monoqrafizm" və Çikaqo məktəbinin əsərlərində öz əksini tapmış fərdi hadisələrin dərindən (in depth) öyrənilməsi. F. Le Plenin monoqrafik metodu birbaşa müşahidə vasitəsilə özləri və ətrafları haqqında dolğun məlumat toplamaqla yanaşı kiçik sosial qrupların öyrənilməsinə kompleks yanaşmanı təmsil edir. Fransız fəhlələrinin ailələrinin tədqiqatına (1855-1885) F. Le Ple tərəfindən tətbiq olunan tədqiqlər onun tələbələri E. Demolin və A. de Turvil tərəfindən davam etdirildi: onlar məlumatların toplanacağı parametrləri ətraflı şəkildə izah etdilər və bu da tətbiqetmə sahələrini əhəmiyyətli dərəcədə genişləndirməyə imkan verdi (13). Monoqrafik təsvirin prinsipləri mikro-sosioloji analizin inkişafı üçün mühüm metodoloji nəticələrə malik idi, lakin Le Ple və onun ardıcıllarının düşüncəsində metodun özü hadisənin müxtəlif tərəflərini bütöv şəkildə təhlil etmək üçün deyil, hər suala ayrıca cavab üçün nəzərdə tutulmuşdu. Belə bir tədqiqat daha çox "eninə" yönəldilmişdir, yəni sosial fəaliyyətin subyektiv mənalarını başa düşmək və xarakterik nümunələri vurğulamaq üçün "daxili" dən çox sayda fakt təsvir və təhlil olunur. Bu ideya Çikaqo məktəbinin sosioloqları tərəfindən inkişaf etdirildi. Bununla əlaqədar Çarlz Kuli yazırdı: "...Bizim məqsədimiz

insan həyatını həqiqi dramatik fəaliyyət kimi göstərməkdən, həmçinin jest və dil vasitəsilə müşahidə edilməsi mümkün olan insan funksiyasının bir hissəsi kimi mental prosesdə iştirakdan ibarətdir. ...Keys-stadi dedikdə mən bunu başa düşürəm: həyat tarixlərinin bilvasitə, qismən və müəyyən dərəcədə mücərrəd informasiyadan fərqli bilavasitə və çoxcəhətli öyrənilməsi” (8, 123).

Öz şöhrətinin zenit nöqtəsində, 1920-1930-cu illərdə, keys-stadi keyfiyyət və kəmiyyət metodlarının antitezisinin bir hissəsi idi. Bu vaxt keys-stadinin sosial reallığın öyrənilməsinin müəyyən epistemoloji prinsiplərinə əsaslanan bir araşdırma kimi keyfiyyət sosiologiyası ilə - induktiv məntiq və anlama sosiologiyasının üsulları ilə eyniləşdirilməsi baş verir (15).

Metoda olan maraq müəyyən dərəcədə 40-cı illərdə də davam etmişdir və çox vaxt bu R.Bercess və onun həmkarlarının adı ilə bağlnır. Müharibədən sonrakı dövrdə həm metodologiyada, həm də sosioloji tədqiqat praktikasında pozitivizm üstünlük təşkil etmişdir. Buna baxmayaraq, zəngin keyfiyyətli məlumat toplamaq üzərində davamlı, əziyyətli işlər davam etdirildi ki, bunlar “çöl işi”, “iştiraklı müşahidə” və ya “etnoqrafiya” kimi təyin olundu. Bu araşdırmaların çoxu artıq klassikaya çevrilmişdir.

1960-cı illərin sonundan keyfiyyət tədqiqatlarına dair məqalələrin yazılışında bir canlanma baş verdi. Sosiologiyada keyfiyyət yanaşma mövzusuna elmi marağın canlanması, əksəriyyəti "postmodernizm" sözü ilə izah edilə bilən ictimai düşüncənin inkişafında yeni bir mərhələ ilə əlaqədardır. Postmodernist cərəyanlar, tədqiqatçını öyrənmə obyektindən uzaqlaşdıraraq, həqiqəti bilmə ehtimalını inkar edərək ənəvi obyektivlik və elmilik meyarlarına yenidən baxmağa vadar etdi. Metodun nəzəri cəhətləri bu görüşlərə uyğun olduğundan, tədqiqat praktikasında keys-stadi araşdırmasına maraq yenidən dirçəldi.

Qeyd edək ki, keys-stadini növlərinə və tiplərinə görə də səciyyələndirmək mümkündür. Belə ki, R.Steyk keys-stadini instrumental, dərin və külli növlərinə bölür (16). İnstrumental tədqiqatda nəzəriyyə və hadisə qarşılıqlı əlaqədədir: ilkin nəzəriyyə bir ictimai fenomenin vəziyyətini izah edir, hadisə isə nəzəriyyəni tamamlayır.Dərin keys-stadidə, əksinə, konseptuallaşdırma tədqiqat prosesində baş verir. Külli keys-stadi tədqiqata bir deyil, bir çox hadisənin daxil edilməsini nəzərdə tutur və sosial fenomenin müxtəlif şəraitdə funksiyasını göstərmək, eləcə də tədqiq edilən fenomenin müxtəlif təzahür formalarında öyrənilməsini tədqiq etməkdən ötrü müqayisə üçün istifadə edilə bilər.

Fransız tədqiqatçısı A.David “hadisənin” dörd tipini ayıraraq fərqli, lakin oxşar tipologiyanı təklif edir:

1) “İllüstrativ hadisə” M.Qlyukmanın təsnifatındakı eyniadlı tiplə və R.Steykin təsnifatındakı instrumental tiplə əlaqələndirilir.

2) "Tipik hadisə" müəyyən parametrlərə görə bütövlükdə bir sosial hadisəni təmsil edir. Bu tədqiqatda əsas məqsəd tez-tez rast gəlinən səciyyələrin ümümiləşdirilməsidir.

3) “Eksperimental” hadisə nəzəriyyənin yoxlanılması üçün istifadə olunur ki, burada da seçimin əsas şərti müəyyən nəzəriyyənin bu və ya digər müddəalarının yoxlanılmasıdır.

4) Nəhayət, “fərdi” hadisə az rast gəlinən, az öyrənilmiş fenomendir ki, bu vaxt tədqiqatçını konkret obyektin spesifikliyi, unikallığı maraqlandırmır. Bu tədqiqat tipində yeni konseptlər, nəzəri müddəalar tədqiqatın əsas nəticəsi kimi çıxış edir (9).

Tədqiqat praktikasından bir çox misallar gətirmək mümkündür ki, orada “hadisə” empirik və ya nəzəri olur, ya da ki hər ikisini özündə birləşdirir. Bu, tədqiqat obyektini tədqiq olunan fenomenlə qarışdırmağa şərait yaradır və tədqiqatın gedişinə, eləcə də nəticələrinə öz təsirini göstərir. Ç.Reycin terminin ictimai elmlərdə tətbiq etmə təcrübəsini

ümumiləşdirərək, iki dixotomiyanın kəsişməsinə əsaslanan tədqiqat işlərinin təsnifatını verir. Birincisi, realizm və nominalizm arasındakı fəlsəfi fərqlə əlaqələndirilir: hadisə ya empirik bir obyekt, ya da nəzəri bir konstrukt olaraq ortaya çıxır. İkincisi, hadisəni şərti, hər hansı bir xüsusi təsirindən asılı olmayaraq ümumi bir kateqoriya kimi anlaşılmasını bölüşür ki, bu da qismən ictimai elmlərdə keyfiyyət-kəmiyyət bölgüsü ilə uyğun gəlir (1, 10-12).

Sosiologiyada "hadisə" "dəyişən" kimi əsas kateqoriyalardandır. Keys-stadidə hadisə, ictimai bir hadisənin təzahürünün nümunəsi olaraq qəbul edilən xüsusi bir müşahidə vahidi, sosial gerçəkliyin bir parçasıdır. J.Amelin obrazlı şəkildə göstərdiyi kimi, "keys" tədqiqatçıya xüsusidən ümumiyə keçidi təmin edə bilən müəyyən keyfiyyət xüsusiyyətlərinin bir növ rahat müşahidə məntəqəsini xatırladır (10, 60-63). İnsanın davranışının özünü göstərdiyi kontekstin ətraflı təsviri və adekvat şəkildə anlaşılması birbaşa müşahidə və geniş məlumat mənbələrinə çıxış yolu ilə əldə edilir. Ona görə də empirik "hadisə" intensiv müşahidəni təmin edən real zaman və məkanla məhdudlaşır.

Tədqiq olunan hadisənin xüsusiyyətlərinə və istifadə olunan metodik vasitələrin toplusuna görə, sosiologiyada, nümunələr bioqrafik, etnoqrafik və monoqrafik metodla əlaqədardır. Keys-stadinin tipologiyaları çərçivəsində onların hər birini özünəməxsus bir tədqiqat fokusu və məlumat toplama metodlarının kombinasiyası ilə fərqli hesab etmək olar. Bioqrafik və etnoqrafik araşdırmaların xüsusiyyətləri və onların nümunə ilə əlaqəsi elmi ədəbiyyatda ətraflı təqdim olunur (6, 101-103). Keys-stadi və monoqrafik metod arasındakı fərqlər az qəbul edilir, buna görə də qeyd edildiyi kimi, Avropa ənənələrində onlar tez-tez sinonim kimi çıxış edirlər. Keys-stadinin monoqrafik tipini obyektivist və subyektivist yanaşmaların sintezinə metodoloji iqtiqamət fərqləndirir. Burada tədqiqat obyekti kimi adətən tipik hadisələr, eləcə də demoqrafik, iqtisadi və statistik təhlil xarakterli informasiya çıxış edir. (6, 69).

**Keys-stadi: metodoloji problemlər**

Keys-stadinin sosial elmlərdə geniş istifadəsinə baxmayaraq, qeyd edək ki, onunla bağlı bu gün də metodoloji qeyri-müəyyənliklər qalmaqdadır və müxtəlif müəlliflər onu müxtəlif cür – metod, metodologiya, keyfiyyət tədqiqatının taktikalarından biri və ya xüsisi tədqiqat dizaynı kimi müəyyənləşdirir (17, 1-10).

Bu nöqteyi-nəzərdən Qərb sosiologiyasında iki istiqaməti ayırmaq mümkündür:

1) Keys-stadinin informasiyanın toplanmasının keyfiyyət metodlarının cəmi kimi müəyyənləşdirilməsi;

2) Keys-stadinin keyfiyyət empirik tədqiqat kimi müəyyənləşdirilməsi.

Birinci halda keys-stadinin müəyyən məlumat toplama metodları (daha çox iştiraklı müşahidə ilə), ikinci halda isə keyfiyyət yanaşması ilə identikliyi baş verir. Hər iki halda da çoxsəviyyəli anlayışların qarışığı müşahidə olunur: keyfiyyət tədqiqat metodu və empirik material toplamağın keyfiyyətli və ya yumşaq üsulu.

R.Yinin keys-stadi konsepsiyası bu nöqteyi-nəzərdən xüsusi əhəmiyyət daşıyır. Onun elmi işlərində keys-stadinin digər tədqiqat tiplərindən fərqləri göstərilmişdir. Belə ki, o, sosial tədqiqatın beş əsas tipini fərqləndirir: eksperiment, sorğu, tarixi tədqiqat, sənədlərin təhlili və keys-stadi. Hər bir strategiyanın imkanlarını nəzərə alaraq, müəyyən bir strategiyanın istifadəsinin qanuni olması ilə bağlı şərtləri müəyyənləşdirir. Bu məntiqə uyğun olaraq, keys-stadinin onu digər strategiyalardan fərqləndirən texniki tərifi verilir: "Keys-stadi – empirik tədqiqat olaraq müasir fenomeni onun real mövcudluq kontekstində öyrənir. Bu vaxt fenomenlə onun konteksti arasındakı sərhədd dəqiq olmur və burada müxtəlif planlı informasiya mənbələrindən istifadə olunur." (18, 23)

R.Yin tədqiqatın məqsədlərindən asılı olaraq keys-stadinin üç tipini fərqləndirir:

izahlı (explanatory or causal), təsviri (descriptive) və kəşfiyyat (exploratory). O, qəti olaraq bu metodu induktiv hesab etmir və ona pizitivist mövqedən yanaşır ki, bunun üçün göstəricilərin müəyyənləşdirilməsi, hadisənin seçilməsinin nəzəri əsaslandırılması, prosedurların planlaşdırılması zəruridir. R.Yinnin olduqca qeyri-müəyyən bir tərifinə baxmayaraq, o, kesy-stadi ideyasını tədqiqat strategiyası kimi konkretləşdirir və bununla da onu keyfiyyət metodlarından fərqləndirir. Bununla birlikdə müəllifə bu strategiyanın nə dərəcədə uyğun olacağını izah etmək deyil, həm də keys-stadi metodunun fərqli xüsusiyyətlərini göstərmək lazımdır.

Hadisənin öyrənilməsi, bir qayda olaraq, ikili məqsəd daşıyır: bir tərəfdən öyrənilən obyektin (müşahidə olunan qrupda onların üzvlərinin bir-biri və digər qruplarla qarşılıqlı əlaqələri və davranış nümunələrinin) başa düşülməsinə nail olmaq. Digər tərəfdən daha ümumi sosial proseslər haqqında yeni biliklər əldə etmək. Strategiya çərçivəsində müxtəlif metodlardan istifadə edilə bilər, lakin analizin ümumi məntiqi, şübhəsiz ki, keyfiyyət paradiqmasına meyllidir. Lakin söhbət müəyyən bir keyfiyyət metodologiyasından deyil, vahid hadisə strategiyası çərçivəsində məlumatların toplanması və təhlilinin keyfiyyət və ya kəmiyyət metodlarından gedir. Sonra bu strategiyanın adekvat olduğu şərtlər, imkanlarının hüdudları müəyyənləşdirilir.

Rob Van Vinsberqx və Samia Kxan belə hesab edirlər ki, keys-stadi ümumi paradiqmalararası və fənlərarası bir yanaşmadır. Bu arqument aşağıdakı bir-birini istisna eləyən nəticələrə əsaslanır: (18, s. 46-48)

- Keys-stadi metod deyil, çünki onun tətbiqi çərçivəsində digər metod və texnikaların məcmusu istifadə olunur (məs., müsahibə, müşahidə, sənədlərin təhlili və s.) ki, bu da keys-stadini daha geniş tədqiqat strategiyasına çevirir;
- Keys-stadi metod deyil, çünki tədqiqatda müəyyən konkret nəticələrin əldə edilməsini təmin edəcək ümumi qəbul olunmuş prinsiplər toplusu yoxdur (məsələn, effektivliyin qiymətləndirilməsi, diaqnostik informasiyanın alınması və s.). Keys-stadinin metodologiyası əhəmiyyətli dərəcədə müəyyən bir kontekstdən asılıdır ki, bu da onun universallığını istisna edir;
- Keys-stadi tədqiqat strategiyasının yalnız bir hissəsini təmsil edən tədqiqat planlaşdırmasının metodu deyildir.

Müxtəlif tədqiqat strategiyalarının öyrənilməsi metodoloji trianqulyasiya fenomeninin mövcudluğunu - üçüncü yol adlanan keyfiyyət və kəmiyyət metodlarının birləşdirilməsinin mümkünlüyünü ortaya çıxardı ki, bu da ayrıca tədqiqat mövzusudur (7, s. 178-180).

Beləliklə, keys-stadinin kompleks tədqiqat metodu olaraq aşağıdakı xüsusiyyətlərini göstərə bilərik: çevik tədqiqat strukturuna malik olması fərziyyənin təsdiqi və ya rədd edilməsi və ya tədqiqatın nəticələrinə görə fərziyyənin formalaşdırılması, təsadüfi seçmədən istifadə və ya müəyyən keyfiyyətlər əsasında tədqiqat obyektinin şüurlu seçilməsi; müxtəlif məlumat toplama metodlarından istifadə etmək imkanı: əvvəllər çap olunmuş materiallar əsasında hadisələrin təhlili, müsahibə, müşahidə, statistik məlumatlar, anket sorğusu və s. istifadə; və nəhayət, tədqiqat nəticələrinin təhlili və təmsil olunmasının geniş imkanları: tədqiqatın nəticələri bütün tam küllü üçün reprezentativ və ya formalaşmış paradiqmanı dağıda bilən unikal bir formada ola bilər (12, 1-8).

**Nəticə**

Bütün müxtəlif nəzəri təriflər və praktiki tədqiqatlar kontekstində hazırda keys-stadi metodunu başa düşmək üçün ən azı iki fərqli yanaşma ayırd edilə bilər. Birinci yanaşma keys-stadini müstəqil tədqiqat növü, metodu və ya strategiyası, ikinci yanaşma isə

onu yalnız sosioloji tədqiqatın ayrı-ayrı mərhələlərində istifadə olunan metodların məcmusu kimi müəyyənləşdirir. Bu yanaşmalar arasındakı fərq prinsipial xarakter daşıyır. Bu tip qiymətləndirmə tədqiqatın məqsəd və vəzifələrindən asılıdır və buna uyğun da o, ya metod və ya metodologiya, ya da ki, strategiya kimi qiymətləndirilir.

Müstəqil tədqiqat strategiyası olaraq keys-stadi digər tədqiqat metodları ilə əldə edilə bilməyən müəyyən bir sosioloji məlumat əldə etməyi özündə cəmləşdirir. Yalnız son üç onillikdəki nəşrlərdə keys-stadinin 20-dən çox fərqli tərifi verilmişdir. Keys-stadidə əsas metodoloji məsələ məlumatların toplanılmasında və təhlilində keyfiyyət metodlarına əsaslanmaqdır. Keys-stadi metodunun spesifikliyi nadir obyektin dərin tədqiqindədir və tədqiqatın nəticələri fəaliyyət üçün təkliflərin hazırlanmasına yönəlmişdir. Bu metodun mahiyyəti həm də bir və ya bir neçə hadisəni ətraflı öyrəndikdən sonra cəmiyyətdə baş verən dərin proseslərin məzmununu verməkdən ibarətdir.

Keys-stadinin əsas metodoloji prinsipləri aşağıdakılardır: tədqiqat yanaşmasının çevikliyi, hadisənin bütöv sosial vahid kimi fərqləndirilməsi, öyrənilən reallığın dərin və hərtərəfli nəzərdən keçirilməsi, tədqiqatın etibarlılığını təmin etmək üçün onun kollektiv xarakteri.

Müasir şəraitdə keys-stadi özündə çöl tədqiqatının müxtəlif formalarını birləşdirən, əgər belə demək mümkündürsə, bir "çətir markasını" xatırladır ki, onun da əsas xüsusiyyəti dəyişənləri hadisənin özü kimi deyil, seçmə halları kimi təqdim etməsidir.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Власова М.Г. Кейс-стади исследования в международных отношениях: методологическая и исследовательская практика // Теория и практика общественного развития. 2012. № 11.
2. Классификация качественных методов тактики ...window.edu.ru › resource › file https://studopedia.org/14-86701.html
3. Козина И.М. Особенности применения стратегии "исследование случая" (case study) при изучении производственных отношений на промышленном предприятии. Социология: методология, методы, математические модели. 1995. № 5-6.
4. Козина И.М., Сережкина Е.В. Концепция кейс-стади в социальных науках и французская традиция монографических исследований трудовых организаций. Социологические исследования. 2015. № 1. С. 64-73.
5. Case-study как исследовательская стратегия // Case-study – образовательный и исследовательский опыт в междисциплинарном контексте. СПб.: Изд-во НИУ ВШЭ, 2013. С. 5–21.
6. Романов П.В. Стратегия кейс-стади в исследовании социальных служб // Социологические исследования. 2005. № 4. С. 101–110
7. Campbell D. T. Degrees of freedom and the case study // Comparative Political Studies. 1975. №8 (1).
8. Cooley C.H. Case Study of Small Institutions as a Method of Research // Publications of the American Sociological Society. 1928. № 22.
9. David A. Logique, epistemologie et methodologie en sciences de gestion // Conference de L'AIMS, mai 1999.
   VRL: http:// basepub.dauphine.fr/bitstream/handle/123456789/3186/david.pdf.
10. Hamel J. Etudes de cas et sciences sociales. Paris : L'Harmattan, 1997.
11. Meyer C.B. A case in case study methodology // Field Methods. 2001. № 13 (4). p. 329-352.
12. Mikhaylov A.S. Case study on the structural transformation of an international cluster: European perspective // Modern applied science. 2013. № 7 (12).
13. Portis L. Les classes socilales en France. Un dйbat inachvй (1789–1989). Paris: 1989.

14. Ragin C., Becker H. What Is a Case? Exploring the Foundations of Social Inquiry. New York: Cambridge University Press, 1992. Pp. 1-18.
15. Simons H. Case study research in practice. London, SAGE Publications Ltd, 2009.
16. Stake R. The art of case study research. Thousand Oaks, CA: Sage Publications, 1995.
17. Wynsbergher Van R., Khan S. Redefining case study // International Journal of Qualitative Methods. 2007. № 6 (2).
18. Yin R. Case study research: design and methods. 5nd ed. US: Sage, 2014.

**Рафаиль Гасанов**

**МЕТОД КЕЙС-СТАДИ В СОЦИОЛОГИИ:**
**ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИЙ АНАЛИЗ**

***Резюме***

В статье рассматривается когнитивный потенциал метода кейс-стади как неотъемлемой части социологии качества и показано, что качественное исследование позволяет изучать новые события или процессы, которые не получили широкого распространения, особенно в контексте драматических социальных изменений. Применение тематического исследования преследует две цели: с одной стороны, достичь понимания изучаемого объекта. С другой стороны, чтобы получить новые знания о более общих социальных процессах. В стратегии могут использоваться разные методы, но общая логика анализа, несомненно, склонна к качественной парадигме.

***Цель*** – Исследование когнитивного потенциала метода кейс-стади как неотъемлемой части социологии качества.

***Методология*** – Анализируются возможности метода кейс-стади в понимании изучаемого объекта и получении новых знаний об общих социальных процессах с помощью системного подхода.

***Результат*** – Специфика метода кейс-стади заключается в глубоком понимании уникального объекта и направлении результатов исследования на подготовку рекомендаций по действию.

***Ключевые слова:*** социология качества, микросоциология, тематическое исследование, исследовательская стратегия, социальные процессы

**Rafail Hasanov**

**CASE STUDY METHOD IN SOCIOLOGY:**
**THEORETICAL AND METHODOGICAL ANALYSIS**

***Summary***

The article examines the cognitive potential of the case study method as an integral part of the sociology of quality and shows that qualitative research allows you to study new events or processes that are not widespread, especially in the context of dramatic social changes. The application of a case study has two objectives: on the one hand, to achieve an understanding of the object being studied. On the other hand, to gain new knowledge about more general social processes. Different methods may be used in the strategy, but the general logic of the analysis is undoubtedly prone to a qualitative paradigm.

***Purpose*** – To study the cognitive potential of the case study method as an integral part of the

sociology of quality.

***Methodology*** – The possibilities of the case study method in understanding the object under study and obtaining new knowledge about general social processes using a systematic approach are analyzed.

***Findings*** **–** The specificity of the case study method lies in a deep understanding of a unique object and the direction of the research results for the preparation of recommendations for action.

***Keywords:*** Sociology of quality, microsociology, case study, research strategy, social processes

**Rəyçi: AƏSMA-nın dosenti, f.f.d. Faiq Ələkbərov**

**Qəbul olunub: 14.09.2020**

**UOT 316**

**Ağasəlim Həsənov**
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,***
***a.e.i., f. f. d., dosent***
aghasihasanli@gmail.com

# FƏRDİN CƏMİYYƏTƏ İNTEQRASİYASINA TƏSİR EDƏN AMİLLƏR

*Məqalədə fərdin cəmiyyətə inteqrasiyasına təsir edən amillər araşdırılır. Qeyd olunur ki, fərdin cəmiyyətə inteqrasiyasına təsir edən ailə, təhsil, sosial mühit və s. kimi amillər fərdlərin iradəsindən asılı olmayaraq hər zaman onlara müəyyən formada təsir edir. Dövrümüzdəki nəhəng informasiya axını insanların həyat şəraitini yaxşılaşdırmaqla yanaşı fərdin cəmiyyətə inteqrasiya olmasında müəyyən gərginlik də yaradır, şəxsiyyətin özgələşməsi, cəmiyyətdən təcrid olunması, ekstremizm kimi halların artmasına da səbəb olur.*

***Məqsəd –*** fərdin cəmiyyətə inteqrasiyasına təsir edən amilləri araşdırmaq.

***Metodologiya –*** müqayisəli təhlil və sistemli yanaşma.

***Tədqiqatın nəticələri –*** fərdin cəmiyyətə inteqrasiyasına təsir edən (ailə, din, təhsil, sosial mühit və s.) amillər təhlili olunmuş və müsbət və mənfi nəticələr müəyyən edilmişdir.

***Açar sözlər:*** inteqrasiya, fərdlər, cəmiyyət, sosiallaşma, ailə

## Giriş

Çağdaş dünyada inteqrasiya problemi öz aktuallığı ilə fərqlənir. İnteqrasiya elə bir problemdir ki, o fərdin cəmiyyətə inteqrasiyasından başlamış dövlətlərin inteqrasiyası kimi geniş bir məzmunu əhatə edir. Latın dilində "İnteqratio" "bərpa, tamamlanma" mənasını verən inteqrasiya anlayışının elmi ədəbiyyatda geniş – tətbiqindən daha əvvəl inteqrasiya ideyası yaranmışdır. İnsanların birlik, sabitlik şəraitində yaşamaq arzuları onların müxtəlif sosial qruplara və ya cəmiyyətlərə inteqrasiyasını şərtləndirimişdir. Qeyd edək ki, inteqrasiya probleminin ən önəmli tərəflərindən biri fərdin cəmiyyətə inteqrasiyası ilə bağlıdır.

Fərdin sosial mühitdə formalaşması fikri demək olar ki, əksər tədqiqatçılar tərəfindən qəbul edilir. Lakin belə düşünmək səhv olardı ki, fərdin hərəkətləri elə həmin mühitin nəticəsi kimi qiymətləndirilməlidir. Fərdin şəxsiyyət kimi formalaşmasında irsi və tərbiyə vasitəsilə mənimsədiyi keyfiyyətlərin də rolu böyükdür və onun davranışlarına təsir edir. Tərbiyə məqsədyönlü proses olub fərdin sosiallaşmasında böyük rol oynayır. Burada məqsəd uşaqlarda müəyyən şəxsiyyət keyfiyyətlərini aşılamaqdan və əxlaqi normalara uyğun davranış vərdişlərini formalaşdırmaqdan ibarətdir. Bu proses ilk olaraq ailədən başlayır və ailənin məqbul hesab etdiyi sosial-mədəni, əxlaqi dəyərlər əsasında reallaşır. Ailə fərdin sosiallaşmasında, onun şəxsiyyətə çevrilməsində vacib rol oynayan ilk sosial institutdur. Ailənin sosial-mədəni təcrübəsi məqsədyönlü şəkildə uşaqlara aşılanır və bu proses davamlı olaraq nəsildən-nəslə ötürülür. Lakin cəmiyyət inkişaf etdikcə sosial-mədəni dəyərlər sistemi də tədricən dəyişilir. Təbii ki, cəmiyyət həyatında izlənilən bu cür dəyişikliklər bütün sosial institutlara (Ailə, Təhsil, Din və s.) birbaşa təsir edir. Dəyişikliklərin oriyentasiyası ənənəvi dəyərlərin, sosial davranışların, adətlərin, tərbiyə üsullarının bir qisminin yenilənməsini əhatə edir. Deməli, fərdin ilk sosiallaşma mühiti

olan ailə və həm də digər sosial institutlar özləri də ictimai qurluşun doğurduğu təsirlərin altındadır və dövrün sosial-mədəni reallığını özündə təcəssüm etdirir.

Fərdin sosiallaşaraq cəmiyyətə inteqrasiya olmasında sosial institutlardan biri olan təhsil böyük önəm daşıyır. Təhsil mövcud biliklərin ötürülməsini təmin etməklə fərdin cəmiyyətə inteqrasiya olunmasına şərait yaradır. Təhsil şəxsiyyətin intelektual baxımdan formalaşmasında və onun kreativ imkanlarının gerçəkləşməsində əvəzsiz rol oynayır. **Fərdin cəmiyyətə uğurlu inteqrasiya olmasında, yüksək sosial status qazanmasında, təhsil əsas amillərdən biridir.** Təhsil prosesində fərd bilik və bacarıqları mənimsəməklə yanaşı, həm də müəyyən sosial qrupların üzvü olur. Fərdin qrup üzvü olması onun qrupdaxilində çoxtərəfli münasibətlərini formalaşdırır. Həmçinin, fərd qrupdaxili davranışlarda müəyyən qadağalara, sosial norma və qaydalara əməletmə vərdişlərinə yiyələnir. Bir sözlə fərd bu cür sosial qrup və birliklərin aktoru olmaqla tədricən cəmiyyətə inteqrasiya edir.

Fərd-cəmiyyət münasibətlərinin formalaşmasında böyük şəxsiyyətlərin rolunu da qeyd etmək lazımdır. Onların sosial mühitə təsiri digər fərdlərlə müqayisədə daha genişdir. Böyük şəxsiyyət sosial mühitdəki gözə çarpmayan istək, axtarış və təşəbbüsləri özünə ehtiva edərək, onları aydın ideya və ya obraz formasında ifadə edir və bununla da ətrafdakı insanları geniş şəkildə özünə cəlb edir. Həmçinin, böyük şəxsiyyətlərin özləri də həmin ictimai mühitdə formalaşır və cəmiyyət üçün faydalı olurlar. Azərbaycan alimi Ə.Tağıyevin də qeyd etdiyi kimi “İnsan o zaman şəxsiyyət olur ki, cəmiyyətə, qohumlara, qonşulara, öz ətrafına lazımlı olsun” [1, s. 24].

İndi isə fərdlə cəmiyyət arasında sferaların fərqləndirilməsi məsələsinə toxunaq. Bu məsələnin mahiyyəti odur ki, cəmiyyət fərdin azadlığını maksimal dərəcədə məhdudlaşdırmağa, onu özünə daha çox tabe etdirməyə çalışdığı vaxt fərd öz fərdiliyini qorumağa can atır və azadlığı uğrunda mübarizə aparır.

İctimai asılılığın artması ilə fərdin ictimai mühitə fərdi müqaviməti də artır. Bunun səbəbi yaradıcı amillərin müxtəlifliyinin güclənməsi ilə şərtlənən fərdiliyin artmasındadır ki, bunun vasitəsilə psixi tiplərin müxtəlifliyi yaranır. İnsanın şüurluluq dərəcəsi nə qədər yüksəkdirsə, onun psixi təbiəti də bir o qədər zəngin olur. Onun daxili həyəcanları digər fərdlər tərəfindən nə qədər az bölüşülürsə, fərd öz sərbəstliyini bir o qədər də möhkəm müdafiə edir. Burada dramatik və çıxılmaz bir ziddiyyət yaranır. Bir tərəfdən fərd özünün fərdi sərbəstlik sferasını genişləndirməyə və ictimai (məsələn, siyasi, hüquqi, mənəvi və s.) müdaxiləni aradan qaldırmağa çalışır. Digər tərəfdən fərd daha çox ictimailəşdirilir. Cəmiyyətin fərdi özünə cəlb etməyindən daha çox fərdin cəmiyyətə üz tutmasını göstərmək daha düzgün olardı. Fərdiyyət nə qədər çox inkişaf etmişsə, fərd ünsiyyətə, ictimai fəaliyyətə bir o qədər çox ehtiyac duyur. Onun inteqrasiya etdiyi ictimai dairələr daha da genişlənir. Zəif inkişaf etmiş fərdlər əsasən ailənin dar çərçivəsi ilə məhdudlaşır, daha inkişaf etmişlər isə özünün xalqla əlaqəsini dərk edirlər. Daha istedadlı fərdlər daha yüksək pilləyə qalxaraq özünün bütünlükdə bəşəriyyətlə həmrəyləyini dərk edirlər.

Qeyd olunan bu ziddiyyətli məqamlar fərdlə cəmiyyət arasında hansısa bir tarazlıq nöqtəsinin tapılmasını çətinləşdirir. Məntiqi olaraq belə bir suala cavab tapmağa çalışaq: cəmiyyətə məqsəd, fərdə isə vasitə, əksinə, fərdə heç vaxt vasitə kimi deyil, məqsəd kimi yanaşmaq olarmı? Onunla razılaşmaq lazımdır ki, real olaraq yalnız fərd mövcuddur və ümumi yaşayış fərdi mövcudluğun yalnız formasıdır. Bu baxımdan sözsüz ki, cəmiyyət yalnız o vaxt öz təyinatına cavab vermiş olar ki, o, fərdlərin tələb və məqsədlərinə cavab vermiş olsun. Lakin müxtəlif fərdlərin məqsədləri arasında cəmiyyətin nöqteyi-nəzərindən həll oluna bilməyən ziddiyyət yarana bilər. Onunla razılaşaq ki, cəmiyyət – öz məqsədlərini güdən fərdlərin məcmusudur. Burada bir fərdin başqa fərdlərin məqsədlərini

həyata keçirmək üçün vasitəyə çevrilməsi nəzərdə tutulur. Tarixə nəzər saldıqda görə bilərik ki, şəxsiyyət bəzi hallarda vasitə kimi də çıxış etmişdir. Məsələn, hakimiyyətə gəlmək üçün müxtəlif dövrlərdə liderlərin öz ətrafdakı insanlardan vasitə kimi istifadə etməsi qeyd olunanlara misal ola bilər.

Cəmiyyətin inkişaf tarixi sənayeyəqədərki, sənaye və postsənaye olmaqla üç əsas mərhələni əhatə edir. Müasir dövrdə texnogen sivilizasiya sosiumun inkişafının yeni tipini formalaşdırır. Texnogen sivilizasiya elmi-texniki tərəqqinin nəticələrinin intensiv tətbiqi sayəsində insanın yaşadığı təbii mühitin, eyni zamanda bütün sosial əlaqələrin, ünsiyyət vasitələrinin, şəxsiyyət tiplərinin sürətlə dəyişikliyə uğraması ilə səciyyələnir. Rusiyalı tədqiqatçı V.S.Stepinin haqlı olaraq qeyd etdiyi kimi, texnogen sivilizasiya dinamik, hərəkətli və çox aqressivdir. Onun fikrincə, bu sivilizasiya ənənəvi cəmiyyətləri demək olar ki, “udur”, özünə tabe etdirir. Buradan belə bir nəticə çıxarmaq olar: o, özünün kritik həddinə artıq çatmışdır [ 2 ].

Müasir dövrdə dəyərlər bazar münasibətləri əsasında formalaşır. Artıq şəxsiyyətin formalaşmasına təsir edən sosial-mədəni dəyərlər özləri də dəyişikliklərə məruz qalırlar. Deməli fərd konkret olaraq öz tarixi dövrünün sosial-mədəni dəyərlərini mənimsəyərək şəxsiyyətə çevrilir.

Təcrübə göstərir ki, fərdin cəmiyyətə inteqrasiyası prosesində sosial mühitin rolu böyükdür. Bu bir həqiqətdir ki, fərdlər sosial mühitin təsirinə məruz qalır və yaşadığı mühitə uyğun formalaşır. Fərdin cəmiyyətə inteqrasiyası prosesi faktiki olaraq ictimai inkişafın əsas problemlərindən biri olan sosiallaşma ilə sıx bağlıdır. Sosiallaşma şəxsiyyətin özünü reallaşdırmasının əsasında dayanan, onu formalaşdıran, istiqamətləndirən, stimullaşdıran və s. kimi funksiyalar yerinə yetirir. Fəlsəfi, sosioloji ədəbiyyatlarda sosiallaşmanın məzmununa dair çoxsaylı yanaşmalara rast gəlinir. Həmin yanaşmaların əksəriyyətində sosiallaşma şəxsiyyətin formalaşması və inkişafı prosesi kimi dəyərləndirilir. Yəni fərdin cəmiyyətdəki mövcud sosial normaları, mədəni dəyərləri və davranış nümunələrini mənimsəməsi onun müxtəlif tipli sosial birliklərlə inteqrasiyasını şərtləndirir. Həmçinin, sosiallaşma fərdin yaşadığı cəmiyyətin normalarınının, dəyərlərinin, mədəniyyətinin interiozasiyası prosesidir. Sosiallaşma fərd ilə ətraf mühit arasında qarşılıqlı surətdə baş verir və bu prosesə dövlət, cəmiyyət, yaşlı insanlar və müxtəlif peşə qrupları təsir göstərir.

Sosiallaşma fərdin xarici mühitə uyğunlaşmasını kimi başa düşülür. Sosiallaşma tarixi təcrübənin mənimsənilməsi və mövcud sosial mühitə uyğunlaşmanı ifadə edir. Belə ki, insan əvvəlki nəsillərin təcrübəsinin qəbul edilməsində passiv rol oynayır. Şəxsiyyətin sosiallaşmasında sosial mühitin həlledici rolu şübhəsizdir.

İdeyalar kimi fərdin hissləri də ətraf mühitin təsiri altında formalaşır. Bu hisslər fərdin psixi durumuna ictimai təsir formasını nəzərdə tutur. Dünyaya gəldiyi ilk gündən fərd ailənin hərtərəfli təsirini hiss etməyə başlayır. Daha sonra fərd digər ictimai təsirlərə məruz qalır. Nəhayət, fərd geniş ictimai mühitə daxil olur və burada onun hisslərinin formalaşması əhəmiyyətli düzəlişlərə məruz qalır.

Mədəni baxımdan cəmiyyətin inkişaf səviyyəsi aşağı olduqda, onun üzvləri olan fərdlər yeknəsəkliyi ilə fərqlənəcəkdir. Bu fərqlər həm sosial-mədəni, həm də psixolji baxımdan hiss olunacaqdır. Əksinə, cəmiyyət yüksək mədəni inkişaf səviyyəsindədirsə onun üzvləri arasında istər sosial-mədəni, istərsə də psixoloji fərqlər bir o qədər böyük olacaqdır. Emil Dürkheym bunu belə izah edir: "Fransızlarla ingilislər arasında məsafə indi əvvəllərdə olduğundan daha azdır. Amma bu indiki fransızlara öz aralarında əvvəlkilərdən daha çox fərqlənməyə mane olmur" [3, s. 105]. Georq Zimmel isə bununla əlaqədar yazır: "Daha az mədəni dövrlərdə eyni qəbiləyə mənsub fərdlər çox yeknəsəq və bir-birinə

mümkün qədər oxşar olmuşlar; əksinə, qəbilələr yad və düşmən kimi bütünlükdə bir-birinə qarşı durur: öz qəbiləsi daxilində sintez nə qədər sıxdırsa, digər qəbilə ilə antiteza bir o qədər kəskindir; mədəniyyətin tərəqqisi ilə fərdlər arasında differensiasiya artır və başqa tayfaya yaxınlaşma sürətlənir" [4, s. 66].

Fərd ictimai mühitin təsirini öz üzərində hiss etdikcə, özü də mühitə təsir göstərir ki, bu da məsələnin digər tərəfidir. Lakin qeyd edək ki, bir sıra alimlər bu təsiri inkar edirlər. Məsələn, L.Qumploviç fərdin cəmiyyətə təsirini qəbul etmir [5, s. 264]. Zənnimizcə, fərdin ilk öncə öz sosial qrupunun, ailəsinin, icmasının, sinfinin və xalqının təsiri altında olması fikri ilə razılaşmamaq mümkün deyil. Lakin, fərdin cəmiyyətə təsirini birmənalı şəkildə inkar etməyi doğru yanaşma hesab etmirik. Cəmiyyətlə fərd arsında təsirlər qarşılıqlıdır və bu qarşılıqlı təsirdə olan fərd tədricən sosial keyfiyyətlər qazanaraq sosiallaşır.

Fərdlərin bir-birinə bağlılığı, həmrəyliyi, loyallığı onların cəmiyyətə inteqrasiya olmasını şərtləndirir. Fərdin cəmiyyətə inteqrasiya olması isə faktiki olaraq onun sosiallaşma səviyyəsindən asılıdır.

Beləliklə, fərd-cəmiyyət münasibətlərində cəmiyyət və onun müxtəlif institutlarının fərd üzərində təsirinin böyük olması qənaətinə gələ bilərik. Həqiqətən də fərdlər sosial mühitin təsirinə məruz qalır və yaşadığı mühitə uyğun formalaşır. Belə ki, cəmiyyətdəki dini dəyərlərin, davranış kodeksinin, etik qaydalar və normaların,qanun toplusunun və s. fərdlərin iradəsindən asılı olmayaraq hər zaman onlara müəyyən formada təsiri vardır. Cəmiyyətdə oturuşmuş olan əxlaqi gözləntilər, qiymətləndirmələr və davranış nümunələri fərdlərarası əlaqələrə təsir edir. Fərd cəmiyyətdəki mövcud sosial normaları, mədəni dəyərləri və davranış nümunələrini mənimsəyərək cəmiyyətə inteqrasiya edir. Lakin ,qarşılıqlı olaraq fərdin də cəmiyyətə təsir imkanları vardır. Əgər cəmiyyətdəki mövcud həyat tərzi və dəyərlər sistemi fərdin düşüncəsinə görə mənasızdırsa, o zaman fərd özünün doğru hesab etdiyi davranışlara meyl edir, və bununlada sosial mühitə təsir etmiş olur.

**Nəticə**

1. Fərdin cəmiyyətə inteqrasiyasına təsir edən aliə, təhsil, sosial mühit və s. kimi amillər fərdlərin iradəsindən asılı olmayaraq hər zaman onlara müəyyən formada təsir edir.
2. Fərdin cəmiyyətə inteqrasiyası prosesində sosial mühitin rolu böyükdür. Bu bir həqiqətdir ki, fərdlər sosial mühitin təsirinə məruz qalır və yaşadığı mühitə uyğun formalaşır.
3. Fərdin cəmiyyətə inteqrasiyası prosesi faktiki olaraq ictimai inkişafın əsas problemlərindən biri olan sosiallaşma ilə sıx bağlıdır. Sosiallaşma şəxsiyyətin özünü reallaşdırmasının əsasında dayanan, onu formalaşdıran, istiqamətləndirən, stimullaşdıran və s. kimi funksiyalar yerinə yetirir.
4. Fərdin cəmiyyətdəki mövcud sosial normaları, mədəni dəyərləri və davranış nümunələrini mənimsəməsi onun müxtəlif tipli sosial birliklərlə inteqrasiyasını şərtləndirir.
5. Çağdaş dövrdə İKT-nin sürətli inkişafı insanlar üçün yeni imkanlar yaratmaqla yanaşı fərdin cəmiyyətə inteqrasiya olmasında müəyyən gərginlik də yaradır, şəxsiyyətin özgələşməsi, cəmiyyətdən təcrid olunması, ekstremizmə yuvarlanması kimi halların artmasına da səbəb olur.

**İstifadə edilmiş ədəbiyyat:**
1. Tağıyev Ə. İnsan və Millət fəlsəfəsi (İdeyalar və Reallıqlar) Bakı, "Avropa", 2018, səh. 24.
2. Степин В.С. Теоретическое знание. М., 2000.
3. Дюркгейм Э. О разделении общественного труда. (русск. пер.) Спб, 1900, с.105.
4. Зиммель Г. Социальная дифференциация (русск. пер.) Спб, 1909, с. 66.
5. Гумплович Л. Основы социологии. М.: Либроком, 2010, с. 264.

**Агасалим Гасанов**

**ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ИНТЕГРАЦИЮ ЛИЧНОСТИ В ОБЩЕСТВО**

***Резюме***

В статье исследуются факторы, влияющие на интеграцию личности в общество. Отмечается, что на интеграцию человека в общество вне зависимости от мышления, воли индивидуумов всегда в определенной форме влияют семьи, образования, социальная среда и т.п. В современный период, существующий огромный поток информации помимо улучшения жизни людей, создает также определенную напряженность в отношениях между индивидуумом и обществом, приводит к росту таких случаев как отчуждение личности, социальная изоляция и увлечение экстремизмом.

***Цель*** **–** исследовать факторы, влияющие на интеграцию человека в общество.

***Методология*** **–** сравнительный анализ и системный подход.

***Результат*** **–** факторы, влияющие на интеграцию человека в общество (семья, образование, социальная среда и т.д.) были проанализированы и выявлены положительные и отрицательные результаты.

***Ключевые слова:*** интеграция, индивидумы, общество, социализация, семья

**Aghasalim Hasanov**

**THE FACTORS INFLUENCING THE INTEGRATION OF INDIVIDUALS IN SOCIETY**

***Summary***

The article investigates the factors that influence the integration of individuals in society. It is noted that family, education, social environment etc. regardless of the will of individuals always have influences in some way the integration of individuals into society. In the modern period, the existing huge flow of information, in addition to improving people's lives, also creates a certain tension in relations between the individual and society, and it leads to the increase of cases such as alienation of the individual, social isolation and extremism.

***Purpose*** **-** To investigate the factors influencing the individual's integration into society.

***Methodology*** **–** comparative analysis and systematic approach.

***Findings*** **–** The factors influencing an individual's integration into society (family, education, social environment etc.) were analyzed and identified positive and negative results.

***Keywords:*** integration, individuals, society, socialization, family

**Rəyçi: AƏSMA-nın professoru, s.e.d. Rəfail Həsənov**

**Qəbul edilib: 12.04.2020**

**УДК 101.1**

**Назиля Мамедова**
***Азербайджанский Государственный***
***Экономический Университет***
***д.ф. по философии***
nazile.memmedova@rambler.ru

# ФЕНОМЕН НАЦИОНАЛЬНОГО МЕНТАЛИТЕТА И ТОЛЕРАНТНОСТИ В АЗЕРБАЙДЖАНЕ

*Происходящие кардинальные изменения в современном мире обуславливают смены традиционных духовно-нравственных устоев общества, мировосприятия, особенности стереотипов мышления индивидов, социальных групп и национальных общностей. В этой связи раскрыты соотношения сравнительно новой для отечественной философии категории национального менталитета и обновленное содержание толерантности с традиционными категориями социальной философии в условиях демократизации общества.*

***Цель*** – изучение феноменов национального менталитета и толерантности в контексте формировавшегося современного Азербайджанского общества

***Методология*** – исторический, системный и сравнительный подход

***Результаты исследования*** – мотивированы и доказаны используемые в современных научных концепциях научные гипотезы и постулаты, характеризующие феноменов национальный менталитет и толерантность.

***Ключевые слова****:* менталитет, ментальность, национальный менталитет, толерантность, демократизация, глобализация

**Введение**

Общественно-историческая практика, народов и стран своеобразна и развитие демократических процессов в них происходит различными темпами, обретая конкретное содержание. Предпосылками данного процесса являются состояние общества, уровень исторического, социального, экономического, культурного и интеллектуального развития народа, состояние идейных и ценностных ориентаций людей, а также, уклад и образ их жизни. Достижению подлинно демократического развития в конкретном обществе, способствуют цели, роли и функции демократии в конкретной стране. Одновременно следует учитывать то, что современное мировое сообщество представляет собой самоорганизующуюся суперсистему, многочисленные и разнообразные элементы которой (государства, региональные и международные объединения, транснациональные корпорации, неправительственные организации и т.д.) связаны сложнейшими отношениями взаимосвязи и взаимозависимости и в то же время конкуренции и конфликта, находясь в перманентном движении.

Очевидно, так же то, что в настоящее время наиболее влиятельными и продуктивными процессами современного мира являются демократизация и глобализация. Демократизация в обществе имеет много линий, уровней и направлений развития.

В процессе демократизации общества немаловажную роль играют такие факторы, как мировоззрение, национальное самосознание, социальные, политические, идейные и ценностные ориентации этносов и этнических групп.

**Этап демократизации общественных и государственных сфер**

Мудрость, терпение и мужество, тонкое чувство красоты, уважение к самому понятию культура, независимо от того, откуда оно исходит, все эти качества, которые азербайджанский народ не растерял, проходя через века и испытания. Азербайджан и азербайджанцы сыграли важную роль в формировании культуры, искусства и науки, общественной мысли Востока. Наши соотечественники на разных этапах истории смогли обогатить мировое наследие ярчайшими примерами искусства, которые по сей день не перестают восхищать человечество. **(5, с.11)**

В условиях современного устойчивого развития Азербайджанского общества, начался новый, более предметный этап демократизации общественной и государственной сфер деятельности, гуманизации духовной и нравственной жизни людей.

Правовая основа демократизации современного Азербайджанского общества заложена в Конституции Азербайджанской Республики, принятой в ноябре 1995 года, в которой четко и однозначно провозглашено равенство всех граждан республики, независимо от национальной и расовой принадлежности и вероисповеданий.

Процесс переосмысление социальных реалий в начале XXI века, а также происходящий сегодня в Азербайджане и мире в целом эпохальный перелом мировоззрения и менталитета, обусловило формирование в философии новой гуманистической научной парадигмы лидерства. Социально–философское исследование особенностей национального менталитета лидера современного общества тесно связано с его личностью.

Индивидуальные способности личности: преодолеть инстинкт самосохранения, умение управлять и повелевать массами, мужественность и решительность, организованность, твердость характера, психологическая устойчивость и уверенность перед лицом неопределенности, атрибут «воля к истине» заявляет о себе через модусы: способность стратегически мыслить, проявлять инициативу, критиковать и анализировать обстановку, генерировать идеи достойного ответа историческим вызовам.

В начале XXI в. демократизация в Азербайджане столкнулась с разными проблемами.

Гейдар Алиев на Учредительном собрании Всероссийского Конгресса азербайджанцев в Москве 22 июня 2000 года, «для истинного азербайджанца, любящего свою землю, своих родителей сегодня есть один Азербайджан. Есть одна азербайджанская земля и азербайджанское государство» **(3, с.135)**

Несомненно, заслугой Президента Азербайджанской Республики И.Г.Алиева является то, что он сумел мобилизовать Азербайджанскую элиту и значительную часть населения на дальнейшую демократизацию политической системы страны. Однако не меньшей его заслугой является тот выбор в пользу демократии, который он сделал после избрания на пост президента страны. Основной угрозой демократизацию Азербайджана было увеличение роли радикальных политических исламистских организаций в политике страны. Для И.Г.Алиева понятия «демократический» и «светский» оставались синонимами на протяжении всех его президентских сроков. И.Г.Алиев приложил также значительные усилия к тому, чтобы убедить зарубежных партнеров Азербайджана, в первую очередь в США и в Европейском Союзе, в неизменности выбранного курса на демократизацию страны. Благодаря его личной дипломатии продолжало расти влияние Азербайджана на международной арене, в том числе среди демократических государств, которые составляют большинство стран мира. (**4)**

В мае 2012 г. Азербайджан председательствовал в Совете Безопасности ООН. В своем выступлении в Совете Безопасности ООН по этому случаю 4 мая 2012 г.

Президент И.Г.Алиев ни разу не упомянул демократизацию, сосредоточившись исключительно на проблеме международного терроризма.

Современный Азербайджан под руководством президента И.Г.Алиева развивает едва ли не главное наследие своего исторического прошлого, основным стержнем которого является то, что плюрализм религий и культур был веками заложен в ментальность народа, в его бытовые традиции и в каждодневную поведенческую культуру. Обогащаясь знаниями и научно-техническими достижениями мировой цивилизации, азербайджанцы вплетали линии прогресса в свой исламский колорит, в свой национальный уклад жизни, присущий им, как восточному народу. Выбор нации всегда был в пользу синтеза культур, благо Азербайджан исторически находился на перекрестке различных мировых культур. Синтез двух цивилизаций заложен у азербайджанцев в крови.

Содержание ментальности попадает в «высшие этажи» духовной жизни в преображенном виде, оно как бы растворяется в национальном характере, в массовом сознании, общественном мнении, в образованиях институционального уровня духовного производства в формах архетипов, символов, ритмов, симпатий или антипатий и т.д.» **(6, с.172-173).**

**Национальный менталитет и толерантность**

Содержание термина «национальный менталитет» выступает основанием для восприятия и понимания сути другой национальной культуры. «Менталитет» применительно к индивиду означает не только интеллект, способность мышления, но и особый склад ума, умонастроение (например, математический, технический, образный характер мышления). Современная интерпретация «менталитета» к указанным характеристикам добавляются особенности мышления, характерные для индивида или социальных групп различного типа, выделяемых по возрастным, этническим, религиозным, идеологическим, профессиональным и другим признакам. Указанное обстоятельство подтверждает, что в содержании термина явно присутствует момент зависимости особенностей мышления от социальных условий его формирования и функционирования, связанный с характером духовной деятельности в определенном социальном и культурном контексте, так как структура деятельности коррелирует со структурой мышления.

Выявляя национальные особенности менталитета народа, необходимо исследовать особенностей жизни народа в определенном историческом контексте, обусловленном его деятельностью в прошлом, настоящем и будущем, а также факторов языковых характеристик, влияющих на структуру сознания и сам характер понимания бытия. Наиболее характерным признаком своеобразия национального менталитета является ценностный мир народа, как часть его духовного бытия, который «задает» специфический контекст восприятию и пониманию другой национальной культуры.

Азбукой демократии считается толерантность (терпимость).

Толерантность (от лат. tolerantia – терпение) – терпимость к чужим мнениям, убеждениям, верованиям (**1, с.359).**

Терпимость, говорит академический словарь, это «способность мириться с кем-либо, чем-либо, относиться снисходительно к кому-либо, чему-либо». (**2, с.241)**

Толерантность выступает как непременное условие развития и выживания современной цивилизации, а также как уважение к представителям различных религий, этносов и культур. Сегодня, когда мир испытывает рост агрессии и распространение насилия при решении социально-политических, религиозных, этнических проблем,

вполне закономерным является стремление к распространению современной философии толерантности, которая обосновывала бы иную систему жизненных ценностей и приоритетов.

На Международном симпозиуме на тему «Исламская цивилизация на Кавказе» президент Азербайджана Гейдар Алиев отметил: «В мире очень много религий. Каждая религия имеет свою специфику. Мы, азербайджанцы, гордясь исламской религией, вместе с тем никогда не относились отрицательно к другим религиям, не враждовали, не строили козни, и ни один народ не заставляли исповедовать нашу религию. В целом терпимость к другим религиям, жизнь рядом с другими религиями в условиях взаимопонимания — особенность исламских ценностей. На протяжении истории это нашло свое отражение и в Азербайджане, и на Кавказе. В Азербайджане наряду с исламской религией на протяжении веков существовали и христианская религия, и иудейская, и они существуют сейчас. И такая же картина наблюдается на Кавказе. Считаем, что люди, независимо от их принадлежности к какой-либо религии, должны уважать все другие культуры, религии, нравственные ценности, должны быть терпимы к их обычаям, традициям, даже к тем, которые им не по душе».

*Гейдар Алиев также не упускал из виду и всегда высоко ценил заслуги других религий и народов в формировании атмосферы толерантности в Азербайджане.*

Азербайджанское правительство проводит множество мероприятий по развитию толерантности, мультикультурализма, межконфессионального и межкультурного диалога с участием разных сторон. Азербайджан стал страной-хозяином множества международных и региональных конференций, форумов и симпозиумов, посвященных этим вопросам. Современное Азербайджанское общество с гордостью может констатировать, что сегодня на международной арене очень часто употребляются два выражения, связанные с городом Баку: Бакинский процесс по межкультурному диалогу и Бакинский процесс по поощрению толерантности.

Современное Азербайджанское общество воспринимает для себя толерантность правовым императивом и принципом, который имеет собственные генетические истоки, корни. Право – это всегда мера свободного действия в обществе или коллективе, а свободу в социуме, не допускающем терпимости, трудно себе даже представить. В конституционном праве терпимость тесно связана с политической свободой, идеологическим плюрализмом, культурным многообразием в целом.

Проявляя глубокую приверженность к идеалам толерантности, с целью распространения и пропаганды своего опыта в сфере толерантности и мультикультурализма, а также для поощрения этих ценностей на международной арене, Азербайджан тесно сотрудничает с авторитетными организациями, в том числе с ООН, ОБСЕ, ЮНЕСКО, ИСЕСКО и другими структурами.

Проблемы межкультурного взаимодействия и толерантности на сегодняшний день являются неисчерпаемым полем для исследований, актуальность и практическая значимость которых стремительно возросли в связи с глобализацией процессов в экономической, политической, социальной сферах, а также стремлением человечества к созданию общепланетарной цивилизации и нарастанием региональных и локальных конфликтов на этноконфессиональной почве.

В современном мире в ситуации учащающихся межнациональных, межконфессиональных, религиозных конфликтов, напряжения и агрессии, ученые все больше обращаются к исследованию феномена толерантности. В XXI в. она является предметом исследования философии, социологии, педагогики, психологии, права. Особое внимание при этом обращено на генезис понятия, виды и формы существования

толерантности.

Как таковая толерантность выступает как условие сохранения разнообразия, своего рода исторического права на отличность, непохожесть, инаковость» **(7, с.6).**

Толерантность в современных обществах – это уважение, принятие и правильное понимание богатого многообразия культур нашего мира, взаимоуважение.

Таким образом, изначальное значение толерантности со временем утрачивается.

Ранее ученые уделяли внимание в основном исследованию ненасильственных форм разрешения конфликтов, изучению их обоснования, применяли принципы толерантности, сложившиеся в западной культуре еще в XIX в.: во-первых, толерантность рассматривалась как принцип диалога; во-вторых, толерантность интерпретировалась как право отдельного человека не изменять своим ценностям, толерантность видится условием развития в обществе. Начиная с XX в., такое понимание толерантности подвергается критике, особенно это проявилось после Второй мировой войны, когда в мире стали ощутимы миграционные процессы, приведшие к столкновению культурных стереотипов. Как известно, «Стереотипы жестко встроены в нашу систему ценностей, являются ее составной частью и обеспечивают своеобразную защиту наших позиций в обществе» **(8, с.338)**

Сущность понятия изменяется от понимания толерантности как веротерпимости и умеренной свободы совести религиозного меньшинства, от средства защиты – к пониманию толерантности как цели в сложном мультикультурном мире.

Значимость феномена толерантности подтверждено документально на различных уровнях от регионального до международного (1995 г. ООН объявила «годом толерантности», 16 ноября того же года принята Декларация принципов толерантности и т.д.). ЮНЕСКО объявило с 1999 г. десятилетие Культуры мира как культуры толерантности и ненасилия. Выработана широкая программа развития толерантного сознания на международном и государственном уровне.

Толерантность сегодня существует в различных формах: мировоззренческой, религиозной, политико-правовой, культурной, морально-этической, теологической, психо-эмоциональной и т.п. Наиболее известны четыре вида толерантности: – толерантность как безразличие; – толерантность как невозможность взаимопонимания; – толерантность как снисхождение; – толерантность как расширение собственного опыта и критический диалог. В зависимости от исторического периода различают следующие типы толерантности: мифологический, античный, религиозный, реформаторский, философский, секулярный, научно-общественный **(12, с. 284)**

**Заключение**

В современном мире толерантность уже не является универсальной категорией. Ее содержание и границы, а также число адептов различаются: – в историческом аспекте; – в зависимости от культурной традиции; – в зависимости от состояния общества. Современное понимание толерантности чаще всего связывают с уважением к чужим обычаям, традициям, чужой культуре и т.д. Феномен толерантности требует междисциплинарного подхода изучения. Основными направлениями ее исследования являются: 1. Толерантность: философия и политика. 2. Толерантность и религия. 3. Межэтнические отношения, мультикультурализм. 4. Толерантность и коммуникация. Толерантность можно рассматривать как один из способов предотвращения и разрешения конфликтных ситуаций и предпосылку эффективной коммуникации как категорию, пересекающуюся понятиями: конфликт, диалог и др. Толерантность и конфликт.

Исследователи феномена толерантности много внимания уделяют проблеме

природы различий в современном мире, определяя связь образа «Врага», «Чужого» и «Другого» и с такими формами коммуникативного взаимодействия, как конфронтация, терпение и толерантность **(11, с. 320).** В процессе взаимодействия возникают конфликты, которые нельзя разрешить с помощью толерантности, и бывают конфликты, не нуждающиеся в ней. Толерантность не следует считать лекарством от всех социальных бедствий. Это – промежуточный этап в движении от конфликта к действительному взаимопониманию и взаимодействию.

Резко обострившиеся в XXI в. международная ситуация, невиданные в истории по размаху и частоте, количеству пострадавших террористические акты, преступность, этнические и социальные конфликты выявили необходимость корректирования подхода к исследованию и разработке проблемы толерантности. Появились инновации в определении задач в области толерантности. «Прежде всего, любое исследование толерантности должно быть ориентировано на достижение практического смысла, то есть реальных изменений в жизни человека, страны, международного опыта» **(10, с.5)**

Толерантность в наше время, в отличие от прошлых веков, осмысливается качественно иначе: как открытость, понимание многообразия, уважение к различиям, диалог культур. Существуют такие проблемы, когда нереалистично пытаться не только решить, но и осмыслить их, не считаясь с интересами других, при соблюдении равной безопасности.

Диалог – это еще одна основная категория, которая не только пересекается с понятием толерантность, но и является необходимым условием для ее зарождения и развития. Между диалогом и толерантностью существует глубокая связь и взаимодействие. Это проявляется в единстве их сущностных характеристик. **(9, с. 15)**

В свою очередь, диалог как неотъемлемая часть социальной и индивидуальной жизни человека, приобретает особое значение в связи с рассмотрением проблемы толерантности. Диалог рассматривается как естественная форма межличностных отношений, неотъемлемый фактор человеческого общежития, проявляющийся в соблюдении определенных принципов. Цель диалога – понимание другого и самого себя без предубеждений.

Таким образом, в современных условиях толерантность охватывает в себя уважение к чужой позиции в сочетании с само изменением в результате диалога.

**Список использованной литературы:**


1. Словарь русского языка в четырех томах. Том IV. – М.: Русский язык, 1988
2. Бачинин В.А. Этика: Энциклопедический словарь. М.:2005
3. Алиев Гейдар «Азербайджан – родина всех азербайджанцев», Речь Президента Азербайджанской Республики Гейдара Алиева на Учредительном собрании Всероссийского Конгресса азербайджанцев, Баку, 2000
4. Lanko Dmitry Aleksandrovich Saint-Petersburg State University Associate Professor of the Chair European Studies of the School of International Relations PhD in Political Science dimppa@hotmail.com
5. Н.Дж. Мамедханова, Б.Б. Кулиева, С.А. Мирбагир-заде, А.И. Мамедова Современный Азербайджан в контексте Востока и Запада и мультикультурализм. Баку-Фонд развития науки.2018
6. Додонов Р.А. Этническая ментальность: опыт социально-философского исследования. – Запорожье: РА «Тандем-У», 1998
7. Асмолов А.Г. Толерантность: от утопии к реальности / На пути к толерантному сознанию. М., 2000

8. Теория культуры / под ред. С.Н. Иконниковой, П.В. Большакова. СПб., 2008
9. Юровских Н.Г. Толерантность как личностный и культурный феномен: автореф. дис. … канд. филос. наук. Омск, 2004
10. Перцев А.В. Жизненная стратегия толерантности: проблема становления в России и на Западе. Екатеринбург, 2003
11. Гречко П.К. От терпимости к культуре толерантности. М., 2006
12. Лекторский В.А. О толерантности, плюрализме и критицизме // Философия, наука, цивилизация. М., 1999

**Nazilə Məmmədova**

## AZƏRBAYCANDA MİLLİ MENTALİTET VƏ TOLERANTLIQ FENOMENİ

***Xülasə***

Müasir dünyada baş verən köklü dəyişiklilər cəmiyyətin mənəvi-əxlaqi əsaslarının, fərdlərə, sosial qruplara və milli toplumlara mənsub dünyagörüşünün, düşüncə ştamlarının dəyişdirilməsini şərtləndirir. Bununla əlaqədar, cəmiyyətin demokratikləşməsi şəraitində, milli fəlsəfə üçün nisbətən yeni olan milli mentalitet və məzmunca yenilənmiş tolerantlığın sosial fəlsəfənin ənənəvi kateqoriyaları ilə münasibəti açıqlanmalıdır.

***Məqsəd*** – milli mentalitet və tolerantlıq fenomenlərinin formalaşmış müasir Azərbaycan cəmiyyəti kontekstində öyrənmək

***Metodologiya*** – tarixi, sistemli və müayisəli yanaşma

***Tədiqatın nəticələri*** – müasir elmi konsepsiyalarda istifadə edilən, milli mentaliteti və tolerantlığı səciyyələndirən hipotez və postulatlar motivləndirilmiş və sübut edilmişdir

***Açar sözlər:*** mentalitet, mentallıq, milli mentalitet, tolerantlıq, demokratikləşmə, qlobal-laşma

**Nazila Mammadova**

## THE PHENOMENON OF THE NATIONAL MENTALITY AND TOLERANCE İN AZERBAİJAN

***Summary***

The cardinal changes taking place in the modern world cause changes in the traditional spiritual and moral foundations of society, world perception, peculiarities of thinking stereotypes of individuals, social groups and national communities. In this regard, the ratio of the category of national mentality, which is relatively new for Russian philosophy, and the updated content of tolerance with the traditional categories of social philosophy in the context of democratization of society are revealed.

***Purpose*** – to study the phenomena of national mentality and tolerance in the context of the emerging modern Azerbaijani society

***Methodology*** – historical, systemic and comparative approach

***Findings*** – scientific hypotheses and postulates used in modern scientific concepts that characterize the phenomena of national mentality and tolerance are motivated and proven.

***Keywords:*** mentality, mentality, national mentality, tolerance, democratization, globalization

**Rəyçi: AƏSMA-nın kafedra müdiri, f.f.d., dos. Zeynəddin Şabanov**

**Qəbul edilib: 12.09.2020**

**UOT 101.1**

**Söhrab Məhərrəmov**
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutu***
***a.e.i., f.f.d.***
sohrab.maherremov@gmail.com

# İNFORMASİYALAŞDIRMA CƏMİYYƏTİN İNKİŞAFININ ƏSAS AMİLİ KİMİ

***Məqsəd*** – məqalədə informasiyalaşdırmanın cəmiyyət həyatının bütün sahələrinə təsiri, yeni informasiya texnologiyalarının yaranmasının informasiya resurslarının tətbiq edilməsi imkanlarının əhəmiyyətli dərəcədə artması araşdırılır, müasir dövrdə informasiya texnologiyaları termininin necə başa düşülməsi izah edilir.

***Metodologiya*** – məqalənin hazırlanmasında müqayisəli təhlil metodundan istifadə olunub.

***Tədqiqatın nəticələri*** – cəmiyyətin informasiyalaşdırılması təkcə həyatın bütün sahələrini elmi – texniki və intellektuallaşdırma tempinin sürətlənməsinə deyil, həm də cəmiyyətdə insanın yaradıcılıq potensialının inkişafına töhfə verən yeni bir informasiya mütinin yaradılmasına gətirib çıxarır.

***Açar sözlər:*** qloballaşma, İKT, informasiya, informasiyalaşdırma, bilik cəmiyyəti, komputerləşmə

İnformasiya sözü – bizim günlərdə bütün dillərdə ən çox işlənən sözdür. Bunun səbəbi hazırda sivilizasiyanın öz inkişafında maddi rifahda həyatın mənəvi tərəfinə daha çox diqqət etməyə imkan verən səviyyəyə çatmasıdır.

XX əsrin 20-ci illərində bu söz jurnalistlər tərəfindən xəbər janrlarından birini bildirən termin kimi işlədilirdi. Keçən əsrin 50-ci illərinin əvvəllərində kibernetikanın əsas, baza anlayışlarından biri kimi, kommunist ideologiyasının qəzəbinə gəlmişdi. N. Vinerin canlı orqanizmlərin və maşınların, həmçinin insan cəmiyyətinin idarə edilməsində bir elm kimi yaratdığı kibernetika SSRİ-də yalançı elm elan edilmişdi. İnformasiya sahəsində sürətli inkişaf ilə kommunist ideologiyası belə hesablaşmağa məcbur oldu. 60-cı illərdə informasiya termini ən geniş yayılmış terminlərdən birinə çevrildi (1).

Sonralar informasiya termini müasir elm və texnikanın ən müxtəlif sahələrinə, gündəlik həyata möhkəm daxil oldu. Gündəlik həyatda informasiya məlumat, işlərin gedişi haqda xəbər, nə isə haqda bilgi anlamına gəlir.

İnformasiyanı materiya, enerji kimi kateqorial anlayışlarla bir sırada görmək istəyən filosoflar üçün informasiya canlı, hətta cansız təbiətin istənilən obyektləri və proseslərində çeşidliliyin əks olunması, ötürülməsidir.

İnformasiya fenomeninin başa düşülməsində üç yanaşma imkanının olduğu fikri mövcuddur. Atributistlər hesab edirlər ki, informasiya obyektiv reallığın bütün sistemlərinin ayrılmaz atributudur. Funksionalistlər cansız təbiətdə informasiyanın olduğunu inkar edirlər. Onlar hesab edirlər ki, informasiyanın varlığı canlı ilə cansızın əsas fərqidir. Antroposentristlər informasiyanı xarici dünyadan alınan siqnalın məzmunu (mənası) kimi müəyyən edirlər. Buna görə, siqnalın mənasından, informasiyadan insan və cəmiyyətə münasibətdə danışmaq olar.

Bu yanaşmalarla razılaşmamaq mənasızdır, çünki, hər bir elm özünün münasib

bildiyi hadisə və prosesi informasiya adlandıra bilər. Belə müxtəlif proses və hadisələrin ümumi xassə və qanunauyğunluğu olmasının heç bir sübutu yoxdur, ona görə də, bu terminə uyğun gələn hansısa hadisə və anlayış olmasını hesab etməyə əsas yoxdur. Burada “məlumat” və “informasiya” terminlərinin izahına, onların məna fərqlərinə diqqət verək. Məlumat faktın, ideyanın, bilginin işarə (simvol) şəklində, onların ötürülməsini, emalını və şərhini (yəni, izahını, mənasını açmağı) həyata keçirməyə imkan verən mahiyyətidir, informasiya isə - məlumatın insanın ona məlum olan faktlarda, ideyalarda, xəbərlərdə təsəvvür qaydalarına əsaslanaraq verdiyi mənadır.

İnformasiyanın belə anlaşılması bu anlayışı ifadə edən sözün etimologiyasına (lat. Infomation – aydınlaşma, təqdim etmə) uyğun gəlir.

Dediklərimizdən məlum olur ki, əgər məlumat insan tərəfindən qəbul və şərh edilirsə, onda onun üçün informasiyaya çevrilir, başqa sözlə “özündə informasiyadan”, “bizim üçün informasiyaya” çevrilir.

Beləliklə, informasiya, məlumatın onları qəbul edən insan tərəfindən reallaşan, digəri tərəfindən isə reallaşmayan potensial xüsusiyyətidir. Maşın emalının obyekti informasiya deyil, məlumatdır, çünki, heç bir maşın məlumatları interpretasiya etmək, onları informasiyaya çevirmək gücündə deyil, belə ki, maşın insan kimi, dünya haqda zəruri bilik ehtiyatına malik deyil və düşünə bilmir. Məlumat və informasiya anlayışları arasında dialektik əlaqə belədir.

Cəmiyyətdə informasiyanın müxtəlif növləri mövcuddur. Onların arasında elmi informasiya xüsusilə mühüm rol oynayır, çünki, o, elmlə qırılmaz bağlıdır. Elmi informasiya terminində elmi sözü, anlayışı göstərir ki, bu informasiya hazırda hamı tərəfindən qəbul edilmiş elmilik meyarına uyğun gəlir, (yəni, o obyektivdir, doğrudur, yoxlanılandır və s.), həm də o demək deyil ki, hökmən elm sahəsində yaranıb və orada istifadə edilir.

Əgər elmi informasiya anlayışına daha dəqiq və tam tərif vermək istəsək, deməliyik ki, elmi informasiya məntiqi informasiyadır, insan fəaliyyətinin istənilən sahəsində obyektiv dünyanın təcrübə-rasional dərk edilməsi metodu ilə əldə ediləndir, hakim elmi təsəvvürlər sisteminə zidd olmayan və ictimai-tarixi praktikada istifadə ediləndir. Başqa sözlə, biz informasiyanı başlanğıcda məzmun, məlumatın mənası, bir insandan digərinə ötürülən kimi başa düşürük.

İnformatika birdən yaranmamışdı. O, XX əsrin əvvəllərində inkişaf etməyə, yaranmağa başlamışdı, onun ümumi cizgiləri, konturları informatikanın yaradıcısı hesab olunan Pol Otle (1869-1944) tərəfindən çizilmişdi. İnformatikanın semantik (məna) elm kimi inkişafına töhfələr vermiş alim və mütəxəssislər içərisində S.Bredford, V.Buş, K.Muers, M.Taube, A.Kent, B.Vikkeri, X.P.Lun, S.Kleverdon, D.Prays, Y.Qarfildi göstərmək olar (2).

Keçən əsrin 50-60-cı illərində informatika başlıca olaraq elmin öz içərisində, daxilində olan informasiya mübadiləsində qayda yaradılması üçün ictimai tələbdən irəli gəlirdi. Belə tələbi şərtləndirən xarici faktor olaraq, elmi ədəbiyyatın sürətlə artması, dağınıqlığı və axtarıcı vasitələrin məhdudluğu səbəbindən onların mövzular üzrə seçilmə-sinin çətinlikləri, elmi fənlər arasında, elmdə ənənəvi sərhədlərin yuyulmasına, silinməsinə səbəb olan ixtisaslaşma və inteqrasiya prosesləri çıxış edirdi.

Bu müddətdə informasiya axtarma probleminin həllinin üsulları və metodları haqda təsəvvürlərimiz, baxışlarımız ciddi dəyişikliklərə uğramışdı. İlk vaxtlar ümidlər ancaq texniki vasitələrə idi. Çox çəkmədən elmi informasiyanın analizi və sintezi üçün semantik vasitələrin hazırlanmasının zəruriliyi, vacibliyi anlayışı meydana gəldi. Təsadüfi deyil ki, informasiya axtarışı nəzəriyyəsi, koordinat indeksləşmə metodu, relevantlıq (sorğuya

uyğunluq) və pertinentnostluq (informasiyaya tələbata uyğunluq) anlayışı informatikanın əsasını, təməlini təşkil etdi.

70-ci illərdə informatikanın tətbiq sahələrinin genişlənməsi baş verdi. Elmi informasiya xalq təsərrüfatının idarə edilməsində, siyasi qərarların qəbul edilməsində, cəmiyyətin inkişafının qlobal modelləşməsində ciddi rol oynamağa başladı. Elmi-texniki informasiya sistemlərinin avtomatlaşdırılmış idarəetmə sisteminin qismən də olsa doğru hesab edilən ünsürü, elementi kimi nəzərdən keçirilməsinə başlandı.

Bu zaman məlum oldu ki, elmi informasiya nə qədər geniş şərh edilsə, istifadə edilsə də, belə geniş ümumi sosial problemlərin həllini təmin edəcək informasiya sistemləri üçün kifayət deyil. Digər tərəfdən, məlum oldu ki, ən ciddi aspektlərdə elmi informasiyanın informasiya-axtarış sisteminin qurulmasının metodları informasiyanın, bir çox digər növlərinə (ekonomik, statistik, siyasi, istehsal və s.) tətbiq edilə bilər.

Bu günün reallıqlarından bütün bu müddətdə informatikanın inkişafına texniki tərəqqinin sürətli inkişafının, ilk növbədə hesablama maşınlarının informasiyanın emalına, işlənilməsinə göstərdiyi təsir aşkar görünür. Texnikanın tarixi yeni texnologiyanın belə sürətlə təkmilləşməsini, onun cəmiyyətin həyatının bütün sahələrinə tətbiqini görməmişdi. Bu təsiri biz komputerlərin informasiya fəaliyyətinə real daxil olması ilə nəzərə alırıq. Ancaq, informasiyanın emalına və saxlanmasına komputer elminin, onun tərəfindən hazırlanmış prinsiplərin, onun anlayışlar sisteminin, terminlərinin təsiri də az əhəmiyyət daşımır.

XX əsrin 60-cı illərinin əvvəllərinə qədər informatika üzrə mütəxəssislər elmi kommunikasiyanın qeyri-formal kanallarının – alimlər və mütəxəssislər arasında şəxsi kontaktların “görünməyən kollektivlər” (invisible colleges) adlananların elmi görüşlərinin böyük rolunu hələ başa düşməmişdilər. İnformatika onları özünün araşdırdığı obyektlər sırasına daxil etmirdi və müxtəlif elmi sənədlərin və nəşrlərin istifadəsinə əsaslanan formal kanalların araşdırılması ilə kifayətlənirdi. Ona görə bəzi Qrbi Avropa dillərində informatika sənəd, sənədli film (dokumentalist) sözü ilə ifadə edilirdi. Ənənəyə görə bu terminlər bəzi Qərb ölkələrində çap edilən xüsusi jurnalların adlarında hələ də qalmaqdadır. Ancaq sonralar bir çox professional assosiasiya və jurnalların adlarında “sənəd” termini “informatika” termini ilə və ya “informasiya elmi” (information science) termini ilə əvəzləndi. Hazırda “sənəd” və ya “sənədli film” anlayışlarını kommunikasiyanın sənədli formalarını öyrənən fən kimi hesab etmək olar.

60-cı illərin ortalarından informatikanın inkişafında yeni dövr başlandı. Əvvəlki, sənədçi, dokumentalist yanaşmanın bütün böyük məhdudluğunun başa düşülməsi, özünü bu konkret elmi fənnin yeni adının axtarışında onun başlıca probleminin mahiyyətini doğru, düzgün açan və istifadə üçün uyğun olan, ilk növbədə bir sözdən ibarət və bir mənalı olan ifadəsini tapdı.

Belə ad olaraq “informatika” termini təklif edildi (ingiliscə information science, informatics; fransızca science de l’ infomation, informatique; almanca infomation swissenschaft, informatik). Bu termin çox tezliklə geniş yayıldı və qəbul edildi. İnformatikaya aid bir çox xüsusi elmi jurnalların adlarının dəyişdirilməsi, həmçinin bu adla yeni jurnalların yaranması bunu sübut edir.

Hazırda informatikanı artıq qəbul edilmiş və oturuşmuş müstəqil fən hesab etmək olar. Dünyada hər il informatikanın müxtəlif məsələlərinə aid on minlərlə nəşrlər işıq üzü görür. Müqayisə üçün deyək ki, artıq çoxdan oturuşmuş elmlər olan astronomiya və biofizika və nisbətən cavan fən olan hesablama texnikası və texniki kibernetikaya aid bir ildə təxminən 10 min ədəd publikasiya çapdan çıxır.

İnformatikanın yeni fən kimi ayrılması və formalaşması ilə paralel olaraq, onun

inkişafına böyük təsir edən digər mühüm hadisələr də baş verirdi. Komputerlərin intellektual fəaliyyətin bütün sahələrinə tətbiqinin yayılması, bu cür tamamilə yeni və qeyri-adi, tanış olmayan texniki vasitələrin istifadəsi ilə bağlı olan müxtəlif problemlərin həllini tələb edirdi (3).

Müxtəlif informasiya proseslərinin avtomatlaşdırılması o vaxt mümkün olur ki, bu proseslərin insanlar tərəfindən yerinə yetirilməsi mexanizmini modelləşdirmək və ya imitasiya etməyi – heç olmasa sadə şəkildə – bacaraq. Belə mexanizmlərin öyrənilməsi və ümumiləşməsi ilə – başlıca olaraq onların bu və ya digər texniki vasitələrin, o cümlədən komputerlərin köməyi ilə yenilənməsi üçün – əvvəldən informatika məşğul olur, həm də bu zaman digər elmi fənlərdə: kitabxanaşünaslıq, dilçilik, psixologiya, riyazi məntiq, semiotikada alınan nəticələrdən istifadə edilir.

Dediklərimizdən belə bir nəticəyə gəlmək olar ki, informasiyanın məntiqi işlənməsinin ən mürəkkəb növü ilə məşğul olan informatikanın əsasını, informasiya texnologiyasının nəzəri əsası və informasiyanın avtomatlaşdırılmış emalı üzrə praktiki fəaliyyəti təşkil edir.

Bu günədək informasiyalaşdırma və qloballaşma kimi anlayışların cəmiyyətin formalaşmasının vahid sisteminin elementləri kimi yaranma mənbələri və tərifləri, onların qarşılıqlı asılılığı və qarşılıqlı şərtlənməsi ətraflı işlənməmişdir. Məlum olduğu kimi, cəmiyyətin inkişafının əsasında informasiya, daha dəqiq desək, insanın informasiyanı istehsal etmək, ona yiyələnmək, onu dəyişmək və ötürmək qabiliyyəti durur.

İnformasiyalaşdırmanın mərhələlərini araşdırarkən çox vaxt hesab edilir ki, informasiyalaşdırma prosesində iştirak edən informasiya resursları elektron formasındadır və bununla da araşdırma qurtarmış sayılır. Ancaq, bu məsələnin həlli, bu müddəanın yerinə yetirilməsi o qədər də sadə olmayan tarixə malikdir. İnformasiyanın saxlanması və emalının müasir səviyyəsinə çatmaq üçün, bir sıra kifayət qədər mürəkkəb təşkilati və texniki işlərin yerinə yetirilməsi lazım gəlmişdi. Hamı tərəfindən qəbul edilən qeyd formatı yaratmaq, elektron daşıyıcıların geniş şəbəkəsini yaratmağı təmin etmək (maqnitli lentlər, disklər, disketlər, CD və DVD – disklər), nəqliyyat texnologiyaları hazırlamaq, adi olmayan, lazım olan avadanlıq olmadan informasiyanın mövcudluğunun yoxlanılmasının mümkünsüz olduğu daşıyıcıda saxlamağın etibarlılığını və təhlükəsizliyini təmin etmək tələb olunurdu (4).

Burada başlıca vəzifə informasiyanı yeni, rəqəmli saxlamağı insanların adi fəaliyyətinə tətbiq etmək, ənənəvi daşıyıcılardan (kağız, fotolent, analoji qeyd prinsiplərinə əsaslanan daşıyıcılardan) imtina etməkdir. Bu keçidin çətinlikləri adi istifadəçiyə yeni daşıyıcıda müasir avadanlıqların yaratdığı istifadə rahatlığı ilə kompensasiya edilir. Avadanlıq almazdan qabaq, istifadəçi, artıq keçid qərarı vermişdi və keçidin bütün çətinliklərini aradan qaldırmağa hazır idi. İndi əsas vəzifə qazanılacaq üstünlüklərin ağıllı reklamını, məsləhətləşməni və texniki köməyi təşkil etmək tələb edilirdi.

Belə keçid istehsalat proseslərində daha çətin olur, çünki, o, xüsusiləşmiş, unikal informasiya sistemləri ilə bağlıdır. İnformasiya texnologiyalarının müasir səviyyəsi əsas funksional işin gedişində elektron informasiya resursları formalaşdırmağa imkan verir. Hər bir belə sistem əməliyyatlarda fiksə edilmədə və yaranmış situasiyaların elektron daşıyıcılarda arxivləşməsində iştirak edən məlumatların yığılmasının müasir vasitələrinə malikdir.

Böyük həcmdə bank məlumatlarının saxlanması üçün texniki və proqram vasitələri yaradılmışdır. Bu araşdırmalar retrospektiv baza məlumatlarının avtomatik olaraq gündəlik, cari informasiya ilə yenilənməsini təmin edir.

Beləliklə, 90-cı illərin sonunda informasiyanın saxlanması üçün əsas daşıyıcı

elektron daşıyıcı olur. Çox əsrlik tarixdə yığılmış biliklərin əsas hissəsi ənənəvi daşıyıcılarda qalır. Belə vəziyyət xeyli rahatsızlıq yaradır, çünki, bəzi işlərdə müasir texnologiya istiqamətlənmiş və elektron daşıyıcılarda olan, cari informasiya ilə birlikdə, həm də daşıyıcılarda olan retrospektiv informasiya da tələb edilir. Bu zaman qiymətli informasiyanı elektron daşıyıcılara köçürmək problemi yaranır.

Şəbəkə texnologiyasının və İnternetin hər yerdə işlədilməsi insanın kommunikasiya sistemini kardinal şəkildə dəyişən ən nəzərə çarpan texnoloji dəyişiklik oldu. Bu texnologiyaların tətbiq edilməsi kollektiv, distansiyon funksiyanı reallaşdırmağa imkan verdi. İstənilən qrup istifadəçilərə sürətli qoşulma, informasiyanın qəbul-ötürmə sürəti, elektron arxiv və baza bankından məlumat bazasından informasiyadan operativ istifadə imkanlarına görə insanın kommunikasiya imkanları dəyişdi. Şəbəkə metodlarının və lazım olan texnoloji vasitələrin öyrənilməsinə təxminən qırx il əvvəl başlanmışdı. İlk mərhələdə kompakt bina kompleksində yerləşən kollektiv işi istehsal və ofis işlərinin lokal hesablama şəbəkəsi bazasında avtomatlaşmasını təmin edən texnologiyalar formalaşdı.

İstifadəçilər əvvəllər uzaq terminallarda işləmişlər, sonralar şəbəkəyə personal müəssisənin serverləri və kabel şəbəkəsi ilə birlikdə müasir lokal hesablama şəbəkələrinin əsasına çevrilən kompüterlər qoşuldu.

Lokal şəbəkə texnologiyasının proqram hissəsi, vahid məlumatlarla çox istifadəçili korrekt işi təmin edən müştəri-server tipli əlavələrə əsaslanır. İnformasiya ilə iş metodlarının sonrakı inkişafı təkcə bir binada olan qarşılıqlı fəaliyyəti birləşdirməklə kifayətlənmədi. Keçən əsrin 70-ci illərinin ortalarından başlayaraq, qısa mətnli məlumatlarla, mesajlarla mübadilə etməyə imkan verən bir-birindən uzaqda olan komputerlərin telefon rabitəsində modemlə birləşməsi meydana gəldi.

Qeyd etməliyik ki, komputerlərin birləşdirilməsinin ilkin səbəblərindən biri (müasir İnternetin əsası) bahalı unikal avadanlıqların yüklənməsinin optimallaşdırılması idi. Onların məhsuldarlığının artırılması həddindən artıq yüklənmiş hesablama mərkəzlərinin işlərinin cəlb edilməsi hesabına edilirdi. Mesajlarla informasiya mübadiləsi, elektron poçt şəbəkə texnologiyasının inkişafına çıxışı olan entuziastların təşəbbüsü kimi yaranmışdı. Nəticədə, elektron poçtu mürəkkəb qurulma prosesi keçərək müasir cəmiyyətdə kommunikasiyanın əsas alətlərindən birinə çevrildi.

İş prosesində məlum oldu ki, elektron poçtun istifadəçilərinin qarşılıqlı fəaliyyətində ciddi məhdudiyyətlər var. Şəbəkədə bir istifadəçidən bir və ya bir neçə konkret ünvana mesaj göndərmək üçün həmin ünvanları bilmək tələb olunurdu. Şəbəkənin bütün istifadəçilərinə əlçatan olması üçün məlumatın kifayət qədər tez-tez çap edilməsi tələb olunur. Buna görə şəbəkədə qarşılıqlı fəaliyyətin texnologiyasının təkmilləşməsinin növbəti mərhələsi bu ideyanın reallaşmasına həsr olunmuşdu. Bu iş 80-cı illərdə yerinə yetirildi. Ən müxtəlif informasiyanın yerləşdirildiyi – Bulletin Board Systems (BBS) – bildirişlərin elektron lövhələri meydana gəldi; kommersiya təklifləri, iş axtarışı, heyvanların itməsi haqda bildirişlər, xəbərlər və s. BBS-nin istifadəsi ilə çatın təşkili, kollektiv oyunların keçirilməsi imkanı yarandı. BBS-yə qoşulmaq üçün telefon rabitəsi, modem və terminal-proqram tələb olunurdu. Burada çıxış "nöqtə-nöqtə" prinsipi ilə keçirildiyindən, komputerə böyük sayda modem qoşulurdu, çoxlu telefon nömrələri tələb olunurdu. BBS-yə qoşulmaq çox çətin idi. Əvvəllər, belə bildiriş lövhələrini firmalar təmin edirdi və onlara çıxış ödənişli idi. Sonralar bu işi hər bir istifadəçi hobbi kimi açmağa başladı. Əsasən özəl BBS-yə çıxış ödənişsiz idi.

Onlar həm avtonom, həm də digər BBS ilə əlaqədə ola bilərdi. Bu rabitə "nöqtə-nöqtə" modem birləşməsində qeyri-kommersiya şəbəkəsi olan Fidonet (qısa Fido) vasitəsilə həyata keçirilirdi. BBS şəbəkəsinə qoşulan istifadəçi məhz bu BBS-də

informasiyaya çıxış əldə edirdi. Ona görə də inteqral resurs yaratmaq üçün BBS öz aralarında informasiya mübadiləsi edir, telefon kanallarını doldururdular.

80-cı illərdə BBS-dən istifadə kütləvi hal aldı. Şəbəkədə böyük həcmdə informasiya toplanmağa başladı, ancaq bu resurs spektrinə çıxış çox saylı BBS telefon kanalları ilə informasiya mübadiləsi edə bilmədiyi üçün məhdudlaşırdı. Məhz belə çətinliklər üzündən Ümumdünya toru yaratmaq ideyası yarandı. Ümumdünya toru ideyasının əsasını informasiya mübadiləsini təmin edən kabel birləşmələrinin ixtisaslaşmış şəbəkəsi və informasiya axınını ona təhkim olunmuş göndərənin və qəbul edənin ünvanlarına uyğun idarə edən komputer sistemləri təşkil edir. Şəbəkənin hər bir istifadəçisi şəbəkəyə qoşulmaq üçün konkret ünvan almalı və ümumdünya toruna elektriklə qoşulmalı idi. Ümumdünya şəbəkəsinin ondan əvvəlki Fidonetdən fərqi texniki həlldə deyil, informasiya resurslarının yerləşdirilməsinin prinsiplərindədir. Fidonetdə resurs şəbəkə adminstratorunun komputerində olur. O, istifadə üçün icazə verməli və məlumatları, məlumatların təşkilindəki öz sisteminə uyğun qaydaya salmalıdır. Ümumdünya torunda belə məhdudiyyət yoxdur. İstənilən istifadəçi qeydiyyata düşə, provayderlə qoşulmaq haqda razılığa gələ və özünün fərdi saytını yarada və burada heç bir nəzarət olmadan istənilən informasiyanı yerləşdirə bilər. Xarici qoşulma üçün tələb olunan informasiyanı saxlayan komputerin fərdi ünvanını bilmək zəruridir. Ancaq, belə kortəbii quruluş, lazımlı informasiyanın axtarışlarında problem yaradır.

Əgər BBS-də administrator, inzibatçı, informasiyanı, məsələn, mövzu üzrə sistemləşdirir və axtarışı əhəmiyyətli şəkildə asanlaşdırırsa, Ümumdünya torunda bu işi axtarış sistemləri komputer şəbəkəsinə qoşulmuş “hörümçəklər” dəsti vasitəsilə, tapılan informasiyanı sistemləşdirən, avtomatik informasiya texnologiyaları yerinə yetirir. Təəssüf ki, bəzən axtarışın keyfiyyəti idealdan uzaq olur və bu zaman informasiyanın bir hissəsi itir, çatışmır, çoxlu hay-küy və təhriflər olur. Şəbəkənin sürətli inkişafı Semantik torun ideologiyasının reallaşmasında yerinə yetiriləcək axtarışlara daha sərt tələblər qoyur. Bu ideologiya Ümumdünya torunun inkişafının texnoloji standartlarını hazırlayan və tətbiq edən W 3 konsorsiumu tərəfindən həyata keçirilir.

Fərdi texnika informasiya cəmiyyətinin texniki-texnoloji əsasını yaratdı, ona görə də 90-cı illərin əvvəlindən ən inkişaf etmiş ölkələr tədricən informasiya cəmiyyətinə keçməyə başladılar, informasiyalaşdırmanın aktiv fazası başlandı. Ona keçidin baş tutmasında dövlətin iştirakını tələb edən ən azı üç problem mövcud idi (5).

Birincisi, hər bir insanın şəraitdən asılı olaraq fərdi və ya kollektiv istifadədə olan lazımi texniki vasitələrə çıxış imkanı olmalı idi. Əlbəttə, dövlət bu işin təşkilinə birbaşa müdaxilə etməli deyil. Cəmiyyətin inkişafının bundan əvvəlki mərhələlərində qazanılmış həyat təcrübəsi, əhaliyə müstəqil şəkildə lazım olan avadanlıqları almaq, işin bu və ya başqa texnologiyasını seçməyə imkan verməlidir. Məhz əhalinin həyat səviyyəsi müxtəlif ölkələrin informasiya cəmiyyətinə keçidində qeyri-bərabərliyi şərtləndirir.

İkincisi, yeni texnologiyanın kütləvi tətbiqi müəyyən vərdişlərin və biliklərin təkcə, əhalinin dəyişikliyə yönəlik ən fəal hissəsində deyil, həmçinin adi, sıravi işçidə, təqaüdçüdə, kənd yerində yaşayan insanda da olmasını tələb edir. Bu problemin həllində dövlət daha fəal mövqe nümayiş etdirməlidir. O, əlavə təhlil sistemini təşkil etməli, yaratmalı, bu işi stimullaşdırmalı, əhaliyə yeni texnologiyaya yiyələnməkdə kömək etməlidir.

Üçüncüsü, ictimai istifadədə olan informasiyaya bərabər hüquqlu və tənzimlənən çıxışa zəmanətin təmin edilməsidir. Burada dövlətin qanunverici rolu həlledici olmalıdır. İnformasiya cəmiyyəti yaratmağa istiqamətlənmiş dövlətin əlavə vəzifəsi açıq istifadədə olan informasiyanın spektrini genişləndirməkdir. İnformasiyalaşdırmanın bu mərhələsini

araşdırarkən yaddan çıxarmaq olmaz ki, fərdi texnika mürəkkəb texnoloji kompleksin bir hissəsidir və istifadəçinin ancaq son işlərini yerinə yetirir. İnformasiyalaşdırmanın nüvəsini informasiya resurslarının qlobal sistemi, təşkilatı strukturlar, bu fondların, vəsaitlərin işlənməsinin təmin edilməsi, texniki və texnoloji vasitələr, həmçinin onlara çıxışı təmin edən nəqliyyat informasiya strukturu təşkil edir. Sonda məhz onlar informasiyalaşdırmanın səviyyəsini müəyyən edirlər.

İnformasiyalaşdırmanın inkişafının "maddi" tərəfini həm dövlət, həm də kommersiya strukturları ödəyir. Dövlət idarəçiliklə bağlı müdafiəni, tarix ilə, statistika ilə bağlı resurslar formalaşdırır. Kommersiya strukturları bizneslə, banklarla, cəmiyyətin informasiya ilə təmin edilməsi, əyləncəyə yönəlik informasiya resurslarını formalaşdırır.

Reallaşmasına ən mükəmməl texnologiyaların və mütəxəssislərin cəlb edildiyi hadisə - e-hökumətin yaradılmasıdır. Burada informasiyalaşdırma bütünlüklə dövlətin işidir. Bu zaman ictimai inkişafın bütün sahələrində dövlətin funksiyalarının səmərəliliyi yüksəlməli, idarəetmədə dövlət və bələdiyyə orqanları arasında qarşılıqlı münasibətlərdə bürokratik maneələr aradan qaldırılmalıdır (6).

Avropa Birliyinə daxil olan bəzi ölkələrin təcrübəsindən misallar gətirək. Danimarka hökumətinin "İnformasiya cəmiyyəti 2000" adlı hesabatında qeyd edilir ki, bazara infomagistralın araşdırılmasının strategiyası üzərində nəzarəti ələ keçirməyə imkan vermək olmaz. İsveç hökumətinin "İT – insan imkanlarının qanadlarıdır" adlı hesabatında hökumətin təkcə bazarın deyil, həm də fərdlərin maraqlarının qarantı olduğu keçid dövründə rəhbərliyi öz üzərinə götürür.

Fransa hökuməti informasiya cəmiyyətinin infrastrukturunun mərkəzləşdirilmiş inkişafında ən çox təkid edir. Belə inkişaf, teleinformasiya sistemi olan Minitelin istifadəsinin təcrübəsini ümumiləşdirməyi nəzərdə tutur (70-ci illərin təcrübəsi, burada rabitə qurğusu poçt şöbəsində pulsuz verilir, istifadəçi ancaq xidmətin pulunu ödəyir). 2009-cu ildə İnternetin olmasına baxmayaraq, bu sistemin bir milyon istifadəçisi var idi. İspaniya hökuməti hesab edir ki, hökumətin rolu elita üçün xidmətdən hamı üçün xidmətə, hər şeydən əvvəl teletəhsil və telesəhiyyə sahələrində xidmətə keçidi təmin etməkdir.

Yaponiyada informasiyalaşdırma proqramının konsepsiyası və əsas ideyaları maraq doğurur. Hazırda Yaponiya informasiyalaşdırmanın ikinci mərhələsindədir. Yapon proyektinin məqsədi əvvəllər ayrılıqda təklif edilən xidmətlərin bir yerdə verilməsidir. Bunun üçün telefon zənglərindən, teleqramlardan komputer məhsullarınadək informasiyanın bütün növləri bir ümumi kabeldən ötürülür. Gələcəkdə kabel şəbəkəsinin hər bir istifadəçisi bir neçə xidməti eyni vaxtda ala biləcək. Layihədə təcrübəsiz istifadəçilər üçün, informasiyanın verilməsi səslə olan intellektual interfeysli terminallar yaradılması nəzərdə tutulur. Bu informasiyalaşdırma layihəsinin həyata keçirilməsinin 20 il sürəcəyi və təxminən 100 milyard dollar kapital qoyuluşuna başa gələcəyi güman edilir.

İnformasiyalaşdırma proqramının uğurla reallaşması üçün bütün dünya birliyi üçün ümumi olan prinsiplərə əməl edilməsi arzu ediləndir:

- ilk növbədə ölkənin ekonomik inkişafını təmin etməyə can atmaqdan imtina;
- ağır sənayeyə əsaslanan, elm tutumlu sahələrə söykənən ekonomik stukturun dəyişməsinin zəruriliyi;
- informasiya bölməsinin prioritet olmasının qəbul edilməsi. Uğurlu ekonomik inkişafın əsasını milli ekonomikanı dəstəkləmək qabiliyyəti olan yeni infrastruktur və xidmət bölməsinin yaradılması tutur.
- dünya elm və texnikasının kəşflərinin geniş tətbiqi;
- informasiyalaşdırmaya istər dövlət, istərsə də özəl bölmə tərəfindən ciddi maliyyə vəsaitlərinin qoyulması;

- ölkənin və vətəndaşların rifahının kommunikasiyanın şərtlərinin və informasiyanın emalının yüngülləşməsi hesabına artmasını informasiyalaşmanın başlıca məqsədi elan edilməsi.

Hər bir ölkədə yüksək ekonomik və sosial nəticələrin qazanılması böyük ölçüdə informasiyalaşmanın miqyasından sürətindən, informasiya texnologiyalarının insan fəaliyyətinin bütün sahələrində istifadəsindən asılıdır.

İnformasiyalaşdırmanın infrastrukturuna aşağıdakılar daxildir: kommunikasiya sistemləri; hesablama maşınları və şəbəkələri; bu sistemlərin proqram təminatı; informasiya vasitələri; aparat, proqram və informasiya təminatının istismarı üçün kadrlar hazırlığı sistemi; informasiyalaşdırma prosesinin səmərəli inkişafını təmin edən və yardım edən ekonomik və hüquqi mexanizmlər.

İnformasiyalaşdırma prosesinin nəticəsi qismində informasiya cəmiyyətinin yaradılması çıxış edir, burada maddi obyektlərlə deyil, simvollarla, ideyalarla, obrazlarla, intellektlə və biliklərlə manipulyasiya edilir.

İnformasiya cəmiyyətinə keçidin problemlərinin qlobal xarakterini, müxtəlif ölkələrdə və regionlarda informasiyalaşma şərtlərinin bərabərləşməsinin zəruriliyini nəzərə alaraq, qlobal informasiyalaşmanın başlıca vektorunu müəyyən edən beynəlxalq proqramlar formalaşır.

2000-ci ilin iyul ayında Okinavada “Böyük səkkizliyin” sammiti keçirildi. Burada ilk dəfə rəsmi olaraq dünya birliyinin qlobal informasiya cəmiyyətinə keçdiyi elan edildi. Okinava Xartiyası (Okinawa Charter on the Global Information Society) dövlətlərin qlobal informasiya cəmiyyətinə daxil olmasının əsas prinsiplərini müəyyən edir və qlobal informasiya cəmiyyətinin formalaşması sahəsində beynəlxalq birliyin fəaliyyətini təşkil etməyə və fəallaşdırmağa çağıran əsas sənəddir.

Xartiyada dörd bölmə var: rəqəmsal texnologiyanın imkanlarından istifadə; elektron-rəqəmsal boşluğu aradan qaldırmaq; hamının iştirakına yardımçı olmaq; sonrakı inkişaf.

Okinava xartiyasında dövlətlərin və ölkələrin qlobal informasiya cəmiyyətinə daxil olmalarının başlıca prinsipləri müəyyən edilmişdir:

1. İnformasiya-kommunikasiya texnologiyaları (İT) XXI əsrdə cəmiyyətin formalaşmasına təsir edən ən mühüm amillərdəndir. Onların inqilabi təsiri insanların həyat tərzinə, həmçinin hakimiyyət və vətəndaş cəmiyyətinin qarşılıqlı münasibətlərinə toxunur.

2. İT-nın stimullaşdırdığı ekonomik və sosial transformasiyanın mahiyyəti, onun insanlara və cəmiyyətə biliklərdən və ideyalardan istifadə edilməsinə yardım etməsindədir.

3. “Səkkizlik“ ölkələrinin rəhbərləri insanların hər yerdə istisnasız olaraq qlobal informasiya cəmiyyətinin imkanlarından istifadə etmə imkanına malik olmalarından çıxış edərək, bu proseslərdə iştirak etmələrini təsdiq edirlər.

4. “Səkkizlik” ölkələrinin rəhərləri hökumətlərin bu siyasətin və normativ bazanın güclənməsinə yönəlik səylərin yerinə yetirilməsi işinə rəhbərlik edəcəklər.

5. “Səkkizlik” ölkələrinin rəhbərləri qeyd edirlər ki, Xartiya hər şeydən əvvəl hamıya, istər dövlət, istərsə də özəl sektorda informasiya və bilik sahəsində beynəlxalq boşluğu ləğv etməyə çağırışdır.

İnformasiya cəmiyyətinə aid yüksək səviyyədə iki mərhələdə - 2003-cü ildə Cenevrədə, 2005-ci ildə Tunisdə - keçirilən Ümumdünya sammiti az əhəmiyyəti olmayan hadisə idi. Birinci mərhələnin nəticələrinə görə “Prinsiplər deklarasiyası, Bəyannaməsi – İnformasiya cəmiyyətinin qurulması – yeni minillikdə qlobal vəzifədir” adlı qlobal informasiyalaşdırmanın başlıca vəzifələrini müəyyən edən deklartiv sənəd qəbul edildi.

İkinci mərhələ BMT-nin fəal iştirakı ilə keçirilmişdi və İnternetin idarə edilməsi

problemlərinə həsr edilmişdi. BMT-nin o vaxtkı Baş katibi Koffi Annan görüşdə çıxış edərək demişdi: ”Yüksək səviyyədəki hazırkı görüş qərarların qəbul edildiyi sammit olmalıdır”. İnternetin idarə edilməsi məsələlərində ictimai siyasətin əsas məsələlərinin aşkar edilməsinə və hökumətlərin, hökumətlər arası və beynəlxalq təşkilatların, özəl sektorun və vətəndaş cəmiyyətinin rolları və sorumluluqları haqqında razılaşdırılmış təqdimat hazırlamağa cəhd edilmişdir. Çinin rəhbərliyi altında ölkələrin böyük bir dəstəsi və 20-lər Qrupunun üzvləri spam, qanunsuz kontentə qarşı mübarizə daxil olmaqla İnternetin idarə edilməsində kifayət qədər sərt mövqe tutdular. Bu mövqe faktiki olaraq İnternetdə senzura tətbiq edilməsi demək idi. ABŞ və Avropa İttifaqı ölkələrinin özəl sektorun köməyi ilə hesab edirlər ki, İnternetin nizamlanması texniki məsələlərə aid olmalıdır, təşkilatı əsaslara toxunmaq lazım deyil. Sərt diskussiyaya baxmayaraq, razılaşdırılmış həlli tapmaq mümkün olmadı və İnternet bu günədək ABŞ ərazisində yerləşən kommersiya strukturları ilə idarə olunan spontan təşkilat olaraq qalır.

Bu sahədə dövlətlər arası birliklərin (Avropa İttifaqı, MDB) və beynəlxalq təşkilatların (BMT, YUNESKO) öz proqramları var. Avropa İttifaqının fəaliyyətində ilk plan “İnformasiya cəmiyyətinin Avropa yolu” (Europe S Way to the Information Society. An action plan) 1994-cü ildə qəbul edilmişdi. Bu plan adətən, yüksək səviyyəli ekspertlərdən ibarət informasiya cəmiyyətinə keçidlə bağlı işləri aktivləşdirmək üçün tövsiyyələri hazırlayan qrupun rəhbəri olmuş Bangemanın adı ilə “Bangeman təşəbbüsü” adlanır. Bu vaxtadək Avropa informasiyalaşma sahəsində ABŞ-dan və Yaponiyadan ciddi şəkildə geri qalırdı.

Avropa İttifaqının informasiyalaşma sahəsində sonrakı strategiyası 2000-ci ildə Lissabonda Avropa İttifaqının sessiyasında qəbul edildi, sonralar bu strategiya Avropa komissiyası tərəfindən hazırlanmış “Elektron Avropa. 2002” adı ilə proqram şəklində sənədləşdirildi. (E Europe Action Plan 2002). Bu proqramda 2010-cu ildə Avropada dünyada rəqabətə ən davamlı və dinamik informasiya ekonomikası yaratmaq kimi strateji məqsəd qarşıya qoyulmuşdu. Burada ucuz, sürətli, təhlükəsiz İnternet, insanlara sərmayə qoyuluşu və kvalifikasiyası, İnternetdən istifadəyə yardım, informasiya cəmiyyətinin hüquqi mühitinin təkmilləşdirilməsi, informasiya infrastrukturunun inkişafı, belə xidmətlərin Avropa İttifaqı sərhədlərində yayılması, elektron ticarətin inkişafının sürətlənməsi, “onlayn hökumətin” ictimai xidmətlərə elektron çıxışı, onlayn səhiyyənin yaradılması, qlobal şəbəkədə Avropa rəqəmsal kontentinin hazırlanması, intellektual nəqliyyat sisteminin yaradılması prioritet istiqamətlər hesab edilirdi.

Avropa İttifaqının inkişafının strateji məqsədinin praktiki reallaşması 5 illik çərçivə proqramlarında birləşir. Belə ki, 5-ci çərçivə proqramında “İnformasiya cəmiyyətinin texnologiyası” istiqaməti var idi. 6-cı proqram (2002-2006) əsasən böyük siyasi layihə olan “Elektron Avropa” (e Europe) həsr edilmişdi, bu proqramda istər Aİ üzv olan ölkələr daxilində, istərsə də Avropa komissiyası səviyyəsində bir çox layihələr yerinə yetirilmişdi. Belə layihələrə misal olaraq e-Content proqramını – istehsala yardım, Avropa kontentinin yayılması və inkişafı, Ümumdünya şəbəkəsində çox dilliliyə yardım, e-İnclusion – cəmiyyətin həyatına qoşulan, kasıbların və müxtəlif fiziki qüsurlu insanların komputer təhsili ilə təmin edilməsi proqramlarını göstərmək olar.

Qeyd etməliyik ki, maliyyə vəsaitlərinin demokratik paylanması sistemi əldə edilən, qazanılan nəticələrin çox sərt monitorinqi ilə müşayiət olunur. Ümumi strategiyanın həyata keçməsində müxtəlif dövlətlərin qazandıqları göstəricilər müqayisə edilir, tutuşdurulur. Bu məsələdə əsas nəticələr və yaranan problemlər http://ec.europa. Eu/infomation_society/index_en.htm saytında toplanır.

Avropalılar elmi tədqiqat sahəsində olan işlərin vəziyyətindən razı olmadıqları,

biliklərə əsaslanan informasiya cəmiyyəti qurulmasının strateji məqsədlərinə adekvat hesab etmədikləri səbəbindən, aparılan monitorinq zamanı ABŞ-da baş verən proseslərlə müqayisəyə xüsusi diqqət verirlər.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Винер Н. Кибернетика, или управление и связь в животном и машине.-2-е издание. М.: Наука. 1983. - с.5-28.
2. Отле П. Библиотека, библиография, документация. - М.- 2004.с-348.
3. Хессиг К. Страх перед комьпютером ? М .,1990.с-69
4. Хамраев Д.Д., Джапарова З.Ё., Мезинцев И.А. Информатизация – на пути к постиндустриальному обществу // Молодой ученый. — 2017. — №2. — С. 68-70. — URL https://moluch.ru/archive/136/37962/
5. Лапченко Н.Н. Информатизация в формировании глобального техногенного общества и социоприродного мира //Вестник Брянского государственного университета. - 2010. - №2. - С. 155.
6. Дергачева Е.А. Процессы информатизации в контексте техногенного общественного развития //Вестник Тамбовского университета им. Г.Р.Державина. Серия: Гуманитарные науки. 2008. - Вып. 4(60). - С.73.
7. Əhmədova A.S. İnformasiya cəmiyyətinin qurulmasında infor masiyalaşdırmanın rolu və dövlət siyasəti // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. s. 163, №3(27) 2009.
8. Сманцер А. П. Гуманизация и демократизация предагогического процесса в условиях университетского образования [Электронный ресурс] / А. П. Сманцер, Е. М. Рангелова. — Минск: БГУ, 2011. — Режим доступа: http://www.elib.bsu.by
9. Лапченко Н.Н. Информатизация как фактор глобального социоприродного развития //Материалы Международного научного конгресса «Глобалистика -2009: пути выхода из глобального кризиса и модели нового мироустройства», Москва, МГУ имени М.В. Ломоносова, 20-23 мая 2009г. /под общей ред. И.И. Абылгазиева, И.В. Ильина. В 2-х тт. Т.l М: МАКС Пресс, 2009. - С. 452-455.


**Сохраб Магеррамов**

## ИНФОРМАТИЗАЦИЯ КАК КЛЮЧЕВОЙ ФАКТОР РАЗВИТИЯ ОБЩЕСТВА

***Резюме***

Современное общество окружено большим объемом информации, которую необходимо развивать. Общество с передовыми энергетическими, транспортными и химическими технологиями не может рационально функционировать без информационных технологий. Информационные процессы и технологии играют важную роль в жизни современного общества и открывают новые горизонты в жизни человека.

***Цель*** – в статье исследуется влияние информатизации на все сферы общественной жизни, появление новых информационных технологий, значительный рост использования информационных ресурсов, объясняется, как понимать термин информационные технологии в наше время.

***Методология*** – при подготовке статьи использован метод сравнительного анализа.

***Результат*** – информатизация общества приводит не только к ускорению темпов научной, технической и интеллектуализации всех сфер жизни, но и к созданию нового информационного общества, которое способствует развитию творческого потенциала человека в обществе.

***Ключевые слова****:* глобализация, ИКТ, информация, информатизация, общество знаний, компьютеризация

**Sohrab Maharramov**

**INFORMATIZATION AS A KEY FACTOR IN THE DEVELOPMENT OF SOCIETY**

***Summary***

Modern society is surrounded by a large amount of information that needs to be developed. A society with advanced energy, transport and chemical technologies cannot function rationally without information technology. Information processes and technologies play an important role in the life of modern society and open up new horizons in human life.

***Purpose*** – the article examines the influence of informatization on all spheres of public life, the emergence of new information technologies, a significant increase in the use of information resources, explains how to understand the term information technology in our time.

***Methodology*** – the method of comparative analysis was used in preparing the article.

***Findings*** – the informatization of society leads not only to an acceleration of the pace of scientific, technical and intellectualization of all spheres of life, but also to the creation of a new information society, which contributes to the development of human creative potential in society.

**Keywords**: globalization, ICT, information, informatization, knowledge society, computerization

**Rəyçi: AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, f.e.d. Füzuli Qurbanov**

**Qəbul edilib: 02.09.2020**

**UOT 75.021**

**Sevinc Ələsgərova**
***Bakı Dövlət Universiteti***
***dissertant***
smixaylovna@mail.ru

# DİN VƏ İNCƏSƏNƏTİN QARŞILIQLITƏSİRİ MİLLİ VƏ QLOBAL MÜNASİBƏTLƏR SƏRKİSİNDƏ

*Məqalə din və incəsənət arasındakı tarixən mürəkkəb əlaqələrə həsr edilmişdir. Konkret faktlar əsasında dünya sivilizasiyasının bu ağrılı probleminin mövcud vəziyyətini təhlil edir. Millətlərarası əlaqələrin dini və bədii daxil olmaqla milli-mənəvi dəyərlərə hərtərəfli qloballaşmasının mənfi təsirinə xüsusi diqqət yetirilir. Bu cür təzahürlərə qarşı birgə mübarizənin vacibliyi vurğulanır.*

***Məqsəd*** – Günümüzün ictimai-siyasi hadisələrinin, xüsusən də regional və ya lokal konfliktlər adlandırılan münaqişələrin təhlili

***Metodologiya*** – müqayisəli təhlil

***Tədqiqatın nəticələri*** – Din və incəsənətin qarşılıqlı münasibətləri problemi araşdırılmışdır

**Açar sözlər:** Din və incəsənət, xalqlararası münasibət, bədii-estetik fikir, Din və incəsənətin qarşılıqlı münasibətləri

**Giriş**

Sürətlə qloballaşan dünyamızda siyasi, iqtisadi, humanitar problemlərlə bir sırada mənəvi mədəniyyətlər arasında münasibətlər də son dərəcə aktualdır. Belə düşünmək daha məntiqli olardı ki, müasir elmi-texniki tərəqqinin dünyanı birləşdirdiyi, demokratik dəyərlərin getdikcə geniş miqyasda bərqərar olduğu, qarşılıqlı təmas və sırf insani münasibətlərin əvvəlki tarixi dövrlərə nisbətən sürətlə dərinləşdiyi indiki zamanda müxtəlif dinlər, onların daxilindəki təriqətlər, ideoloji baxışlar, bədii mədəniyyətlər arasında münasibətlərdə də köklü humanistləşmə və yaxınlaşma baş verəcək, orta əsrlərə xas qarşılıqlı irad, ittiham və hücumlara yer qalmayacaq. Lakin, bir tərəfdən, bəşəriyyəti ikiyə bölüb qarşılıqlı məhv savaşına sürükləyən, digər tərəfdən isə, faşizm bəlasına qarşı bütün tərəqqipərvər insanları vahid məxrəcdə birləşdirən ikinci dünya müharibəsindən üzü bəri baş verən hadisələr, o cümlədən, bədii mədəniyyət və dini münasibətlər sahəsində cərəyan edən proseslər tarixdən lazımi ibrət götürülmədiyini söyləməyə əsas verir. Günümüzün ictimai-siyasi hadisələrinin, xüsusən də regional və ya lokal konfliktlər adlandırılan münaqişələrin təhlili göstərir ki, burada ərazi, iqtisadi, sosial, siyasi ziddiyyətlərlə yanaşı dini fərqlər də qabardilib önə çəkilir, ədavəti daha təsirli etmək üçün incəsənətin müxtəlif növ və janrlarından bol-bol istifadə edilir. Burada, əlbəttə, ictimai şüurun iki müstəqil forması kimi din və incəsənət arasında mürəkkəb əlaqənin tarixi ənənəsi də mühüm rol oynayır.

**Din və incəsənətin qarşılıqlı münasibətləri məsələsi**

Din və incəsənətin qarşılıqlı münasibətləri məsələsi bəşəriyyətin bütün sivil tarixi ərzində daim kəskin mübahisə mövzusu olmuşdur və hesab edirik ki, müasir dövrdə də bu problemin ictimai-mənəvi aktuallığı əsla azalmayıb. Ona iki əks yanaşma tərzi diqqəti cəlb edir. Bunlarin biri dini və bədii-estetik ideologiyaların əksliyi, onların arasında mübarizənin labüdlüyü fikrini irəli sürən baxışdır, digəri isə mənəvi mədəniyyətin bu iki

formasının başlıca ideallarının insanlığa xidmət müstəvisində kəsişdiyinə əsaslanan xətdir. Əlbəttə, həmin problemin ədalətli həlli bəşər cəmiyyətinin sosial varlığı və sivil ideyalara doğru inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edir. Lakin burada bizim məqsədimiz sivilizasiyanın bütün tarixi ərzində elmi-fəlsəfi fikri daim düşündürən bu kəskin problemin müxtəlif aspektlərini təfərrüatı ilə araşdırmaq deyil. Sadəcə, müasir dünyamızda istər cəmiyyətlər daxilində, istərsə də xalqlararası münasibətlərdə dini dəyərlərlə birlikdə bədii mədəniyyətin, onun özəyini təşkil edən incəsənətin üzərinə düşən vəzifəni və oynadıqları real rolu nəzərdən keçirməkdir. Belə bir araşdırma ümumi aktuallığı ilə yanaşı bir də ona görə vacibdir ki, SSRİ-nin süqutu və onunla birlikdə hakim kommunist ideologiyasının hökmranlığının sona yetməsi din-incəsənət münasibətlərinə də yeni reallıqlar mövqeyindən yanaşmağı tələb edir.

Ölkəmizdə sovet kommunist-ateist ideologiyasının totalitar hakimiyyəti şəraitində dinə neqativ münasibət geniş məlumdur. Bunu materialist və dini dünyagörüşlərinin əksliyi ilə izah etmək mümkündür. SSRİ və Azərbaycan SSR Konstitusiyalarının məşhur 6-cı maddəsinin "sovet cəmiyyətinin rəhbər və istiqamətverici qüvvəsi, onun siyasi sisteminin, dövlət və ictimai təşkilatlarinin özəyi" (1, 7; 2, 6) kimi təsbit etdiyi Sov.İKP öz Nizamnaməsində tələb edirdi ki, partiya üzvü burjua ideologiyası və xüsusi mülkiyyətçilik psixologiyası ilə yanaşı "dini mövhumata və keçmişin başqa qalıqlarına qarşı qəti mübarizə aparmağa...borcludur" (3, 8). Elə Sov.İKP-nin sonuncu Proqramının XXVII qurultayda qəbul edilmiş Yeni redaksiyasında da ateizm tərbiyəsi partiyanın ideya tərbiyəsi işinin mühüm tərkib hissəsi kimi göstərilir (4, 63). Lakin onu da qeyd edək ki, burada həmin problemə sosializm quruculuğunun ilk dövrlərindəki döyüşkən ateizm, dinə qarşı barışmaz mübarizə çağırışları deyil, vətəndaşların konstitusiya hüquqlarına əməl edilməsi müstəvisindən yanaşılır: "Partiya vicdan azadlığına dair konstitusiya təminatlarına dönmədən əməl edilməsinə tərəfdar çıxaraq dindən cəmiyyətin və şəxsiyyətin mənafeyi zərərinə istifadə olunması cəhdlərini pisləyir" (4, 63).

Sovet dövrü bədii-estetik fikrimizdə də hakim ideoloji tələbə uyğun olaraq, din əsasən mənəvi tərəqqinin antipodu—mənəvi deqradasiya və tənəzzülün göstəricisi kimi götürülür, insan konsepsiyasından ayrı salınaraq ona qarşı qoyulur. Ötən əsr bədii-estetik fikrimizdə aparıcı rol oynayan müəlliflərdən biri – tanınmış incəsənət xadimi və sənətşünas prof. Mehdi Məmmədov "İncəsənət və din" monoqrafiyasında onları incəsənətin iki müstəqil forması kimi götürsə də, qarşılıqlı əlaqələri barədə yalnız qarşıdurma və ziddiyyət, barışmaz mübarizə məqamlarını görür: "İncəsənətlə dinin əlaqəsi həqiqətən qədim zamanlardan başlanır və bu gün də davam edir. Amma bu əlaqə məqsəd, ideal uyğunluğunun yox, ikincinin birinciyə möhtac olmasının nəticəsidir. Din tarix boyu incəsənətin həqiqi meyllərinə, mütərəqqi ideallarına qarşı çıxmış, onunla mübarizə aparmışdır. O, ancaq dinə kortəbii surətdə xidmət edən sənəti və sənətkarları himayəsinə alıb yaşatmışdır" (5, 89).

Tanınmış yazıçı və ədəbiyyatşünas Qulu Xəlilov da sovet dövrü bədii ədəbiyyatını qiymətləndirərkən belə bir ümumiləşdirici fikir söyləyir: "Xalqın ictimai-siyasi və bədii fikrinin ifadəsi olan sovet ədəbiyyatının ən böyük nailiyyətlərindən biri də bundan ibarətdir ki, o, öz qoynunda sadə zəhmət adamlarına geniş yer verməklə insana böyük inam oyatmışdı. Bu inam hər cür dini məbəddən və ehkamdan qüvvəli idi" (6, 155).

Bununla belə, ölkənin elmi-fəlsəfi, bədii-estetik fikir nümayəndələri dini ideologiya və onun müxtəlif təriqətlərinin cəmiyyətin mənəvi həyatında tarixən ciddi rol oynadığını da etiraf etməli olurdular. Prof. M.Balayev islamın ictimai-siyasi həyatda rolu məsələsinə həsr etdiyi monoqrafiyasında sufizmə etiqad edənlər arasından bir çox şair və filosofların çıxdığını qeyd edərək göstərirdi ki, "sufizm islamın yayıldığı ölkələrin mənəvi həyat şəraitinə və tarixinə güclü təsir göstərmişdir..., sufilər xalqın mənəvi-əxlaqi rəhbərləri

olmuşlar" (7, 70).

Elə artıq müraciət etdiyimiz digər müəllif — M.Məmmədov da etiraf edir ki, "dini mövzuda yaranmış, hətta bilavasitə ruhanilərin sifarişi ilə işlənmiş əsərlərin estetik dəyəri, bədii təsiri müxtəlifdir. Onların bir çoxu çoxdan unudulduğu halda, bir qismi bu günə qədər yaşayır, əsrlər keçəndən sonra belə müasir bəşəriyyət üçün də öz dəyərini itirmir. Sonuncular dini süjetlərdə həyati fikirlər, humanist ideyalar yürüdən və bunu yüksək sənətkarlıqla təcəssüm etdirən əsərlərdir" (5, 89-90).

Din və incəsənətin qarşılıqlı münasibətləri probleminin araşdırılması bizi onların hər ikisini əhatə edən daha geniş mənəvi mədəniyyət anlayışına gətirib çıxarır. Hesab edirik, məhz bu müstəvidə onların qarşılıqlı nisbəti, dinin sosial tərəqqiyə, o cümlədən, bədii yaradıcılığa təsiri, habelə incəsənətin din üçün əhəmiyyəti məsələsini daha əhatəli aydınlaşdırmaq mümkündür.

**Qərb fəlsəfi və bədii fikrində din və incəsənətin qarşılıqlı münasibətləri**

Problemin bu səpkisinə Qərb fəlsəfi və bədii fikri daha böyük əhəmiyyət verir. Burada da problemə ikili münasibətlə üzləşirik. Maddi istehsal və sosial-siyasi münasibətlərlə birlikdə mənəvi mədəniyyətin inkişafını da yalnız Avropa ilə bağlayan konsepsiya – avropasentrizm (Avropa mərkəzçiliyi) sosial tərəqqini xristianlıqla əlaqələndirir. Alman filosofu, mədəniyyət və tarix nəzəriyyəçisi Osvald Şpenqler, fransız paleontoloqu, filosofu və teoloqu Pyer Teyyar de Şarden, ingilis tarixçisi və sosioloqu Arnold Cozef Toynbi və b. dünya sivilizasiyası və mədəniyyətinin gələcəyini avropasentrizm mövqeyindən izah edərək, əslində onu Şərq, ilk növbədə islam mədəniyyətinə qarşı qoymuşlar. Müasir neotomizmin görkəmli nümayəndəsi, eyni zamanda həm də noosfer təliminin ilk nümayəndələrindən biri kimi tanınan P.Teyyar de Şarden özünün məşhur "İnsan fenomeni" əsərinə son əlavəsində – "Xristianlıq fenomeni" məqaləsində ehkam formalı belə bir fikir söyləyir: "...hazırda Noosferin bütün səthində Xristianlıq Dünyanı ((böyük hərflər müəllifin öz üslubudur—S.Ə.) əməli və təsirli hərtərəfli quruculuqla əhatə edə bilən, inam və ümidin məhəbbətdə başa çatdığı fədakarlığa sonsuz qabil olan, kifayət qədər cəsarətli və kifayət qədər mütərəqqi *yeganə* fikir cərəyanıdır. Müasir Yer üzündə *təkcə,* mütləq təkcə o, Hamını da, Şəxsiyyəti də vahid həyat aktında birləşdirmək qüdrətində olduğunu nümayiş etdirir" (8, 104).

Yəqin avropapərəstliyin bundan qəti ifadəsini tapmaq çətindir. Bununla belə, qloballaşma prosesinin Avropa ictimai şüuruna hər halda müsbət təsirini də nəzərdən qaçırmaq olmaz. Məşhur mədəniyyət tarixçisi, Avropa mərkəzçiliyinin qatı tərəfdarı A.C.Toynbinin ömrünün axırlarında Yaponiyanın müasir texniki tərəqqidə öncüllüyünü gördükdən sonra mədəni əməkdaşlığın nəinki mümkün, hətta faydalı olması fikrinə gəlməsi kifayət qədər geniş məlumdur. Digər Qərb mütəfəkkiri E.Levinas mədəniyyətin elmin obyektinə çevrilməsinə xüsusi əhəmiyyət verərək, onu "ümumbəşəri ünsiyyətin mənası və dəyəri" adlandırır, "avropasentrizmin" sonu hesab edir və "Avropanın sonuncu müdrikliyi" kimi dəyərləndirir (9, 87).

Bütün bunlara baxmayaraq, hazırda Qərblə Şərq arasında qlobal rəqabət nəinki davam edir, hətta mənəvi mədəniyyət sahəsinə keçirilməklə sonu görünməyən uçurumu daha da dərinləşdirilir. Dini qarşıdurmanın qnoseoloji-idraki kökləri, hesab edirik, ilk növbədə milli və dünya dinlərinin, hətta onların müxtəlif cərəyan və təriqətlərinin hər birinin öz fərqli dəyərlərinin, həqiqət meyarlarının olması ilə bağlıdır. Neqativ təfəkkür, dini ekstremizm üçün bu, sonsuz ittihamlar və qarşılıqlı hücumlar mənbəyinə çevrilir, sağlam düşüncə isə, son vaxtlar tez-tez işlədilən elmi terminlərlə desək, mədəni plüralizmə və mənəvi tolerantlığa, yəni mədəniyyətlərin qarşılıqlı anlaşma və dözümlülük şəraitində

bərabərhüquqlu mövcudluğuna haqq qazandırır.

Bu münasibət siyasi bəyanatlar və beynəlxalq hüquqi aktlar şəklində ən müxtəlif səviyyələrdə dönə-dönə təsdiq edilsə də, ictimai şüurun digər formalarında, xüsusən də incəsənət sahəsində başqa mənzərəni müşahidə edirik. Müasir incəsənətin müxtəlif növ və janrlarında qarşılıqlı ehtiram nümunələri də, kəskin qarşıdurma, hətta təhqiramiz həcv səviyyəsində təhqirlər də müşahidə edilir.

Zəmanəmizdə qarşılıqlı münasibətlərin son dərəcə kəskinləşməsinə baxmayaraq, öz dini-estetik dəyərlərinə sadiq olan Azərbaycan xalqı kin-küdurət və ədavətdən uzaq duraraq, xalqlararası münasibətlərdə ümumbəşəri humanist ideyaların bərqərar olmasına köməyini əsirgəmir. Azərbaycanın bu sahədə nümunəsi ən müxtəlif səviyyələrdə etiraf edilir və istifadə üçün tövsiyə olunur. 2007-ci ilin aprelində Bakıda keçirilən “Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər” mövzusunda beynəlxalq konfransın iştirakçılarının BMT, YUNESKO, Avropa Şurası, ATƏT və İslam Konfransı Təşkilatına Müraciətində bildirilirdi ki, ”XX əsrin sonlarında bir sıra ölkələrdə ictimai quruluşun dəyişməsi ilə əlaqədar dünya dinləri arasındakı fərqlərə əsaslanan sivilizasiyaların toqquşması aktuallaşmış və təəssüf ki, özünə müəyyən tərəfdarlar da tapmışdır. Belə bir şəraitdə müxtəlif mədəniyyətlərin qorunması məqsədilə dinlərarası dialoqun gerçəkləşməsi böyük əhəmiyyət daşıyır. Bu baxımdan tolerantlıq və dini dözümlülük ənənələri zəngin olan ölkə və regionların təcrübəsi digərləri üçün nümunə ola bilər. Bizim ikigünlük işgüzar müzakirələrimiz bir daha təsdiqlədi ki, Azərbaycan bir çox millətlərin və dini konfessiyaların dinc birgə yaşamasının və sərbəst fəaliyyət göstərməsinin unikal nümunəsidir. Tolerantlıq Azərbaycan xalqının tarixən formalaşmış milli-ənənəvi xüsusiyyətinə çevrilmişdir. Bu ənənənin çox dərin tarixi kökləri və regionun sabitliyi üçün böyük önəmi vardır” (10, 387-388).

Heç şübhəsiz, mənəvi mədəniyyətin qüdrətli vasitələri olan din və incəsənətin əzəli qayəsi insanları mənəviyyat və gözəllik zəminində birləşdirməkdir. Bunun əvəzində onları bir-birinə qarşı qoymaq, aralarında ədavət toxumu səpib düşmənçilik həddinə çatdırmaq ictimai şüurun bu iki sahəsinin ümdə missiyası ilə, demokratik cəmiyyətlərin can atdıqları sivil ideyalarla əsla bir araya sığmır. Əlbəttə, Qərb incəsənətində islami həqiqətlərin düzgün dərki və obyektiv təsviri hallarını da inkar etmək olmaz. Islam aləminə mənsub olan hər bir kəs “Filmco International Production Inc” kinokompaniyasının Peyğəmbər haqqında çəkdiyi və 1977-ci ildə “Məhəmməd Allahın elçisidir” (ingilis varianti “The Message”) filminin yaradıcılarının dini dəyərlərimizə ciddi münasibətini layiqincə qiymətləndirir. İslam ehkamına görə insanın, o cümlədən bu dinin yaradıcısı Məhəmməd Peyğəmbərin özünün rəsm və ya heykəltəraşlıq vasitələri ilə obrazının yaradılması yasaqdır. Bunu incəsənətə münasibət baxımından müxtəlif cür izah edib qiymətləndirmək olar. Lakin burada bizi müəyyən bir dini etiqada, yaxud milli adət-ənənəyə münasibət, daha doğrusu, ona ehtiramla, sayğı ilə yanaşılması maraqlandırır. Filmdə Məhəmməd Peyğəmbər obrazının yalnız səslə yaradılması həmin dini qanuna riayət edilməsi ilə bağlıdır.

Təəssüf ki, belə müsbət nümunələrlə yanaşı islam dini və onun müqəddəsləri üzərinə hücumlar nəinki rast gəlir, hətta müasir dövrün qloballaşma məntiqinin ziddinə, getdukcə güclənir. Ciddi narahatlıq doğuran budur ki, belə mənəvi təxribatlarda incəsənətin kütləvi təsir imkanlarından geniş istifadə edilir. Akademik Vasim Məmmədəliyev yazır: “Qurani-kərimdə, bir tərəfdən, təkallahlılığın, tövhidin çox ciddi və ardıcıl qoyulması, digər tərəfdən, ictimai ədalət prinsiplərinin və əxlaq məsələlərinin ön plana çəkilməsi—məhz bu amillər müasir dövrdə islam dininin inkişaf etmiş Avropa ölkələrində, ABŞ və Kanadada kütlələr, xüsusilə ziyalılar içərisində missionersiz

yayılmasına zəmin yaradır. Bu isə, təbii ki, Qərbdəki bir sıra dairələri narahat edir. Səlman Rüşdi kimi avantüristləri və ona dil verənləri yerindən oynadan, hiddətləndirən, onu "Şeytan ayələri" kimi bir cəfəngiyat yazmağa təhrik edən də elə həmin narahatçılıqdır" (11, XV). Norveç mətbuatında Məhəmməd Peyğəmbərin karikaturalarının dərc olunmasını da həmin narahatçılığın ifadəsi kimi izah etmək olar.

İncəsənətdən bu niyyətlə istifadənin islam dünyasında kəskin etirazlarla qarşılandığı, dinlərin, mədəniyyətlərin, sivilizasiyaların dialoqu və dinc yanaşı yaşaması idealına vurduğu zərbə hələ yaddan çıxmamış növbəti düşmənçilik aksiyalarının, o cümlədən, "bədii təxribatların" törədilməsi planetimizdə sülh və əməkdaşlığın gələcəyi barədə ciddi təşviş doğurur. Xüsusən son hadisə - 2012-ci il sentyabrın 11-də (2001-ci il terror aktının 11-ci ildönümü günündə) ABŞ-da ekranlara buraxılan "Müsəlmanların məsumluğu" filmində islami dəyərlərin məsxərəyə qoyulması dərhal müsəlman ölkələrində kütləvi etirazlara, Liviyanın Benqazi şəhərində ABŞ-ın baş konsulluğunun dağıdılmasına, səfirinin və daha üç diplomatının qətlinə gətirib çıxartdı, nəticəsi əvvəlcədən görünməyən münaqişələrə təkan verdi.

Amma hesab edirik, burada səbəbiyyət əlaqəsi əsla mənəvi-dini amillərlə məhdudlaşmır, onun daha dərin siyasi, sosial, demoqrafik və s. kökləri var, ciddi mənafelərlə bağlıdır. Qərb dövlətlərinin yüz illər ərzində çapıb-taladıqları dünya müstəmləkəçilik sistemi dağılsa da, onu iqtisadi ekspansiya, hətta lokal münaqişələr törətməklə bu ölkələri yenidən ram etmək siyasəti əvəz edib. Bax burada təsirli ideoloji təminata ehtiyac yaranır. Din və incəsənət isə çox güclü və kütləvi təsir vasitələridir—hətta dağıdıcı niyyətlər üçün...Xüsusən də hər ikisi birləşəndə.

Bir sözlə, qarşılıqlı iqtisadi, siyasi, mədəni və s. əməkdaşlığın beynəlxalq miqyasda sürətlə dərinləşməsi və intensivləşməsi aşkar pozitiv nəticələri ilə yanaşı ciddi neqativ təsirlərlə də müşayiət olunur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, "Qloballaşan dünyada bəzi hallarda...ölkələr arasında ...mənəvi sahədə sərhədlər pozulur, sərhədləri keçirlər. Buna yol vermək olmaz. Bizi xalq kimi qoruyub saxlayan milli-mənəvi dəyərlərimizdir, islami dəyərlərimizdir, dilimizdir, ədəbiyyatımızdır. Əgər biz bundan sonra da ölkəmizin uğurlu inkişafını istəyiriksə, bu məsələlərə mütləq diqqət göstərilməlidir. İqtisadi islahatlar daha da sürətlə gedə bilər, ləng gedə bilər. Bu, o qədər də böyük problem yaratmaz. Ancaq əgər milli dəyərlərimizdə hər hansı bir boşluq yaranarsa, yaxud da ki, milli-mənəvi əsaslarımız zərər görsə, onda, əlbəttə, ölkə böyük təhlükələrlə üzləşər" (12).

Təbii ki, pozitiv münasibəti təqdir etməklə yanaşı neqativ təzahürlərə və haqsız hücumlara layiqli cavab da vacibdir. Lakin belə hallarda Qərb dövlətlərinin siyasi rəhbərləri yaxalarını kənara çəkərək, vətəndaşlarının məsuliyyəti məsələsindən yayınır, onların konstitusiya hüquqlarına, vicdan azadlığı təminatına istinad edirlər. Norveç karikaturaları ilə bağlı münaqişə beləcə qulaq ardına vuruldu, ABŞ-da pastor Consun Quranı yandırması dövlət səviyyəsində rəsmən pislənmədi, nəticədə daha ağır qarşıdurmaya gətirib çıxartdı.

Bununla bağlı islamın, daha doğrusu, onun müqəddəs kitabı Qurani-kərimin özündə belə hallara münasibətə diqqət yetirmək yerinə düşər. Onun 114 surəsindən biri—227 ayədən ibarət 26-cı "Əş-şuəra" ("Şairlər") surəsi islamın söz sənəti və onun təmsilçiləri barədədir (13, 349-364). Burada sözün qüdrəti, onun inandırıcı təsiri, yeni dinin təbliği sahəsində əhəmiyyəti vurğulanır, Məkkə müşriklərinin islama iman gətirmələri üçün onlara Musa və Harun, İbrahim, Nuh, Hud, Saleh, Lut və Şüeybin öz tayfa və qövmləri ilə söhbətlərini (hekayətləri) danışmaq tövsiyə olunur. Hər bir hekayət "şübhəsiz ki, bunda... bir ibrət vardır. Halbuki onların əksəriyyəti iman gətirmədi" fikri ilə yekunlaşdırılır,

bununla da islam həqiqətləri uğrunda mübarizənin sürəkli olacağına işarə edilir. Surənin 210-cu ayəsindəki “Quranı əsla şeytanlar endirmədi” ehkamı isə S.Rüşdi kimilərin qərəzli hücumlarına Quranın özünün əvvəlcədən verdiyi cavabdır.

Müasir dünyada, o cümlədən, müsəlman ölkələrində baş verən son hadisələrin islam ekstremizmi ilə əlaqələndirilməsi islam dininə zorakılıq donu geyindirmək kimi məkrli niyyətlərlə bağlıdır. Heç şübhəsiz, Qurani-kərimə, Məhəmməd Peyğəmbərin şəxsiyyətinə hücumları təşkil və icra edənlər bunun həqiqi müsəlmanlara pozucu təsir göstərəcəyinə elə bir ümid bəsləmirlər. Quranın öz dili ilə desək, “şairlərə [peyğəmbəri həcv edən müşrik və kafir şairlərə] gəlincə, onlara yalnız azğınlar uyar”. Surənin sonunda belələrinin öz cəzalarını alacaqları göstərilməklə yanaşı “ancaq iman gətirib yaxşı işlər görən, Allahı çox zikr edən və zülmə uğradıqdan sonra intiqamını alan” şairlər cəza çəkməkdən istisna edilir. Maraqlıdır ki, həmin intiqamını qanlı savaşla alan şairlər deyil, “onları həcv edən müşrik, kafir şairlərə *öz mənzumələri ilə qələbə çalan* (kursiv—S.Ə.) mömin şairlərin” nəzərdə tutulduğu göstərilir (13, 364). Hesab edirik, bu deyim islamın intiqam anlayışının heç də hökmən cismani məhvi nəzərdə tutmadığını, adekvat ideoloji, o cümlədən, bədii vasitələrlə dinc mübarizə aparmağı üstün tutduğunu söyləməyə əsas verir.

Bununla belə, dini, eləcə də milli zəmində baş verən münaqişələr heç də həmişə incəsənət müstəvisində cərəyan etmir, siyasi-hüquqi münaqişəyə çevrilir, hətta hərbi-terror xarakteri kəsb edir, belə təzahürlərə qarşı nəinki milli, habelə qlobal miqyasda əlbir mübarizə aparılması zərurəti yaranır. Azərbaycan Respublikasının Prezidenti İ. Əliyev islam müqəddəslərinə qarşı təhqiramiz hərəkətlərə diqqəti cəlb edərək demişdir: “Biz bu hallara biganə qala bilmərik. Nəinki müsəlmanlar, bütün dinlərin nümayəndələri, dünya liderləri öz səsini ucaltmalıdırlar. Hesab edirəm ki, bu məsələlərlə bağlı ciddi düşünməyə böyük ehtiyac vardır. Konkret addımların atılması üçün dünyanın tanınmış siyasi xadimlərinin ciddi sözlərinə ehtiyac vardır” (12).

**İstifadə edilmiş ədəbiyyat:**

1. Sovet Sosialist Respublikaları İttifaqının Konstitusiyası. Bakı: Azərnəşr, 1983, 50 s.
2. Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası. Bakı: Azərnəşr, 1984, 60 s.
3. Sovet İttifaqı Kommunist Partiyasının Nizamnaməsi. Bakı, Azərnəşr, 1968, 56 s.
4. Sovet İttifaqı Kommunist Partiyasının Proqramı. Bakı, Azərnəşr, 1986, 95 s.
5. Məmmədov M.Ə. İncəsənət və din. Bakı: Gənclik, 1971, 145 s.
6. Xəlilov Q. V.İ. Lenin və ədəbiyyat məsələləri. Bakı: Elm, 1970, 160 s.
7. Balayev M.A. İslam və onun ictimai-siyasi həyatda rolu. Bakı: Azərnəşr, 1991,152 s.
8. Тейяр де Шарден П. Феномен христианства // Глобальные проблемы и общечеловеческие ценности. М.: Прогресс, 1990, с. 98-105
9. Левинас Э. Философское определение идеи культуры // Глобальные проблемы и общечеловеческие ценности. М.: Прогресс, 1990, с. 86-97
10. Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər. Bakı: Əbilov, Zeynalov və oğullar NPE, 2007, 400 s.
11. Məmmədəliyev V. M. Ön söz // Qurani-Kərim, Bakı: Azərnəşr, 1992, s. V- XXXII
12. Əliyev İ. Müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində çıxışı. “Xalq qəzeti”, 2012, 16 avqust
13. Qurani-Kərim / Ərəb dilindən tərcümə edənlər Z. Bünyadov və V.Məmmədəliyev. Bakı: Azərnəşr, 1992, 714 (32) s.

**Севиндж Алескерова**

**ВЗАИМООТНОШЕНИЯ РЕЛИГИИ И ИСКУССТВА В СВЕТЕ НАЦИОНАЛЬНЫХ И ГЛОБАЛЬНЫХ ОТНОШЕНИЙ**

***Резюме***

Статья посвящена исторически сложным взаимоотношениям религии и искусства. На основе конкретных фактов анализируется в ней современное состояние этой болезненной проблемы мировой цивилизации. Особое внимание уделяется негативному воздействию всесторонней глобализации межнациональных связей к национальным духовным ценностям, в т. ч. религиозным и художественным. Подчеркивается важность совместной борьбы против таких проявлений.

***Цель*** – Анализ сегодняшних общественно-политических событий, в особенности так называемых региональных или локальных конфликтов.

***Методология*** – сравнительный анализ

***Результат*** – Исследование проблем взаимосвязи религии и искусства.

***Ключевые слова:*** религия и искусство, международные отношения, художественно-эстетическая мысль, взаимосвязь религии и искусства

**Sevinj Alasgarova**

**RECIPROCAL CORRELATION OF RELIGION AND FINE-ART FROM NATIONAL AND GLOBAL RELATIONS POINT OF VIEW**

***Summary***

The article has been dedicated to complicated relations between religion and art. Recent situation of these kinds of morbid problems of civilization is analyzed on the base of concrete facts. Negative effects of wide globalization of international relations on national spiritual fortune, religious and literal values underlined in the article. The necessity of collaborative struggle against such problems is mentioned as well.

***Purpose*** **–** Analysis of today's socio-political events, especially so-called regional or local conflicts.

***Methodology*** **–** comparative analysis

***Findings*** **–** research of problems of interrelation of religion and art.

***Keywords:*** religion and art, international relations, our artistic and aesthetic thought, interrelation of religion and art

**Rəyçi: AƏSMA-nın kafedra müdiri, dos. Zeynəddin Şabanov**

**Qəbul edilib: 02.09.2020**

**UOT 316**

**Əliyar Orucov**
***FHN-nin Akademiyasının***
***Tədris şöbəsinin böyük metodisti,***
***fəl. f. d., dosent,***
orucov.aliyar@mail.ru

# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ TƏHLÜKƏSİZLİYİNİN İDEOLOJİ ƏSASLARI: SOSİAL-SİYASİ TƏHLİL

*Məqalə Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ideoloji əsaslarından bəhs edir. Milli təhlükəsizlik, hər şeydən əvvəl cəmiyyətdəki müxtəlif sosial birliklərə, institutlara, təşkilatlara daxil olan, bununla əlaqədar sosial strukturda müxtəlif sosial statuslara malik olan, fərqli sosial rollar icra edən insanların ümdə maraqlarını və tələbatlarını nəzərdə tutur. Hazırkı şəraitdə dünyada baş verən mürəkkəb siyasi proseslər nəticəsində ideologiya və milli ideologiya məsələsi xüsusi əhəmiyyət kəsb edir. Müəllif məqalədə Azərbaycan Respublikası milli təhlükəsizliyinin ideoloji əsaslarının sosial-siyasi təhlilini vermişdir.*

***Məqsəd*** – Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ideoloji əsaslarını araşdırmaq.
***Metodologiya*** – müqayisəli təhlil və sistemli yanaşma.
***Tədqiqatın nəticələri*** – Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ideoloji əsaslarının sosial-siyasi təhlili aparılmış və müəyyən nəticəyə gəlinmişdir.
***Açar sözlər:*** milli ideologiya, azərbaycançılıq ideologiyası, milli inkişaf, milli təhlükəsizlik, milli təhlükəsizlik konsepsiyası, hərbi doktrina, ərazi bütövlüyü, ideoloji əsaslar, işğalçı qüvvələr, milli dövlətçilik

## Giriş

Beynəlxalq münasibətlərin subyekti kimi hər bir dövlətin dünyadakı nüfuzu və imici onun həyata keçirdiyi milli təhlükəsizlik siyasəti ilə bilavasitə bağlıdır. Milli təhlükəsizlik siyasəti ölkənin sosial-siyasi, iqtisadi və mənəvi inkişafının, xarici aləmdən qaynaqlanan təhlükələrə qarşı müqavimət gücünün, səmərəli dövlət idarəçiliyinin ölkədaxili sabitliyin, vətəndaşların milli ideyalar, məqsədlər, amallar ətrafında birləşməsi, ictimai-siyasi həyatda iştirakı vəziyyətinin və s. daxili məsələlərin əsas göstəricilərindən biri kimi çıxış edir. SSRİ-nin dağılması nəticəsində dünyanın geosiyasi və hərbi-geostrateji vəziyyətinin dəyişməsi, müstəqillik əldə etmiş yeni dövlətlərin bir siyasi sistemdən digərinə keçidi və başqa transmilli proseslər bütün postsovet respublikalarında olduğu kimi, Azərbaycan dövləti qarşısında da milli inkişaf və milli təhlükəsizlik strategiyasının yaradılması vəzifəsini irəli sürdü. Müstəqilliyinin ilk illərində Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinin mahiyyəti, əsas istiqamətləri, həyata keçirilmə yolları və mexanizmləri ilə bağlı da dövlət qurumlarında və cəmiyyətdə əsaslandırılmış yanaşma və təsəvvürlər olduqca səthi idi. Lakin çox keçmədən ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə özündə müstəqil dövlət maraqlarını və beynəlxalq dəyərləri, ümumi təhlükəsizlık normalarını və milli postulatları əks etdirən, şəxsiyyətin, cəmiyyətin, dövlətin təhlükəsizliyinin əsas vəzifələrini, istiqamətlərini və prioritetlərini ehtiva edən yeni milli təhlükəsizlik konsepsiyası yaradıldı və sonrakı dövrdə müxtəlif inkişaf mərhələlərindən keçərək təkmilləşdirildi. Milli təhlükəsizlik siyasətinin nəzəri əsasları və prinsipləri

dövlətin və cəmiyyətin ümumi vəziyyətindən, inkişaf səviyyəsindən asılı olaraq sabit yaxud dəyişkən olur, milli tələbata uyğun yeniləşir, təkmilləşir və əsas dövləti vəzifələrin həlli ilə əlaqələndirilir. Azərbaycanın milli təhlükəsizliyinin təmin olunmasında və bu sahə üzrə yürüdülən siyasətin mahiyyətinin, əsas vəzifələrinin, istiqamətlərinin müəyyənləşməsində vahid milli ideyanın-azərbaycançılığın formalaşması və dövlət siyasəti səviyyəsinə qaldırılması mühüm əhəmiyyətə malik olmuşdur.

Azərbaycan Respublikasının milli maraqları Azərbaycan xalqının fundamental dəyər və məqsədlərinin, habelə insanın, cəmiyyətin və dövlətin inkişaf və tərəqqisini təmin edən sosial, siyasi, iqtisadi, və digər tələbatların məcmusudur. Azərbaycan Respublikasının siyasi sahədə əsas milli maraqlarına aşağıdakıları aid etmək olar: dövlət müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü; konstitusiya quruluşunun qorunması, demokratik, hüquqi, dünyəvi dövlətin mövcudluğu; Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması; vətəndaş cəmiyyətinin formalaşdırılması, insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması; ictimai–siyasi sabitliyin təmin olunması; kəşfiyyat, terror-təxribat və digər pozuculuq fəaliyyətinin qarşısının alınması; xaricdə yaşayan həmvətənlərimizin hüquqlarının müdafiəsi; Azərbaycanın dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşaması, bərabər tərəfdaşlıq əsasında beynəlxalq əməkdaşlığın inkişafı, Avropa və dünya birliyinə inteqrasiya; beynəlxalq aləmdə Azərbaycan Respublikasının nüfuzunun artırılması.

Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında qarşılıqlı fəaliyyət göstərən və öz səlahiyyətləri çərçivəsində milli təhlükəsizliyin təmin olunmasına cavabdeh olan qüvvələr və digər dövlət orqanları Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması sistemini təşkil edirlər və milli təhlükəsizliyin təmin olunmasına görə məsuliyyət daşıyırlar. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması sistemi vahid dövlət siyasətinin hazırlanması, sosial, siyasi, iqtisadi, hərbi, informasiya, ekoloji, elm, mədəniyyət və mənəviyyat, habelə digər sahələrdə milli maraqların qorunması prosesinin kompleks fəaliyyət şəklində səmərəli tətbiqi üçün yaradılır. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması aşağıdakı məqsədi daşıyır: insanın təhlükəsizliyi - insanın hər tərəfli inkişafı üçün əlverişli şəraitin mövcudluğu, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində ümumdövlət tədbirlərinin həyata keçirilməsi; cəmiyyətin təhlükəsizliyi - Azərbaycan xalqının həyati əhəmiyyətli maraq və tələbatlarının, habelə ictimai dəyərlər sisteminin təhlükə və təhdidlərdən qorunması; dövlətin təhlükəsizliyi - Azərbaycan Respublikasının müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun və həyati əhəmiyyətli digər maraqlarının təhdidlərdən qorunması. Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunması aşağıdakı əsas vəzifələri nəzərdə tutur: Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlərin aşkarlanması, təhlili və pronozlaşdırılması; Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təhdidlərin qabaqlanması və qarşısının alınması üzrə tədbirlərin hazırlanması və həyata keçirilməsi; Azərbaycan Respublikasının milli təhlükəsizliyini təmin edən qüvvə və vasitələrin formalaşdırılması və hazırlığının təmin edilməsi; Azərbaycan Respublikasının milli təhlükəsizliyinə bilavasitə təhdid və qəsdlərin yarandığı təqdirdə bütün qüvvə və vasitələrin səfərbər edilməsi, müvafiq əks tədbirlər kompleksinin həyata keçirilməsi, yaranmış vəziyyətin mümkün nəticələrinin lokallaşdırılması və aradan qaldırılması; Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərinə müvafiq olaraq ümumi və regional təhlükəsizliyin təmin olunmasında iştirak.

Müstəqilliyimizin 30-cu ildönümünə hazırlaşdığımız hazırkı şəraitdə, dünyada baş verən mürəkkəb siyasi proseslər kontekstində ideologiya, milli ideologiya məsələsi xüsusi əhəmiyyət kəsb edir. Milli ideologiya hər bir dövrdə ortaya qoyula bilər. Amma onun milli

ideologiyaya çevrilməsi isə hər zaman baş vermir. Qeyd edək ki, ideologiya ideya, milli ideologiya isə milli ideyalar nəticəsində Avropada yaranmışdır. İdeologiya terminini elmi dövriyəyə ilk dəfə fransız filosofu və iqtisadçısı Antuan Destyut De Trassi gətirmişdir. O,istər XVIII əsrin sonunda yazdığı “Düşünmək qabiliyyəti haqqında etüdlər” əsərində, istərsə də 1801-1815-ci illərdə yazdığı “İdeologiyanın ünsürləri” adlı dörd cilddən ibarət əsərində ideologiyanı ideyaların təşəkkülü və insan təfəkkürünün qanunları haqqında elm kimi əsaslandırmağa cəhd etmişdir. Milli ideya anlayışını ilk dəfə Fransada XVIII əsrdə A.Vasyxaunt işlətmişdir. Sonralar J.J.Russo və C.Mişle öz elmi əsərlərində milli ideya məsələlərinə xüsusi yer vermişlər. Rusiyada isə milli ideya əvvəlcə Qərbin əleyhinə olan slavyanofil ədəbiyyatda əsasən N.Berdyayev, A.Danilevski, F.Dostoyevski, V.Solovyov və başqalarının yaradıcılığında öz əksini tapmışdır. Eyni zamanda İ.A.İlyin, A.Soljenitsin və başqaları XX əsrdə rus milli ideyasının inkişafında xüsusi rol oynamışlar. Almaniyada ideologiyanın təşəkkülü, demək olar ki, klassik alman filosofu Hegelin adı ilə bağlıdır. O, öz əsərlərində ideya, ideologiya, mənəviyyat və s. məsələləri şərh etmiş, onların qarşılıqlı əlaqələri məsələsinə toxunmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin ideoloqlarından olan ictimai-siyasi xadim M.B.Məmmədzadə istiqlal,azadlıq, milli ideya və müstəqillik məfkurəsinin inkişafında M.F.Axundovun müstəsna rol oynadığını xüsusi qeyd edərək yazırdı: “Azərbaycan milli xartiyasının xülasəni istiqlal fikrinin təşkilində Mirzə Fətəlidən Üzeyirə kimi, “Əkinçi”dən “Azərbaycan” və “Yeni Qafqaziya”yadək hər birinin olduqca böyük və dəyərli rolları olmuşdur. Siyasi-ictimai fikirlərimizin tərəqqi və təkamül tarixini təşkil edən bu dövr bu gün aydın və parlaq istiqlal məfkurəsinin təməlini təşkil edir. Hətta ən uzaq istiqlalımızı təyin etmək üçün belə keçirdiyimiz fikri-inkişaf tarixinə baxmaq və ondan milli hərəkatın ruh və mahiyyəti haqqında bir fikir almaq kifayət edər.

Zənnimizcə, Mirzə Fətəli və Həsənbəy Zərdabi əlli il sonra dünyaya gəlsə idilər istiqlal fikri, Azərbaycan milli xartiyası da əlli il sonra meydana gələcəkdi. Bunların arasında sıx bir münasibət və rabitə vardır. Özünün türkçülüyünü və azərbaycanlılığını dərk etməyən xalq belə bir bəyannaməni verə bilməzdi” [1, s.139]. İdeologiya və milli ideya məsələlərinin şərhinə dair dünya və Azərbaycan elmi ədəbiyyatında bir çox elmi-tədqiqat əsərləri yazılmış və yazılmaqdadır.

Milli ideologiya cəmiyyətdə milli birliyi və millətlərarası ümumxalq münasibətləri qorumaq, millətin tarixdə mövqeyini izah və təsdiq etmək üçün yaradılır. Bundan əlavə, milli ideologiya xalqın milli-mənəvi varlığının başlıca əlamətlərindəndir. O, xalqın milli kimliyini göstərən təfəkkür, adət və ənənələr sistemidir. Dil, din, ərazi və ideoloji birlik millət və milli dövlətin tarixi varlığının əsas rəmzləridir. Milli ideologiya xalqımızın milli idealı olan azadlıq və müstəqilliyin, milli inkişafın təmin olunmasına, ərazi bütövlüyünün qorunub saxlanılmasına xidmət edən sosial strukturdur.

1991-ci ilin fevralında dövlətimizin adından “sovet” və “sosialist” sözləri çıxarılaraq o, Azərbaycan Respublikası adlandırıldı. Həmin ilin oktyabr ayının 18-də Azərbaycan Ali Sovetinin ikinci sessiyası Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Bununla da Azərbaycan xalqı özünün siyasi, iqtisadi, mədəni-intelektual potensialından və keçmiş sovetlər birliyinin dağılması ilə əlaqədar yaranan əlverişli tarixi şəraitdən istifadə edərək, 1991-ci ildə öz milli iradəsini ortaya qoydu və yenidən istiqlaliyyətinə qovuşaraq müstəqil dövlətçiliyini bərpa etdi. Nəhayət, 1991-ci ilin dekabrında keçmiş sovetlər birliyinin süquta uğramasından sonra yenidən siyasi varlığa çevrilən Azərbaycan Respublikası dünyada öz layiqli yerini tutmağa başladı və BMT üzvü olan müstəqil dövlətlər sırasına qoşuldu. Bununla da xalqımız sovetlər birliyinin dağılmasından sonra keçmiş SSRİ-nin bütün millət və xalqları kimi azadlıq şəraitində milli ideyanın, milli şüurunun və milli özünüdərk ideyalarının inkişafı

üçün geniş imkanlar əldə etdi. Həmçinin bu zaman totalitar Sovet sisteminin iflasından və kommunist rejiminin süqutundan sonra formalaşan milli dövlətçiliyimiz artıq yeni inkişaf yoluna çıxmaq üçün geniş imkanlar qazandı. Lakin məlumdur ki, “milli mənlik ideyalarını həyata keçirmək üçün yeganə vasitə Azərbaycan milli ideologiyası və onun konsepsiyası ola bilər” [2, s.31]. Belə ki, milli ideya, milli özünüdərketmə xalqı və hakimiyyəti birləşdirən bir zəmin olaraq müstəqil yaşamaq hüququ əldə edən Azərbaycan Respublikasına öz tarixi milli özünüdərk ənənələrini yeni demokratik dövlət təsisatları ilə üzvi surətdə əlaqələndirmək imkanı verdi. “Milli ideyanın” gücü dövlətdirsə, dövlətin gücü isə milli ideyaya, milli şüurun inkişafına xidmət etməkdədir.

Hazırkı şəraitdə xalqımız bir milli ideya-azərbaycançılıq ideologiyası ətrafında sıx birləşmişdir. Konstitusiyamızda göstərildiyi kimi, milli özünüdərkdən gələn azərbaycançılıq ideologiyası Azərbaycan xalqının dövlətyaratma mənafelərinin ümumiliyi və demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizənin məqsədidir. Onu da qeyd etmək lazımdır ki, azərbaycançılığın tarixi XIX əsrin sonlarına və daha qədimlərə gedib çıxsa da, bu məhfum ölkəmizin ictimai-siyasi və sosial həyatında yaxın illərdən başlayaraq istifadə olunur. Onun mahiyyəti xalqı mənəvi və fiziki baxımdan xarici qüvvələr tərəfindən zəiflətmək cəhdlərindən qorumaqdır. Bu ideologiya unitar, hüquqi və demokratik dövlət kimi Azərbaycanın möhkəmlənməsinə və inkişafına yönəlmişdir. Azərbaycançılıq müstəqil və bənzərsiz Azərbaycanı sivil dövlətlər sırasına çıxaracaq bir yoldur. Həmçinin azərbaycançılıq xalqımızın çox əzab-əziyyətlə nail olduğu tarixi və mənəvi, sosial-siyasi sərvətdir. Belə ki, o, real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün mənbədir. Bir ideologiya kimi “azərbaycançılıq Azərbaycanın fəlsəfi-sosioloji doktrinasını sosial-mədəni və etnocoğrafi-siyasi cəhətlərini özündə birləşdirir. O, qarşılıqlı dəstək, əməkdaşlıq və bərabərlik prinsipidir” [3, s.30]. Eyni zamanda bu ideya dünya azərbaycanlılarının mütəşəkkilliyidir, vəhdəti və birliyidir. Bu gün Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıq ideologiyasıdır. Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini, habelə insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusundan ibarət olan Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında “Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması, azərbaycançılıq ideyasının təşviqi və dünya azərbaycanlılarının bölüşdüyü dəyərlərə əsaslanan milli özünəməxsusluğun və həmrəyliyin möhkəmləndirilməsi nəzərdə tutulmuşdur” [4].

Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikası ərazisinin bir hissəsinin işğalı və Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində etnik təmizləmə siyasətini aparması, sosial və iqtisadi infrastrukturun dağıdılması ilə nəticələnmiş təcavüz aktı Azərbaycan Respublikasının milli təhlükəsizliyinə mənfi təsir göstərən əsas amillərdəndir. Dünyanın gözü qarşısında işğal altında saxlanılmış Azərbaycan ərazilərində bütün milli-mədəni dəyərlərə, nəinki islam, eləcədə xristian dövrünə aid abidələrə qarşı aparılan vandalizm hərəkətləri bəşər mədəniyyətinin və tarixinin məhvinə yönələn cinayət kimi pislənilməli və beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmalıdır. Və ideoloji cəbhə son illər də səmərəli iş nəticəsində informasiya blokadasını yararaq bir çox ölkələrdə Ermənistanın işğalçı dövlət kimi tanınması artıq bir fakt kimi qəbul olunur. Belə ki, ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasəti təkcə müasir dövrü əhatə etmir. Bu siyasətin 300 illik tarixə malik olduğunu desək yanılmarıq. Ona görə də azərbaycanlılar və ermənilər arasında tarixən mövcud olmuş konflikt, həm də ideoloji müharibədir. Ermənilərin törətdikləri qanlı cinayətlər Cənubi Qafqazın etnik azərbaycanlılara məxsus olan bütün yaşayış məntəqələrini əhatə etmiş və bu cinayətlər nəticəsində son yüz il ərzində iki milyondan artıq azərbaycanlı öz tarixi torpaqlarından didərgin salınmış, xüsusi

qəddarlıqla soyqırıma məruz qalmışlar. Erməni qəsbkarları tərəfindən törədilən Xocalı soyqırımı insan hüquq və azadlıqlarının ən kobud və ən qəddar şəkildə pozulmasına bir nümunədir və bu bir çox beynəlxalq səviyyədə qəbul edilmiş sənədlərdə də öz əksini tapmışdı. Bu sənədlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü, Xocalıda mülki insanların vəhşicəsinə öldürülməsi birmənalı olaraq pislənilir. Bir çox dövlətlərin qanunverici orqanları Xocalı soyqırımının insanlığa qarşı törədilmiş cinayət hadisəsi olması haqqında hüquqi sənədlər qəbul etmişlər. Qeyd edək ki, ermənilərin özünküləşdirmə siyasəti nəticəsində tarixi Azərbaycan torpaqlarında Ermənistan dövləti yaradıldıqdan sonra isə bu soyqırım siyasəti Ermənistan dövləti səviyyəsində bu gündə davam etdirilməkdədir. Azərbaycan Respublikası da milli təhlükəsizliyini təhdid edən, milli maraqlara zərər vura bilən fəaliyyətin qarşısının alınması üçün müvafiq tədbirlər görür. Bu mənada Azərbaycan Respublikasının Milli Məclisinin 8 iyun 2010-cu ildə Azərbaycan Respublikasının “Hərbi doktrina”sını təsdiq etməsi tarixi zərurətdən irəli gələn addım idi. Hərbi doktrina Heydər Əliyev tərəfindən bünövrəsi qoyulmuş Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təminatı strategiyasının tərkib hissəsi olaraq, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici, hərbi və digər təhdidlərdən qorunmasına yönəlmiş hərbi təhlükəsizlik sisteminin konsteptual əsasını müəyyənləşdirən sənəddir. Azərbaycan Respublikasının “Hərbi doktrina”sında Ermənistanın işğalçılıq siyasəti barədə deyilir: “Ermənistan Respublikasının ərazisində tarixən azərbaycanlıların yaşadıqları yerlərdə və Azərbaycan Respublikasının işğal altında olan Dağlıq Qarabağ və ətraf ərazilərində ümumdünya tarixi və mədəni irsinin tərkib hissəsi olan maddi-mədəniyyət abidələri məhv və talan edilir. Ermənistan Respublikası tərəfindən işğal edilmiş ərazilərin müvəqqəti olaraq Azərbaycan Respublikasının hakimiyyət orqanlarının nəzarətindən kənarda qalması yalnız milli təhlükəsizliyə deyil, regional təhlükəsizliyə də ciddi təsir göstərir. Bu vəziyyət beynəlxalq birliyin problemin həllində göstərdiyi səylərin səmərəsizliyi nəticəsində daha da ağırlaşır”[5].

1994-cü ilin sentyabrında BMT Baş Məclisinin 49-cu sessiyasında Dağlıq Qarabağ probleminin sülh yolu ilə həllində BMT-nin rolu barədə çıxış edən Heydər Əliyevə görə “Azərbaycan Respublikası münaqişənin sülh yolu ilə, siyasi yolla aradan qaldırılmasına tərəfdar olaraq belə hesab edir ki, yalnız Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmək yolu ilə təcavüzün nəticələrini aradan qaldırmaq, uzunmüddətli möhkəm sülhün bərqərar edilməsi və bütün əhalinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə sabit və əməli danışıq prosesi aparmaq olar. Eyni zamanda Cənubi Qafqaz regionunda yaranmış vəziyyəti, beynəlxalq aləmdə sülhün və təhlükəsizliyin təmin edilməsi yolunda BMT-nin rolunun artırılması və digər prinsipial məqamlara toxunan Heydər Əliyevin fikrincə Təhlükəsizlik Şurasının qərarlarının yerinə yetirilməməsi BMT-yə qarşı işləyir və onun beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq kimi əsas vəzifəsini yerinə yetirmək bacarığına inamı poza bilər” [6, s.210].

Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli məsələsindən danışan Heydər Əliyev siyasi kursunun davamçısı cənab İlham Əliyev 24 sentyabr 2010-cu ildə BMT Baş Assambleyasındakı çıxışında demişdir: “Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası qəbul etdiyi dörd qətnamədə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə tam dəstəyini vermiş və torpaqların gücdən istifadə edərək ələ keçirilməsinin qəbuledilməzliyini vurğulamışdır. BMT, həmçinin Dağlıq Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımış, işğalçı qüvvələrin Azərbaycanın işğal edilmiş bütün ərazilərindən dərhal, tam şəkildə və qeyd-şərtsiz çıxarılmasına çağırmışdır. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi və digər beynəlxalq təşkilatlar, o cümlədən ATƏT, Avropa Şurası, Avropa Parlamenti, İslam Konfransı Təşkilatı eyni mövqeni tutmuşlar. Əfsuslar olsun ki,

beynəlxalq ictimaiyyətin yekdil mövqeyinə baxmayaraq, Azərbaycan əraziləri işğal altında qalmaqda davam edir. Bu günə qədər münaqişənin mümkün qədər tez və davamlı həll variantını tapmaq məqsədi ilə vicdanla danışıqlar aparmaq əvəzinə, Ermənistan vəziyyətin ağırlaşmasına üstünlük verir ki, bu da öz növbəsində gözlənilməz nəticələrə gətirə bilər. Münaqişənin tezliklə həll olunması istiqamətində göstərilən hazırkı səylərə baxmayaraq, Azərbaycanın işğal edilmiş ərazilərində aparılan işlər beynəlxalq hüququ kobud surətdə pozur və işğalın cari status-kvosunun daha da möhkəmləndirilməsinə, etnik təmizləmənin nəticələrinin saxlanmasına, zəbt olunmuş ərazilərdə məskunlaşmanın aparılmasına xidmət edir, o cümlədən münaqişənin dinc yolla həllinə ciddi maneə yaradır”[7].

9-10 noyabr 2001-ci ildə respublikamızın müstəqilliyinin 10-cu ildönümünün təntənə ilə qeyd olunduğu bir vaxtda Bakı şəhərində Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi bir daha azərbaycançılıq ideologiyasına dövlətimizin necə xüsusi önəm verdiyinin şahidi oluruq. Həmin qurultayda ümummilli lider Heydər Əliyev çıxış edərək demişdir: “Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gündə fəxr edirəm ki, mən Azərbaycanlıyam!”[8,s.25]. Ümummilli lider Heydər Əliyevin bu ifadəsi azərbaycançılıq ideologiyasının daha da inkişafına stimul vermiş oldu. Bu barədə professor Əli Həsənov “Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti” adlı kitabında yazır: “Heydər Əliyev yeni şəraitdə etnik mənsubiyyəti xüsusi qabartmadan birləşdirici azərbaycançılıq ideyasının-ümumvətəndaşlıq, Azərbaycana mənsubluq, vətənə bağlılıq, Azərbaycan dilinə və mədəniyyətinə sevgi, dövlətin sevinci və kədəri, dəyərləri və problemləri qarşısında ümumi və bərabər məsuliyyət hissi daşımaq kimi yeni konfiqurasiyanın – Azərbaycanın müstəqil dövlətçiliyi üzərində qurulmuş milli inkişaf siyasətinin ideoloji əsaslarını ortaya qoydu. Həm də xüsusi qeyd olunmalıdır ki, Heydər Əliyev daxili siyasətində vətəndaşların vahid amal və məqsəd ətrafında birləşdirilməsi istiqamətində addımlarını etnik-milli müstəvidən dövlətçilik və vətənpərvərlik müstəvisinə ustalıqla və mükəmməl formada keçirərək, respublikanın əsas vətəndaşları olan türk kökənli çoxluqla digər milli azlıqların, etnik qrupların birliyinə nail ola bildi” [9, s.30]. Məhz Heydər Əliyev müasir Azərbaycanda əhalinin əksəriyyətini vahid amal, məqsəd və milli ideya ətrafında birləşdirəcək milli ideologiya məsələsini - azərbaycançılıq məfkurəsini ümumdövlət səviyyəsinə qaldırdı və müasir Azərbaycan Respublikasının Azərbaycan Xalq Cümhuriyyətinin qanuni varisi olduğunu bildirdi. O, azərbaycançılıq ideyasını bütöv bir xalqın-dünyada yaşayan bütün azərbaycanlıların, Azərbaycanla bağlılığı olan bütün həmvətənlərimizin vahid milli birlik simvoluna çevirdi. Bu zaman azərbaycançılıq ideologiyası Azərbaycanın tarixi keçmişi, xalqın adət-ənənələri, dövlətçiliyinin dünəni, bu günü və gələcəyi ilə sıx şəkildə əlaqələndirildi. “Cəmiyyətdə hakim olan istiqlal arzusu, azərbaycançılığın müstəqil ölkənin bütün əhalisinin ali ideologiyasına çevrilməsi, ümummilli birliyin təmin olunması zərurəti tezliklə ictimai-siyasi, elmi, yaradıcı və digər ziyalı dairələrinin gündəminə çıxarıldı. Azərbaycançılıq ideyasına tamamilə yeni məzmun verildi və bu ideya ölkənin milli-etnik xüsusiyyətlərinə, müasir inkişafının tələblərinə və dünyanın yeni şəraitinə uyğunlaşdırıldı” [9, s.31]. Dünya Azərbaycanlılarının 16 mart 2006-cı ildə ikinci, 5-6 iyul 2011-ci ildə üçüncü və nəhayət 3-4 iyun 2016-cı ildə dördüncü qurultayın keçirilməsi azərbaycançılıq ideologiyasının dövlət siyasəti olduğuna dəlalət edir. Azərbaycançılıq milli ideologiyası xalqın özünə inamının, əqidəsinin, düşüncəsinin mənbəyi və hərəkətverici qüvvəsi kimi milli dövlətçiliyin qorunmasına xidmət edir. Həmçinin azərbaycançılıq dünya azərbaycanlılarını birləşdirən, onlara milli kimliyini tanıdan milli ideologiyadır. Bu milli ideologiyanın inkişaf etdirilməsi dövlətçiliyimizin canlandırılması və zənginləşdirilməsi deməkdir. Azərbaycançılıq ideologiyasının daha da inkişafı milli dövlətçiliyimizin sosial

bazasının gücləndirilməsinə və onun uzun illər yaşamasına təminat yaradılması kimi başa düşülməlidir. Qeyd edək ki, müasir Azərbaycan cəmiyəti bütün milli-mənəvi və əxlaqi dəyərlərimizi özündə birləşdirən azərbaycançılıq ideologiyası ilə beynəlxalq aləmə inteqrasiya olunur. Beləliklə, azərbaycançılıq ideologiyası xalqın özünəinamının, əqidəsinin, düşüncəsinin mənbəyi və hərəkətverici qüvvəsi kimi milli dövlətçiliyin qorunmasına xidmət edir. Müasir dövrdə Azərbaycan dövlətçiliyinin mənəvi dayağı olan azərbaycançılıq ideologiyası əsasında xalqımız özünün varlığını dərk edir, maddi-mənəvi sərvətlərinin sahibi olur. Bu ideyanın sayəsində Azərbaycan cəmiyyətində milli-mənəvi düşüncənin inkişafı psixoloji cəhətdən insanlarda, o cümlədən də gənclər arasında vətənpərvərlik ruhunu gücləndirir. Zənnimizcə, bu sahədə aparılan işlər nəticəsində uğurlar davam etdirilərək xalqın azərbaycançılıq hissinin zənginləşməsinə və gələcək inkişafına səbəb olacaq. “Hazırda respublika öz inkişafının keçid dövrünü başa vuraraq, sosial-iqtisadi, mənəvi və s. sahələrdə yeni mərhələyə qədəm qoymaqdadır. Keçən illərdə Azərbaycan bütün sahələr üzrə Heydər Əliyevin milli inkişaf siyasətini uğurla həyata keçirərək, nəzərə çarpacaq nailiyyətlər qazanmışdır. İctimai-siyasi həyatın demokratikləşməsi, vətəndaş cəmiyyəti quruculuğunun, siyasi plüralizmin getdikcə dərinləşməsi, iqtisadi həyatın liberallaşması, sahibkarlıq institutlarının yaradılması və sahibkar təşəbbüskarlığına söykənən iqtisadiyyat modelinin bərqərar olması, iqtisadi və sosial infrastrukturun təkmilləşdirilməsi və s. göstəricilər Azərbaycanın gələcək inkişafı üçün geniş imkanlar açmışdır. Müşahidə olunan dayanıqlı inkişaf həm də hakimiyyət qarşısında yeni, uzunmüddətli Milli İnkişaf Konsepsiyasının yaradılması və həyata keçirilməsi vəzifəsini irəli sürmüşdür. Azərbaycanın ictimai, siyasi, iqtisadi, mədəni həyatının bütün sahələrində əldə etdiyi uğurlar Prezident İlham Əliyevə qarşıdakı dövrdə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, mənəvi-ideoloji transformasiyasının yeni mərhələsinin təməlini qoymaq və milli inkişafın növbəti on ilinin vəzifələrini müəyyənləşdirmək imkanı yaratmışdır. Azərbaycan dövləti bütün sahələrdə nail olunan müvəffəqiyyətlərlə kifayətlənməyərək, Qərbin inkişaf etmiş ölkələrinin standartları səviyyəsinə yüksəlməyi və müasir bir ölkəyə çevrilməyi hədəfə almışdır” [9, s.36-37]. Həmçinin Azərbaycanın geosiyasi perspektivləri və gələcəyi ilə bağlı mövcud təhdidlər, yarana biləcək hər hansı problemlər, onların aradan qaldırılması yolları günün ən aktual məsələsi olaraq qalmaqdadır. “Eyni zamanda Azərbaycan dövlətinin ölkədə, regionda və dünyada yürütdüyü geosiyasi və geostrateji dövlət siyasətinin və atdığı praktik addımların, dünyanın, regionun və Avropanın təhlükəsizlik, enerji, tranzit-keçid, beynəlxalq daşıma və nəqliyyat-kommunikasiya sistemində iştirakı məsələləri, ölkəmizi təhdid edən qüvvələrə qarşı mübarizəni zəruri edir” [10, s.12].

İşğalçı Ermənistanın təxribatı nəticəsində tarixə dörd günlük müharibə kimi düşən aprel döyüşlərində Azərbaycan Silahlı Qüvvələri işğal olunmuş ərazilərimizin bir hissəsini və bəzi strateji yüksəklikləri düşmən qüvvələrindən təmizlədi. Bu hadisə Silahlı Qüvvələrimizin döyüş əzminin yüksəlməsində və Azərbaycan diplomatiyasının diqtə edən tərəfə çevrilməsində mühüm rol oynadı. Aprel döyüşlərindən sonra münaqişənin həll olunması ilə bağlı 16 may 2016- cı ildə Avstriyanın paytaxtı Vyanada ABŞ, Fransa və Rusiyanın təşkilatçılığı ilə keçirilən Ermənistan-Azərbaycan danışıqlarında əlverişli siyasi-hüquqi şərait yaransa da, təəssüflər olsun ki, öz müsbət bəhrəsini verməmişdir. Başqa sözlə, Azərbaycan torpaqlarının işğal altında qalmasının müddəti müəyyən qüvvələr və dövlətlər tərəfindən uzadılırdı. Bu isə status-kvonun saxlanılması deməkdir. Çox təəssüflə qeyd etmək lazımdır ki, ötən illər ərzində keçirilən görüşlər nə Azərbaycanın ərazi bütövlüyünü bərpa edir, nə də qaçqınların öz evlərinə qayıtmasını təmin edirdi. 12 iyul 2020- ci ildə Azərbaycanın Ermənistanla həmsərhəd Tovuz rayonuna işğalçı Ermənistan

silahlı qüvvələrinin hücumu və düşmən tərəfindən törədilən təxribatın Azərbaycan ordusu tərəfindən qarşısının layiqincə alınması bir daha aparılan danışıqların səmərəsizliyindən xəbər verirdi.

27 sentyabr 2020-ci ildə düşmənin təxribatı nəticəsində əks hücuma keçən Azərbaycan ordusu 30 ilə yaxın müddətdə Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal altında saxlanılan doğma torpaqlarımızı azad etməyə başladı. Qısa bir müddət ərzində düşmən ordusunu darmadağın edən Azərbaycan ordusu Qarabağ və ona bitişik ətraf rayonları işğaldan azad etdi. Nəhayət 10 noyabr 2020-ci il tarixdə Rusiya Federasiyasının prezidenti Vladimir Putinin təşəbbüsü ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında gedən müharibə üç tərəfli bəyanatın imzalanması ilə dayandırıldı. Tarixə qırx dörd günlük müharibə kimi düşən vətən müharibəsində müzzəfər Azərbaycan ordusu və onun müzzəfər Ali Baş Komandanı cənab İlham Əliyevin başçılığı ilə Xalq-Hakimiyyət-Ordu birliyi nəticəsində Azərbaycan Respublikası öz ərazi bütövlüyünü bərpa etdi.

Beləliklə, BMT-nin indiyədək yerinə yetirilməyən dörd qətnaməsini müzzəfər Azərbaycan ordusu yerinə yetirdi. Konstitusiyamızda göstərildiyi kimi demokratik, hüquqi, dünyəvi, unitar respublika olan “Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir” [11]. İnanırıq ki, azərbaycançılıq ideologiyası ətrafında birləşən Azərbaycan xalqı xalq və dövlətin birliyi nəticəsində daha böyük uğurlara imza atacaq.

**Nəticə**

Beləliklə, XX yüzillikdə dəfələrlə istiqlal savaşına qalxmış Azərbaycan xalqı, nəhayət tarixi torpaqlarımızın bir hissəsində - Şimali Azərbaycanda özünün qədim dövlətçilik ənənələrini dirçəldə bilmişdi. Həmçinin qaynağını bəşər tarixinin ilk dövründən-yaddaşlardan, miflərdən, əsatirlərdən, dastanlardan götürən və getdikcə ədəbi düşüncədə formalaşaraq günümüzə qədər gəlib çıxan azərbaycançılıq məfkurəsi XIX əsrin sonuna doğru ədəbi-fəlsəfi fikir cərəyanı kimi formalaşsa da, XX əsrin əvvəllərində sosial-fəlsəfi varlıq və sistem kimi özünün yeni mərhələsinə qədəm qoydu və ictimai-siyasi həyatda öz təsbitini tapdı. Məhz Heydər Əliyev azərbaycançılığı bir məfkurə, bir mükəmməl milli ideologiya kimi özünün zirvə məqamına çatdırdı. Bu gün prezident İlham Əliyevin və vitse prezident Mehriban xanım Əliyevanın hərtərəfli fəaliyyəti azərbaycançılıq ideyalarına xidmətin ən yüksək nümunəsidir.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Məmmədzadə M.B. Azərbaycan milli xartiyası. Bakı: “Azərbaycan jurnalı”, 1991, № 4,139 s.
2. Tağıyev Ə. Milli ideya və milli ideologiya: Problemlər və onların şərhi. Bakı: “Təbib”, 2000,
3. Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı: “Yeni nəşrlər evi”, 2003, 248 s.
4. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası (Azərbaycan Respublikasının prezidentinin 2007-ci il 23 may tarixli sərəncamı ilə təsdiq edilmişdir).
5. Azərbaycan Respublikasının Hərbi doktrinası (Azərbaycan Respublikasının Milli Məclisinin 2010-cu il 8 iyun tarixli 1029-III QR nömrəli Qərarı ilə təsdiq edilmişdir).
6. Orucov Ə.A. Azərbaycan xalqı milli özünüdərk yollarında: XIX əsrin sonu – XX əsrin əvvəlləri (tarixi-fəlsəfi aspekt), Bakı: “Avropa”, 2012, 251 s.
7. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin Baş Assabmleyasında nitqi. “Xalq qəzeti”, Bakı, 24 sentyabr 2010 cu il.
8. Dünya Azərbaycanlılarının I Qurultayında Heydər Əliyevin nitqi// Dünya Azərbaycanlılarının I Qurultayı, Bakı: 2002, 25 s.
9. Həsənov Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti, Bakı: “Letterpres” nəşriyyat evi, 2011, 440 s.

10. Həsənov Ə.M. Geosiyasət. Dərslik, Bakı:“Aypara-3”, 2010, 604 s.
11. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı: ‘‘Qanun’’, 2009, 68 s.

**Алияр Оруджов**

**ИДЕОЛОГИЧЕСКИЕ ОСНОВЫ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ: СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЙ АНАЛИЗ**

***Резюме***

В статье раскрываются идеологические основы национальной безопасности Азербайджанской Республики. Национальная безопасность, прежде всего подразумевает разные социальные объединения входящие институты, организации, заключающие в себе имеющих различные социальные структуры, исполняющие различные роли и общие потребности людей. В современных условиях, в результате происходящих в мире сложных политических процессов вопросы национальной безопасности обретают особое значение. Автор в данной статье дал социально-политический анализ национальной безопасности Азербайджанской Республики.

***Цель*** – изучить идеологические основы национальной безопасности Азербайджанской Республики.

***Методология*** – сравнительный анализ и системный подход.

***Результаты исследования*** – социально-политический анализ идеологических основ национальной безопасности Азербайджанской Республики и определенный вывод.

***Ключевые слова:*** национальная идеология, азербайджанская идеология, национальное развитие, национальная безопасность, концепция национальной безопасности, военная доктрина, целостность территории, основа идеологии, оккупационные силы, национальная государственность

**Aliyar Orujov**

**IDEOLOGICAL BASES OF THE AZERBAIJAN REPUBLIC NATIONAL SECURITY: SOCIAL-POLITICAL ANALYSIS**

***Summary***

The ideological bases of the Azerbaijan Republic national security are dealt with in the article. National security, first of all intents to the main interests and needs of the people which are executing different social roles to the diferent social unities in the society, institutes including to the organization, in this connection possessing to the diferent social statutes. In the present day condition in the result of difficult political process pappening in the world the ideology and national ideology problem attains particular importance. The author has given the social-political analysis of the ideological bases of the Azerbaijan Republic national security in the article.

***Purpose*** – to study the ideological basis of national security of the Republic of Azerbaijan.

***Methodology*** – comparative analysis and systematic approach.

***Findings*** – a socio-political analysis of the ideological foundations of the national security of the Republic of Azerbaijan and a certain conclusion.

***Keywords:*** national ideology, the Azerbaijani ideology, national development, national security, the national security conception, military doctrine, the territorial integrity, ideological bases, occupier forces, national state system

**Rəyçi: AƏSMAnın kafedra müdiri, dos. Zeynəddin Şabanov**

**Qəbul edilib: 12.11.2020**

**UOT 316**

**Rasim Quliyev**
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutu***
***dissertant***
rquliyev@yahoo.com

# EPOSLARDA HÜQUQİ DÖVLƏT İDEYALARI

*Məqalədə Azərbaycanın ictimai-siyasi fikrində hüquqi dövlət ideyasının yaranması araşdırılır. Bildirilir ki, “Kitabi-Dədə Qorqud” dastanında hüquqi dövlət ideyasının ilk cücərtiləri olmuşdur. Eyni zamanda, məqalədə Nizami Gəncəvi və Xaqani Şirvani yaradıcılığında ideal cəmiyyət ideyaları təhlil olunur, maraqlı ümumiləşdirmələr edilir.*

***Məqsəd*** **–** dastanlarda hüquqi dövlət ideyalarını araşdırmaq
***Metodologiya*** **–** system yanaşma
***Tədqiqatın nəticələri*** **–** epos və dastanlarda hüquqi dövlət və ideal cəmiyyət ideyalarına rast gəlmək mümkündür.
***Açar sözlər:*** hüquqi dövlət, ideal cəmiyyət, ədalət, azadlıq, “Kitabi-Dədə Qorqud”

## Giriş

Müasir fəlsəfə elmində demokratik təsisatlardan biri, qanunun mükəmməlliyini və aliliyini özündə əks etdirən ideal hakimiyyət forması olan hüquqi dövlət problemi aktuallığı ilə diqqət mərkəzində durur. Qloballaşan dünyada hüquqi dövlət və onun əsası kimi vətəndaş cəmiyyəti ictimai-siyasi inkişaf prosesini istiqamətləndirən dəyərli fenomen hesab olunur. Dünya sosial-fəlsəfi fikir tarixində hüquqi dövlət ideyasının nəzəriyyədən təcrübəyə çevrilməsində həmin ideyaya müxtəlif fəlsəfi-siyasi yanaşmalarda ədalətli dövlət axtarışları olmuş, bəşəriyyət əsrlər boyu mükəmməl hüquqi qanunlara əsaslanan demokratik vətəndaş cəmiyyətinə və hüquqi dövlətə qovuşmağa çalışmışdır.

Hüquqi dövlət uğurlu ideya, elmi nəzəriyyə, fəlsəfi konsepsiya və real təcrübə kimi bəşər sivilizasiyasının ən mühüm nailiyyətlərindən biridir. Hüquqi dövlət quruculuğu, bu gün ən əhəmiyyətli universal dəyər olaraq hər bir müstəqil dövlətdə humanizm, ədalət və insan hüquq və azadlıqlarının, şəxsiyyətin şərəf və ləyaqətinin təminatçısı olan ən təsirli təcrübi təsisat kimi çıxış edir.

## “Kitabi-Dədə Qorqud” eposunda hüquqi dövlət ideyası

Azərbaycanın əsrlər boyu yaratdığı və bəşər mədəniyyətinə töhfə verdiyi ədəbi-mədəni, fəlsəfi abidələrdə, müxtəlif dövrlərdə yaşamış yaratmış mütəfəkkirlərin əsərlərində ideal dövlət, yəni bir növ "hüquqi dövlət" ideyaları da öz əksini tapmışdır.

Azərbaycan xalqının ictimai-fəlsəfi, siyasi varlığının bədii inikası, tarixi və ümumtürk ortaq mədəni abidəsi olan "Kitabi - Dədə Qorqud" tayfa-qəbilə quruluşunun dağılması dövlətin təşəkkül tapdığı dövrün məhsuludur. Azərbaycanın sosial-siyasi və hüquqi fikrini zənginləşdirən epos tarixliklə müasirliyin vəhdəti kimi diqqəti cəlb edir. Eposda ehtiva olunan "hüquqi" dövlətin bir çox ideyaları burada öz əksini tapmışdır: "Ədalətli hökmdar, ədalətli qanun və ədalətli cəmiyyət və s. bu kimi ideyalar deyilənlərə nümunə ola bilər" [1, s.66].

Bu "hüquqi" dövlətin başçısı xanlar xanıdır. Bu dövlətin strukturunda bəy elitası əsas yer tutur. Oğuz dövlətinə daxil olan qəbilə qurumlarının başçıları həm hakim, həm

ağsaqqal, həm də hərbi sərkərdədirlər. Onların dini başçı olmalarına heç bir "işarə yoxdur" [5, s.35]. Ə.Sultanlı Oğuz dövlətində təkbaşına idarə üsulunun hakim olduğunu, hakim elitanın varlandığını, cəmiyyətdə bərabərsizliyin yarandığını, əhalinin həm də hamılıqla əsgər olduğunu göstərir.

Oğuzlar öz dövlətlərinin müstəqilliyi və suverenliyi uğrunda elliklə vuruşurlar. Onlar vətənpərvərliyə, cəngavərliyə, qəhrəmanlığa əsaslanaraq, mütəşəkkil bir qüvvə kimi öz yurdlarını, obalarını müdafiə edirlər. Oğuz cəmiyyətində:

- sosial ədalət hökm sürür;
- ictimai və etik fərqlər yoxdur;
- qayda-qanunlar, əxlaq maraqları müqəddəsdir;
- qonşulara tolerant münasibət bəslənir.

Bütün bunlar isə "hüquqi" ədalətli dövlətin əlamətləridir. Türkiyəli tədqiqatçı Faruq Sümər "Oğuzlar" əsərində göstərir ki, oğuzların yabqular tərəfindən başçılıq edilən dövlətləri vardı. Onlar qışda Amu-Dəryanın mənbəyi yaxınlığında Yenikənddə yaşayırdılar. Oğuzlara ordu komandanı başçılıq edirdi. F.Sümər "Dədə Qorqud" dastanından bəhs edərkən "dastanlardakı oğuz elində feodal səciyyəli bir siyasi quruluşun nəzərə çarpdığını" da qeyd edir: "Hər bəyin özünə aid və üzərində yalnız özünün hakim olduğu bir ərazisi var. Bəylər yurdlarındakı ordalarında yaşayaraq, başında durduqları boyu idarə edirlər... Bəylərin ağaları öz qol bəyləridir. Üç - oxların qol bəyi eyni zamanda boz-oxu bəyinin də rəhbəridir. O, bu sifətlə bəylərbəyi ünvanını daşıyırdı. Bəylərbəyinin ağası isə xan, yəni hökmdardır" [6, s.365]. Göründüyü kimi, Azərbaycanın dövlətçilik tarixində mühüm yer tutan oğuz dövləti özünün spesifikliyi ilə fərqlənir. Çünki bütün Qərb dövlət nəzəriyyələri, xüsusən marksizm "dövləti sinifli cəmiyyətin məhsulu" hesab etdiyi halda türk dövlətçiliyi bu çərçivədən kənara çıxaraq qəbilə-tayfa quruluşunda yaranmışdı. Türk cəmiyyətində iqtisadi deyil, hərbi hakimiyyət hakim idi. Türklər öz dövlətlərinin və cəmiyyətlərinin vəhdətini El adlandırırdılar. Eli ərazi deyil, siyasət mənasında dövlət hesab edənlər də var. ″El orda və tayfanın birgə mövcudluq forması idi" [7, s.122].

Türk cəmiyyətini, türk dövlətini, eli sülh üzərində təşəkkül tapmış hərbi demokratiya kimi səciyyələndirirlər.

Azərbaycan xalqı türk xalqları arasında ən qədim dövlətçiliyi olan xalq hesab olunur. İslamaqədərki Azərbaycan dövlətçiliyi tarixində tayfa dövlətçiliyi əsas yer tutmuşdur. Bu baxımdan "Kitabi - Dədə Qorqud" eposu Azərbaycan dövlətçiliyi haqqında ilk mərkəzlərdən hesab edilir. "Türk xalqlarının müştərək ədəbi abidəsi olan "Kitabi - Dədə Qorqud" eposunun əsas ideyası türk tayfalarının 24 oğuz tayfasını vahid xalq və dövlət halında birləşdirməkdən ibarətdir. Burada tayfa ... müəyyən ərazi, maddi, mənəvi-əxlaqi birgəlik əlamətlərinə malik El mənasında işlənilir. Hər Elin öz siyasi-hərbi başçısı var. "Kitabi - Dədə Qorqud" eposunda müxtəlif tayfaları Xalq birliyinə - vahid türk dövlətçiliyinə gətirib çıxaran əsas siyasi-ideoloji amillər vardır” [8, s.84]. Müəllif dövlətçilik haqqında ilk təsəvvürlərin eposda təsadüf olunduğunu, bu dövlətçiliyin əsas atributlarının vətənçilik, ailə və ordu, özünəməxsus adət-ənənələri, həyat tərzi, davranış və əxlaq normaları olan El kultundan ibarət olduğunu göstərir. Oğuzlarda dövlət, dövlətçilik müqəddəs hesab olunurdu. Epos da dövlətçilik haqqında monumental, ensiklopedik ümumtürk abidəsidir.

İslam dini VII əsrin sonu VIII əsrlərdə Azərbaycan cəmiyyətində inteqrasiyaedici vahid ümmətçilik, dini birlik yaratdı. Dil birliyi, vahid Azərbaycan xalqı yarandı. "Həmin proseslər Azərbaycanda dövlətçiliyin yeni mərhələsinə keçməsi üçün şərait yaratmışdır" [8, s.94]. Həmin xalq dövlətçiliyi vətəndaşa, dilə, dinə və hərbi birliyə əsaslanırdı.

Eposdan göründüyü kimi, “oğuzlarda "vətən", "yurd", "cəmiyyət" və "dövlət"

anlayışları, vəhdət, sinkretik bir məna daşıyır. Bir sözlə, oğuzların "demokratik", bir növ "hüquqi" "xalq" dövlətində təbəqələşməsi onun vətəndaş" birliyini pozmur, el, yurd, vətən, cəmiyyət, dövlət, vəhdət haqqında çıxış edir. Qədim oğuzların yaşadıqları məkan "onlar üçün həm doğma yurd, el-oba, vətən, həm də heç zaman basılmaz olan möhtəşəm və qüdrətli bir dövlət idi" [2, s.69]. Oğuzlarda vətən el-oba, yurd istəyi xalqın və dövlətin varlığı uğrunda yenilməz mübarizə ilə qovuşurdu.

Oğuz dövləti özünün demokratik prinsipləri ilə fərqlənirdi. Burada:

- insanlar və xalqların birliyi bir növ "vətəndaş" həmrəyliyi hökm sürürdü;
- cəmiyyətdə əmin-amanlıq, dinclik, xoşbəxtlik və tolerantlıq mühiti formalaşdırılmışdı.

Bütün Şərqin və Azərbaycanın ictimai-fəlsəfi, siyasi-hüquqi fikir tarixində möhtəşəm yer tutan Oğuz dövlətçilik təcrübəsi özündən sonra yaranan dövlətlərin inkişafına təsir etmişdir. Belə ki, həmin ″dövlətlərin uzun müddət yaşaması möhkəmliyinin ... rüşeymlərini siyasi-hüquqi fikir tariximizə Oğuz cəmiyyətinin (dövlətinin - R.Q.) tarixi təcrübəsi ərməğan vermişdir. Belə tarixi təcrübənin və tarixi reallığın orijinallığı öz dəyərini bu gün də tayfa və xalqlar Oğuz cəmiyyətinin dövlətçilik təcrübəsindən və idarəetmə ənənələrindən bəhrələnmiş, onun hərb mədəniyyətini, düşmənə qalib gəlmək və onunla sülh yaratmaq siyasətini əxz və özünə örnək etmişdir" [2, s.69]. Bununla da özündən sonrakı dövlətçilik ənənələrinin yaranmasında xüsusi rol oynamış Oğuz dövləti öz dövrünün özünəməxsus idarəçilik və dövlətçilik forması olmuşdur.

Qədim dövlətçilik ənənələrinə malik Azərbaycan hun-qıpçaq dövlətinin tərkibində olmuşdur. Azərbaycanın oğuz-səlcuq dövlətini ideal dövlət quruculuğu təcrübəsini "Kitabi - Dədə Qorqud" dastanı təsdiq edir. Bu dövləti mükəmməl idarəçilik ierarxiyası daha da möhkəmləndirmişdir. Oğuz dövlətinin əyalətlərdəki bütün problemləri dövlət başçısının yanında çağırılan bəylərin yığıncağında müzakirə olunur və həll edilir. Akademik N.Cəfərov eramızdan əvvəlki minilliyin ortalarına qədər "Azərbaycanda biri digərinin bilavasitə varisi olan aşağıdakı dövlətçilik mədəniyyətlərinin mövcud olduğunu göstərir:

1. Qədim (ümum) türk (hun-qıpçaq) dövlətçilik mədəniyyəti.
2. Türk-müsəlman (oğuz-səlcuq) dövlətçilik mədəniyyəti”. Müəllif müstəqil türk-müsəlman dövlətlərindən XII-XIII əsrlərin Atabəylər dövlətinin adını çəkir. N.Şəmsizadə Atabəylər dövlətində idarəçiliyin qanuna və mənəvi prinsiplərə əsaslandığını, dinin qanunun dayağı olduğunu cəmiyyətin mənəvi hakimi kimi çıxış etdiyini, saflaşdırıcı rol oynadığını göstərir: ″Azərbaycan dövlətçiliyində ziddiyyətlər din və dövlət mənafeləri arasında uyğunsuzluqdan meydana gəlirdi" [8, s.98].

Azərbaycan dövlətçilik tarixində XIII əsrin sonlarından 1736-cı ilə qədər mövcud olan Səfəvilər şiəlik məzhəbindən ideologiya kimi istifadə edərək mərkəzləşmiş dövlət yaratdılar. Bu dövlət Azərbaycan dövlətçiliyinin zirvəsi, tipik feodal monarxiyası idi. XVII əsrin sonundan XX əsrin əvvəllərinədək Azərbaycan dövlətçiliyi tənəzzülə uğradı, XVIII əsrdə xanlıqlara bölünən Azərbaycanı vahid dövlət halına gətirmək istəyən Fətəli xanın cəhdi uğursuzluğa düçar oldu. XX əsrin əvvəlində AXC Şərqdə Avropa tipli hüquqi dövlət nümunəsi oldu. Sovet dövründə formal dövlətçiliyə malik Azərbaycanda XX əsrin sonlarında yeni hüquqi dövlət reallaşdı.

XVIII əsrdən sonra Azərbaycan dövlətçilik tarixində təbii proses hesab edilən xanlıqlar dövründə ordu mərkəzi hakimiyyətə deyil, ayrı-ayrı xanlara tabe olmaqla yeni geosiyasi şəraitdə ümummilli təhlükəsizliyi təmin etməkdə aciz idi. Rusiya və Qacar İranı dövlətinin işğalçılıq siyasəti sonda "milli dövlətçilik təfəkkürünün demək olar ki, darmadağın edilməsi ilə nəticələndi" [9, s.99].

"XIX əsrin əvvəllərindən dünyanın, eləcə də Şərqlə Qərbin iqtisadi, siyasi-ideoloji

münasibətlərinin tarixində olduqca qaynar bir dövr başlayır. Məhz bu dövrdə qabaqcıl Şərq mütəfəkkirləri milli birlik, ictimai ittifaq, müstəqil dövlətçilik ideyaları üzərində daha ardıcıl, daha intensiv düşünməyə ehtiyac duyurlar. Azərbaycanda bu cür mütəfəkkirlər çox olmuşdur: yalnız bir neçə möhtəşəm ad çəkməklə kifayətlənirik: A.Bakıxanov, M.F.Axundov... Və ən möhtəşəmi Şeyx Cəmaləddin Əfqani!" [9, s.99].

XIX əsrdə C.Əfqani konstitusiyalı respublika dövlət quruluşunun bərqərar olmasını istəyirdi. Dini və dünyəviliyin vəhdətinin tərəfdarı olan mütəfəkkir klassik islama qayıtmağa, milli dövlətdə islamın mədəniyyət, demokratiya azadlıq və bərabərliklə birlikdə inkişafına çalışırdı.

"...Orta əsrlərin sonu, yeni dövrün əvvəllərindən etibarən dünyanın texnoloji, ictimai-mədəni, ideoloji "tarazlığ"ı qarşısıalınmaz bir sürətlə pozulmağa başladı – hər cəhətdən irəli getmiş Qərbin hər cəhətdən geri qalmış Şərqə müxtəlif formalarda müdaxilələri onu (Şərqi) tədricən silkələdi, hərəkətə gətirdi. Və Şərqin Qərb qarşısında heyrəti, tərəddüdləri, müxtəlif xarakterli reaksiyaları get-gedə daha fəal bir şəkildə təzahür etdi ki, həmin təzahürlərin ən intensivi, heç şübhəsiz, Cəmaləddin Əfqaninin fəlsəfi-ideoloji yaradıcılığı idi geri qalmış Şərqlə irəli getmiş Qərbin yeni dövrdəki çoxtərəfli münasibətlərinin tarixi xarakteri ən obyektiv şəkildə məhz həmin fəlsəfi-ideoloji yaradıcılıqda öz inikasını tapmışdır" [9, s.99].

Oğuz dövləti belə desək, yazılmış qanunlardan çox, yazılmamış qanunlar – adət-ənənə, ağsaqqal məsləhəti, Dədə Qorqud müdrikliyi əsasında fəaliyyət göstərirdi.

Azərbaycan tədqiqatçısı S.Əlyarov "Dədə Qorqud" eposunda oğuzların demokratik, "hüquqi" dövləti və onun təsisatlarının parlamentinin, qurultayının, şuralarının mövcudluğundan bəhs edir. S.Əlyarov yazır: "Kitabdakı "qocalar" anlayışı Rəşidəddin və Əbülqazinin kitablarındakı "kənkəş bəylər" nə tam uyğundur... Beləliklə, hərbi demokratiya dövründə daimi hakimiyyət orqanları olan hərbi şura (ağsaqqallar şurası) oğuz tarixində doqquz "qocadan" - kənkəş bəylərindən ibarət olmuşdur" [10, s.151].

Digər Azərbaycan tədqiqatçısı Bəxtiyar Tuncay V.V..Radlovun "Qədim türk luğətində "toy", "qurultay" terminlərilə yanaşı "kenkəş" (şura parlament) [11, c. 299] kəlməsinin də işləndiyini, “Avropa dillərindəki "konqress" (qurultay, parlament) termininin həmin kəlmədən törəmə olduğunu ehtimal edir" [12, c.94]. Müəllif qədim türk dilində "El"in termin kimi cümhuriyyət və respublika anlamlarına uyğun gəldiyini, demokratik idarəçilik prinsiplərinin, demokratik düşüncə tərzinin, insanlar arasında, o cümlədən qadınla kişi arasında hüquq bərabərliyi ideyasının türklərdən digər xalqlara köçdüyünü göstərir.

"Dədə Qorqud"da oğuzların Azərbaycan torpaqlarında dövlət qurub məskunlaşması, döyüşçü xalqın müdafiə etdiyindən bəhs edən Ş.Cəmşidov yazır: "Bura Oğuz qəhrəmanlarının sakin olduqları, yaşadıqları və müdafiə etdikləri bütöv bir məmləkətdir. Bu məmləkətin hüdudları, sərhədləri vardır. Dürüst sərhədlərə malik bu Oğuz azərbaycanlı məmləkətinin yerini dastanda təsvir edilən hadisələrin hərəkət istiqaməti ilə müəyyənləşdirmək tamamilə mümkündür" [13, s.27]. Beləliklə, eposda oğuzlar dövlət başçısı konkret ərazisi, sərhədləri müdafiə istehkamları, ordusu demokratik təsisatları olan vahid bir dövlətə malikdirlər.

**Xaqani Şirvani və Nizami Gəncəvi yaradıcılığında ideal cəmiyyət ideyası**

XII əsrin görkəmli Azərbaycan mütəfəkkiri Xaqani Şirvani də öz fəlsəfi baxışları ilə fərqlənmişdir. Belə ki, onun "Töhfətül-İraqeyn", "Mədain xərabələri" kimi əsərləri də sosial ədalət, bərabərlik kimi mütərəqqi ideyalar öz əksini tapmışdır. Görkəmli Azərbaycan tədqiqatçısı H.Araslı dünya ədəbiyyatı tarixində Xaqaninin yeri və rolu haqqında yazmışdır ki, Xaqaninin "yaratdığı sənət əsərləri tək öz xalqının deyil, bir çox xalqların fikri

inkişafına təsir göstərərək əsrimizə qədər yaşamışdır" [4, s.3].

Xaqani Şirvaninin fikirlərində olan ideal cəmiyyət, demokratik dövlət ideyasına görə dünya sosial-fəlsəfi fikir tarixində önəmli yer tutmuşdur. Azərbaycanın tədqiqatçıları H.Araslı, M.İbrahimov, S.Rzaquluzadə, Z.Quluzadə və başqaları ümumbəşəri ideallardan bəhs etdiyinə görə Xaqanini yalnız Yaxın və Orta Şərqin deyil, dünya intibahının böyük nümayəndələrindən biri hesab edirlər.

Yaşadığı dövrdə cəmiyyətdəki özbaşınalığı, ədalətsizliyi, qanunsuzluğu, rüşvət-xorluğu, zülmkarlığı, yalançılığı, insafsızlığı tənqid edən şair-filosof sosial-siyasi idealının demokratikliyi və humanistliyilə fərqlənərək bərabərliyin, insanpərvərliyin, sosial ədalətin, düzgünlüyün, həqiqətpərəstliyin hökm sürdüyü ədalətli, ideal cəmiyyət arzulamışdır. "Xaqani Yaxın Şərq ədəbiyyatı tarixində sarayları, şahlığı, saray mühitinin çirkinliklərini ilk dəfə kəskin tənqid atəşinə tutan böyük sənətkardır" [3, s.36-37]. O, insanın təbii hüquqlarını, sosial bərabərliyinin, ədalətin bərqərar olmasında Tanrının yardımına ümid edirdi. Xaqani ədalətli, zəkalı, müdrik şahların cəmiyyəti humanist qanunlarla dəyiş-dirəcəyinə ümid edirdi. O, ideal cəmiyyəti ideal hökmdarın yaradacağı kimi bir fikrə gəlmişdi. S.Rzaquluzadə Xaqaninin bu fikirlərinin yanlışlığını düzgün izah edir: "Mövcud monarxiya dövlət quruluşu Xaqani üçün təbii göründüyü üçün o, dövlətin digər siyasi quruluşa malik başqa formasını təklif etmirdi" [14, c.47].

H.Araslı Xaqaninin ədalətli şah ideyasının öz dövrünün şahlarını tərbiyələndirmək üçün gərəkli olduğunu, "zəmanə şahlarına ədalətli olmağı, ağlı rəhbər tutmağı, xalqla, insafla rəftar etməyi tapşırdığını" [4, s.3] göstərir.

Xaqaninin yaşadığı dövrdə Azərbaycan xırda feodal dövlətlərə parçalanmışdı ki, bu da özbaşınalığa, hərc-mərcliyə, zorakılıqlara və qanunsuzluqlara rəvac verirdi. Buna görə də Xaqani ittiham xarakterli sosial-siyasi ideyalar irəli sürür, zalım hökmdarları qanunsuzluqdan çəkinməyə çağırırdı. Şairin demokratik sosial-fəlsəfi ideyalarını orta əsrlərdə Azərbaycanın ictimai-siyasi, fəlsəfi fikir tarixində mühüm yer tutan, Nizamiyəqədərki humanist və demokratik düşüncə tariximizdə əhəmiyyətli rol oynayan dəyərli ideyalar kimi qiymətləndirmək olar.

İslamın qəbulundan sonra Azərbaycan dövlətçiliyi tarixində ənənə və mərhələ yaradan Şirvanşahlar, Ağabəylər, Hülakilər, Qaraqoyunlu, Ağqoyunlu və Mərkəzləşmiş Səfəvilər kimi Azərbaycan dövlətləri yarandı.

Ədalətli dövlət idealı problemi Azərbaycanın sosial-fəlsəfi fikrində həmişə ən aktual məsələlərdən olmuşdur. XII əsr Azərbaycan Atabəylər dövlətinin inkişafı dövründə Şərq islam müsəlman intibah ənənələrini türk mədəniyyəti ilə qovuşduran Nizami Gəncəvi ideal, ədalətli bir dövlət quruluşu, milli və dini ayrılıqlara fərq qoymayan, bəşəriyyətə səadət gətirəcək adil bir hökmdar obrazı yaratmışdır.

Nizaminin dövründə Azərbaycanda qeyri-məhdud feodal monarxiyası idarəçilik forması mövcud idi. Lakin "Mövcud dövlət quruluşu Xaqani üçün təbii göründüyü üçün o, dövlətin digər siyasi quruluşa malik başqa formasını təklif etmirdi" [1, s.98]. Bu isə Xaqaninin görüşlərindəki ziddiyyətlərlə bağlı idi. O, dövlətin dəyişdirilməsi əvəzinə hökmdarların ədalətinə ümid bağlayırdı. "Dövlətin başında şah dururdu. O, həm dövlət qanunverici, həm də məhkəmə hakimiyyətinin daşıyıcısı idi" [2, s.99]. Deməli Nizaminin dövründəki idarəçilik forması mütləq hakimiyyətə əsaslanırdı. Belə bir şəraitdə Nizaminin ideal dövlət və "xalq hakimiyyəti" ideyaları utopik mahiyyət kəsb edirdi.

Platonun və İbn-Xaldunun ideal dövlət ideyası kimi, N.Gəncəvinin ideal dövlət haqqında görüşlərinin də ümumdünya əhəmiyyəti olmuş və dünya sosial-fəlsəfi və siyasi-hüquqi fikrinin inkişafında mühüm rol oynamışdır.

Humanizm, insanpərvərlik, bərabərlik, azadlıq Nizaminin ideal dövlət ideyasının

əsaslarını təşkil edir. Nizaminin ədalətli hökmdar ideyası onun ideal dövlət belə deyək ki, hüquqi dövlət təsəvvürlərini tamamlayan cəmiyyətdə qayda-qanunu, əmin-amanlığı təmin edən bir ideyadır. Xalqın dövlət idarəçiliyi işinə cəlb edilməsini, xalq arasından çıxan hökmdarların hakimiyyət başına keçməsini ideal dövlətin demokratik əlaməti hesab edirdi.

Nizaminin irəli sürdüyü ideal dövlət ("hüquqi dövlət") ideyasında insanların hüquq və azadlıqlarına hörmət və müdafiə olunur, zorakılığa, ədalətsizliyə, özbaşınalığa yer verilmir, cinsi, irqi, bərabərliyi təmin edilir.

Nizaminin ideal "dövlət idarəsini gerçəkləşdirən ideal hökmdar İsgəndərdir. İsgəndərin şəxsində Nizami bilgiyə, hökmətə, sənətə və fikrə bağlı aydın bir hökmdar görməkdədir. Filosoflar, alimlər, ədiblər tərəfindən əhatə olunmuş bu hökmdarın özü dəxi, xarakter (səciyyə), cəsarət və qəhrəmanlığı ilə bərabər, bilgiliyi, həkimliyi və tədbirçiliyilə tanınır". Müəllif hökmdarın naibinin qədim yunan filosofu Ərəstu (Aristotel) olduğunu, sarayında ziyalı elitadan təşkil olunmuş "Dövlət Şurası", dövlət işlərində imperatora müşavirlərin kömək etdiyini göstərir.

Azərbaycan tədqiqatçısı C.Mustafayev N.Gəncəvinin ədalətli cəmiyyət və onunla sıx bağlı olan ədalətli hökmdar ideyasına yüksək qiymət verərək göstərir ki, "dahi filosof-şair ən ağıllı idarə forması olan qədim yunan demokratiyasını və humanist, müdrik hökmdar kimi İsgəndər obrazını ideallaşdırmaqla, onu Şərq despotizminə qarşı qoyur, ümumbəşəri xoşbəxtlik problemini həll etməyə çalışırdı" [15,c.34]. Nizami "xüsusi mülkiyyətin, bərabərsizliyin, istismarın, sosial mübarizənin, cinayətin, ehtiyac və qəm-qüssənin olmadığı ümumilik və bərabərliyin, əmin-amanlığın və humanizmin, səmimilik və təvazökarlığın, qarşılıqlı yardımın, saf əxlaqi keyfiyyətlərin hökm sürdüyü azad və xoşbəxt cəmiyyət ideyasını" irəli sürmüşdür. Müəllif Nizaminin öz ideyasını əsaslandırmaq üçün qədim yunan və digər mənbələrə müraciət etdiyini göstərir: "Nizaminin utopiyası təsdiq edir ki, o, bunu yaradarkən yunanlara məlum olan Himalay dağlarının şimalında yerləşən Uttara-Kuru tayfasının cənnət ölkəsi haqqında qədim hind əfsanəsindən istifadə etmişdir. Mənim fikrimcə, Tomas Morun "Utopiyası" da eyni mənbənin təsiri altında yazılmışdır".C.Mustafayevin bu fikri Avropasentristlərin birtərəfli yanaşmalarına zərbə vurdu, bütün ideyalar kimi hüquqi dövlət ideyasının da Qərbə Şərqdən keçdiyini göstərdi. Bu fikri müdafiə edən A.Quliyev yazırdı ki, mütəfəkkirin sosial-siyasi görüşləri Yaxın və Orta Şərqin sosial utopiya ilə bağlı fikir tarixini daha da zənginləşdirmiş, ideal cəmiyyətə dair ideyaların Şərqin hüdudlarını aşaraq Avropanın sosial-siyasi fikrində analoji ideyaların formalaşmasına təsir göstərmişdir.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Quliyev, A. Azərbaycanın ictimai-siyasi fikrində sosial ədalət ideyası. -Bakı: Səda, -2008, -352 s.
2. Quliyev, A. XII-XVI əsrlərdə Azərbaycanın siyasi-hüquqi fikrində qanun və qanunçuluq problem. -Bakı:Qanun, -2005. -375 s.
3. Araslı, H. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri.-Bakı: Gənclik, -1993. - 320 s.
4. Araslı, H. Xaqani Şirvani. -Bakı: Yazıçı, -1982. -62 s.
5. Rzayev, Ə. Hüquqi dövlət və vətəndaş cəmiyyəti:genezisi və inkişafi//AMEA Elmi əsərlər. Beynəlxalq elmi-nəzəri jurnal.-2011, -№2(17), -s.273-278
6. Sümər, F. Oğuzlar. -Bakı: Yazıçı, -1992. -432 s.
7. Qumilyov, L. Qədim türklər.-Bakı: Gənclik, -1993. -536 s.
8. Şəmsizadə, N. Azərbaycançılıq. –Bakı: Nurlar NPM, -2006. -192 s.
9. Cəfərov, N. Azərbaycanşünaslığın əsasları. -Bakı: Pedaqogika, -2005. -256 s.
10. Əlyarov, S. "Kitabi - Dədə Qorqud" əlyazmaları üzərində çalışmalar // Azərbaycan filologiyası məsələləri. -Bakı: Elm, 1991, III cild. -s. 151-159.

11. Радлов, В.В. Словарь / -Ленинград: ЛГУ, -1969. -299 с.
12. Tuncay, B. Sakların tarixi, dili və ədəbiyyatı. -Bakı:Apostrof, -2009. -280 s.
13. Cəmşidov, Ş. "Dədə Qorqud"u vərəqləyərkən.-Bakı: Gənçlik, -1969. -98 s.
14. Рзагулузаде, С. Общественно-политические взгляды Хагани Ширвани -Баку: Элм, -1962. -175 с.
15. Мустафаев Дж. В. Природа социальных утопии стран Ближнего Востока//-Москва: Вопросы философии, -1968. № 8, -с.75-86.

**Расим Гулиев**

**ИДЕИ ПРАВОВОГО ГОСУДАРСТВА В ЭПОСАХ**

***Резюме***

В статье исследуется возникновение идеи правового государства в общественно-политической мысли Азербайджана. Рассматривается, что в эпосе «Китаби-Деде Горгуд» зародились первые идеи правового государства. В то же время в статье анализируются идеи идеального общества в творчестве Низами Гянджеви и Хагани Ширвани, даются интересные обобщения.

***Цель*** – исследовать идеи правового государство в эпосах

***Методология*** – системный подход

***Результаты исследования*** – в эпосах и былинах можно встретить идеи правового государство и идеального общества.

***Ключевые слова*:** правовое государство, идеальное общество, справедливость, свобода, «Китаби-Дада Горгуд»

**Rasim Guliyev**

**THE IDEAS OF THE LEGAL STATE IN EPICS**

***Summary***

At the article analyzed the emergence of the idea of the legal state in the socio-political thought of Azerbaijan. It is said that in the epos "Kitabi-Dada Gorgud" there were the first sprouts of the idea of the legal state. At the same time, the article analyzed the ideas of the ideal society in the works of Nizami Ganjavi and Khagani Shirvani and makes interesting generalizations.

***Purpose*** – to study the ideas of the legal state in the epics

***Methodology*** – system approach

***Findings*** **–** in epics it is possible to come across the ideas of the legal state and the ideal society.

***Keywords*:** legal state, ideal society, justice, freedom, "Kitabi-Dada Gorgud"

**Rəyçi: AƏSMA-nın kafedra müdiri, dos. Zeynəddin Şabanov**

**Qəbul edilib: 02.10 2020**

**UOT- 316.42**

**Südabə Haşımova**
***Bakı Dövlət Universiteti***
***dissertant***
hashimova_sudaba@rambler.ru

# ŞƏXSİYYƏTİN PEŞƏ MÜQƏDDƏRATINI MÜƏYYƏNLƏŞDİRMƏNİN BƏZİ NƏZƏRİ MƏSƏLƏLƏRİ

*Şəxsiyyətin öz peşə müqəddəratını müəyyənləşdirməsi məsələsinə dair elmi ədəbiyyatda iki yanaşma mövcuddur. Birinci yanaşma - bu məsələyə məktəblilərin peşə oriyentasiyası və onların inkişafının yaş xüsusiyyətləri problemi çərçivəsində baxılmasını nəzərdə tutur. İkinci yanaşmaya görə, peşə müqəddəratını müəyyənləşdirmə şəxsiyyətin peşə təşəkkülünün tərkib və mühüm hissəsi kimi nəzərdən keçirilir.*

***Məqsəd -*** Şəxsiyyətin peşə təşəkkülünün dinamikasını daha dərindən izləməyə imkan verən ikinci yanaşmaya üstünlük verilməsi və ətraflı nəzərdən keçirilməsidir.

***Metodologiya -*** Aparılmış tədqiqatda müasir sosial elmlərdə əsas metodoloji yanaşma-lardan sayılan struktur funksionalizmə əsaslanmışdır.

***Tədqiqatın nəticələri -*** Araşdırmanın elmi yeniliyi peşə müqəddəratını müəyyənləşdirməni şəxsiyyətin peşə təşəkkülünün tərkib və mühüm hissəsi kimi əsaslandırılmasından ibarətdir.

***Açar sözlər:*** şəxsiyyət, peşə müqəddəratı, peşə oriyentasiyası, peşə seçimi, peşə təşəkkülü, peşə fəaliyyəti, peşə potensialı, peşə məramı

**Giriş**

Peşələrin tədqiqi, onların insan və cəmiyyətin həyatı üçün əhəmiyyətinin öyrənilməsinə sosiologiyanın K.Marks, M.Veber, E.Dürkheym, H.Spenser, G.Zimmel, P.Sorokin, T.Parsons kimi klassikləri müraciət etmişlər [4, s.644-675, 689-706; 5; 7; 8; 18; 28; 29; 30; 25]. Marks, Spenser və Dürkheymdə peşəyə əmək bölgüsü və sosial fəaliyyətin differensiasiyası kateqoriyalarının prizmasından yanaşma üstünlük təşkil edirdi. Veberdə peşə anlayışı cəmiyyətin iqtisadi və sosial strukturundan daha çox fərdin davranışı, onun həyat dünyası və dəyərlər sistemi ilə əlaqələndirilir. Peşə və sənaye sahəsində fəaliyyət növlərinin müxtəlifliyini Zimmel ictimai differensiasiyanın ifadəsi kimi göstərməyə calışmışdır. Peşə startifikasiyasına və peşənin şəxsiyyətin inkişafına təsiri məsələsinə P.Sorokinin əsərlərində rast gəlmək mümkündür. Parsonsun əsərlərində “peşəkarlar” peşənin təcəssümü, bütün peşə kompleksinin özəyi kimi çıxış edir.

Peşə müqəddəratını müəyyənləşdirmənin aktivlşdirilməsinin nəticəsi kimi müxtəlif peşə fəaliyyəti formalarının reallaşdırılması və müxtəlif tip peşə məqsədlərinin formalaşması çıxış edir ki, bura da əvvəlki fəaliyyət çərçivəsində yeni iş yerinin və ya əlavə resursların axtarışını, yeni iş yerinə keçidin və ya statusun dəyişdirilməsinə hazırlığın formalaşdırılmasını, işdən çıxmanı, ixtisasın artıtrılmasını və s. aid etmək olar [34, s. 3-5].

**Peşə müqəddəratını müəyyənləşdirmə problemlərinin müzakirəsi və əsas elmi yanaşmalar**

Müasir peşə müqəddəratını müəyyənləşdirmə prosesi dövri xarakter daşıdığından insan öz həyatı boyu peşə seçimi, adaptasiyası mərhələlərinə təkrarən qayıda bilər. Buradan da peşə müqəddəratını müəyyənləşdirmənin iki qrupunu (ilkin və təkrar)

fərqləndirmək mümkündür [16, s.12]. Peşə müqəddəratını müəyyənləşdirmə problemlərini müzakirə edərkən bu nöqteyi-nəzərdən Karl Marksın fikirləri maraq doğurur. O qeyd edirdi ki, “peşə seçimində bizi istiqamətləndirən əsas rəhbər bəşərəiyyətin rifahı, bizim şəxsi kamilliyimizdir” [19, s. 7]. O, müxtəlif əmək fəaliyyəti sahələrində hərtərəfli olan, dövri olaraq öz peşəsini dəyişən və cəmiyyətin həyatında iştirak edən insanı ahəngdar sayır. İnkişaf etmiş ölkələrdə sənaye sahəsində öz işini itirməmək və ya yaxşı karyera imkanları əldə etmək arzusunda olan işçi hökmən bir-birinə yaxın peşələrə yiyələnmək qayğısına da qalmalıdır [26, s. 18-19]. Bu həyati əhəmiyyətli bir qanunauyğunluqdur. Təəssüf ki, bizdə hələ də insanın yalnız bir peşəyə yiyələnməsi və onunla özünü məhdudlaşdırması normal hal sayılır.

Peşə müqəddəratının müəyyənləşdirilməsində tədqiqatçılar tərəfindən onun “bütünlükdə peşə dünyasına və konkret seçilmiş peşəyə seçmə yanaşma” [6, s.48], “insanın özünü əhəmiyyətli hesab etdiyi işdə göstərməsi” [21], “şəxsiyyətin sosial təsirlər, peşə fəaliyyəti və öz fəallığı nəticəsində dəyişməsi” [14, s.51], “seçilən əmək fəaliyyətində şəxsi mənanın axtarılıb tapılması” [26, s. 17] kimi tərəfləri qeyd olunur. Belə ki, E.F.Zeyer peşə müqəddəratını müəyyənləşdirmənin əsas məsələsi olaraq həm fərdin özünün imkanları, həm də sosial-iqtisadi şəraitin tələbləri ilə əlaqəli olan peşə “seçiminin dərk olunmasını” göstəririr. Peşə müqəddəratını müəyyənləşdirməni ani akt hesab etməyərək, E.F.Zeyer onun ömürboyu davam edən bir proses olduğunu göstərir. Bu onunla əlaqədardır ki, şəxsiyyət daim öz peşə varlığını yenidən düşünür, mənalandırır və öz peşəsində möhkəmlənir. Tədqiqatçının fikrincə, şəxsiyyətin peşə müqəddəratını müəyyənləşdirməsi orta məktəbin, orta ixtisas məktəbinin bitirilməsi, attestasiyadan keçmə, işdən çıxma və s. kimi müxtəlif hadisələrlə aktuallaşaraq həyata keçirilir [6, s. 48]. Amerika psixoloqu A.Maslounun konsepsiyasında “özünüaktuallaşdırma” və “özünüreallaşdırma” “özünü-müəyyənləşdirmə” anlayışının sinonimi kimi çıxış edirlər. Özünün peşə inkişafı konsepsiyasını təklif edərək, o, mərkəzi anlayış olaraq özünüaktuallaşdırmanı insanın özünütəkmilləşdirməyə, onun üçün əhəmiyyətli sayılan bir işdə ifadə etməyə cəhdi kimi göstərir [21] .

Y.A.Klimova görə, peşə müqəddəratını müəyyənləşdirmə “özünü nəisə faydalı “bir şeylə məşğul olan” peşəkarlar birliyinin tamhüquqlu iştirakçısı kimi formalaşdırmanın ... mühüm ifadəsidir ...” [11, s. 39]. Peşə müqəddəratını müəyyənləşdirmə, Y.A.Klimova görə, birdəfəlik akt olmayaraq, növbə ilə bir birini daim əvəz edən seçimdir [14, s. 52]: onu ümumilikdə əmək subyekti kimi inkişaf mərhələsindən asılı olaraq bu və ya digər məzmun daşıyan insan fəaliyyəti kimi başa düşmək düzgündür [11, s. 27].

Şəxsiyyətin öz peşə müqəddəratını müəyyənləşdirməsi məsələsinə dair elmi ədəbiyyatda iki yanaşma mövcuddur. Birinci yanaşmaya görə, bu məsələyə məktəblilərin peşə oriyentasiyası və onların inkişafının yaş xüsusiyyətləri problemi çərçivəsində baxılmalıdır [13; 23; 31; 35]. Lakin T.V.Kudryavtsev və V.Y.Şequrovanın fikrincə, bu cür tədqiqatlarda şəxsiyyətin öz peşə müqəddəratını müəyyənləşdirməsi məsələsinin müzakirəsi məktəb məzunlarının peşə seçiminə hazırlığının və seçmə aktının özünün təhlili ilə məhdudlaşır, baxmayaraq ki, bu proses peşə seçiminin özü ilə sona çatmır. Belə ki, Y.A.Klimovun qeyd etdiyi kimi, “peşə, ixtisas seçimi, bu seçimin vaxtaşırı dəqiqləşdirilməsi məsələsi insanın bütün əmək fəaliyyəti boyu yaranır” [12]. Daha sonra məlumdur ki, orta məktəb məzunlarının çox hissəsi peşəni tam təsadüfi, xüsusi bir motivasiya olmadan [27; 31], digər hissəsi isə təsadüfən yaranmış maraq və ya xarici təsir (məsələn, valideynlərin, dost və yoldaşlarının, referent qrupların və s.) altında seçir [2; 3]. Bundan əlavə, şəxsin hər hansı bir səbəbdən gələcək peşəsini seçməsi heç də həmişə onun peşə müqəddəratının müvəffəqiyyətli olmasına təminat vermir. Prinsipcə, bu prosesin başa

çatması haqqında bir fikir yürütmək insan özü peşə fəaliyyəti vaxtı öz imkanlarını yoxlayana və özünə peşə fəaliyyətinin subyekti kimi münasibət formalaşdırana qədər çətindir. Ona görə də peşə seçimi yalnız özünümüəyyənləşdirmə prosesinin yeni inkişaf mərhələsinə qədəm qoymasının göstəricisidir [15, s.52].

İkinci yanaşmada peşə müqəddəratını müəyyənləşdirmə şəxsiyyətin peşə təşəkkülünün tərkib və mühüm hissəsi kimi nəzərdən keçirilir.

Peşə təşəkkülü probleminin başa düşülməsində bəzi əsas prinsiplər peşə müqəddəratının dinamikasının təhlilinin nəzəri əsaslarını təşkil edir. T.V. Kudryavtsev və V.Y. Şequrovanın qeyd etdikləri kimi, bu gün şəxsiyyətin peşə təşəkkülü problemi şəxsiyyət-fəaliyyət yanaşması əsasında tədqiq olunur. Burada fərd tərəfindən həm öz peşəsi və şəxsi imkanları haqqında biliklərin əldə olunması və inkişafı, həm də tədris və peşə fəaliyyətində ardıcıl iştirak nəzərdə tutulur. Belə ki, fərd əvvəlcə peşə fəaliyyətinin subyekti kimi formalaşır və bundan sonra şəxsiyyət kimi inkişaf edir. Buradan belə bir nəticə çıxarmaq olar ki, peşə təşəkkülü şəxsiyyətin inkişaf formalarından biridir və o, öz inkişafında aşağıdakı əsas mərhələlərdən keçir: 1) peşə məqsədlərinin formalaşması, 2) peşə təlimi, 3) peşə adaptasiyası və 4) şəxsiyyətin peşə əməyində qismən və ya tam reallaşması [15, s. 51-53].

Peşə müqəddəratının sosioloji cəhətdən başa düşülməsi, yəni sosial qrupun cəmiyyətin sosial və peşə strukturlarında öz yerini müəyyənləşdirməsi prosesini, sosial və peşə potensialını reallaşdırması strategiyasının seçimini nəzərə almaqla, hər iki yanaşmanı əhatə edir. Bizim araşdırmamızda ölkəmizdə inkişaf edən əmək bazarı şəraitində şəxsiyyətin peşə təşəkkülünün dinamikasını daha dərindən izləməyə imkan verən ikinci yanaşmaya üstünlük verilir.

Özünümüəyyənləşdirmə prosesi insan üçün onun bütün ömrü boyu davam edir. Özünümüəyyənləşdirməyə tələbat, onun səviyyəsi mühitdən, insan münasibətləri sistemindən, şəxsiyyətin yetkinliyi, hazırlığı və motivasiyasından asılıdır [32, s. 67].

Özünümüəyyənləşdirmənin mənasını subyekt tərəfindən öz mövcudluğunun mənasının, eləcə də göstərdiyi səylərə uyğun peşə və işin axtarışı kimi izah etmək olar. Bunlar insana öz əməyinin ədalətli ictimai qiymətini ümumi işə töhfəyə uyğun qazanmaq imkanı vermiş olur [6, s. 18].

Rusiya tədqiqatçılarından N.S.Pryajnikov, Y.S.Kuzmin, A.M.Kuxarçuk, A.Q.Xarçev, V.İ.Juravlyov, V.F.Safin və b. əsərlərinin təhlili nəticəsində özmüqəddəratını müəyyənləşdirmənin şəxsi, sosial, peşə və s. kimi struktur elementlərini və ya növlərini göstərə bilərik [20, s.45-48; 33, s. 19-20]. Özmüqəddəratını müəyyənləşdirmənin bu növləri daim qarşılıqlı təsirdədirlər .

Beləliklə, elmi ədəbiyyatda "şəxsiyyətin öz müqəddəratını müəyyənləşdirmə" anlayışının geniş diapazonda işlənməsi müşahidə olunur [33, s. 21]. Öz müqəddəratını təyin etmənin adı çəkilən komponentlərinin hər biri digərindən törəyir və affektiv, koqnitiv, davranış aspektlərinə malikdir. Onlar yetkin subyektin şüur və fəaliyyətinə inteqrə olunaraq şəxsi və sosial məsuliyyət kimi çıxış edirlər. Daha sonra qeyd edək ki, “peşə müqəddəratını müəyyənləşdirmə” anlayışı dedikdə - prefossionallaşmanın bütün mərhələlərində özünə yer alan və əmək subyektinin peşə təşəkkülü və inkişafının əsas amili olan şəxsiyyətin peşə aktivliyinin xüsusi forması başa düşülür [16].

**Peşə müqəddəratını müəyyənləşdirmənin mərhələləri**

Tədqiqatımız üçün şəxsiyyətin təşəkkülünün müxtəlif mərhələlərinə uyğun olaraq peşə müqəddəratını müəyyənləşdirmənin mərhələlərinin öyrənilməsi maraq kəsb edir. Bununla əlaqədar olaraq, rusiyalı sosial psixoloq E.F.Zeyer tərəfindən təklif olunan dövrlərə bölməni nəzərdən keçirək [6, s. 50-53] .

1) Məktəbəqədərki uşaqlıq dövrü (7 yaşa qədər)*. Bu mərhələnin səciyyəvi cəhətlərini təqlid etmə və böyüklərin hərəkətlərinin təkrarlanması, peşəyönlü süjetli rol oyunları təşkil edir. Ev şəraitində əmək fəaliyyəti uşaqlarda əməyə marağı inkişaf etdirir.

2) Aşağı məktəb yaş dövrü (11 yaşa qədər). Bu yaşın mühüm xüsusiyyətləri böyükləri təqlid etmə və nailiyyətlərin motivasiyasıdır. Təhsil və əmək fəaliyyəti gələcəkdə uşağın şəxsiyyətinin peşə müqəddəratını müəyyənləşdirilməsində mühüm rol oynayacaq onun peşə fantaziyasının inkişafına imkan vermiş olur.

3) Yeniyetmə dövrü (15 yaşına qədər). Bu mərhələdə yeniyetmələrdə şəxsi dəyərlərin formalaşması baş verir ki, bunda da onları romantik peşələrə istiqamətləndirən KİV mühüm rol oynayır. Dərs fənlərinə seçmə münasibət və əmək fəaliyyətinin müxtəlif növlərinə marağın yaranması yeniyetmələrdə təlim-peşə niyyəti və peşə istiqamətli arzular formalaşdırır.

4) Gəncliyin ilk çağı (18 yaşına qədər). Bu dövr üçün peşə seçimi əsas məsələdir. Yeniyetmələr öz qabiliyyətlərini, peşənin prestijliyini və məzmununu, ölkədəki sosial-iqtisadi vəziyyəti dəyərləndirmə əsasında peşə təhsilinin alınmasında və peşəkar əməyə daxil olmada öz müqəddəratlarını müəyyənləşdirirlər. Daha böyük yaşlı yeniyetmələr üçün təhsil-peşə müqəddəratını müəyyənləşdirmə aktuallıq daşımağa başlayır.

5) Gənclik (23 yaşa qədər). Bu yaşda qız və oğlanların əksəriyyətində peşə təhsili nəticəsində etdikləri seçimin düzgünlüyünə inam güclənir. Onların bir hissəsi təhsil və peşə seçimlərindən razı qalmasalar da və həvəsdən düşsələr də, öz peşə startlarına lazımi düzəlişlər etməyə cəhdlər göstərirlər. Şəxsiyyətin peşə təmayülünün kristallaşması prosesi bu vaxt baş verir.

6) Gənclik (27 yaşa qədər). Bu, peşə müqəddəratını müəyyənləşdirmənin yenidən aktuallıq kəsb etdiyi sosial-peşə aktivliyi dövrüdür. Özünü seçdiyi peşədə təsdiqləmə və ya peşə miqrasiyası çətin vəziyyətdən iki mümkün çıxış yoludur.

7) Yetkinlik (60 yaşa qədər). Bu dövrün səciyyəvi cəhətlərini öz həyat və peşə planlarını gerçəkləşdirmək, özünü şəxsiyyət və peşəkar kimi təsdiqləmək, öz peşəsindən məmnun qalmağa çalışmaq (“peşə optimizmi”) təşkil edir. Lakin şəxslə bağlı bəzi pozitiv dəyişikliklər həmçinin destruktiv nəticələrlə də müşayiət edilə bilər (məsələn, işi və ya peşəni dəyişməyə cəhd). Bununla yanaşı, peşə miqrasiyası keçmiş pozitiv təcrübə ilə də əngəllənə bilər ki, nəticədə şəxs müxtəlif növ peşə mükafatı və adı almağa çalışacaqdır.

8) Ahıl yaş (75 yaşa qədər və ondan yuxarı). Bu, təqaüd yaşına çatma və peşə həyatından tədricən uzaqlaşma dövrüdür. Bu vaxt şəxsin peşə potensialı hələ tam tükənməsə də, o, artıq müəyyən peşə yorğunluğu hissi keçirir. Bu, həm də peşə bilikləri və ustalığa irəli sürülən tələblərin azalması, formalaşmış stereotiplərin dağılması prosesləri ilə müşayiət olunan sosial qocalma dövrüdür. Peşə müqəddəratını müəyyənləşdirmə sosial müqəddəratı müəyyənləşdirmə ilə əvəz olunur ki, bu da özünü ailə-məişət, xırda sahibkarlıq və digər problemlərə cəlb olunmada göstərir. E.F.Zeyerin fikrincə, bu, “aktiv sosial-əmək müqəddəratını müəyyənləşdirmə” dövrüdür.

Beləliklə, şəxsiyyətin peşə təşəkkülünün müxtəlif mərhələlərində şəxsiyyətin peşə müqəddəratını müəyyənləşdirmənin təhlili əsasında aşağıdakı nəticələrə gəlmək mümkündür: peşə müqəddəratını müəyyənləşdirmə şəxsiyyətin inkişafının yaradıcı prosesidir; əgər şəxsiyyət peşə cəhətdən müqəddəratını düzgün müəyyənləşdirmişsə, onda bu onun şəxsiyyətinin inkişafına təkan verir, yox əgər burada problemlər vardırsa, onda şəxsiyyətdaxili və şəxsiyyətlərarası münaqişə qaçılmazdır.

---

*Azərbaycanda bu gün 6 yaşa qədər.

Peşə müqəddəratını müəyyənləşdirmə daha çox yeniyetmə üçün xarakterikdir.[*] Bu yaşda peşə seçimi şəxsiyyəti yenidən formalaşdıran mühüm bir komponentə çevrilmiş olur. Eyni zamanda, məsələn, işsiz də optant vəziyyətində ola bilər. Buradan da optasiyanı peşə müqəddəratını müəyyənləşdirmənin müəyyən bir mərhələsi və dövrü proses hesab etmək olar ki, bu vaxt insan bir neçə dəfə peşə, tədris müəssisəsi və ya iş yeri seçimi qarşısında qalmış olur. Həmçinin yeniyetmə və yaşca böyük adamın optasiyasında da fərq mövcuddur: əgər yeniyetmə həyatında ilk peşə seçimini edirsə, yetkin işçi öz karyerası ilə bağlı məsələlərin həllində öz seçiminə münasibətdə müqəddəratını müəyyənləşdirmiş olur [6, s. 36].

**Peşə müqəddəratını müəyyənləşdirmə şəxsiyyətin peşə təşəkkülünün tərkib hissəsi kimi**

Yuxarıda qeyd olunduğu kimi, peşə müqəddəratını müəyyənləşdirməyə yanaşmalardan biri ona şəxsiyyətin peşə təşəkkülünün tərkib hissəsi kimi baxılmasıdır. Bu müddəa üzərində bir qədər dayanaq. Peşə təşəkkülünü özünütəkmilləşdirməyə və özünüreallaşdırmağa yönəlmiş şəxsiyyətin mütərəqqi dəyişməsi prosesi kimi göstərmək olar ki, burada əsas təsir amilləri kimi peşə fəaliyyəti və sosial təsir çıxış edir [6, s. 37].

Peşə təşəkkülü problemi yalnız XX əsrin əvvəllərində aktuallıq kəsb etməyə başlayır. Bu vaxta qədər tarixdə peşənin sərbəst seçilməsi məsələsi olmamışdır: silki ənənələrə əsaslanan patriarxal həyat tərzi insanların peşə həyatını güclü şəkildə məhdudlaşdırırdı. Çevriliş sənaye inqilabının (1760-1830) başlanması ilə bərabər baş verdi ki, bunun da nəticəsində əmək bazarı və yeni peşələr yarandı. Çoxlu sayda insan iş axtarışı və peşə hazırlığı problemi ilə qarşılaşdı. Peşə dünyası da inanılmaz dərəcədə genişləndi; yeni əmək alətləri və vasitələri əmək funksiyalarını uzun müddət bacarıqla yerinə yetirə biləcək ixtisaslı işçilər tələb edirdi. XIX əsrin sonu - XX əsrin əvvəllərində əməyin təşkilində F.Teylor[*] sistemi geniş yayıldı ki, burada əmək əməliyyatlarının rasionallaşması ilə yanaşı işçinin peşəyə yararlılığına böyük əhəmiyyət verilirdi. XX əsrin üçüncü rübündə Qərbdə istehsalın təşkilinin qabaqcıl formalarının inkişafının və əməyin müxtəlif humanist nəzəriyyələrinin (məsələn, insan resurslarının idarə olunması nəzəriyyələri, insan kapitalı nəzəriyyələri və s.) yayılması şəxsiyyətin professionallaşması məsələsinə yeni münasibətin formalaşması ilə nəticələndi. Bu yeni yanaşmanın mahiyyəti peşə təşəkkülünün əsası kimi peşə fəaliyyəti prosesində fəaliyyətin özünün, eləcə də işçinin şəxsiyyətinin dəyişikliklərə uğradığı və peşənin xarakterlə məzmununun dəyişilməsi mənasına gələn şəxsiyyətlə peşənin qarşılıqlı təsirinin tanınmasından ibarət idi [6, s. 15].

Mütəxəssisin peşə potensialının inkişafından danışarkən onun tərkib elementlərinin təhsil, bilik və peşə sahəsində bacarıqlardan ibarət olmasını qeyd etmək lazımdır. Peşə potensialının reallaşdırlmasında əsas məsələ ona qarşı yürüdülən obyektiv tələblər sistemidir, baxmayaraq ki, subyektin özünün şəxsi keyfiyyətləri, peşəkar əməyin xarakteri də (məsələn, monoton əmək əmək staqnasiyasına gətirib çıxara bildiyi halda, onun rəngarəngliyi peşəkarın inkişafına və təşəkkülünə səbəb ola bilər) burada az rol oynamır. Rusiya psixoloqu L.M.Mitina peşə fəaliyyətinin təşəkkülünün iki modelindən - adaptiv və peşə inkişafından bəhs edir. Birinci modeldə insanın özünüdərkində xarici mühitə tabe olmasına cəhd üstünlük təşkil edir (məsələn, əmək normalarına, qaydalarına əməl olunması və s.). O, şəxsiyyətin peşə təşəkkülü aspektini əhatə edir. İkinci model şəxsiyyətin öz bacarıqlarını əldə rəhbər tutması və “fəaliyyətini praktiki dəyişiklik predmetinə çevirməyi”

---

[*] N.S. Pryajnikov belə şəxsi “optant” (latınca optantis - arzu edən, seçən) adlandırır.

[*] Əməyin və istehsal proseslərinin idarə olunmasının təşkili və nizamlanmasının məcmu metodları və eləcə də kadrların seçilməsi və yerləşdirilməsi prinsipləri.

bacarması ilə xarakterizə olunur. Peşəkarın bu vaxt inkişafı peşənin özünün yüksək tələbləri ilə mütəxəssisin fərdi imkanları arasındakı ziddiyyətlərin həllinə əsaslanır [22, s. 30-32].

Şəxsiyyətin peşə təşəkkülünün müxtəlif müəlliflər tərəfindən təhlilindən məlum olur ki, bu prosesin müxtəlif meyarları və differensiasiya əsaslarına baxmayaraq, demək olar ki, eyni mərhələlər ayrılır. Beləliklə, peşə təşəkkülündə bir mərhələnin digərilə əvəzlənməsi həm də inkişafın sosial situasiyasının, aparıcı fəaliyyətin məzmununun dəyişilməsi, yeni sosial rolun mənimsənilməsi və şəxsiyyətin yenidən formalaşması anlamına gəlir [15, s.51-59; 11, s.27-39; 20, s. 56-57; 17, s. 110-123; 6, s. 21-22; 14, s. 52; 10, s. 163].

**Nəticə**

Peşə vasitəsilə insan şəxsiyyətinin özünüifadəsi baş verir. Əmək insanın özünüreallaşdırması üçün mühüm vasitədir [20, s. 56]. İnsan həyatı boyu dəyərlər oriyentasiyası, ustanovka və motivlərindən asılı olaraq öz peşə fəaliyyətinə düzəlişlər edir. Ayrı-ayrı hallarda bu peşədə də dəyişikliklər edilməsinə gətirib çıxara bilər. Peşə inkişafının necə getməsi (zirvələri fəth etmək, peşə sahəsində inkişafa nail olmamaq və s.) insanın öz əlindədir. Professionallaşma şəxsiyyətə onu stimullaşdırmaqla və ya dağıtmaqla təsir göstərir [20, s.57].

Ümumilikdə şəxsiyyət peşəkarlığın əsasında durur və miqyasına görə ondan daha geniş məna daşıyır. İnsanın peşəkarlaşmasının məzmunu və gedişatı prosesi sosiallaşma ilə müəyyənləşir [1, s. 196-198; 9, s. 344-347].

Beləliklə, demək olar ki, müasir şəraitdə peşə sahəsində dəyişikliklərin əsas məzmunu belə bir müddəaya əsaslanır: insanın artmaqda olan azadlığı şəxsiyyət tərəfindən peşənin sərbəst seçilməsinin səbəbidir. Şəxsiyyətin peşə müqəddəratını müəyyənləşdirməsi peşə fəaliyyətinin subyektinin təşəkkülü prosesi kimi çıxış edərək bütünlükdə peşə fəaliyyəti dövrünü əhatə edir.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Андреева Г.Н. Социальная психология. М., «Наука», 1988. – 228 с.
2. Божович Л. И. Личность и ее формирование в детском возрасте. - М., «Просвещение», 1968-464 с.
3. Виноградова М. Д. Воспитательная работа с подростками в школе по выбору профессии. - М., АПН РСФСР, 1961. - 55 с.
4. Вебер М. Избранные произведения. М., «Прогресс», 1990. – 808 с.
5. Дюркгейм Э. О разделении общественного труда. Метод социологии. М., «Наука», 1991. – 576 с.
6. Зеер Э.Ф. Психология профессий: Учебное пособие для студентов вузов. - 2-е изд., перераб., доп. - М.: Академический Проект; Екатеринбург: Деловая книга, 2003.- 336 с.
7. Зиммель Г. Философия труда // Избранное: В 2 т. Т. 2. М., «Юристь», 1996. – 608с.
8. Зомбарт В. Современный капитализм. Т. I. - Москва: Типо - литография Т-ва И.Н. Кушнерев и К О, Пименовская ул., соб. дом, 1904. - 584 с.
9. Иванова Е.М. Основы психологического изучения профессиональной деятельности. М., МГУ, 1987. – 207с.
10. Кондаков И.М., Сухарев А.В. Методологические основания зарубежных теорий профессионального развития// Вопросы психологии. 1989, №5, с. 158-164.
11. Климов Е.А. Психология профессионального самоопределения: Учеб. пособие для студ. высш. пед. учеб. заведений. - М.: Издательский центр «Академия», 2004. - 304 с.
12. Климов Е. А. Путь в профессию. Л., Лениздат, 1974. - 190 с.
13. Кухарчук А.М. Самооценка учащихся старших классов в процессе профессионального

самоопределения: Автореф. канд. дис. - Минск, 1973.- 23 с.
14. Кутугина В.И. Факторы профессионального самоопределения личности в современных условиях. Современные проблемы науки и образования. "№1, 2007, с.51-53.
15. Кудрявцев Т.В., Шегурова В.Ю.Психологический анализ динамики профессионального самоопределения личности. Вопросы психологии. 1983г., № 2, с. 51-59.
16. Лобова Е.В. Процесс первичного профессионального самоопределения учащихся: социологический анализ / Автореферат диссертации на соискание ученой степени кандидата социологических наук, Екатеринбург, 2006 - 23 с.
17. Михайлов И.В. Проблема профессиональной зрелости в трудах Д.Е. Сьюпера // Вопр. психологии. 1975. № 5. – с.110-123.
18. Маркс К. Капитал. Т. I // Маркс К., Энгельс Ф. Соч. 2-е изд. Т. 23. М., Изд-во «Политической литературы», 1960. - 920 с.
19. Маркс К. и Энгельс Ф. Сочинения. Издание второе. М., Изд-во «Политической литературы», 1975, т. 40. - 750с.
20. Маркова А.К. Психология профессионализма. Изд-во: Международный гуманитарный фонд "Знание", М., 1996. - 257с.
21. Маслоу А. Дальные пределы человеческой психики. СПб., Издат. группа «Евразия», 1997. – 432 с.
22. Митина Л.М. Личностное и профессиональное развитие человека в новых социально-экономических условиях // Вопросы психологии, 1997, № 4. - с. 30-32.
23. Овсянникова В.В. Самооценка учащегося ПТУ как субъекта профессиональной деятельности: Автореф. канд. дис. - Л., 1982. - 23 с.
24. Пряжников, Н.С. Профессиональное самоопределение в культурно-исторической перспективе // Вопросы психологии. -1996, № 1. – с. 62-72.
25. Парсонс Т. Система современных обществ. Пер. с англ. М., Аспект Пресс, 1997. – 270с.
26. Пряжников Н.С. Теория и практика профессионального самоопределения. Москва. АНО «Центр «Развивающее образование». Московский городской психолого-педагогический институт, 1999. -108 с.
27. Подготовка школьников к выбору профессии / Под ред. А.А. Бардиковой. - М., 1966. - 179 с.
28. Спенсер Г. Синтетическая философия: Пер. с англ. - К.: «НикаЦентр», 1997. - 512 с. - (Серия “ПОЗНАНИЕ”; Вып.2).
29. Сорокин П. Система социологии. В 2 т. Т. 2. М., «Наука», 1993. – 688 с.
30. Сорокин П. Человек. Цивилизация. Общество. М., «Политиздат», 1992. – 542 с.
31. Смирнов А.Г. Профессиональное самоопределение старших школьников и его влияние на отношение к учению: Автореф. канд. дис. - Л., 1975, 23 с.
32. Сафин В.Ф., Ников Г.П. Психологический аспект самоопределения личности. «Психологический журнал», 1984, № 4., с. 65-73.
33. Сафин В.Ф. Психология самоопределения личности: Учеб. пособие/Свердл. пед. ин-т. Свердловск, 1986. - 142с.
34. Цветкова Н.А. Профессиональное самоопределение личности на разных этапах становления профессионала. Автореферат. Ярославль, 2005. – 23 с.
35. Шавир П.А. Психология профессионального самоопределения в ранней юности. - М., «Педагогика», 1981. - 96 с.

**Судаба Гашимова**

**НЕКОТОРЫЕ ТЕОРЕТИЧЕСКИЕ ВОПРОСЫ ПРОФЕССИОНАЛЬНОГО САМООПРЕДЕЛЕНИЯ ЛИЧНОСТИ**

***Резюме***

В научной литературе существует два подхода к вопросу профессионального самоопределения личности. Первый подход подразумевает, что этот вопрос следует рассматривать в контексте проблемы профессиональной ориентации школьников и возрастных особенностей их развития. Согласно второму подходу, профессиональное самоопределение рассматривается как неотъемлемая и важная часть профессионального становления личности.

***Цель*** - В статье предпочтение отдается второму подходу, который позволяет нам более внимательно следить за динамикой профессионального становления личности и рассматривать их детально.

***Методология*** - Исследование основано на структурном функционализме, являющимся одним из основных методологических подходов в современных социальных науках.

***Результат иссдедования*** заключается в том, что профессиональное самоопределение обосновывается как неотъемлемая и важная часть профессионального становления личности.

***Ключевые слова:*** личность, профессиональное самоопределение, профессиональная ориентация, профессиональный выбор, профессиональное становление, профессиональная деятельность, профессиональный потенциал, профессиональные намерения

**Sudaba Hashimova**

**SOME THEORETICAL PROBLEMS OF THE PROFESSIONAL DETERMINATION OF PERSONALITY**

***Summary***

In the scientific literature, there are two approaches to the issue of professional self-determination of a person. The first approach implies that this issue should be considered in the context of the problem of vocational guidance for schoolchildren and age-related features of their development. According to the second approach, professional self-determination is considered as an integral and important part of the professional formation of an individual.

***Purpose*** -In the article, preference is given to the second approach, which allows us to more closely monitor the dynamics of the professional formation of the personality and consider them in detail.

***Methodology -*** The study is based on structural functionalism, which is one of the main methodological approaches in modern social sciences.

***Findings -*** The scientific novelty of the study lies in the fact that professional self-determination is justified as an integral and important part of the professional formation of an individual.

***Keywords**:* personality, professional self-determination, professional orientation, professional choice, professional development, professional activity, professional potential, professional intentions

**Rəyçi: BDU-nun sosiologiya kafedrasının müdiri, sos.e.d., prof. Rəfail Həsənov**

**Qəbul edilib: 12.05.20**

# İQTİSADİYYAT VƏ İDARƏETMƏ

**UOT 330. 811**

**Fəhrad Möhbalıyev**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, tədris və elmi işlər üzrə prorektor, i.ü.f.d.***
prof.ferhad.mehbaliyev@mail.ru

## İQTİSADİ TƏHLÜKƏSİZLİYİN ASPEKTLƏRİ VƏ ONA TƏSİR EDƏN AMİLLƏR

*Beynəlxalq aləmdə baş verən dəyişikliklər ölkələrin bütün sahələrdə münasibətlər səviyyəsinin saxlanılması, müstəqil dövlətlərin təhlükəsizliyinin qorunması və təmin edilməsi istiqamətində yeni yanaşmaları ön plana çıxarmışdır.*

*Bu baxımdan, hər bir dövlətin milli təhlükəsizliyinin təmin edilməsi iqtisadi məsələlərin həlli ilə sıx bağlıdır. Azərbaycan Respublikasının ən mühüm prioritetlərindən biri müstəqilliyi qorumaq, ərazi bütövlüyünə təminat verən, həmçinin ölkənin Beynəlxalq əmək bölgüsündə fəal iştirakını təmin edən və onun milli təhlükəsizliyinə təminat verən iqtisadi və sosial siyasətin həyata keçirilməsidir.*

***Məqsəd*** – dövlət müstəqilliyinin qorunub saxlanılmasında və möhkəmləndirilməsində iqtisadi təhlükəsizlik sisteminə daxil olan struktur ünsürləri, onun əsas göstəriciləri, iqtisadi təhlükəsizliyin təmin olunmamasına səbəb olan təhlükələr və onların aradan qaldırılması istiqamətində zəruri amillərin təhlili və müvafiq təkliflərin verilməsidir.

***Metodologiya*** – Tədqiqarda iqtisadi-statistik təhlil metodundan istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** – dünyanın hər bir dövlətinin ən başlıca məqsədi ölkə daxili və beynəlxalq səviyyədə sabitliyin qorunması, milli təhlükəsizliyin, onun tərkib hissəsi olan iqtisadi təhlükəsizliyin təmin olunmasıdır.

***Açar sözlər:*** iqtisadi inkişaf, milli maraqlar, iqtisadi strategiya, iqtisadi təhlükəsizlik göstəriciləri, qloballaşma prosesi, sosial-iqtisadi tələbatlar

### Giriş

Müasir dövrdə ölkənin İqtisadi təhlükəsizliyi aktual problem olaraq qalır. Belə ki, qloballaşan dünyada siyasi və iqtisadi-hərbi rəqabətin gücləndiyi cəmiyyətdə iqtisadi təhlükəsizliyin aktuallığı yüksəlir və artır. Dünyada baş verən müharibələrin lokal səviyyəsi və onların birdəfəlik aradan qaldırılmaması uzun illərdən sonra öz müstəqilliyini bərpa edən gənc Azərbaycan dövlətinin iqtisadi təhlükəsizliyinin təmin edilməsi istiqamətində praktiki addımların atılmasında və dövlət müstəqilliyinin qorunub saxlanılmasında iqtisadi təhlükəsizliyin rolunu yüksəldir. Bu problemə bir sıra amillər, o cümlədən daxili və xarici amillər təsir göstərir və bu alillərə daxildir:

- bir sıra ölkələrdə daxili iqtisadi və sosial-siyasi problemlərin mürəkkəbləşməsi: dövlət büdcəsinin kəsiri, işsizlik, “kölgə iqtisadiyyatı”nın dağıdılması və digər

mənfi hallar, istehsalın tənəzzülə uğraması, siyasi qeyri-sabitlik və cəmiyyətdə sosial gərginliyin kəskinləşməsi. Bunun nəticəsində milli təhlükəsizliyinin təmin edilməsinin iqtisadi əsasları dağılır;

- bəzi ölkələrin zəiflədiyi bir şəraitdə digər fövqəldövlətlərin onlara hərbi-texnoloji üstünlük vermək, siyasi maraqlarına nail olmaq üçün “İqtisadi alətlərdən”istifadə etmək cəhdləri güclənir.

Qeyd etmək lazımdır ki, dünya dövlətlərinin mühüm üstünlüklərindən biri daxili sabitliyi, ölkənin beynəlxalq əmək bölgüsündə fəal iştirakını təmin edən, həçinin onun milli təhlükəsizliyinə təminat verən iqtisadi təhlükəsizlik səviyyəsini yüksəltməkdən ibarət olmalıdır.

İqtisadi təhlükəsizlik milli iqtisadiyyatın müstəqilliyini, sabitliyini və dayanıqlığını təmin edən, ona daim yenilənməyə və özünü təkmilləşdirməyə imkan verən şərtlərin və amillərin məcmusundan ibarətdir. Bu baxımdan da, iqtisadi təhlükəsizliyin birbaşa məqsədi dövlətin milli maraqlarının qorunmasının təmin edilməsindən ibarət olmalıdır.

**Mövcud ədəbiyyatlara istinad**

İqtisadi təhlükəsizliyin təmin edilməsi və formalaşdırılması mühüm milli üstünlüklər-prioritetlər sırasına aiddir. Avropa və Qərb iqtisadi ədəbiyyatında iqtisadi təhlükəsizlik adətən milli iqtisadiyyatın dünya iqtisadi böhranları şəraitində dözümlülüyünün təmin edilməsi kimi izah edilir. Son dövrlərdə, inkişaf etmiş ölkələrin iqtisadiyyatında qloballaşma prosesi ilə əlaqədar baş verən dərin struktur dəyişiklikləri nəticəsində iqtisadi təhlükəsizlik anlayışına milli iqtisadiyyatın və ya onun aparıcı sahələrinin dünya bazarlarında rəqabət qabiliyyətliliyinin təmin edilməsi kimi vacib amil də əlavə edilmişdir.

Amerika mütəxəssislərinin fikrincə (Bərxudarov, 2006:152) iqtisadi təhlükəsizlik ən azı iki şərtə cavab verməlidir:

1. Ölkənin iqtisadi müstəqilliyini qoruyub saxlamaq. Lakin, bu mütləq xarakter kəsb etmir, çünki, beynəlxalq əmək bölgüsü milli iqtisadiyyatları biri-birilərindən qarşılıqlı vəziyyətə gətirib çıxarır. Belə şəraitdə iqtisadi müstəqillik-milli resurslar üzərində nəzarətə, həmçinin ölkənin rəqabətqabiliyyətliyini təmin edən, dünya təcrübəsində, kooperasiya əlaqələrində və elmi-texniki nailiyyətlərlə mübadilədə bərabər surətdə iştirak etməyə imkan verən istehsal, səmərəlilik və məhsulun keyfiyyəti səviyyəsinin əldə edilməsində nail olmaqdır.

2. Əhalinin əldə edilmiş həyat səviyyəsi keyfiyyətlərinin saxlanılması və onun imkan daxilində yüksəldilməsi, cəmiyyətin və dövlətin sosial-iqtisadi, hərbi-siyasi birliyinin təmin edilməsi, həmçinin daxili və xarici təhlükənin qarşısının alınması üçün iqtisadi gücə nail olmaq.

Beləliklə, iqtisadi təhlükəsizlik yalnız milli mənafeyi müdafiə etmək deyil, eyni zamanda hökümət orqanlarının ölkə iqtisadiyyatının milli mənafeyə uyğun inkişafına və onun reallaşmasına hazır olması və cəmiyyətin sosial-iqtisadi sabitliyini təmin etməyə hazırlanmasıdır (Олейникова,1993:165).

Azərbaycanın müstəqillik tarixi Qərb dövlətləri ilə müqayisədə böyük olmadığına görə onun həm təcrübəsi, həm də imkanları məhduddur. Lakin, müstəqil inkişaf etmiş ölkələrin iqtisadi modellərini, təcrübələrini öyrənməklə Azərbaycanda iqtisadi təhlükəsizliyin təmin olunmasının zəruriliyi, mahiyyəti və məqsədini müəyyən etmək mümkündür.

Məsələn, dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələrindən ABŞ, İngiltərə, Fransa, Yaponiya, Rusiya və Çin kimi dövlətlərin iqtisadi təhlükəsizliyinin təmin olunmasında başlıca məqsədi dünya ölkələri üzərində iqtisadi, siyasi və hərbi hegemonluğu saxlamaq, dünyaya ağalıqlarını təmin etməkdir. Azərbaycanın iqtisadi təhlükəsizliyinin

təmin olunmasının isə, əsas məqsədi ölkəmizin müstəqilliyini qoruyub saxlamaq, ərazi bütövlüyünü bərpa etmək və bazar iqtisadiyyatı yolu ilə inkişaf etməkdir. Bir sözlə, bu Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasının başlıca istiqamətlərindən biridir.

İqtisadi təhlükəsizliyin təmin edilməsi predmeti eyni zamanda üfuqi səviyyədə olan münasibətləri də əhatə edir. Bura siyasi, hərbi, informasiya, elmi-texniki və s. sahələrin təhlükəsizliyinin təmin edilməsini də daxil etmək lazımdır (Məhərrəmov, 2007:226).

Hər bir ölkənin iqtisadi təhlükəsizliyi onun milli iqtisadiyyatının inkişaf səviyyəsindən, iqtisadi təhlükəsizliyinin təmin edilməsində milli mənafeyin əsas götürülməsindən, millətin mənəviyyatının sağlam və ya qeyri sağlamlığının səviyyəsindən, habelə ölkənin sosial inkişaf istiqamətindən, müdafiə potensialından necə istifadə etməsindən və s.asılıdır.

İqtisadi təhlükəsizliyin daxili maddi əsası olmalıdır. Bu ölkədə məhsuldar qüvvələrin inkişaf səviyyəsi ilə əlaqədardır. Hər bir dövlət çalışmalıdır ki, geniş təkrar istehsalı elə təşkil etsin ki, istehsal olunan milli məhsul ölkənin tələbatının çox hissəsini, ödəmək qabiliyyətində olsun. Bütün bunların təmin edilməsi isə ölkəni idxaldan, xarici dövlətlərdən asılılıqdan azad edə bilər. İqtisadi təhlükəsizliyin daxili sosial əsası isə ölkə əhalisinin birliyidir. Bu isə dövlətin və onun rəhbərlərinin apardığı ağıllı siyasət ilə bağlıdır. Əgər dövlət ağıllı, düşünülmüş, ədalətli sosial-iqtisadi siyasət aparırsa, milli mənafeni əsas götürürsə əhali onun ətrafında sıx birləşir, əks halda isə xalq öz dövlətinə inamını itirir.

Hər bir dövlət özünün iqtisadi təhlükəsizliyini təmin etmək üçün problemin mahiyyətini dərk etməyə imkan verən bir sıra əsas göstəriciləri təhlil etməyə çalışır. Bu göstəricilərə aşagıdakılar aiddir:

- ÜDM – in artım surəti;
- əhalinin həyat səviyəsi göstəriciləri;
- illik inflyasiyanın səviyyəsi;
- işsizliyin səviyyəsi;
- iqtisadiyyatın strukturu;
- əhali gəlirləri arasında nisbət;
- sənayenin ümumi məhsulda xüsusi çəkisi;
- təsərrüfatda texniki bazanın vəziyyəti;
- rəqabətqabiliyyətlilik;
- idxal asılılığı;
- iqtisadiyyatın açıqlığı;
- dövlətin daxili və xarici borcu və s.(Гордиенко, 2009: 17).

**Material və metodlar**

Ümumiyyətlə, hər bir dövlətin iqtisadi təhlükəsizliyinin parametrləri müxtəlifdir və bu onun məxsus olduğu bir sıra təbii amillərdən asılıdır. Bir sözlə iqtisadi təhlükəsizliyin təmin olunmasına təsir edən amilləri iki qrupda birləşdirmək olar:

1. Təbii amillər – bura daxildir:

- ölkənin malik olduğu təbii ehtiyatlar;
- yerləşdiyi strateji – coğrafi mövqe;
- əmək resursları və s.

2. Mövcud hakimiyyətin yürütdüyü siyasətdən asılı amillər-bura daxildir:

- iqtisadi struktur;
- idarəçilik metodları;

- iqtisadi qanunvericilik;
- zəruri iqtisadi biliklər və informasiya sistemi;
- ölkənin beynəlxalq əmək bölgüsündə yeri;
- inteqrasiya və s.

Məxsus olduğu təbii ehtiyatların həcmi dövlətin iqtisadi təhlükəsizliyinin təməlində ən başlıca amildir. O ölkə ki, geniş təbii ehtiyatlara malikdir, onun iqtisadi təhlükəsizliyini təmin etmək üçün böyük vəsait tələb olunmur. Məhz bu mənada Azərbaycan zəngin təbii ehtiyatlara malik olan ölkələr sırasına daxildir.

Milli təhlükəsizlik, onun tərkib hissəsi olan iqtisadi təhlükəsizlik probleminin həll edilməsinin ən mühüm vəzifələrindən biri “İstehsalın aşağı düşməsinin qarşısının alınması və iqtisadi sabitliyin təmin edilməsi” hesab edilir.

Dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsində digər həlledici amillərdən biri də mövcud istehsal strukturunun necə formalaşması hesab edilir. Belə ki, hər bir dövlət öz istehsal strukturunu müasir dövrün tələblərinə uyğun olaraq təkmilləşdirmək yolu ilə ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunmasında böyük uğurlar əldə etmiş olur. Məsələn, ABŞ avtomobil, Yaponiya elektronika, Almaniya ağır maşınqayırma sənayesini, Skandinaviya ölkələri kənd təsərrüfatını seçmiş, bu sahənin rəqabət qabiliyyətini artırmış və o sahələrdən əldə edilən gəlirin hesabına iqtisadiyyatın digər sahələrində istehsal strukturunu milli mənafeyə uyğun qurmuşlar (Orexov,2014: 31).

Azərbaycan üçün belə sənaye sahəsi məhz neft-maşınqayırma sənayesi seçilmiş,bu strategiya uğurla hal-hazırda da reallaşdırılır. Ümumiyyətlə, iqtisadi təhlükəsizlik sistemi göstəricilərinin analitik təhlilindən belə bir nəticəyə gəlmək olar ki,  bu göstəricilər ayrı-ayrılıqda deyil, kompleks yanaşma prinsipi əsasında  götürülməklə nəzərə alınmalıdır. Ona görə ki, birincisi, iqtisadi təhlükəsizliyin göstəriciləri olduqca çoxdur və onun hamısını bütövlükdə nəzərə almaq mümkün deyildir. İkincisi, dövlətlərin keçdiyi tarixi inkişaf yolu, iqtisadi inkişaf səviyyəsi, geosiyasi mövqeyi müxtəlif olduğundan iqtisadi təhlükəsizlik göstəricilərində yer dəyişmələr ola bilər. Bunu isə hər bir dövlət öz milli marağına uyğun müəyyən edir.

Odur ki, müasir dövrdə dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsində mühüm rol oynayan iqtisadi təhlükəsizlik xalqın həyat səviyyəsinin yüksəldilməsi, istehsal proseslərinin təkmilləşdirilməsi, sənaye və kənd təsərrüfatının inkişafı, yeni texnologiyaların tətbiq edilməsi, elmin yeni müasir nou-xau texnologiyalarının nailiyyətlərindən, strateji yeraltı və yerüstü, həmçinin əmək ehtiyatlarından səmərəli istifadə edilməsindən ibarətdir. Məhz buna görə də Azərbaycan dövləti hüquqi qanunlar çərçivəsində iqtisadi sahədə milli təhlükəsizliyin tənzimlənməsinə xüsusi diqqət yetirir. “Milli təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının qanunun 17-ci maddəsində (7, 2004: maddə 17) iqtisadi sahədə milli təhlükəsizliyin təmin olunması tədbirləri müəyyənləşdirilmişdir ki, bunlara aşağıdakılar aiddir:

- Azərbaycan Respublikasının iqtisadi potensialının artırılması və bazar münasibətlərinin inkişaf etdirilməsi yolu ilə iqtisadi müstəqilliyin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişafını təmin edən təbii ehtiyatların, energetika əsaslarının və tranzit imkanlarının qorunması və möhkəmləndirilməsi;
- ölkə daxili və beynəlxalq maliyyə təsisatları arasında qarşılıqlı sərfəli əməkdaşlığın gücləndirilməsi, daxili və xarici maliyyə ehtiyatlarının ölkə iqtisadiyyatının inkişafına yönəldilməsi;
- Azərbaycan Respublikasının iqtisadi potensialının qorunması məqsədilə büdcə vəsaitlərinin və dövlət ehtiyatlarının səmərəsiz istifadəsinə yol verilməməsi;

- iqtisadiyyatın inkişafının təmin edilməsi məqsədilə bank sisteminin təkmilləşdirilməsi;
- iqtisadiyyatda dövlət idarəetməsinin təkmilləşdirilməsi;
- iqtisadiyyatda qeyri-mütənasib inkişafın qarşısının alınması;
- iqtisadi sahədə həyata keçirilən sosial yönümlü islahatların hüquqi təminatının təkmilləşdirilməsi;
- milli məhsulların rəqabət qabiliyyətinin artırılması məqsədilə yerli istehsalçıların hüquqlarının müdafiə olunması;
- enerji ehtiyatlarının istehsalı, nəqli, nəqliyyat dəhlizinin istismarı ilə bağlı layihələrin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının dünya iqtisadiyyatına inteqrasiyası və s.

Ölkəmizin bir sosial dövlət olaraq son illərdə həyata keçirdiyi islahatlar nəticəsində iqtisadiyyatın dinamik inkişafı onu göstərir ki, Azərbaycan Respublikası iqtisadi təhlükəsizlik strategiyasını həyata keçirmək gücünə malikdir və bu istiqamətdə çox mühüm nailiyyətlər əldə etmişdir.

**Nəticə**

Aparılan təhlil onu deməyə əsas verir ki, hazırda Azərbaycan beynəlxalq iqtisadi sistemə tədricən inteqrasiya edərək dünya birliyinin tam hüquqlu üzvü kimi öz fəaliyyətini davam etdirir.

Beləliklə, iqtisadi təhlükəsizlik sahəsində aparılan iqtisadi təhlil nəticəsində əldə olunan nəticələri ümumiləşdirərək ölkədə dayanıqlı iqtisadi inkişafa dəstək ola biləcək iqtisadi təhlükəsizliyin təmin olunması məqsədilə bir sıra tədbirlərin həyata keçirilməsi səmərəli nəticələr verə bilər:

1. Ölkəmizin milli və iqtisadi maraqları baxımından iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, dayanıqlı inkişafı təmin edən iqtisadi mexanizmlərin qurulması, dünya iqtisadiyyatına səmərəli inteqrasiya və ölkədə əsas sosial-iqtisadi problemlərin həll edilməsi kimi amillər, iqtisadi təhlükəsizliyin təmin olunmasını zəruri edir;

2. İqtisadi təhlükəsizliyin meyarları həm iqtisadiyyatın sistem kimi inkişafını, həm də dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsini özündə əks etdirir. Eyni zamanda iqtisadi təhlükəsizliyin təmin olunması əsasən real sektorun inkişaf etdirilməsindən və iqtisadiyyatın ayrı-ayrı sahələri arasında səmərəli əlaqələrin qurulmasından asılıdır;

3. Azərbaycanın xarici iqtisadi əlaqələrində istifadə edilən potensial daha çox təbii resurs amilinə əsaslanır ki, bu da ixrac potensialının inkişaf etdirilməsində ölkənin xarici ticarət fəaliyyətinə müsbət təsir etməklə iqtisadi təhlükəsizliyi təmin edə bilər;

4. İqtisadiyyatın qeyri-neft sektorunun davamlı inkişafının təmin olunması xarici ticarətdə azad ticarət siyasətinin aparılması üçün zəmin yaradacaq;

5. İqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi üçün dünyanın sənayecə inkişaf etmiş ölkələri ilə iqtisadi inteqrasiya əlaqələri qurmaq mühüm şərtdir;

6. Ölkədə iqtisadi təhlükəsizliyin təmin olunması məqsədilə dövlətin elmi cəhətdən əsaslandırılmış “İqtisadi təhlükəsizlik konsepsiyası” və onun həyata keçirilməsi mexanizminin hazırlanması.

Beləliklə, hazırda dünyanın hər bir dövlətinin ən başlıca məqsədi ölkə daxili və beynəlxalq səviyədə sabitliyin qorunması, milli təhlükəsizliyin, onun tərkib hissəsi olan iqtisadi təhlükəsizliyin təmin olunmasıdır.

**İstifadə edilmiş ədəbiyyat:**
1. Bərxudarov M., Məmmədov N. İqtisadi təhlükəsizlik. Bakı: “İqtisad Universiteti”, 2006, 152 s.
2. Экономическая безопасность и инновационная политика. Под ред. Е.А.Олейникова, М., 1993, с. 340.
3. Məhərrəmov A., Aslanov H. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi. Bakı: 2007, 399 s.
4. Гордиенко Д.В. Основы экономической безопасности государства. М: 2009, с. 17
5. Bərxudarov M. və Məmmədov N. İqtisadi təhlükəsizlik. Bakı: 2006, 130 s.
6. Орехов В.И. Экономическая безопасность современной России в условиях кризиса. Москва. 2014, с.31
7. Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı: 2004, mad.17

**Фахрад Мохбалиев**

**АСПЕКТЫ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ И ВЛИЯЮЩИЕ НА НЕЕ ФАКТОРЫ**

***Резюме***

Происходящие на международной арене изменения выдвинули на первый план новые подходы к поддержанию уровня отношений стран во всех сферах, защите и обеспечению безопасности независимых государств.

С этой точки зрения обеспечение национальной безопасности каждого государства тесно связано с решением экономических вопросов. Одним из важнейших приоритетов Азербайджанской Республики является осуществление экономической и социальной политики, обеспечивающей защиту независимости, территориальной целостности, а также активное участие страны в международном разделении труда и гарантирующей ее национальную безопасность.

***Цель*** – анализ структурных элементов, входящих в систему экономической безопасности, ее основных показателей, угроз, приводящих к необеспечению экономической безопасности, и факторов, необходимых для их устранения при сохранении и укреплении государственной независимости, и внесение соответствующих предложений.

***Методология*** – в исследовании использовался метод экономико-статистического анализа.

***Результаты исследования*** – главной целью каждого государства мира является поддержание стабильности внутри страны и на международном уровне, обеспечение национальной безопасности, экономической безопасности как ее составной части.

***Ключевые слова:*** экономическое развитие, национальные интересы, экономическая стратегия, показатели экономической безопасности, процесс глобализации, социально-экономические потребности труда

**Fahrad Mohbaliyev**

**ASPECTS OF ECONOMIC SECURITY AND AFFECTING IT FACTORS**

***Summary***

The changes taking place in the international arena have brought to the fore new approaches to maintaining the level of relations between countries in all spheres, protecting and ensuring the security of independent States.

From this point of view, ensuring the national security of each State is closely linked to solving economic issues. One of the most important priorities of the Republic of Azerbaijan is the

implementation of an economic and social policy that ensures the protection of independence, territorial integrity, as well as the active participation of the country in the international division of labor and guarantees its national security.

***Purpose*** – analysis of the structural elements included in the system of economic security, its main indicators, threats that lead to a lack of economic security, and the factors necessary to eliminate them while maintaining and strengthening state independence, and making appropriate proposals.

***Methodology*** – the study used the method of economic and statistical analysis.

***Findings*** **–** the main goal of every state in the world is to maintain stability within the country and at the international level, to ensure national security, economic security as an integral part of it.

***Keywords****:* economic development, national interests, economic strategy, indicators of economic security, the process of globalization, socio-economic needs of labor.

**Rəyçi: AƏSMA-nın “İqtisadiyyat və idarəetmə” kafedrasının müdiri i.e.d. V.İ.İsmayılov**

**Qəbul edilib: 08.04.2020**

**UOT 330.567**

**Zakir Əlizadə**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası***
***dosent***
zakiralizada@yahoo.com

# AZƏRBAYCANDA SOSİAL SAHƏLƏRİN İNKİŞAFININ PROBLEMLƏRİ

*Məqalədə Azərbaycanın müstəqillik əldə etdiyi dövrdən başlayaraq sonrakı illər ərzində sosial sahədə vəziyyəti nəzərdən keçirilmiş, bu dövrdə aparılmış islahatların nəticələri təhlil edilərək onların inkişaf göstəriciləri qeyd edilmişdir.*

*Ölkə iqtisadiyyatında və əhalinin rifah halının yüksəlməsində sosial sektorun rolu və əhəmiyyəti qeyd olunmuş, bu sahədə aparılan islahatların sürətləndirilməsi üçün əməli təkliflər verilmişdir.*

***Məqsəd –*** Azərbaycanda sosial sahələrin inkişafında mövcud problemləri araşdırmaq,bu problemlərin qiymətləndirilməsinə yeni metodoloji yanaşmasının işlənilməsi.

***Metodologiya –*** Məqalədə iqtisadi-statistik təhlil metodundan istifadə edilmişdir.

***Tədqiqatın nəticələri –*** Sosial sektorda aparılan islahatların sürətləndirilməsi üçün əməli təkliflər verilmişdir.

***Açar sözlər*:** sosial inkişaf, elm, təhsil, səhiyyə, mədəniyyət və incəsənət, turizm, məşgulluq

## Giriş

Sosial inkişaf geniş bir anlayşdır və sosial sferanın fəaliyyətini əks etdirir. Sosial sfera müstəqil bir törəmə kimi tarixi inkişaf nəticəsində maddi nemətlər istehsal edən sahələrdən fərqlənən təsərrüfat və xidmət sahələrinin formalaşması zamanı baş vermişdir. Bu sferaya təhsil, səhiyyə, mədəniyyət və incəsənət, sərnişin nəqliyyatı və rabitə, bədən tərbiyəsi və idman, turizm xidməti, sosial təminat, mənzil-kommunal təsərrüfatı, maliyyə-kredit və cəmiyyətin zəruri tələbatının ödənilməsini əks etdirən digər sosial sahələr və iqtisadi fəalyyət növləri daxildir. Son illərdə ölkəmizdə sosial sahələrdə islahatların aparılması və dövlət büdcəsinin 40 %-ə qədərinin sosial yönümlü sahələrə yönəldilməsi nəticəsində bu sahələtin inkişafı təmin edilmiş,əhalinin rifah halı yüksəlmiş və demoqrafik vəziyyəti yaxşılaşmışdır. Sosial inkişafın təmin edilməsində Azərbaycan xalqının genofondunun qorunması, miqrasiya və demoqrafiya kimi məsələlər milli təhlükəsizlik baxımından olduqca mühümdür.

## 1. Demoqrafik sahənin təhlili

Əhali və onun strukturu ilə bağlı kəmiyyət və keyfiyyət göstəriciləri milli gücün əsas elementləridir. Ötən il ölkə əhalisinin sayı 85651 nəfər və ya 0,9 faiz artaraq 2020-ci il yanvar ayının 1-i vəziyyətinə 10067108 nəfərə çatmışdır. Əhalinin 52,8 faizini şəhər, 47,2 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Ölkə üzrə əhalinin bir kvadrat kilometrə düşən sayı 116 nəfər olmuş və hər 1000 kişiyə 1005 qadın düşmüşdür. 2019-cu ildə 141179 doğulan körpə qeydə alınmış və əhalinin hər 1000

nəfərinə bu göstərici 2018-ci illə müqayisədə 14,2-dən 14,3-ə qədər artmışdır. Doğulan körpələrin 53,2 faizi oğlan, 46,8 faizi isə qız uşaqlarından ibarət olmuşdur. Ötən il ölkədə 55916 ölüm halı qeydə alınmış və əhalinin hər 1000 nəfərinə 2018-ci illə müqayisədə ölüm səviyyəsi 5,8-dən 5,6-ya düşmüşdür. İlkin məlumatlara əsasən, iqtisadi fəal əhalinin sayı 5073,8 min nəfər olmuş, onlardan 4822,1min nəfərini iqtisadi əmək fəaliyyəti ilə məşğul olan əhali təşkil etmişdir [7].

2019-cu ildə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1639,1min nəfər olmuş, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 909,5 min nəfər, 729,6 min nəfər isə qeyri-dövlət sektorunda çalışmışdır. İqtisadiyyatın neft sektorunda 34,4 min nəfər, qeyri-neft sektorunda 1461.4 min nəfər çalışmışdır [7]. Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 21,3 faizi məhsul istehsalı sahələrində, o cümlədən 6,3 faizi emal sənayesində, 6,2 faizi tikintidə, 3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 2,3 faizi mədənçıxarma sənayesində, 1,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sahələrində məşğul olmuşdur.

2019-cı il məşğulluq xidməti orqanları tərəfindən ölkə üzrə rəsmi işsiz statusu verilmiş şəxslərin sayı 29,8 min nəfər olmuş, onların 38,3 faizini qadınlar təşkil etmişdir. İşsizliyə görə müavinətin orta məbləği 281,0 manat olmuşdur. 2019-ci ildə ölkədə 98 min yeni, o cümlədən 91,1 min daimi iş yerləri açılmışdır. Bu dövrdə yaradılmış iş yerlərinin 75,5 faizi qeyri-dövlət sektorunda olmuşdur.

2018-ci ilin yanvar-dekabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əmək haqqı 2017-cü ilin müvafiq dövrünə nisbətən 3,0 faiz artaraq 544,1 manat təşkil etmişdir. 2019-cu ildə isə16,6 faiz artaraq 634,4 manat olmuşdur [7]. İlkin məlumatlara əsasən, 2020-cı ilin əvvəlinə ölkədə pensiyaçıların sayı 1280,0 min nəfər olmaqla ölkə əhalisinin 13 faizini təşkil etmişdir. Təyin olunmuş aylıq pensiyaların orta aylıq məbləği 300 manata çataraq orta aylıq əmək haqqının 42,3 faizini təşkil etmişdir.Cari ilin əvvəlinə 350,9 min nəfər sosial müavinət, 54,0 min nəfər Azərbaycan Respublikası Prezidentinin təqaüdünü və 72.0 min ailənin 296 min nəfər üzvü ünvanlı dövlət sosial yardımı almışdır. İl ərzində birdəfəlik müavinət alanların sayı 112.0 min nəfər olmuşdur. Səhiyyənin inkişafında son illər əldə edilmiş sürətli inkişaf meyli 2019-ci ildə də davam etdirilmiş, bu da öz növbəsində tibbi demoqrafik və səhiyyə göstəricilərinin yaxşılaşması üçün zəmin yaratmışdır. Belə ki, son 10 ilin müqayisəsi göstərir ki, doğum göstəricisi əhalinin hər 1000 nəfərinə 13,9-dan 14,3-ə qalxmış, ölüm isə 6,0-dan 5,6-ə düşmüşdür. Təbii artım 7,9-dan 8,7-dək yüksəlmişdir ki, bu da Avropa ölkələri arasında ən yüksək göstəricidir [2].

## 2. Tibbi sahənin təhlili

Stasionar tibb müəssisələrində müalicə olunan xəstələrin ərzaq, dərman preparatları və tibb ləvazimatları ilə davamlı təchizatı işi daha da təkmilləşdirilmişdir. İstifadə olunan ən vacib dərman preparatlarının və tibbi ləvazimatların siyahısı genişləndirilərək 60-dan 166-ya çatdırılmışdır.

Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramının, həmçinin yenidoğulanların “Elektron sağlamlıq kartları” ilə təmin edilməsi, “Yoluxucu xəstəliklərin immunoprofilaktikası” proqramlarının ana və uşaqların sağlamlığının qorunması işində əhəmiyyətli rolu olmuşdur. Ana ölümü əmsalı 2003-cü illə müqayisədə 18,5-dən 2019-ci ildə 12,2-ə enmişdir.Yoluxucu xəstəliklərin profilaktikası sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində nəzərəçarpacaq nailiyyətlər əldə edilmişdir.Bu xəstəliklərin profilaktikası məqsədi ilə uşaqların müasir təqvim əsasında vaxtında peyvənd olunması

xüsusi əhəmiyyət kəsb edir. Bu gün Azərbaycanda uşaqların yoluxucu xəstəlikdən qorunması üçün inkişaf etmiş Avropa ölkələrində olduğu kimi, 10 xəstəliyə qarşı peyvənd edilir ki, bunlardan da 4 yoluxucu xəstəliyə qarşı peyvənd məhz son 10 ildə tətbiq edilmişdir. Respublika üzrə peyvənd planı hər il təxminən 96-98 faiz yerinə yetirilir. Respublikada aparılan məqsədyönlü immunoprofilaktika tədbirləri nəticəsində əvvəllər poliomielit xəstəliyinə görə endemik sayılan Azərbaycan artıq bu xəstəlikdən azad diyara çevrilmiş və bu statusu şərəflə saxlamaqdadır. Xüsusi profilaktika vasitələri ilə idarəolunan digər xəstəliklər üzrə də yüksək nailiyyətlər qazanılmışdır. Belə ki, qızılca xəstəliyi 2003-cü ildə 1955, məxmərək 1051 hadisə olduğu halda 2018-ci ildən bu xəstəliklər qeydə alınmamış, epidemik parotit 2003-cü illə müqayisədə təxminən 6,5 dəfə azalmışdır. Difteriya xəstəliyi 2010-cu ildən qeydə alınmır. 2018-ci ildə əvvəlki ilə nisbətən ölkədə malyariya ilə xəstələnmələrin sayı 1,8 dəfə, sifilislə 37 faiz, brusellyozla 34,1 faiz, viruslu hepatit A ilə 32 faiz azalmış, difteriya, kəskin poliomelit, qızılca, məxmərək, yeni doğulmuşlarda tetanus xəstəlikləri qeydə alınmamışdır. Həmçinin, 2015-ci il ərzində 4-ü Bakı şəhərində, 55-i isə regionlarda olmaqla 59 səhiyyə müəssisəsində təmir-tikinti işləri aparılmışdır [7].

**3. Təhsil sahəsinin təhlili**

Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı”nın icrası olaraq təhsil sistemində informasiya-kommunikasiya infrastrukturunun inkişaf etdirilməsi, elektron təhsil texnologiyalarının tətbiqinin genişləndirilməsi, təhsil sistemində idarəetmənin informasiyalaşdırılması, kadr potensialının gücləndirilməsi, normativ hüquqi bazanın təkmilləşdirilməsi və digər istiqamətlərdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi davam etdirilmişdir.

Təhsilin informasiyalaşdırılması sahəsində Dövlət Proqramının həyata keçirilməsi nəticəsində ölkənin ümumtəhsil məktəblərində hər 20 şagirdə bir kompyuter nisbəti təmin olunmuşdur, halbuki 2003-cü ildə bu nisbət hər 1063 şagirdə bir kompyuter təşkil edirdi.

Dövlət proqramının icrası nəticəsində 50 təhsil müəssisəsində “Elektron məktəb” layihəsi həyata keçirilməyə başlanılmış, 1700 məktəb genişzolaqlı sürətli internetlə təmin olunmuş, internetə qoşulmuş məktəblərin sayı 2003-cü ildəki 1,5 faizdən 2018-ci ildə 31 faizə yüksəlmişdir.2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almalarına dair bu Dövlət Proqramı çərçivəsində ümumilikdə 3500 nəfərə yaxın xarici ölkələrin nüfuzlu universitetlərinə təhsil almağa göndərilmişdir. Bu tələbələr artıq təhsillərini başa çatdırmış və onların müəyyən hissəsi ölkəmizə qayıdaraq dövlət və özəl strukturlarda fəaliyyət göstərirlər.

Azərbaycanda bakalavr və magistrlərin hazırlanmasını həyata keçirən 40 dövlət və 12 qeyri-dövlət ali təhsil müəssisəsində təhsil alanların sayı 176723 nəfər olmuşdur ki, onların da 48.2 faizini qadınlar təşkil edir. Ölkənin ali təhsil müəssisələrində Azərbaycan vətəndaşları ilə birgə 60 xarici ölkənin 3932 nəfər vətəndaşı da təhsil alır. 2019-cı ilin əvvəlinə ölkədə müxtəlif elmi-texniki xidmətlərin həyata keçirən 145 elmi təşkilat və müəssisə fəaliyyət göstərmişdir.

Ölkədə nəşriyyatişinin tənzimlənməsi sahəsində məqsədyönlü fəaliyyət davam etdirmiş, müxtəlif sahələrə aid 70 adda kitab nəşr olunmuş və ölkə kitabxanalarına paylanılmışdır. Azərbaycan kitabı dünyanın ən məşhur beynəlxalq kitab sərgilərində - Frankfurt, Pekin, İsgəndəriyyə, Moskva, London, İstanbul, Paris, Praqa, Varşava, Abu-Dabi, Tehran, Minsk şəhərlərində nümayiş etdirilmiş, beynəlxalq müsabiqələrdə uğurlu nəticələr əldə olunmuşdur. “Reklam mədəniyyəti-reallıq və perspektivlər. Reklam və marketinq məsələlərinə müasir baxış” Bakı Beynəlxalq Elmi-praktik Konfransı və Bakı

Beynəlxalq Kitab Sərgi-Yarmarkası təşkil olunmuş, sərgidə 20-dən çox xarici və 100-ə yaxın yerli nəşriyyat və poliqrafiya müəssisəsi, 15 xarici ölkə və 35-dən çox yerli reklam, marketinq və turizm şirkəti, həmçinin xarici səfirlik təmsilçiləri iştirak etmişdir.

İlkin məlumatlara əsasən bu gün Azərbaycanda 31,8milyon kitabxana fondu olan 2942 kütləvi kitabxana, 2319 klub müəssisəsi, 239 muzey, 28 peşəkar teatr və 338 mədəniyyət və istirahət parkı əhaliyə xidmət göstərir.2018-ci ildə muzeylərə gələnlərin sayı 3.2 milyon nəfər, teatrlara gələnlərin sayı isə 0.7 milyon nəfər olmuşdur.Hazırda Azərbaycanda dövlət əhəmiyyətli tarix, mədəniyyət, memarlıq, bədii və etnoqrafiya qoruqlarının sayı 28-ə çatmışdır.

**4. Turizm sahəsinin təhlili**

Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən mehmanxana və mehmanxana tipli obyektlərin sayı 2018-ci ildə 596-ə çatdırılmışdır. Ölkədə “Şahdağ” və “Qəbələ” kimi iri Qış-Yay Turizm Kompleksləri ugurla fəaliyyət göstərirlər.2019-cu ildə Azərbaycana dünyanın 193 ölkəsindən 3170,4 min və ya əvvəlki illə müqayisədə 11,3 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Gələnlərin 29,4 faizi Rusiya Federasiyası, 22,9 faizi Gürcüstan, 10,0 faizi Türkiyə, 8,1 faizi İran, 3,4 faizi Səudiyyə Ərəbistanı, 2,2 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,1 faizi Hindistan, 1,9 faizi Ukrayna, hər birindən 1,6 faiz olmaqla Türkmənistan və İraq, hər birindən 1,5 faiz olmaqla Qazaxıstan, Pakistan və İsrail, 1,2 faizi Böyük Britaniya, 11,0 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur. Gələnlərin 66,6 faizini kişilər, 33,4 faizini isə qadınlar təşkil etmişdir. Ölkəmizə 2019-cu ildə gələnlərin sayında daha çox artım Türkmənistan (84,2 faiz), Hindistan (66,8 faiz), Çin (62,4 faiz), Misir (55,6 faiz), Malayziya (54,9 faiz), Səudiyyə Ərəbistanı (46,3 faiz), Macarıstan (33,6 faiz), Polşa (31,1 faiz), Özbəkistan (28,4 faiz), Qazaxıstan (25,7 faiz), Böyük Britaniya (25,5 faiz), Filippin (24,6 faiz), İspaniya (24,2 faiz), Cənubi Koreya (19,9 faiz), Almaniya (19,2 faiz) və Gürcüstan (18,8 faiz) vətəndaşları arasında qeydə alınmışdır.Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 21,3 faiz artaraq 136,5 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 9,3 faiz artaraq 1141,5 min nəfər, Körfəz ölkələrindən gələnlərin sayı isə əvvəlki illə müqayisədə 0,9 faiz azalaraq 549,0 min nəfər olmuşdur.Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 58,7 faizi dəmir yolu və avtomobil, 40,5 faizi hava, 0,8 faizi isə su nəqliyyatından istifadə etmişdir [5]. Dünyanın məşhur “CNN”, “Euronews” “National Geographic”, “Travel Channel”, “BBC” və “CNBC” televiziya kanallarında respublikanın turizm potensialını əks etdirən reklam çarxları mütəmadi olaraq yayımlanmışdır [1].

**Nəticə**

Məqalədə sosial inkişafın təmin edilməsinə yönəldilmiş tədbirlərin həyata keçirilməsində maneələr müəyyən edilmişdir. Bunlara aşağıdakılar daxildir:

- Azərbaycan iqtisadiyyatının spesifik quruluşu ilə əlaqəli əhalinin fasiləsiz peşə təhsili proseslərinə nisbətən az cəlb olunması, həmçinin onların ixtisasının davamlı artırılmasını tələb edən məhdud və artan iş yerinin çatışmazlığı;
- kiçik biznesin təşkili və aparılması üçün institusional əngəllər;
- insan kapitalının inkişafına investisiya edə bilməməsi ilə əlaqəli maliyyə məhdudiyyətləri.

Bu sahədə həyata keçiriləcək əsas tədbirlər aşağıdakılardan ibarət olmalıdır:

- səhiyyə və təhsil sahələrinə investisiya cəlb etməklə insan kapitalına qoyulan investisiyaların həcminin artırılması;

- ali təhsil müəssisələri üçün universitet şəhərcikləri (kampuslar) və müvafiq texnoparkların yaradılması;
- elektron təhsil texnologiyalarının tətbiqinin daha da genişləndirilməsi, müəllim və şagirdlər üçün virtual öyrənmə mühitinin formalaşdırılması;
- peşə təhsili sisteminin maddi-texniki bazasını və kadr hazırlığını beynəlxalq standartlara cavab verən səviyyədə təşkil etmək;
- təhsil sisteminin istehasal ilə əlaqəsini təmin etmək;
- əmək pensiyalarının könüllü yığım komponentlərinin tətbiqi;
- qeyri-dövlət pensiya institutlarının formalaşdırılması və inkişaf etdirilməsi;
- qadınların və kənd əhalisinin əmək bazarında rəqabət qabiliyyətlərinin artırılması, onlar arasında sahibkarlığın və özünüməşğulluğun inkişaf etdirilməsi, onların peşə hazırlığı və əlavə təhsilinin təmin edilməsi;
- xarici ölkələrə getmiş Azərbaycan Respublikası vətəndaşları olan ixtisaslı kadrların ölkənin iqtisadi inkişafına cəlb olunması üçün onların geriyə qayıdışının stimullaşdırılması;
- elmin inkişafı üçün qrant fondlarının yaradılması sistemini inkişaf etdirmək,bu fondların formalaşdırılmasında sahibkarların iştirakını həvəsləndirmək.

**İstifadə edilmiş ədəbiyyat:**


1. İlham Əliyev “İnkişaf – məqsədimizdir” çoxcildlik 95-ci kitab. Azərnəşr. Bakı, 2020
2. 2020-ci il fevralın 3-də “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi.
3. “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri”.2016
4. Sosial sahələrin iqtisadiyyatı (Dərs vəsaiti ). Bakı, 2016.
5. Azərbaycanın statistika göstəriciləri. Bakı:”Səda nəşriyyatı”, 2019
6. Azərbaycan-faktlar və rəqəmlər. AR DSK, 2018
7. www.stat.gov.az


**Закир Ализаде**

**ПРОБЛЕМЫ В РАЗВИТИИ СОЦИАЛЬНЫХ СФЕР В АЗЕРБАЙДЖАНЕ**

***Резюме***


В статье рассмотрена ситуация в социальной сфере в Азербайджане за последние годы, анализированы результаты реформ, проведенных за этот период, и отмечены показатели их развития.

Была подчеркнута роль и значение социального сектора в росте экономики страны и благосостояния населения и были сделаны практические предложения по ускорению реформ в этой области.

***Цель*** – Изучить существующие проблемы в развитии социальных сфер в Азербайджане, разработать новый методологический подход к оценке этих проблем.

***Методология*** – В статье использован метод экономико-статистического анализа.

***Результат*** – Были внесены практические предложения по ускорению реформ в социальной сфере.


***Ключевые слова:*** социальное развитие, наука, образование, здоровье, культура и искусство, туризм, занятость

**Zakir Alizade**

**PROBLEMS OF DEVELOPMENT OF SOCIAL SPHERES IN AZERBAIJAN**

***Summary***

The article considers the situation in the social sphere in Azerbaijan in recent years, analyzes the results of reforms carried out during this period, and indicates their development indicators.

The role and importance of the social sector in the growth of the country's economy and the welfare of the population were emphasized, and practical proposals were made to accelerate reforms in this area.

***Purpose –*** to study the existing problems in the development of social spheres in Azerbaijan, to develop a new methodological approach to the assessment of these problems.

***Methodology –*** the method of economic-statistical analysis was used in the article.

***Findings –*** Practical proposals were made to accelerate reforms in the social sector.

***Keywords****:* social development, science, education, health, culture and arts, tourism, employment

**Rəyçi: AƏSMA-nın “İqtisadiyyat və idarəetmə” kafedrasının dosenti Ə.İ.Əliyev**

**Qəbul edilib: 12.04.2020**

**УДК 657.6**

**Саадат Гулиева**
***Азербайджанская Академия Труда и Социальных Отношений***
***к.э.н.ф.***
13sada@mail.ru

# КОНТРОЛЬ И РЕВИЗИЯ В КОММЕРЧЕСКИХ ОРГАНИЗАЦИЯХ

*Переход к рыночной экономике требует новых подходов к управлению. Предприятиям и фирмам предоставлены права самостоятельно действовать в соответствии с принятой учетной политикой и международными стандартами бухгалтерского учета и отчетности. В Азербайджанской Республике действует большое количество законов, указов, постановлений, в которых регулируется контрольная и надзорная деятельность.*

***Цель –*** осветить базовые положения в области организации контрольно-ревизионных действий на коммерческом предприятии.

***Методология –*** теоретическое исследование.

***Результаты исследования –*** грамотная организация контрольно-ревизионного процесса в экономических субъектах является важнейшим учетно-управленческим инструментом с целью создания условий для эффективного развития.

***Ключевые слова:*** контроль, финансовый контроль, ревизия, управленческий контроль, коммерческое предприятие, корпоративный контроль

## Введение

Контроль – это система наблюдений и проверки соответствия процесса функционирования управляемого объекта принятым управленческим решениям, определение результатов управленческих воздействий на управляемый объект и отклонений, допущенных в ходе выполнения этих решений.

Контроль на предприятии (контроллинг) включает текущий сбор и обработку информации, проверку отклонений фактических показателей деятельности фирмы от нормативных или плановых и, что более важно, - подготовку рекомендаций для принятия решения.

Контроль выявляет слабые стороны предпринимательской деятельности, позволяет оптимально использовать ресурсы, вводить в действие резервы, а также избежать банкротства и кризисных ситуаций. Контроль на предприятии включается в процесс управления, установление целей, разработку бизнес-планов, бюджетов, мониторинга, оперативной работы, отклонений от намеченных целей на всех этапах жизни товара: от его создания до реализации. В современных условиях при создании новых изделий, организации работы, научных исследованиях и опытно-конструкторских разработок (НИОКР), получение достижений в науке и технике роль контроля будет усиливаться.

## 1. Контроль в управлении

Контроль в управлении следует рассматривать в трех основных аспектах:

1) контроль как систематическая и конструктивная деятельность руководи-

телей, органов управления, одна из их основных управленческих функций, т. е. контроль как деятельность;

2) контроль как завершающая стадия процесса управления, основой которой является механизм обратной связи;

3) контроль как неотъемлемая составляющая процесса принятия и реализации управленческих решений, непрерывно участвующая в этом процессе от его начала и до завершения. Наряду с внутренним контролем, внутрихозяйственным расчетом, созданием мер по ограничению риска и безопасности хозяйственной деятельности фирмы большое значение в финансовой и налоговой сфере в современной обстановке имеет ревизия – как инструмент контроля. Неплатежи, задержки заработной платы, налоговое бремя, инфляция и нестабильность экономики в стране требуют со стороны государства радикальных мер, соответствующих международным стандартам: проверок финансовых результатов, правил документооборота и контроля учетной политики. Эти функции контроля и ревизий в стране выявляют фирмы, укрывающиеся от налоговых платежей, нарушения в использовании бюджетных ассигнований. Наполняемость бюджета и внебюджетных фондов позволит своевременно выдавать заработную плату, пенсии и стипендии, пособия, улучшить социальную помощь, финансировать в должной мере здравоохранение, образование, правоохранительные органы и финансировать в должной мере.

Государство контролирует предприятия всех форм собственности с помощью эффективных форм финансового контроля.

Объектом финансового контроля выступает как бюджетно-налоговая сфера и бюджетный процесс, так и весь процесс финансово-хозяйственной деятельности субъектов рыночных отношений. Этим определяется большая роль и значение финансового контроля как основного элемента государственного контроля и управления.

Субъектами государственного финансового контроля являются государственные органы и структуры предприятия с государственным участием, организации полностью или частично финансируемые из бюджета, организации и предприниматели в части уплаты налогов в бюджет [1].

На уровне каждого предприятия функции контроля заключаются главным образом в осуществлении мер, нацеленных на наиболее эффективное выполнение всеми работниками своих обязанностей. Внутренний контроль организуется руководством предприятия и определяет законность совершения хозяйственных операций, их экономическую целесообразность.

Управленческий контроль - это процесс влияния менеджеров на работников предприятия для эффективной реализации организационной стратегии. При этом его главной задачей является контроль по центрам ответственности. Другими словами, необходима система отражения, обработки и контроля плановой и фактической информации на входе и выходе центра ответственности. Учет по центрам ответственности предполагает разграничение полных затрат и затрат данного центра ответственности.

Обычно выделяют несколько центров ответственности:

1) центр доходов, где формируется информация об объеме выпуска продукции, в денежной оценке – доходе предприятия;
2) центр затрат, где осуществляется измерение затрат;
3) центр нормативной себестоимости – разновидность центра затрат, где установлены нормативы по элементам затрат;

4) центр прибыли, где измеряется соотношение между доходами, получаемыми центром, и его затратами. Внутренний управленческий контроль направлен на анализ соответствия установленного порядка ведения учета действующему законодательству и локальным нормативным актам, действует в интересах внутренних пользователей контрольной информации, организован по решению самого субъекта, содействует укреплению дисциплины, оптимизации процессов хозяйственной деятельности и выполнения персоналом обязательств перед предприятием.

**2. Ревизия**

Ревизия - средство, как правило, внешнего контроля, - направлена в интересах внешних пользователей – лиц, заинтересованных в данных результатов ревизии. Осуществляется с целью подтверждения достоверности учетных процессов и отчетности [5, стр.255-261].

Ревизия осуществляется как в плановом, так и во внеплановом порядке. Ревизия организаций любых форм собственности по мотивированным постановлениям, требованиям правоохранительных органов осуществляется в установленном порядке в соответствии с действующим законодательством Азербайджанской Республики. Конкретные вопросы ревизии определяются программой или перечнем основных вопросов ревизии.

Программа ревизии включает тему, период, который должна охватить ревизия, перечень основных объектов и вопросов, подлежащих ревизии. Программа утверждается руководителем контрольно-ревизионного органа. Программа ревизии в ходе ее проведения с учетом изучения необходимых документов, отчетных и статистических данных, других материалов, характеризующих ревизуемую организацию, может быть изменена и дополнена.

Несмотря на различия в целях и пользователях информации, и ревизия, и внутренний управленческий контроль имеют четкую взаимосвязь.

Ревизия использует систему внутреннего контроля, а система внутреннего контроля получает независимую оценку степени ее эффективности и надежности при проведении ревизии [4, стр.251-259].

К тому же и ревизия и внутренний контроль используют одинаковые приемы и способы сбора данных, их анализа, одни и те же аналитические процедуры и систему доказательств, имеют рабочую документацию и результативный документ - акт (отчет) о результатах контроля, используют одну нормативную базу. Результат и внутреннего контроля, и ревизии во многом зависит от того, кто осуществляет контроль (его опыта, профессионализма, квалификации, понимания особенностей экономического субъекта, независимости и объективности в оценке). Все вышеперечисленное еще раз подтверждает взаимосвязь этих двух систем, которые, несмотря на различия, взаимовыгодно дополняют друг друга.

На коммерческом предприятии ключевую роль играет корпоративный контроль. Его главная цель – получение прибыли, то есть прирост вложенного капитала (рост курса акций, получение дивидендов). Более конкретные цели и задачи корпоративного контроля определяются его видами. Корпоративный контроль условно можно разделить на акционерный, управленческий и финансовый, каждый из которых может быть реализован юридическими и физическими лицами. Акционерный контроль представляет собой возможность принять или отклонить акционерами, имеющими необходимое количество голосов, те или иные решения.

Является первичной формой контроля и отражает интересы акционеров общества. Осуществление корпоративного контроля – в первую очередь акционерного – позволяет без участия кредитных организаций сделать процесс инвестирования максимально прямым. Однако развитие прямых форм инвестирования усложняет индивидуальный инвестиционный выбор, заставляет потенциального инвестора искать квалифицированных консультантов, дополнительную информацию. Именно поэтому история корпорации постоянно связана, с одной стороны, с максимальной демократизацией форм инвестирования, а с другой – с ростом числа финансовых посредников в лице финансовых институтов. Акционерный контроль подразделяется на абсолютный (непосредственный) и относительный (опосредованный): – абсолютный (непосредственный) акционерный контроль, представляет собой возможность непосредственно принять или отклонить акционерами, имеющими необходимое количество голосов, те или иные решения; как правило, такие акционеры называются контролирующей группой; – относительный (опосредованный) акционерный контроль – заключается в том, что владельцы мелких пакетов акций (миноритарные акционеры) хоть и не могут сами непосредственно принять или отклонить те или иные решения, однако могут проконтролировать законность и справедливость действий владельцев крупных пакетов акций (мажоритарных акционеров) и менеджеров компании, их добросовестность и разумность. Управленческий контроль представляет собой возможность физических и (или) юридических лиц обеспечивать управление хозяйственной деятельностью предприятия, преемственность управленческих решений и структуры. Является производной формой от акционерного контроля. Управленческий контроль можно разделить на: – должностной управленческий контроль, который управляющие данным акционерным обществом получают в результате непосредственного выполнения ими своих обязанностей по управлению акционерным обществом; – специальный управленческий контроль, который управляющие данным акционерным обществом могут получить в результате реализации ими различных манипуляций с активами общества в рамках формального соблюдения действующего законодательства. Финансовый контроль представляет собой возможность влиять на решения акционерного общества путем использования финансовых инструментов и специальных средств. Важным направлением корпоративного контроля является выявление и разрешение «конфликта интересов». «Конфликт интересов» – такое управление обществом, при котором нарушается иерархия корпоративных интересов, когда от приоритетов выбора внутрикорпоративных управленческих решений зависит соблюдение или несоблюдение корпоративных интересов отдельно взятого общества, акционера (участника).

Финансовый контроль – это совокупность действий и операций по проверке финансовых и связанных с ними вопросов деятельности субъектов хозяйствования и управления с применением специфических форм и методов его организации. Он представляет собой систему действий уполномоченных лиц по проверке соблюдения управляемым субъектом: норм финансового права и решений, принятых управляющим субъектом, интересов управляющего субъекта [6, стр.155-159].

Известно, что первый и основной интерес собственника – получение прибыли, то есть прирост вложенного капитала (рост курса акций, получение дивидендов). Однако, возможны и другие локальные задачи, например:

1. Контроль сохранности имущества (в том числе, финансовых ресурсов), выявление случаев недостач, хищений, порчи; контроль мер по обеспечению сохранности.

2. Оценка эффективности использования материальных ресурсов (например, полноты загрузки оборудования, использования земельных участков, оптимальности оборачиваемости материалов и т. д.); выявление внутрихозяйственных резервов.

3. Оценка использования трудового потенциала организации, кадровой политики.

4. Оценка наличия и степени разработанности бюджетов, собственного контроля исполнения, анализ отклонений и принятых мер.

5. Анализ принятой процедуры принятия управленческих решений и проверка её соблюдения на практике.

6. Оценка ценовой политики, анализ системы ценообразования и маркетинговых мероприятий.

7. Анализ эффективности привлечения заемных средств.

8. Анализ мер по оптимизации налогового бремени и др.

Предметом финансового контроля являются хозяйственные операции, то есть любые действия, приводящие к изменению стоимости имущества любого вида или обязательств любого вида. Методы финансового контроля – это приёмы исследования учетной документации и получения фактических данных, применяемые работниками контрольно-ревизионных органов и служб с целью выявления доказательной информации. Между различными методами финансового контроля нет четких границ, многие из них находятся во взаимосвязи, включают элементы других методов. Во многих случаях достоверное установление фактов возможно лишь с помощью комплексного использования целого ряда методов. При этом выбор методов контроля, применяемых в том или ином случае, зависит от полномочий контрольно-ревизионного органа или службы. Результатом финансового контроля является документ (акт, отчет, справка, заключение), который отражает: достоверную информацию о финансово-хозяйственном состоянии объекта контроля (проверяемой организации), вскрытые в процессе контроля нарушения норм и правил, отклонения от принятых стандартов, факты неэффективного или неэкономного хозяйствования [3, стр.91-95].

**Вывод**

Опираясь на все вышеописанное, можно сделать вывод:

Грамотная организация контрольно-ревизионного процесса в экономических субъектах является важнейшим учетно-управленческим инструментом с целью создания условий для эффективного развития. Контрольно-ревизионные мероприятия достаточно обширны, но центральное место занимают процедуры в контуре финансового контроля. Кроме того, предприятия подвергаются внешнему финансовому контролю.

В статье освещаются базовые положения в области организации контрольно-ревизионных действий на коммерческом предприятии. В их числе: документальные проверки при осуществлении ревизии, аудит, корпоративный контроль и управленческий контроль.

***Список использованной литературы:***

1. Налоговый кодекс Азербайджанской Республики - 2016
2. Həsənli M.X. Vergilər. Bakı-2005
3. Əsədov H.X., Talıbov S.T. Dövlət xərclərinin idarəedilməsi və xəzinədanğın təşkili problemləri. Bakı-2005

4. Маренков Н.Л. Ревизия и контроль в коммерческих организациях. Издательство «Феникс». 2004, 416 с.
5. Макоев О.С. Контроль и ревизия. Москва , 2012, 358 с.
6. Кузнецова О.Н. Контроль и ревизия. Учебное пособие. Москва, 2018, 362

**Səadət Quliyeva**

**KOMMERSİYA MÜƏSSİSƏLƏRİNDƏ NƏZARƏT VƏ TƏFTİŞ**

***Xülasə***

Müasir şəraitdə iqtisadiyyatda müxtəlif mülkiyyət formalarının yaradılması, müəssisə hüquqlarının genişlənməsi iqtisadi subyektlərdə mühasibat-maliyyə nəzarəti və ümumiyyətlə təsərrüfatdaxili nəzarətin möhkəmləndirilməsinə diqqət daha da artırılmalıdır.

Bununla əlaqədar olaraq hesab edirəm ki, hazırda mühasibat uçotu işçiləri, nəzarət-təftiş və auditor nəzarəti xidməti, banklar, vergi orqanları müasir idarəetmə metodu və prinsiplərinə əsaslanaraq iqtisadi nəzarəti köklü formada möhkəmləndirməlidirlər. Təftiş və nəzarətin aparılmasının əsas məqsədlərindən biri təsərrüfat-maliyyə fəaliyyətinə kompleks qiymət verməkdir və müəssisənin istehsal-maliyyə fəaliyyətində mövcud olan mənfi faktorları aşkar edib kənarlaşdırmasıdır.

***Məqsəd*** – ticarət müəssisəsində nəzarət və audit tədbirlərinin təşkili sahəsindəki əsas müddəaları vurğulamaq.

***Metodologiya*** – nəzəri iş.

***Tədqiqatın nəticələri*** – təsərrüfat-maliyyə fəaliyyətinə kompleks qiymət vermək və müəssisənin istehsal-maliyyə fəaliyyətində mövcud olan mənfi faktorları aşkar edib kənarlaşdırmaq.

***Açar sözlər*:** nəzarət, maliyyə nəzarəti, təftiş, idarəetmə nəzarəti, kommersiya müəssisəsi, korporativ nəzarət

**Saadat Quliyeva**

**CONTROL AND AUDIT IN COMMERCIAL ORGANIZATIONS**

***Summary***

The main purpose of inspection and control is to give a total assess to economic and financial activities and to find and exclude negative cases in financial-production activities of the organization.

According to the formation of various types of ownership forms and expansion of organization laws in the modern conditions of economic there should be paid more attention to straighten accounting-financial control of economical subjects and within industrial control in general.

Taking in the condition these facts I think that according to modern managing methods and principles nowadays employees of the accounting, control-inspection and audit control services, banks, tax organizations shoot totally straighten their economic control.

***Purpose*** – giving a total assess to economic and financial activities, finding and excluding negative cases in financial-production activities

***Methodology*** – theoretical study

***Findings*** – organization of the control and audit process in economic entities is the most important accounting and management tool in order to create conditions for effective development.

***Keywords*:** financial control, management control, audit, commercial enterprise, corporate control

**Rəyçi: AƏSMA-nın “Maliyyə və mühasibat uçotu” kafedrasının müdiri N.Y.Mikayılova**

**Qəbul edilib: 12.04.2020**

**UOT 331.5**

**Vilayət İsmayılov**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası***
ismaylov1953@mail.ru

**Aygün Səmədova**
***Azərbaycan Kooperasiya Universitetinin dissertantı***
aygün.samedova@yahoo.com

# TURİZM SFERASI MÜƏSSİSƏLƏRİNİN İQTİSADİ İNKİŞAFININ PROQNOZLAŞDIRILMASI

*Məqalədə Azərbaycanda turizm sahəsinin müasir tendensiyalarına baxılmış və turistlərə xidmət göstərilməsi üzrə beynəlxalq standartların nəzərə alınması ilə cəlbedici turist məhsulunun yaradılması hesabına onun inkişaf etdirilməsi yolları göstərilmişdir.*

*Həmçinin, turizm sferası müəssisələrinin iqtisadi inkişafını təmin edən çox xətti reqressiya modeli qurulmuş, modelin adekvatlığı yoxlanılmış və bu sahənin inkişaf etdirilməsi istiqamətində müvafiq təkliflər verilmişdir.*

***Məqsəd –*** Turizm sferası müəssisələrinin iqtisadi inkişaf proqnozu modelinin qurulması.

***Metodologiya*** – Məqalədə iqtisadi-statistik və reqresiv təhlil metodundan istifadə edilmişdir.

***Tədqiqatın nəticələri –*** Ölkəmizdə turizm müəssisələrinin iqtisadi göstəricilərinin inkişaf dinamikası müqayisəli təhlil edilmiş və onların iqtisadi inkişafını əks etdirən çox xətti reqressiya modeli verilmişdir.

***Açar sözlər:*** turizm sferası, müəssisə, iqtisadi inkişaf, çox xətti reqressiya modeli

## Giriş

Turizmin kompleks problemləri onun iqtisadi–sosial mahiyyətini, inkişaf prosesində rolunu və həmçinin bazar tipli modelinin təşkilinin spesifik xüsusiyyətlərini formalaşdırır. Son illər ərzində Azərbaycanda turist şirkətlərinin gəlirlərinin artımında sabit bir tendensiya izlənilir. Turizm gəlirinə görə dünya iqtisadiyyatı sahələri sırasında ilk yerdədir. Bir sıra obyektiv səbəblərə görə Azərbaycanda digər ölkələrə nisbətən daha gec turist bazarı formalaşağa başlamışdır. Böyük imkanlara malik olmasına baxmayaraq, ölkəmizdə bu sfera qlobal turizm bazarında çox mühüm yer tutmaqla onun potensialının 0,5% -dən azını özündə ehtiva edir [6, səh.151-169].

Turizmin sosial–iqtisadi mahiyyəti, onun ayrı–ayrı resurslarının döriyyəyə cəlb edilməsinə şərait yaradılması, həmçinin iqtisadi artımın amili və kapital axınının tərkib hissəsi olması bu sahənin probleminin hərtərəfli öyrənilməsinin vacibliyini müəyyənləşdirir. Azərbycanda beynəlxalq turizmin inkişafı bir sıra daxili problemləri (məsələn, işsizlik, iqtisadi və maliyyə qeyri-sabitliyi və s.) həll etməklə bərabər, həm də ölkənin dünya bazarında mövqeyini gücləndirmək və onun nüfuzunu artırmaq imkanına malikdir [3, səh.199-208]. Bu baxımdan, turların formalaşması və həyata keçirilməsi ilə turizm müəssisələri məşğul olduğundan, onların fəaliyyətinin inkişaf etdirilməsi aktualdır və vacib xalq-təsərrüfatı problemi olmaqla özünün həllini tələb edir.

**1. Beynəlxalq turizmin təşkili tendensiyaları**

Ölkə iqtisadiyyatının dayanıqlı inkişf etdirilməsində beynəlxalq turizm bir amil kimi ölkə regionlarının iqtisadiyyatına və şəhər büdcələrinə sabit pul axınını, həmçinin qarşıya çıxan çətin maliyyə vəziyyətlərini aradan qaldırmaq üçün zəruri olan pul komponentini təmin edir. Ümumdünya Turizm Təşkilatının (ÜTT) proqnozlarına görə, 2020-ci ilə qədər beynəlxalq turist səfərləri təxminən 2 dəfə artacaq, beynəlxalq turizmdən əldə olunan gəlirlər isə 1,6 milyard ABŞ dollarına çatacaqdır. Statistik məlumatlar göstərir ki, 2018-ci ildə dünyada turist axınının (yerli və beynəlxalq turizmin də daxil olmaqla) həcmi 6,8 faiz artmışdır [9].

Turizm, dünya kapitalının təxminən 7% -ni istifadə edir, 2018-ci ildə 11,88 milyard Beynəlxalq səyahət nəticəsində beynəlxalq turizmdən illik gəlir 5,3 milyard ABŞ dolları həcmində olmuşdur.

“Turizm sferasında WEF indeksləri” staistikasına görə 2018-ci ildə Ümumi Daxili Məhsulun (ÜDM) tərkibində turizmin payı 10,5% , dünyada turizm sahəsində çalışanların sayı 192 milyon nəfərdir və bu da dünya üzrə məşğulluğun 8 faizini təşkil edir [7].

Azərbaycanda iqtisadiyyatın bir sahəsi kimi fəaliyyət göstərən turizmin xarici və yerli vətəndaşların səyahət etməsindən əldə etdiyi 41,034 milyon manat gəlir Qərbi Avropa ölkələrinin böyük əksəriyyətindən kəskin azdır. Bu vəziyyəti bir sıra amillərlə izahlandırmaq olar:

- ölkəmizdə Dağlıq Qarabağ və onun ətraf rayonlarında sabitliyin tələb edilən səviyyədə ola bilməməsi;
- turizm xidməti üzrə beynəlxalq bazarda fəaliyyət göstərən yerli turizm müəssisələrinə dövlətin diqqətinin kifayət qədər səviyyədə ola bilməməsi;
- turizm xidməti sferası müəssisələrində çalışanların ixtisaslaşmasının lazımi səviyyədə aparılmaması.

Bununla əlaqəli olaraq, məqalədə Azərbaycanda beynəlxalq turizmin təşkilinin müasir tendensiyalarına baxılmış, turistlərə xidmət göstərilməsi üzrə beynəlxalq standartların nəzərə alınması ilə cəlbedici turist məhsulunun yaradılması hesabına onun inkişaf etdirilməsi yolları təklif edilmiş və bu sfera müəssisələrinin iqtisadi inkişafının proqnoz modeli qurulmuşdur. Bu baxımdan, turizm sferasında fəaliyyət göstərən səyahət agentlikləri müəssisələrinin iqtisadi göstəricilərinin təhlili nəticəsində aşkar edilmiş məsələlərin həll edilməsi istiqamətində iqtisadi inkişafın proqnozlaşdırılması vacib əhəmiyyət kəsb edir.

Proqnozlaşdırma-bazar konyukturasının təhlili əsasında bu sferada fəaliyyət göstərən müəssisələrin perspektiv inkişafının qiymətləndirilməsinə imkan verir.

İqtisadi proqnoz-turizm sferası təsərrüfat subyektlərinin və onların struktur bölmələrinin inkişafının mümkün istiqamətinin və nəticələrinin gözlənməsinin elmi əsaslandırılmasıdır. İqtisadi proqnozlaşdırmada əsas məqsəd turizm sferasında fəaliyyət göstərən səyahət agentlikləri müəssisələrinin iqtisadi inkişafının mümkün istiqmətlərinin axtarılması yolu ilə nisbətən uyğun inkişaf strategiyasının əsaslandırılmış şəkildə seçilməsindən və problemlərin həllinə istiqamətləndirilməsindən ibarətdir.

**2. Turizm müəssisələrinin iqtisadi inkişaf proqnozu**

Turizm sferasında fəaliyyət göstərən səyahət agentlikləri və turoperatorların mülkiyyət növünə görə sayının proqnozlaşdırılması üçün onların ilkin materialları şəkil 1-də verilir. Müəssisələrin mülkiyyət növünə görə sayının təhlilinə əsasən qeyd edə bilərik ki, 2012-ci ilə nisbətən 2017-ci ildə müəssisələrin sayı 2,0 dəfə artmış, bunlardan isə 99,4%-i qeyri-dövlət, 0,6%-i dövlət müəssisələri kimi fəaliyyət göstərmişdir.




**Şəkil 1. Səyahət agentlikləri və turoperatorların mülkiyyət növünə görə sayı**

***Qeyd:*** [1,2] əsasında müəlliflər tərtib etmişdir

Qeyri-dövlət müəssisələrinin sayı 2012-ci illə müqayisədə 2017-ci ildə 169 vahid, o cümlədən xüsusi mülkiyyət növlü müəssisələrin sayı-3,0 dəfə, xarici-6,0 dəfə və birgə-2,0 dəfə artmışdır. Müqayisə edilən dövrdə bu tip müəssisələr üzrə göstəricilərin dinamikası azalan xətti funksiyaya uyğun olmuş, aproksimasiyanın reqressiya əmsalı $R^2$=0,2265 təşkil etmişdir. Eyni zamanda, qeyri-dövlət müəssisələrinin strukturunda xüsusi mülkiyyət növlü müəssisələrin sayı 2017-ci ildə 311 vahid, xarici-19, birgə-7 təşkil etmişdir ki, bu da müqayisə edilən ilə nisbətən müvafiq mülkiyyət növləri üzrə 150; 16 və 3 vahid artımın olduğunu göstərir.

Azərbaycan respublikası üzrə səyahət agentlikləri və turoperatorlarda çalışan işçilərin sayında 2012-ci ilə nisbətən 2017-ci ildə 161 nəfər; turizm məhsullarının istehsal xərclərində 13,194 milyon manat; müəssisələrin əldə etdiyi gəlirdə 13,912 milyon manat; satılmış turizm yollayışlarının dəyərində 13,919 milyon manat artım olduğu halda, satılmış turizm yollayışlarının sayında 18,8 min ədəd; qəbul edilmiş və göndərilmiş turistlərin sayında 38,008 min nəfər azalma müşahidə edilmişdir [2, səh.13-14].

Satılmış turizm yollayışlarının və qəbul edilmiş, göndərilmiş turistlərin sayında azalma 2016-cı ilə qədər davam etmiş, lakin 2016-cı ildən sonrakı müddətdə yenidən artma tendensiyası müşahidə edilmişdir. 2016-cı ilə nisbətən 2017-ci ildə yollayışlar üzrə vətəndaşların sayında 50,562 min nəfər, qəbul edilmiş və göndərilmiş turistlərin sayında isə 9,424 min nəfər artım müşahidə edilmişdir. Səyahət agentlikləri və turoperatorların sayında 2012-ci ilə nisbətən 2015-ci ildə 73 vahid və ya 42,9% artım olmasına baxma-yaraq, orada çalışan işçilərin sayında azalma baş vermişdir. Fikrimizcə, bu azalma ümu-milikdə turizm sferası müəssisələrundə əmək haqqının aşağı olması ilə izahlandırıla bilər, çünki il ərzində bu müəssisələrin fəaliyyətinin tam təşkil edilməməsi, yəni mövsümi xarakterli olması, işçilərin əmək haqqı səviyyəsinin tənzimlənməsinə mənfi təsir göstərir. Satılmış turizm yollayışlarının dəyərində də 2015-2016-cı ildə azalmanın olması müşahidə edilmiş, lakin 2017-ci ildə bu göstəricidə 2015-2016-cı illərlə müqayisədə 1,63 dəfə artım olmuşdur [2, səh.14-16].

Turizm sferasında fəaliyyət göstərən müəssisələrin inkişaf proqnozunun çox xətti reqressiya modelini MS Excel proqram məhsulundan istifadə etməklə qurmaq olar. Bu məqsədlə, turizm müəsisələrində turist məhsullatının istehsal xərcləri, satilmiş turizm yollayışlarının dəyəri və gəlirin ilkin məlumatları cədvəl 1-də verilmişdir.

Turizm müəssisələrinin iqtisadi inkişaf proqnozu uzunmüddətli dövr üçün çox xətti reqressiya tənliyi vasitəsi ilə müəyyənləşdirilə bilər. Bu zaman gostəricilərin bir hissəsini

elə bir şərt daxilində normativ şəklində veririk ki, göstəricilərin artım tempi müqayisə edilən müddət ərzində onun orta qiymətinin artım tempinə bərabər olsun. Turist məhsullarının istehsal xərcləri göstəricisi ($x_1$) dəyişəninin orta artım tempini müəyyən edək (cədvəl 2).

*Cədvəl 1*

**Çox xətti reqressiya modelinin qurulması üçün ilkin məlumatlar**

| İllər | Turist məhsullarının istehsal xərcləri, milyon manat ($x_1$) | Satılmış turizm yollayışlarının dəyəri, milyon manat ($x_2$) | Müəssisələrin əldə etdiyi gəlir, milyon manat (y) |
|---|---|---|---|
| 2008 | 12,086 | 13,453 | 13,548 |
| 2009 | 16,908 | 15,072 | 17,840 |
| 2010 | 17,811 | 25,848 | 19,065 |
| 2011 | 20,622 | 29,317 | 22,635 |
| 2012 | 23,541 | 40,693 | 27,122 |
| 2013 | 25,293 | 42,892 | 29,601 |
| 2014 | 27,018 | 44,820 | 31,107 |
| 2015 | 30,812 | 33,475 | 36,482 |
| 2016 | 29,102 | 33,467 | 36,758 |
| 2017 | 36,735 | 54,612 | 41,034 |

***Qeyd:*** Cədvəl [1-2] və [8] məlumatları əsasında müəlliflər tərəfindən tərtib edilmişdir

*Cədvəl 2*

**Turist məhsullarının istehsal xərcləri ($x_1$) dəyişəninin orta artım tempinin müəyyən edilməsi**

| İllər | Turist məhsullarının istehsal xərcləri, milyon manat ($x_1$) | Turist məhsullarının istehsal xərcinin artım tempi, $\Delta$ $x_1$ |
|---|---|---|
| 2008 | 12,086 | - |
| 2009 | 16,908 | 1,398974 |
| 2010 | 17,811 | 1,053407 |
| 2011 | 20,622 | 1,157824 |
| 2012 | 23,541 | 1,149201 |
| 2013 | 25,293 | 1,074423 |
| 2014 | 27,018 | 1,071143 |
| 2015 | 30,812 | 1,140678 |
| 2016 | 29,102 | 0,944502 |
| 2017 | 36,735 | 1,262284 |
| | Cəmi | 10,25244 |
| | Orta qiymət | 1,025244 |

***Qeyd:*** Cədvəl müəlliflər tərəfindən tərtib edilmişdir

Turist məhsullarının istehsal xərcinin ($x_1$) orta artım tempini müəyyən etdikdən sonra, həmin göstəricinin üç illik dövr üçün qiymətləri aşağıdakı kimi hesablanır:

2019-cu il üçün: $x_1$= 37,662 . 1,025244 =38,613;
2020-ci il üçün: $x_1$= 38,613 . 1,025244 =39,588;
2021-ci il üçün: $x_1$= 39,588 . 1,025244 =40,587;

Satilmiş turizm yollayışlarının dəyəri ($x_2$) amilindən asılı olan gəlirin Microsoft Excel-in köməyi ilə müvəqqəti trend funksiyasının tənliyini quraq. Bunun üçün göstəricilərin məlumatları cədvəl 3-də verilmişdir.

*Cədvəl 3*

**Satılmış turizm yollayışlarının dəyəri və gəlir**

| İllər | Satılmış turizm yollayışlarının dəyəri, milyon manat ($x_2$) | Müəssisələrin əldə etdiyi gəlir, milyon manat (y) |
|---|---|---|
| 2008 | 13,453 | 13,548 |
| 2009 | 15,072 | 17,840 |
| 2010 | 25,848 | 19,065 |
| 2011 | 29,317 | 22,635 |
| 2012 | 40,693 | 27,122 |
| 2013 | 42,892 | 29,601 |
| 2014 | 44,820 | 31,107 |
| 2015 | 33,475 | 36,482 |
| 2016 | 33,467 | 36,758 |
| 2017 | 54,612 | 41,034 |
| | Cəmi | 275,192 |
| | Orta qiymət | 27,5192 |

Müqayisə edilən dövrdə müəsisələrin əldə etdiyi gəlirin orta qiyməti hesablandıqdan sonra verilmiş şərtlər daxilində xətti, loqarifmik, polinominal, dərəcəli və eksponensial tipli trend xətləri içərisində yüksək determinasiya əmsalına malik olan müvəqqəti trend funksiyasının xətti tənliyi  Microsoft Excel proqramının köməyi ilə qurulur (şəkil 2).




**Şəkil 2. Turizm müəssisələrinin gəlir göstəricisinin dövrdən asılığı**

***Qeyd:*** müəlliflər tərtib etmişdir

Göründüyü kimi, proqnozlaşdırılan gəlirin müvəqqəti trend funksiyasının tənliyi aşağıdakı kimi olmuşdur:

$$y=2,9987x+11,027;\ R^2=0,9892. \quad (1)$$

x və y-in göstəriciləri əsasında ən kiçik kvadratlar metodu vasitəsi ilə cədvəl 2-nin göstəriciləri hesablanmış və nəticələri əsasında gəlirin proqnoz modeli verilmişdir:

| İstehsal xərcləri ($x_1$) | Gəlir, milyon manat (y) | $x^2$ | x.y | $y^2$ | y- y* | $(y- y^*)^2$ |
|---|---|---|---|---|---|---|
| 12,086 | 13,548 | 146,0714 | 163,7411 | 183,5483 | -13,9712 | 195,1944 |
| 16,908 | 17,840 | 285,8805 | 301,6387 | 318,2656 | -9,6792 | 93,68691 |
| 17,811 | 19,065 | 317,2317 | 339,5667 | 363,4742 | -8,4542 | 71,4735 |
| 20,622 | 22,635 | 425,2669 | 466,779 | 512,3432 | -4,8842 | 23,85541 |
| 23,541 | 27,122 | 554,1787 | 638,479 | 735,6029 | -0,3972 | 0,157768 |
| 25,293 | 29,601 | 639,7358 | 748,6981 | 876,2192 | 2,0818 | 4,333891 |
| 27,018 | 31,107 | 729,9723 | 840,4489 | 967,6454 | 3,5878 | 12,87231 |
| 30,812 | 36,482 | 949,3793 | 1124,083 | 1330,936 | 8,9628 | 80,33178 |
| 29,102 | 36,758 | 846,9264 | 1069,731 | 1351,151 | 9,2388 | 85,35543 |
| 36,735 | 41,034 | 1349,46 | 1507,384 | 1683,789 | 13,5148 | 182,6498 |
| Cəmi: 239,928 | 275,192 | 6244,103 | 7200,55 | - | - | 749,9112 |
| Orta qiymət: 23,9928 | 27,5192 | - | - | - | - | - |

***Qeyd:*** cədvəl MS Excel proqramı əsasında müəlliflər tərəfindən hesablanmışdır

$$y^*= -1,8859 + 1,2256x. \quad (2)$$

İstehsal xərci əsasında əldə edilmiş gəlirin hesablanmış proqnoz qiyməti (y*=48,4 milyon manat) əsasında belə bir nəticəyə gələ bilərik ki, bu göstərici növbəti illərdə də müsbət (artım) tendensiyasına malik olacaqdır. Bu onu göstərir ki, turizm sferasında fəaliyyət göstərən müəssisələrin iqtisadi artım səviyyəsi yüksəlmişdir. Eyni zamanda, proqnozun nəticəsi iqtisadi inkişafın alternativinin seçilməsində, optimal variantların həyata keçirilməsi üçün təkliflərin işlənilməsində istifadə edilə bilər.

### 3. Turizm müəssisələrinin gəlirinin proqnoz modelinin adekvatlığının yoxlanılması

Turizm sferasında fəaliyyət göstərən müəssisələrin əldə etdiyi gəlirinin proqnozlaşdırılması üçün təklif edilən (2) modelinin adekvatlığı Darbin-Uotson (DW=1,78) statistikası əsasında yoxlanılmışdır. Bizim baxdığımız hal üçün n=10 və k=2-dir. Bu məqsədlə, faktiki avtokorrelyasiya qalığının olub-olmamasının müəyyən edilməsi üçün Kernelin müvəqqəti sıralarından istifadə etməklə onun aşağı ($d_l$) və yuxarı ($d_u$) həddi qiymətinin 5%- li səviyyəsi yoxlanılmışdır.

Kernelin müvəqqəti sıralarından $d_l$=0,70 və $d_u$=1,64 qiymətlərinin 5 %-li səviyyəsini təyin etməklə, faktiki avtokorrelyasiya qalığının olmaması fərziyyəsi yoxlanılır [10]. Əgər, $d_l$<DW, onda avtokorrelyasiyanın həqiqi qalığının olmaması rədd edilir, $DW > d_u$ olduqda isə bu fərziyyə qəbul olunur. $d_L \le DW \le d_u$ halında isə məsələ açıq qalır. Bizim

baxdığımız halda $DW > d_u$ olduğu üçün avtokorrelyasiyanın olmaması fərziyyəsi qəbul edilir.

(2) modelində göstəricilərin qiymətləri nəzərə alınaraqrespublikada fəaliyyət göstərən turizm sferası müəssisələrinin proqnozlaşdırılan gəliri (y=48,4 milyon manat) hesablanmışdır. Eyni zamanda qeyd etmək lazımdır ki, modeldə digər amillərin təsirini də nəzərə almaq mümkündür.

Beləliklə, turizm serasında fəaliyyət göstərən müəssisələrin iqtisadi inkişafının hərtərəfli təmin edilməsi məqsədi ilə aşağıda qeyd edilən şərtlərin yerinə yetirilməsi məqsədə uyğun hesab edilir:

- Turizmin ölkə iqtisadiyyatında mühüm rolunu nəzərə alaraq onun bölgələrdə də fəaliyyətinin yeni istiqamətləri müəyyənləşdirilməli, bu sahəyə həm dövlət, həm də özəl təşkilatların yaxından dəstəyi təmin edilməli və onun infrastrukturunun inkişafına əlverişli şərait yaradılmalıdır. Qeyd etmək lazımdır ki, ölkəmixə beynəlxalq turist axının artımına nəqliyyat sisteminin inkişafı, onun komfortluğunun yüksəldilməsi və qiymətlərin əlçatan olması, eyni zamanda informasiya və kommunikasiya vasitələrinin inkişafının mövcud vəziyyəti müsbət təsir göstərir;
- turizmin inkişafına kompütlə bronlaşdırma, texnoloji inkişaf, hava yolları vasitəsilə turistlərin rahat uçuşunun (daşınmasının) təşkili, elektron məlumatlar və kommunikasiya sistemləri əhəmiyyətli dərəcədə təsir göstərir. Eyni zamanda, turizmin inkişafına təsir göstərən əsas amillərdən biri də bir sıra dünya ölkələrindəki sosial-demoqrafiyanın dinamikasıdır. Bununla əlaqəli olaraq marketinq siyasətini tənzimləyən tədqiqatların rolunun yüksəldilməsi mühüm əhəmiyyət kəsb edir;
- dövlət tərəfindən turizmin təbliğatına xərclərin payı yüksəldilməli, eyni zamanda fərdi turizm istiqaməti aktivləşdirilməlidir. Bu məqsədlə ölkədə gömrük-sərhəd formallıqları və fiziki şəxslərin rahat ölkəmizə hərəkəti sadələşdirilməli, internet vasitəsi ilə turizm xidmətlərinin sərbəst bronlaşdırılmasının texniki imkanları yüksəldilməli, müştərilərin öz maraqları daxilində xüsusiləşdirilmiş proqramlara orientasiyası və s. kimi prinsiplər nəzərə alınmalıdır;
- turizmə bazar fornası kimi baxılmalıdır. Qeyd etmək lazımdır ki, hazırda ölkəmizin turizm bazarında aşağı keyfiyyət səviyyəli problem mövcuddur. Bununla əlaqəli olaraq, sosial turizm müəssisələrinin genişləndirilməsilə qeyd edilən problem təcili həll edilməlidir. Bu isə aşağıdakı məsələlərin yerinə yetirilməsi yolu ilə həll edilə bilər: birincisi, bu tip müəssisələrin əlavə dəyər vergisindən azad edilməsini təklif etməklə; ikincisi, kommersiya fəaliyyətli turizm müəssisələrinin əlavə dəyər vergisinin sosial turist rentasına çevrilməsi yolu ilə onun xüsusi məqsədli təyinatlı sosial turizm məhsulunun istehsalçılarına çevrilməsi; üçüncüsü, turistik məqsədli xaricə səyahət etmək haqqının müəyyənləşdirilməsi və bu vəsaitlərin sosial turizm məhsulunun istehsalının stimullaşdırılmasına yönəldilməsi. Sosial turizm müəssisələrinin sayının artırılması yeni iş yerlərinin yaradılmasına və Azərbaycanın iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına gətirib çıxaracaqdır;
- səyahətin əsas məqsədindən asılı olaraq müxtəlif turizm formalarının, o cümlədən rekreasiya, tanışlıq, konqres (elmi), işğüzar, etnik, dini, idman, təlimləndirici, məcara və əyləncə və s. yaradılması Azərbaycanın turizm firmalarının fəaliyyətinin genişləndirilməsinin vacibliyini şərtləndirəcəkdir. Turizmin bu formaları, fikrimizcə, onun əsas tendensiyalarının inkişaf etdirilməsinə, dünya

turizm sənayesinin təhlilinə və düzgün qiymətləndirilməsinə kömək göstərir. Bu isə turizm müəssisələrinin material bazasının planlaşdırılmasına, turizm bazarının tələbinin aşkar edilməsinə və formalaşmasına, turist məhsulunun istehsalı və realizasiya edilməsinə imkan verir.

**Nəticə**

Beləliklə, Dünya iqtisadi forumunun (DİF) “Səyahət və turizmin rəqabətliyi” (The Travel & Tourism Competitiveness Report 2018) üzrə 2018-ci ildə apardığı təhlil nəticəsində turizm sferasında rəqabət indeksinin orta göstəricisinə görə 195 ölkə üzrə 73-cü sırada yerləşmiş Azərbaycanın turizm xidmətlərinin göstərilməsində tutduğu yerinin ön sıralara keçirilməsi məqsədi ilə istehlakçıların hüququnun qorunması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi ölkəmizə xarici turist axınının stimullaşdırılmasına və turizm sferası müəssisələrinin inkişafının sürətlənməsinə inandırıcı səviyyədə təkan verəcəkdir.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Azərbaycanın Statistik Göstəriciləri. Bakı. 2013, 804 s.
2. Azərbaycanda turizm. Statistik məcmuə. Bakı. 2018. 136 s.
3. Деточенко Л. В. Особенности современного периода туристского взаимодействия России и Азербайджана. Волгоград. 2018, стр. 199-208.
4. Кремер Н.Ш. Теория вероятностей и математическая статистика. Москва. ЮНИТИ.2001, стр. 543
5. Исмайлов В.И. Основные направления развития агротуризма в Азербайджане. Чешский научный Журнал «Ekonomicke trendy». Пенза. 2017. №1, с. 46-55
6. Устюгова Е. В. Развитие российских предприятий сферы туризма на международном рынке туристских услуг/диссертационная работа на соискание кандидата наук по экономике. Москва. 2004, стр. 170
7. Stattur.ru/statistics.php
8. http:/www.stat.gov.az
9. http://internationalinvestment.biz/tourism/70-v-2017-godu-chislo-turistov-sovershivshih-mezhdunarodnye-poezdki-vyroslo-na-70-millionov.html
10. univer-nn.ru/ekonometrika/znaceniya-statistik-darbina-uotsona/


**Вилаят Исмайлов**
**Айгюн Самедова**

## ПРОГНОЗИРОВАНИЕ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ ТУРИСТИЧЕСКИХ ПРЕДПРИЯТИЙ

***Резюме***

В статье рассматриваются современные тенденции в туристической индустрии в Азербайджане и предлагаются пути ее развития путем создания привлекательного туристического продукта с учетом международных стандартов обслуживания туристов.

Кроме того, была создана многолинейная регрессионная модель, которая обеспечивает экономическое развитие туристической отрасли, была проверена адекватность модели и были сделаны соответствующие предложения для развития этой области.

***Цель*** – построение модели прогноза экономического развития предприятий в сфере туризма.

***Методология*** – в статье использован метод экономико-статистического и регрессивного анализа.

***Результаты исследования*** – дана сравнительный анализ динамики развития экономических показателей туристских предприятий в нашей стране и модель линейной регрессии, отражающая их экономическое развитие.

***Ключевые слова*: сфера туризма, предпринимательство, экономическое развитие, многострочная регрессионная модель**

**Vilayat İsmayilov**
**Aygun Samadova**

**FORECASTING THE ECONOMIC DEVELOPMENT OF TOURIST ENTERPRISES**

**Summary**

The article discusses the current trends in the tourism industry in Azerbaijan and suggests ways of its development by creating an attractive tourist product, taking into account international standards of tourist service.

In addition, a multi-linear regression model was created that ensures the economic development of the tourism industry, the adequacy of the model was checked and appropriate proposals were made for the development of this area.

***Purpose of the research*** – building a model for forecasting the economic development of enterprises in the tourism sector.

***Methodology*** – the article uses the method of economic-statistical and regressive analysis.

***Findings*** – a comparative analysis of the dynamics of the development of economic indicators of tourist enterprises in our country and a linear regression model reflecting their economic development is given.

***Keywords*:** tourism, entrepreneurship, economic development, multi-line regression model.

**Rəyçi: AƏSMA-nın tədris və elmi işlər üzrə prorektoru, prof. Fəhrad Möhbalıyev**

**Qəbul edilib: 22.10.2020**

**UOT 339.9**

**Abbas Səfərov**
***MTK "Kapital"***
abbas211@rambler.ru

**Xəqani Məmmədov**
***Azərbaycan Əmək və Sosial***
***Münasibətlər Akademiyası***
xaqani.mamedov.1977@mail.ru

# AQRAR İQTİSADİYYATDA XARİCİ İQTİSADİ FƏALİYYƏTİN İNKİŞAFININ ƏSAS PRİORİTETLƏRİ

*Məqalədə aqrar iqtisadiyyatda xarici iqtisadi fəaliyyətin əsas inkişaf prioritetləri müəyyənləşdirilir.*

*Eyni zamanda, xarici iqtisadi fəaliyyətin düzgün təşkilinin ölkə əhalisinin iqtisadi və sosial durumunun yaxınlaşmasındakı mühüm rolu və beynəlxalq ticarətdə bir-biri ilə qarşılıqlı əlaqədа olan iki meyl – beynəlxalq ticarətin liberallaşması və proteksionizmin dərinləşməsi qeyd edilir.*

***Məqsəd*** – aqrar iqtisadiyyatda xarici iqtisadi fəaliyyətin inkişaf etdirilməsi və onun prioritetlərinin müəyyənləşdirilməsi.

***Metodologiya*** – tədidatda təhlil zamanı iqtisadi-statistik təhlil metodundan istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** – əksər ölkələr özlərinin xarici ticarət-iqtisadi diplomatiyalarında iqtisadi amilləri və iqtisadi təzyiqləri proteksionist tədbirlər sifətində tətbiq etməyə üstünlük verirlər.

***Açar sözlər*:** aqrar iqtisadiyyat, beynəlxalq ticarət, fəaliyyət, prioritetlər

## Giriş

Azərbaycanda xarici ticarət əlaqələrinin tənzimlənməsi sisteminin elmi əsaslarla formalaşması 1990-cı illərdə başlamış, bu sistemin dünya təcrübəsinə və standartlarına uyğun olan normativ-hüquqi əsasları, maddi-texniki bazası yaradılmış, xarici ticarət siyasətinin əsas funksional vəzifələri və fəaliyyət mexanizmləri: ixrac istehsal sahələrinin inkişafının stimullaşdırılması, idxal əvəzləyici istehsal sahələrinin yaradılması və ölkədə səmərəli ticarət siyasətinin hayata keçirilmasinin təmin edilməsi kimi vəzifələr müəyyənləşdirilmişdir.

Azərbaycanda xarici ticarət əlaqələrinin tənzimlənməsi sahəsində müəyyən problemlər olsa da aqrar sahənin tənzimlənməsi və xarici iqtisadi əlaqələrdəki xüsusi çəkinin artırılması istiqamətində köklü islahatlar aparılmışdır. Bu problemlərlə bağlı prezident İlham Əliyev qeyd edir: "Azərbaycanın xarici ticarət siyasəti həm ikitərəfli formada, həm də Beynəlxalq təşkilatlar çərçivəsində çox uğurlu və düşünülmüş siyasətdir. Bizim strateji xəttimiz var və biz bu xəttə sadiqik. Son illər ərzində aparılan işlər onu göstərir ki, Azərbaycanın dünyadakı mövqeləri daha da möhkəmlənir".

Aqrar sektor, həm əhalinin zəruri istehlak məhsulları ilə təmin olunmasında, həm də sənaye sektoru müəssisələrinin əsas xammala olan tələbatının ödənilməsində və əhalinin

müəyyən bir hissəsinin məşğulluğunun təmin olunmasında əsas faktor kimi çıxış edir. Eyni zamanda, aqrar sektorda istehsal olunan məhsulun müəyyən bir hissəsi ixrac əhəmiyyətli olduğundan xarici valyutanın ölkəyə daxil olmasında, xüsusilə də zəif inkişaf etmiş ölkələrdə milli gəlirin mühüm bir hissəsinin təmin olunmasında, ölkənin ərzaq və iqtisadi təhlükəsizliyinin təmin olunmasında kənd təssərrüfatı mühüm əhəmiyyət kəsb edən sahələrdən biridir.

**Aqrar sektorun ölkə iqtisadiyyatında rolu**

Müstəqilliyin ilk illərində kənd təsərrüfatında məhsul istehsalı kəskin şəkildə aşağı düşmüş, aqrar sektorda yaranan böhran vəziyyəti həm digər sektorlara mənfi təsir göstərmiş, həm də ölkədə istehlak məhsullarının qıtlığına şərait yaradaraq inflyasiyanı artırmışdır. Bu fikirləri aydın dərk etmək üçün müstəqilliyin ilk illərində ixracın goğrafi quruluşuna fikir versək görərik ki, 1992-ci ilə nisbətən 1999-cu ildə ixracın həcmi 1,6 dəfə (554,3 min ABŞ dolları həcmində) azalmışdır. Beləliklə, bütün bu sadalananlar işsizliyin dərinləşməsini və bütövlükdə mənfi iqtisadi artımın baş verməsini qaçılmaz etmişdir.

Yuxarıda qeyd edilənləri aqrar sektorun ölkə iqtisadiyyatındakı rolu baxımından qiymətləndirdikdə burada aparılan islahatların nə qədər zəruri olduğu açıq bir şəkildə ortaya çıxmış olur. Odur ki, ölkə iqtisadiyyatının aqrar sektorunun yenidən dirçəldilməsini təmin etmək və bu mütərəqqi bazar münasibətlərini formalaşdırmaq məqsədilə kənd təsərrüfatında bir sıra vacib istiqamətlərdə aktiv islahatlara başlanması zərurəti meydana çıxmışdır.

Fikrimizcə, kənd təsərrüfatı sektorunun böhran vəziyyətdən çıxarılması və ölkədə ərzaq bolluğu yaradılmasının əsas və əhəmiyyətli yollarından biri aqrar sektorda islahatlar aparmaqla, bu sahədə özəl bölmənin inkişafı və bazar münasibətlərinə əsaslanan iqtisadi sistemin bərqərar olması hesab edilir. Bu baxımdan da, azad bazar münasibətləri sistemində aqrar məhsulların beynəlxalq ticarəti, idxalatı və ixracatı inkişaf etmiş iqtisadi strukturun formalaşdıılmasında mühim rol oynayır.

Ənənəvi və ən çevik iqtisadi mexanizm hesab edilən xarici ticarət dünya ölkələri arasındakı iqtisadi münasibətlərin əsasını təşkil edir. Bu, eyni zamanda iqtisadi resursların dünya ölkələri arasında qeyri – bərabər bölgüsü, istehsal prosesinin səmərəli təşkili üçün istehsal resurslarının və ya texnologiyanın kombinasiyasının zəruriliyi, xarici ticarətin milli resursların beynəlxalq mobilliyinin əvəzləyicisi kimi çıxış etməsi və s. kimi amillərlə şərtləndirilir.

Müasir dövrdə qloballaşma prosesinin daha da sürətlənməsi ölkələrin Beynəlxalq Əmək Bölgüsü əsasında ixtisaslaşmada aktiv və intensiv iştirakını zəruri etmişdir. Məlumdur ki, dünya təsərrüfat sisteminin mütərəqqi və dinamik inkişafı beynəlxalq ticarətin daha da genişləndirilməsi və inkişafını, onun liberallaşdırılması, ticarət-iqtisadi əlaqələrin ildən-ilə həm cografi, həm də əmtəə strukturu baxımından dəyişilməsini özündə əks etdirir.

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikası iqtisadiyyat sahəsində iki fundamental problemi eyni zamanda həll etmək zərurəti qarşısında qalmışdır. Bunlardan birincisi və ən mühümü dövlət müstəqilliyimizi qoruyub yaşatmaq və daha da möhkəmlətmək gücünə malik olan bütöv milli iqtisadi sistemi formalaşdırmaqdır. Aydındır ki, belə bir şəraitdə Azərbaycanda dövlət müstəqilliyinin iqtisadi əsaslarının möhkəmləndirilməsi və sosial-iqtisadi inkişafın təmin olunması, hər şeydən əvvəl, bütöv iqtisadi sistemin formalaşdırılmasını tələb edir.

Digər mühüm məsələ isə real bazar münasibətlərinə keçidlə əlaqədar olaraq iqtisadi münasibətlərin əsaslı şəkildə yenidən qurulması zərurətidir.

Fikrimizcə, bu problemin həlli bilavasitə bazar infrastrukturunun formalaşdırılmasını, mülkiyyət çoxnövçülüyünün yaradılmasını, istehsalçı və istehlakçıların sərbəst-

liyinin və azad qərar qəbul etməsinin həyata keçirilməsini, azad rəqabət fəaliyyətinə əlverişli şəraitin yaradılmasını və s. təmin etmiş olur.

Həmçinin, qeyd edilən problemlərin həllini bir sıra digər amillər: məcburi cəlb olunduğumuz müharibə və onun doğurduğu nəticələr (ölkənin ərazisinin 20 faizinin zəbt olunması, iqtisadi potensialın 15 faizdən çoxunun itirilməsi, 1 milyondan artıq didərgin və qaçqının sosial-iqtisadi problemləri və s.), on illərlə formalaşmış iqtisadi əlaqələrin, o cümlədən istehsal-kooperasiya əlaqələrinin birdən-birə pozulması, dünya bazarlarına, həmçinin ənənəvi bazarlara çıxış yollarında yaranmış maneələr və s. daha da çətinləşdirmişdir. Bütün bunlarla yanaşı mənfur qonşu ölkənin işğal edilmiş ərazilərdə törətdiyi vəhşi cinayətlər, ekoloji terrorlar, yeraltı və yerüstü sərvətlərin talan edilməsi, BMT-nin bu məsələ ilə əlaqəli qəbul etdiyi qərarların yerinə yetirilməməsi və Azərbaycan dövlətinin ərazisinə sentyabrda basqın cəhdi göstərən Ermənistana qarşı Vətən Müharibəsi variantının seçilməsi qaçılmaz olmuş, müzəffər ordumuz 44 gün ərzində (27 sentyabr-10 noyabr 2020-ci il) həmin ərazilərimizi düşməndən təmizləməyə nail olmuşdur. Hesab edirik ki, ölkə daxilindəki bu sadalanan problemlərin həlli onilliklər ərzində formalaşmış iqtisadi əlaqələrin beynəlxalq miqyasda genişlənməsində, həmçinin Azərbaycanın dünya bazarlarına çıxış mexanizmini yüksək səviyyədə təmin etməklə azad rəqabətin yaranmasında və iqtisadiyyatımızın dayanıqlı inkişafına nail olunmasında əlverişli şərait yaradacaqdır.

**Azərbabaycanın ticarət iqtisadi əlaqələrinin coğrafiyasının iqtisadi-statistik təhlili**

Təbii ki, bir-biri ilə kəsişən belə çoxsaylı sosial-iqtisadi problemləri təkcə daxili imkanlar hesabına həll etmək mümkün deyildir.

Buradan aydın olur ki, xarici iqtisadi əlaqələrin məqbul vasitələrlə genişləndirilməsi və inkişafı yolu ilə ölkə iqtisadiyyatının dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası müasir dövrdə Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın təmin edilməsinin zəruri şərtidir.

Lakin bu da həqiqətdir ki, dünya təsərrüfat sisteminə səmərəli daxil olmaq avtomatik şəkildə baş vermir. Bunun üçün ilk növbədə yaranmış şəraitə adekvat olan, elmi cəhətdən əsaslandırılmış xarici iqtisadi fəaliyyət siyasətinin formalaşdırılması tələb olunur.

Tədqiqatlar göstərir ki, iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyası üçün Azərbaycanda real imkanlar vardır və bu imkanlardan bacarıqla istifadə olunması ölkə qarşısında duran bir çox aktual, sosial-iqtisadi problemlərin həllində, o cümlədən davamlı iqtisadi artımın təmin olunmasında mühüm rol oynamaqla yanaşı, perspektivdə Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri sırasına çıxmasını təmin edə bilər.

Hazırki şəraitdə dövlətin həyata keçirmiş olduğu xarici ticarət siyasəti hər bir sivil ölkədə olduğu kimi respublikamızın iqtisadiyyatının dövlət tənzimlənmə sisteminin əsas tərkib hissələrindən birini təşkil edir, respublika rəhbərliyi bu istiqamətdə son illərdə təqdirəlayiq tədbirlər, islahatlar aparır və bu işlər hazırda da davam etdirilir. Məhz, bu islahatların nəticəsində respublikamızda son illərdə əhəmiyyətli iqtisadi artıma və onunla bağlı iqtisadi inkişafın dayanıqlı və davamlı olmasına nail olunmuş, respublikamızın dünya birliyinə daha möhkəm əsaslarla inteqrasiya olunması üçün real imkanlar və şərait yaranmışdır. Dünya birliyinə möhkəm əsaslarla inteqrasiya ölkə iqtisadiyyatının dayanıqlı inkişafını təmin edir və bu sahənin genişləndirilməsi üçün investisiya qoyuluşunun həcminin artırılmasını şərtləndirir (şəkil 1).




**Şəkil 1. İqtisadiyyata yönəldilmiş investisiyalar**

***Qeyd:*** **[3] məlumatları əsasında müəlliflər tərtib etmişdir**

Məlumatların təhlili göstərir ki, son 10 ildə bütün mənbələr üzrə investisiya qoyuluşlarının həcmi 1,73 dəfə artaraq 24986,6 milyon manat (14698,0 milyon ABŞ dolları) təşkil etmişdir. Həmçinin, müqayisə edilən dövrdə xarici investisiyaların həcmi 1,83 dəfə artmiş və 12119,5 milyon manat (7129,1 milyon ABŞ dolları), daxili investisiyaların həcmi isə 1,72 dəfə artmış və 12867,1 milyon manat (7568,9 milyon ABŞ dolları) təşkil etmişdir. Onu da qeyd etmək lazımdır ki, iqtisadiyyatın qeyri- neft sahələrinin inkişafına nəzər saldıqda belə bir qənaətə gəlmək olar ki, aqrar sahədə Azərbaycan iqtisadiyyatının ixrac potensiallı ən perspektiv sahələrindən aşağıdakıları göstərmək olar:

Yüngül sənaye üzrə hazır pambıq parçalar, trikotaj məmulatları, ayaqqabı və s.

Yeyinti sənayesi üzrə şərablar, konyaklar, qənnadı məmulatları, təbii şirələr, cemlər, qoz və fındıq, efir yağları, zeytun, yüksək keyfiyyətli meyvələr, çay və s.

Qeyd etmək lazımdır ki, iqtisadi inkişaf səviyyəsini müəyyən edən mühüm göstərici kimi, ölkənin xarici ticarət sahəsində aparılan strateji xətti ixrac-idxal əməliyyatları üçün əlverişli şəraitin yaradılmasından, onları tənzimləyən qaydaların liberallaşdırılmasından ibarətdir.

Həmçinin, Azərbaycan iqtisadiyyatına cəlb olunmuş birbaşa xarici investisiyaların həcmində müxtəlif ölkələrin xüsusi çəkisinin müəyyən edilməsinin də önəmli bir məsələ olduğunu qeyd edə bilərik (cədvəl 1).

Məlumatların təhlili göstərir ki, 2019-cu ildə Azərbaycan iqtisadiyyatına cəlb olunmuş birbaşa xarici investisiyalar üzrə ilk beşlikdə Birləşmiş Krallıq, Türkiyə, Amerika Birləşmiş Ştatları, Yaponiya, Malayziya yer almışdır. Bu göstəriciyə görə Birləşmiş Krallığın xüsusi çəkisi-31,9%, Türkiyə-16,2% və ABŞ-9,8% təşkil etmişdir. Onu daqeyd edək ki, Rusiya Federasiyasının xüsusi çəkisi bu ölkələr sırasında 12-ci sırada yerləşməklə 1,1% olmuşdur.

Eyni dövr üçün 2020-ci ilin 9 ayı ərzində Azərbaycan iqtisadiyyatına cəlb olunmuş birbaşa xarici investisiyalar 7-ci sırada yer almış ölkələrdə dəyişiklik olmamışdır. Belə ki,

***Cədvəl 1***

**Azərbaycan iqtisadiyyatına cəlb olunmuş birbaşa xarici investisiyalar**

| S/N | Dövlətlər | 2019-ci il, 9 ay | | 2020-ci il, 9 ay | |
|---|---|---|---|---|---|
| | | Məbləğ, milyon ABŞ dolları | Xüsusi çəkisi, % | Məbləğ, milyon ABŞ dolları | Xüsusi çəkisi, % |
| 1 | Birləşmiş Krallıq | 850,556 | 31,9 | 1245,750 | 36,7 |
| 2 | Türkiyə | 433,207 | 16,2 | 413,221 | 12,2 |
| 3 | Amerika Birləşmiş Ştatları | 261,105 | 9,8 | 397,386 | 11,2 |
| 4 | Yaponiya | 188,993 | 7,1 | 271,245 | 8,0 |
| 5 | Malayziya | 201,914 | 7,6 | 210,321 | 6,2 |
| 6 | Kipr | 144,027 | 5,4 | 157,506 | 4,6 |
| 7 | İran İslam Respublikası | 129,975 | 4,9 | 135,221 | 4,0 |
| 8 | Norveç | 107,492 | 4,0 | 154,083 | 4,5 |
| 9 | Niderland | 102,231 | 3,8 | 52,363 | 1,5 |
| ... | ... | ... | ... | ... | ... |
| 12 | Rusiya Federasiyası | 30,542 | 1,1 | 149,192 | 4,4 |
| ... | ... | ... | ... | ... | ... |
| | Cəmi | 2669,745 | 100,0 | 3390,529 | 100,0 |

***Qeyd:*** **[https://www.cbar.az/page-43/external-sector-statistics] əsasında müəlliflər tərtib etmişdir**

2019-cu ilin göstəricilərinə görə 12-ci sırada yerləşmiş Rusiya Federasiyası 2020-ci il də 8-ci sıraya qalxmış və xüsusi çəkisini 4 dəfə (4,4%) artırmışdır. Həmçinin Norveçin də xüsusi çəkisi bir pillə irəliləyərək 1,125 dəfə və ya 0,5% yüksəlmişdir. Hər iki ildə ikinci sırada yer alan Türkiyənin bu göstərici üzrə dəyişikliyi sıra sayında deyil faiz göstəricisində (-4,0%) azalma ilə nəticələnmişdir.

Eyni zamanda, Azərbaycanın xarici ölkələrin iqtisadiyyatına yönəltdiyi birbaşa xarici investisiyalara nəzər salsaq görərik ki, müqayisə edilən dövr ərzində ABŞ-na qoyulmuş investisiyanın xüsusi çəkisində 17,2%, Rusiya Federasiyasında 8,5%, Avstriyada 7,9%, Maltada 3,3% və Monteneqroda 2,3% təşkil etmişdir [7].

2000-2019-cu illər ərzində Azərbaycan Respublikasının xarici dövlətlərlə ticarət dövriyyəsində ixrac və idxalın həcminə nəzər saldıqda görünür ki, ixracın ən yüksək həcmi 2010-cu ildə olmuş (21360,21 milyon dollar) və bu hətta 2019-cu ilin göstəricisindən 1724,63 milyon dollar çox olmuşdur. İdxalda isə müqayisə edlən illərdə dinamik artım olmuş və 2000-ci ilə nisbətən 2019-cu ildə artım 11,66 dəfə təşkil etmişdir (şəkil 2).




**Şəkil 2. 2000-2019-cu illiərdə idxal və ixracın coğrafi quruluşu**

***Qeyd:*** **[3] məlumatları əsasında müəlliflər tərtib etmişdir**

2019-cu ildə Azərbaycan Respublikasının xarici dövlətlərlə ticarət dövriyyəsinin ümumi həcmi 33302, 9 milyon ABŞ dolları təşkil etmişdir ki, bu da 2018-ci illə müqayisədə 1,1 dəfə çoxdur. Eyni zamanda, 2019-cu ildə xarici dövlətlərlə ticatərdə idxalın həcmi 13667,3 milyon ABŞ dolları, ixracın həcmi isə 19635,6 milyon ABŞ dolları təşkil etmiş və bu sahədə Azərbaycan 177 ölkə ilə əlaqə qurmuşdur.

Hazırda ixracın coğrafi strukturunun əsas hissəsini (yarıdan çoxu) Avropa ölkələri ilə beynəlxalq ticarət əlaqəsi təşkil edir. Dünya bazarında xammalın qiymətlərinin qeyri stabil və aşağı düşma meylinə malik olmasını nəzərə alsaq, bu vəziyyətin qənaətbəxş olmadığını görmək olar. Bu xarici ticarət əməliyyatlarının effektivliyini azaldır və ölkənin ticarət balansının vəziyyətini pisləşdirir. Buna görə da əmtəə ixracı siyasətinin dəyişdirilməsi, xammalın işlənməsi dərəcəsinin artırılması, hazır məhsul istehsalının və onların ixracdakı xüsusi çəkisinin artırılması obyektiv zərurətə çevrilmişdir. Bu problem istehsalın strukturunun dəyişdirilməsi, onun son fazaya müasir hazır məhsul istehsalına çatdırılması nəticəsində aradan qaldırıla bilər. Bütün bunlar həm daxili resursların, həm də xarici maliyya və texniki yardımın cəlb olunınası ilə hayata keçirilə bilər.

2013-2019-cü illər üzrə məlumatların təhlili göstərir ki, ölkəyə idxal olunan məhsullar həm çox çeşidliliyi, həmdə hazır məhsul olması ilə seçilir. Təhlil dövründə ölkənin idxalının strukturunda ən çox xüsusi çəkiyə sərbəst dönərli valyuta ilə hesablaşmalar malik olmuşdur ki, bu da əməliyyat növləri üzrə ümumi həcmin 52,7%-ni təşkil edir [3].

Aparılan təhlillər göstərir ki, xarici ölkələrdən idxal olunan məhsulların böyük bir hissəsini Azərbaycanda istehsal etmək olar ki, bu da ölkənin idxaldan asılılığının azalmasına səbəb ola bilər. Ölkədən ixrac olunan məhsulların strukturu ixdalın strukturundan köklü surətdə fərqlənir, təhlil dövründə bu göstəricinin tərkibində mineral yanacaq, sürtkü yağları, neft məhsullarının xüsusi çəkisi 81,4%-dən artaraq 92,7% çatmışdır [3].

Eyni zamanda aparılan təhlillər göstərir ki, Azərbaycan Respublikasının ixrac etdiyi məhsulların demək olar ki, əksəriyyəti xammal və yarımfabrikat məhsullarıdır. Qeyd edək ki, ölkədən ixrac edilən xammalı (pambıq, fındıq və qoz, neft və s.) son məhsul istehsalına çatdırmaqla daha çox gəlir əldə etmək mümkündürr.

Respublikamıza idxal olunan məhsulların ölkələr üzrə xüsusi çəkisinin müəyyənləşdirilməsi xüsusi maraq doğurur (cədvəl 2). Azərbaycana Avropa regionu ölkələrindən idxal olunan məhsulların xüsusi çəkisi 6,2% yüksəlmiş, Asiya, Amerika və Afrika regionu ölkələrində isə müvafiq olaraq 1,6%; 3,2% və 1,6% azalmışdır. Həmçinin Okeaniya ölkələrində idxalın xüsusi çəkisi müqayisə dövründə 0-dan 0,4% yüksəlmişdir. Avropa regionu ölkələrindən ölkəmizə idxal olunan məhsulların xüsusi çəkisində 2013-cü illə müqayisədə 11,5% artım müşahidə edilmişdir.

*Cədvəl 2*

**Azərbaycanda idxalın coğrafiyası üzrə xüsusi çəki, faiz**

| Coğrafi regionlar | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|---|
| Avropa | 54 | 57,2 | 58,0 | 61,0 | 64,7 | 61,2 | 60,2 |
| Asiya | 39,9 | 35,7 | 35,3 | 35,8 | 29,8 | 32,7 | 38,3 |
| Amerika | 4,1 | 4,6 | 4,4 | 1,4 | 4,3 | 5,1 | 0,9 |
| Afrika | 2,0 | 2,5 | 2,3 | 1,8 | 1,2 | 1,0 | 0,4 |
| Okeaniya | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,2 |

*Mənbə:* DSK-nın məlumatları əsasında müəlliflər tərtib etmişdir

Məlumatların təhlili göstərir ki, son illərdə ölkəmizdə xarici ticarət dövriyyəsinin ən çox həcmi MDB ölkələrinin payına düşür ki, bu da umumi xarici ticarətin 2015-ci ildə 11,3%-ni, 2019-cu ildə isə 13,8% təşkil etmişdir. Bu ölkələr içərisində ən çox ticarət dövriyyəsi Rusiya Federasiysının payına düşür və bu da 2019-cu ildə 9,1% təşkil etmiş və 2015-ci ilə nisbətən 0,65% çox olmuşdur. Müqayisə edilən göstərici üzrə MDB ölkələri içərsində 2-5-ci sıralarda Ukrayna, Qazaxstan, Belorus və Türkmənistan yerləşir. Dünya ölkələri üzrə 2019-cu ilin göstəricilərinin müqayisəli təhlilindən müəyyən etmək olar ki, Azərbaycanın xarici ticarət əlaqəsində ən yüksək xüsusi çəkiyə İtaliya malikdir ki, bu göstərici ümumi xarici ticarətin həcminin 18, 04%-nə bərabərdir. Onu da qeyd edək ki, 2019-cu ilin göstəricilərində ölkəmizin ümumi beynəlxalq ticarətində qardaş Türkiyənin payı 13,54% təşkil etməklə ikinci sırada yer almışdır.

Azərbaycan Respublikasından ixrac olunan məhsulların xüsusi çəkisində İtaliya ilə olan ticarət əlaqələrinin üstünlük təşkil etməsi əsasən neft və neft məhsullarının ixracı ilə bağlıdır.

**Nəticə**

Tədqiqatda Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin tənzimləmə sistemi, onun problemləri və təkmilləşdirilməsi istiqamətləri araşdırılmış, aşağıdakı nəticə və ümumiləşdirilmiş təkliflər əldə edilmişdir:

Xarici iqtisadi əlaqələrin düzgün təşkili ölkələrin əhalisinin iqtisadi və sosial durumunun yaxınlaşmasında mühüm rola malikdir. Beynəlxalq ticarətdə, o cümlədən də xarici iqtisadi əlaqələrin qurulmasında uzun illərdən bəri bir-biri ilə qarşılıqlı əlaqədə olan iki meyl – beynəlxalq ticarətin liberallaşması və proteksionizmin (himayədarlığın) dərinləşməsi ilə müşahidə edilir.

Dünyada inkişaf edən beynəlmiləl ticarət-iqtisadi və maliyyə əlaqələri proteksionizmin məhdudlaşdırılmasını tələb etsə də, böhran meylləri və dünya təsərrüfat əlaqələri sisteminin hər bir iştirakçısının mövqelərinin zəifləməsi zamanı ticarətin liberallaşdırılması kursunda müəyyən «kənarlaşmaların» ortaya çıxmasına imkan yaradır.

İqtisadi qloballaşmanın təsiri nəticəsində son illərdə sənayecə inkişaf etmiş ölkələrin məqsədyönlü və sistemli, ardıcıl təzyiq və təsirləri nəticəsində bir qayda olaraq beynəlxalq ticarətin liberallaşması meyli üstünlük təşkil etsə də, əksər ölkələr, xüsusi ilə də iqtisadi və siyasi güc mərkəzləri özlərinin xarici (beynəlxalq) ticarət-iqtisadi diplomatiyalarında iqtisadi amilləri və iqtisadi təzyiqləri (müxtəlif forma və metodlarda) proteksionist tədbirlər kimi tətbiq etməyə üstünlük verirlər.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, “Qanun”-2014, s.48
2. V.Ə.Rüstəmov “Qafqaz və Orta Asiya Ölkələrin Dünya İqtisadiyyatına inteqrasiyasında ticarət və investisiya əlaqələrinin təhlili”Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri, Elmi əsərlər toplusu Bakı 2004-ci il.
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları. Bakı.2020: www.stat.gov.az
4. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəsmi internet saytı: www.economy.gov.az
5. Azərbaycan Respublikası Regionların Sosial-İqtisadi inkişafı Dövlət Proqramı (2014-2018-ci illər). Bakı, Nurlar-2014.
6. Altay ismayilov, Ayaz Zeynalov “Gelişmekte olan ülkelerin iktisadi kalkinmasinda diş ticaretin rolü: Azerbaycan değerlendirmesi” Journal of Azerbaijani Studies, s.593
7. https://www.cbar.az/page-43/external-sector-statistics

**Аббас Сафаров**
**Хагани Мамедов**

**ОСНОВНЫЕ ПРИОРИТЕТЫ РАЗВИТИЯ ВНЕШНЕЭКОНОМИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ В АГРАРНОЙ ЭКОНОМИКЕ**

***Резюме***

*В статье определены основные приоритеты развития внешнеэкономической деятельности в аграрной экономике.*

*Отмечается, что важную роль в сближении экономической и социальной ситуации населения страны играет правильная организация внешнеэкономической деятельности и две взаимосвязанные тенденции в международной торговле-либерализация международной торговли и углубление протекционизма.*

***Цель*** – развитие внешнеэкономической деятельности в аграрной экономике и определение ее приоритетов.

***Методология*** – при проведении анализа в исследовании использован метод экономико-статистического анализа.

***Результаты исследования*** – большинство стран предпочитают применять в своей внешнеторговой дипломатии экономические факторы и экономическое давление в качестве протекционистских мер.

***Ключевые слова:*** аграрная экономика, международная торговля, деятельность, приоритеты

**Abbas Safarov**
**Khaqani Mammadov**

**MAIN PRIORITIES FOR THE DEVELOPMENT OF FOREIGN ECONOMIC ACTIVITY IN THE AGRICULTURAL ECONOMY**

***Summary***

*The article defines the main priorities for the development of foreign economic activity in the agricultural economy.*

*It is noted that an important role in bringing together the economic and social situation of the country's population is played by the correct organization of foreign economic activity and two interrelated trends in international trade-the liberalization of international trade and the deepening of protectionism.*

***Purpose*** – development of foreign economic activity in the agricultural economy and determination of its priorities.

***Methodology*** – the study uses the method of economic and statistical analysis.

***Findings*** – most countries prefer to use economic factors and economic pressure as protectionist measures in their foreign trade diplomacy.

***Keywords***: agricultural economy, international trade, activities, priorities

**Rəyçi: AƏSMA-nın “İqtisadiyyat və idarəetmə” kafedrasının professoru F.F. Möhbalıyev**

**Qəbul edilib: 12.04.2020**

**UOT 332**

**Vüsalə Kərimova**
***Azərbaycan Əmək və Sosial***
***Münasibətlər Akademiyası***
v_kerimova@bk.ru

# AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATI SAHƏLƏRİNİN İNKİŞAFININ MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİ

*Məqalədə kənd təsərrüfatı sahələrinin son dövrləri əhatə edən makroiqtisadi göstəricilərinin inkişaf tempindən bəhs edilir. Aqrar sahənin inkişaf etdirilməsinin kənd yerlərində yeni istehsal müəssisələrin yaradılması və məşğulluq səviyyəsinin artırılmasındakı rolu qiymətləndirilmişdir. Eyni zamanda, əhalinin sağlamlığının təminatı kimi ərzaq təhlükəsizliyinin vacibliyi də əsaslandırılmışdır.*

*Kənd təsərrüfatı sahələrinin inkişafının ölkə əhalisinin sosial-iqtisadi həyatına təsiri və bu sahəyə dövlət dəstəyi məsələlərinə də toxunulmuşdur.*

***Məqsəd*** – Azərbaycanda kənd təsərrüfatı sahələrinin inkişaf istiqamətlərinin və makroiqtisadi göstəricilərinin tədqiqi.

***Metodologiya*** – В исследовательской работе использовались статистические методы исследования.

***Tədqiqatın nəticələri*** – Kənd təsərrüfatı sahələrinin inkişafının ölkə əhalisinin sosial-iqtisadi həyatına təsirinin müəyyən edilməsi.

***Açar sözlər:*** kənd təsərrüfatı, makroiqtisadi göstəricilər, ərzaq təhlükəsizliyi, məşğulluq

## Giriş

Qeyri-neft sektorunun inkişafı ölkənin əsas siyasi prioritetlərindən biridir. Kənd təsərrüfatının davamlı inkişafı və rəqabət sektorunda yer alması Azərbaycanda aqrar sahənin genişlənməsinə və qida məhsullarının təhlükəsizliyinin təmin olunmasına zəmin yaradır. Azərbaycan iqtisadiyyatında kənd təsərrüfatı neft və tikinti sahələrindən sonra üçüncü ən iri sahə olmaqla iş yerləri ilə təminatda da böyük pay sahibidir və kənd yerlərində yoxsulluğun azaldılmasına əsaslı şəkildə təsir edən sektordur. Dövlət əhalinin ərzağa olan daxili tələbatını əsasən öz potensialı və imkanları hesabına ödəyə bilməsi üçün regionlarda infrastruktur sahələrinin yaradılması və kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində mühüm islahatlar aparılır. Aqrar sektora dövlət tərəfindən quyulan investisiyalar ilbəil artır, yeni texnikalar alınır, dövlət tərəfindən subsidiyalar ayrılır, aqro xidmət sahələri yaradılır, güzəştli şərtlərlə gübrə, yanacaq, lizinqlər verilir. Sahibkarlara güzəştli şərtlərlə verilən kreditlər hesabına yeni aqrar istehsal sahələri yaradılır ki, bu da ölkəmizdə aqrar sektorda məhsul istehsalının artırılması üçün yeni emal müəssisələrinin yaradılmasını zəruri edir. Ümumiyyətlə, davamlı olaraq kənd təsərrüfatı istehsalçılarına dövlətin bu və ya digər şəkildə dəstək götərdiyinin şahidi oluruq. Bundan əlavə ekoloji cəhətdən təmiz kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalına xüsusi diqqət yetirilməsi, müasir texnologiyalardan istifadə etməklə mövcud aqroemal müəssisələrinin istehsal gücünün artırılması və bu sahədə yeni müəssisələrin yaradılması prioritet məsələlərdəndir.

Dünyada əhalinin sürətlə artdığı, təbii ehtiyatların tükəndiyi bir vaxtda ərzaq təhlükəsizliyi məsələsi özünü daha kəskin şəkildə göstərir. Ərzaq təhlükəsizliyinin əsas elementlərinə insanların keyfiyyətli qida məhsulları ilə təmin olunması ilə yanaşı, ölkənin ərzaq məhsulları üzrə ixracdan asılı olmaması, onların etibarlılığının təmin olunması, eləcə də, istehsalın genişləndirilməsi ilə milli ərzaq sisteminin inkişafı və s. aiddir.

Kənd təsərrüfatının inkişafı və ərzaq təhlükəsizliyi məsələlərinin ciddi hüquqi bazasının təmin edilməsi məqsədilə respublikamızda indiyə qədər aqrar sahənin qanunvericiliyinin əsasını təşkil edən bir sıra qanunlar qəbul edilmişdir. Qeyd etmək lazımdır ki, MDB məkanında ilk dəfə olaraq torpaq islahatlarını Azərbaycan həyata keçirib və bu islahatlar insanların maraqları ilə tamamilə uyğunluq təşkil edir.

## 2. Azərbaycanda kənd təsərrüfatı sahələrinin inkişafının makroiqtisadi göstəriciləri

Ölkə iqtisadiyyatının düzgün qurulmasında, inkişafının təminatında, dünya bazarına çıxışının reallaşdırılmasında, yerli əhalinin tələblərinə cavab verə bilən daxili bazara sahib olmaqda, ölkənin digər ölkələrdən asılılıq dərəcəsinin aşağı salınmasında aqrar sektorun inkişafının vacibliyi danılmazdır. Dövlət tərəfindən bu sahəyə diqqətin ayrılması və davamlı şəkildə inkişafina stimul yaratmaq üçün maliyyə dəstəklərinin həyata keçirilməsi mühüm proseslərdəndir. Məlumdur ki, ölkəmiz neft ehtiyatları ilə zəngindir. İqtisadi baxımdan yalnız bu sahəyə diqqətin ayrılması bir müddət keçdikdən sonra iqtisadi tənəzzülə gətirib çıxara bilər. Bu səbəbdən də milli iqtisadiyyatın hazırki inkişaf mərhələsində isehsal subyektlərinin iqtisadi fəallığını artıracaq fəaliyyət mexanizmini formalaşdırmaq xüsusi əhəmiyyət kəsb edir. Bu amil iqtisadiyyatın bütün sahələri ilə yanaşı strateji əhəmiyyətə malik kənd təsərrüfatında da rəqabət ünsürünün üstün xüsusiyyətlərinin formalaşdırılması istiqamətində mühüm əhəmiyyət kəsb edir [7]. Müasir iqtisadi şəraitdə respublikamızda kənd təsərrüfatı istehsalının xüsusi çəkiyə sahib olmasını və bu sahə üzrə iqtisadi fəaliyyətin daha da inkişafını şərtləndirən əsas ammilləri aşağıdakı kimi təsnifləşdirə bilərik :

- kənd təsərrüfatı əhalini ərzaq məhsullarına və sənayeni xammalla olan təlabatını təmin edir;
- respublikanın təbii coğrafi qurluşu və iqtisadi fəal əhalinin strukturu əhalinin böyük qisminin təbii-iqtisadi qaynaqlardan səmərəli şəkildə istifadə etmək imkanlarına artırır ;
- istehlak bazarlarında əsasən respublikada istehsal olunan yeyinti məhsulları prioritetlik təşkil edir;
- kənd təsərrüfatı ölkə iqtisadiyyatının strateji əhəmiyyət daşıyan bir sahə kimi bölgələrin balanslı inkişafında mühüm rol oynayır;
- iqtisadi fəaliyyət sahəsi kimi kənd təsərrüfatının digər sahələrə müqayisədə spesifik xüsusiyyətləri mövcuddur və bu sahədə sahibkarlara dövlətin stimullaşdırıcı təsiri müstəsna üstünlük təşkil etməlidir;
- kənd təsərrüfatında mövcud olan iqtisadi fəaliyyət subyektlərinin əsasən rəqabət imkanları məhdud olduğu üçün dövlət mütəmadi olaraq onlara müvafiq qurumların dəstəyi ilə maliyyə yardımı göstərir və dövlət qarşısında olan öhdəlikləri azaldılır (vergi güzəştləri tətbiq olunur) ;
- kənd təsərrüfatında iqtisadiyyatında digər sahələri ilə müqayisədə istehsal təsərrüfatları daha çox üstünlük təşkil edir.

Müasir dövrdə kənd təsərrüfatı mövcud iqtisadi sisteminin əsas tərkib elementi kimi mühüm funksiyaları yerinə yetirir. Bu sahə əhalinin ərzaq və sənayenin xammala

olan tələbatının ödənilməsində, yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsi və dövlətin strateji maraqlarının qorunmasının başlıca şərti kimi özünü göstərməklə ölkənin ərzaq təhlükəsizliyinin əsas meyarına çevrilir. Kənd təsərrüfatı sektoru ölkənin iqtisadi inkişafında müsbət impuls yaratmaqla yanaşı sosial məsələlərin həlli istiqamətində xüsusilə məşğulluq səviyyəsinin yüksəldilməsinə də öz tövhələrini verir. Hər bir dövlətin aqrar siyasətinin qarşısında duran ən mühüm məqsədlərdən biri məhz ərzaq təhlükəsizliyinin təmin edilməsi və kənd təsərrüfatı məhsullarına olan ehtiyacın yerli istehsal hesabına ödənilməsi hesab olunur.

Ölkənin kənd təsərrüfatı və yeyinti məhsullarına olan ehtiyacın ödənilməsi bir sıra faktorların təsiri nəticəsində formalaşır. Bu baxımdan bu sahə üzrə məhsul istehsalının artırılması və məhsuldarlığın səviyyəsi ilə bağlı olmaqla yanaşı, mübadilə proseslərinin də müasir tələblərə uyğunlaşdırılmasından əhəmiyyətli dərəcədə asılıdır. Odur ki, aqrar sahənin fəaliyyət imkanlarının genişləndirilməsi və mübadilə şərtlərində həm istehsalçıların, həm də istehlakçıların maraqlarına uyğun olaraq uzlaşdırılması mühüm əhəmiyyət kəsb edir [4].

Dünya təcrübə göstərir ki, kənd təsərrüfatı istehsalın genişləndirilməsi və mübadilə şərtlərinin prioritetliyinin təmin edilməsi kənd təsərrüfatı istehsalının artırılmasını şərtləndirən ən mühüm amillərdən biri kimi çıxış edir. Mübadilə şərtlərinin optimallığı nəticə etibarilə kənd təsərrüfatı əmtəə istehsalçılarının gəlirlərinin artırılmasını və onların səmərəli, intensiv geniş təkrar istehsal prosesində fəaliyyət göstərmələrini şərtləndirir. Kənd təsərrüfatı əmtəə istehsalçıları gəlirlərinin artımı şəraitində təbii ki, istehsal prosesini artırmağa daha çox maraqlı olur. Ümumiyyətlə, iqtisadi stimullar kənd təsərrüfatı istehsalını şərtləndirən başlıca amillərdən hesab edilir.

Araşdırmalar göstərir ki, aqrar sahədə mütərəqqi metodların, innovasiyaların tətbiqi sahəsində intensiv inkişafa nail olunması kənd təsərrüfatı istehsalını şərtləndirir. Kənd təsərrüfatı həm qeyri-neft ixracının artması, həm də idxalının əvəzlənməsində mühüm rol oynayır. Diqqət yetirdikdə görürük ki, müstəqillik illərində əhalimizin sayı davamlı olaraq artaraq 10 milyon nəfəri keçsə də onun ərzaq təminatında heç bir problem yoxdur. Azərbaycanda əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi hər il yaxşılaşır və hazırda ölkəmiz qlobal ərzaq təhlükəsizliyi indeksində 53-cü yerdə qərarlaşıb. 2019-cu ildə dünyada ərzağın qiymətlərinin 12% bahalaşması fonunda Azərbaycanda ərzağın qiymətində bahalaşma 4%-dən az olub.

Hər bir dövlət cəmiyyətin sosial sabitliyini təmin etmək məqsədilə kənd təsərrüfatı sektoruna xüsusi diqqət yetirilməli, bu prosesdə iqtisadi stimulları təmin edilməsinə istiqamətlənmiş zəruri tədbirlər həyata keçirilməlidir.

Dövlət tənzimlənməsi əsasında fəaliyyət göstərən əvvəlki iqtisadi sistemdə stimullaşdırma amili passiv xarakter daşımaqla daha çox inzibati təsir mexanizmləri, o cümlədən planlaşdırma və idarəetmə sistemi geniş təsir gücünə mailk idi. Lakin bazar münasibətinə keçidlə əlaqədar iqtisadi münasibətlərin liberallaşdırılması aqrar istehsalın yeni struktur əsasında formalaşdırılmasına və fəaliyyət imkanlarına da əhəmiyyətli dərəcədə artmasına təsir göstərmişdir. Belə ki, artıq kənd təsərrüfatında inzibati təsir mexanizmlərini iqtisadi tənzimləmə vasitələri əvəz etmişdir. Ümumiyyətlə istifadə edilən tənzimləmə mexanizmləri nəticə etibarilə cəmiyyətdə iqtisadi sabitliyin qorunub saxlanılmasına, əmtəə istehsalçılarının gəlirlərinin artırılmasına və onların səmərəli geniş təkrar istehsal rejimində fəaliyyət göstərmələrinə xidmət edir [3].

Kənd təsərrüfatı üçün xarakterik olan aşağıdakı iqtisadi xüsusiyyətlər bu sahənin makroiqtisadi spesifikasını şərtləndirir:

- kənd təsərrüfatı məhsulları artımında əsas istehsal vasitələrinin istifadə

xüsusiyyətlərindən çox təbii-iqlim şəraitindən asılılığın yüksək olduğu üçün bu məhsulların miqdarına və keyfiyyətinə əmtəə istehsalçıları tərəfindən nəzarət imkanları məhdud xarakter daşıyır;

- kənd təsərrüfatı məhsul istehsalçıları qiymət dəyişmələrinə kifayət qədər yüksək reaksiya göstərir bu isə onların istehsalın təyinatının dəyişməsinə və ixtisaslaşmasının məhdudlaşmasına səbəb olur;
- kənd təsərrüfatında iqtisadi fəaliyyətin həyata keçirilməsi müəyyən risklər çərçivəsində həyata keçirilir. Bu risklərə bir qayda olaraq bazar konyunkturunun davamlı olaraq dəyişkənliyini, təbii-iqlim amillərini, hazır məhsulların bazara daxil olması ilə bağlı qeyri-bərabər şərtləri aid etmək mümkündür.

İstehlak bazarında kənd təsərrüfatı məhsulları fasiləsiz tələbə malik olması ilə səciyyələnir. Nəzərə almaq lazımdır ki, əksər istehlak məhsullarından istifadə edilməsi dövrü xarakter daşıdığı halda, ərzaq məhsullarından istifadə edilməsi davamlığı ilə seçilir və əhalinin tibbi normaya müvafiq olaraq qidalanmasında əvəzedilməz rol oynayır. Kənd təsərrüfatı məhsullarına olan tələb, əhalinin demoqrafiq strukturunda artıma doğru meyillənməyə uyğun olaraq bir qayda olaraq yüksəlir.

Kənd təsərrufatı ölkənin siyasi problemlərinin həllində və eləcə də yaşayış yeri bölgələr olan ölkə sakinlərinin məşğulluğunda müstəsna rola sahibdir. Dünyada baş verən bəzi probləmlər iqtisadi bacımdan da özünü göstərdiyi kimi bilavasitə ölkə əhalisinin digər sektorlarda işini itirərərək məhz kənd təsərrufatı ilə məşğul olmasina səbəb olur. Rəspublikamızda kənd təsərrufatında əməktutumlu sahələrə önəm verildiyi üçün əhalinin iş potensialından istifadə etməyə gərək olur, buda təbii ki, əhalinin həyat səviyyəsinə müsbət təsir göstərən faktorlardandır. Respublika ərazisində müstəqillik illərində kənd təsərrufatının iqtisadiyatına nəzər saldıqda 1992-1995-ci illər müdddətində hər il kənd təsərrufatında məhsul istehsalı orta hesabla 13 faiz aşağı düşmüş, 1996-cı ildən etibarən tədricən artmışdır. 2005-ci ildə bu artım 6.6 faiz təşkil etmişdir. Regionlarda 2015-ci ilə görə heyvandarlıq sahəsində olan artım 2,5% , bitkiçilik üzrə 11,3% qeydə alınmışdır.

Ümumiyyətlə Azərbaycanda kənd təsərrufatı sahəsində davamlı şəkildə artımın olması gözlənilir. 2016-cı ilin statistikası göstərir ki, Azərbaycanda ÜDM-in azalmasına baxmayaraq kənd təsərrufatında 3,1% artım müşahidə olunmuşdur. Onu da qeyd etmək istərdimki, bu muddət ərzində istəhsal edilən kənd təsərrufatı məhsullarının 57,4%-ni heyvandarlıq, 42,6%-ni isə bitkiçilik sahəsinin üzərinə düşür. 2018-ci ildə ölkə rezidentləri tərəfindən istehsal edilmiş ümumi daxili məhsul (ÜDM) əvvəlki illə müqayisədə 1,4% artaraq 79 milyard 797,3 milyon manata çatıb. Əhalinin hər nəfərinə düşən ÜDM 8 min 126,2 manat, yaxud 4 min 780,1 ABŞ dolları olub. ÜDM-nin 5,3%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq təsərrüfatının payına düşür. 2019-cu ildə ölkənin ümumi daxili məhsulu əvvəlki illə müqayisədə 2,2% artaraq 81 milyard 681 milyon manata çatmışdır və ümumi daxili məhsulun 5,7%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq təsərrüfatının payına düşür [5].

Son illərdə kənd təsərrüfatı üzrə respublikada istehsal olunan məhsulların dinamikasına nəzər saldıqda görürük ki, bu sahə üzrə istehsal göstəricilərində əsas pay özəl sektora aiddir. Belə ki, hazırda sahə üzrə istehsalın 99%-ni özəl sektor reallaşdırır. 2019-cu ildə kənd təsərrüfatının ümumi məhsulu bütün təsərrüfat kateqoriyaları üzrə 7836,7 milyon manat, o cümlədən bitkiçilik məhsulları 3751,2, heyvandarlıq məhsulları isə 4085,5 milyon manat təşkil etmişdir. Bunun da 7123,5 milyon manatı fərdi sahibkarlıq təsərrüfatlarının, 713,2 milyon manatı isə kənd təsərrüfatı müəssisələrinin payına düşür [8] (Cədvəl 1).

*Cədvəl 1*

**Kənd təsərrüfatının ümumi məhsulu, faktiki qiymətlərlə, milyon manatla**

| İllər | Cəmi | O cümlədən | | Cəmi | O cümlədən | | Cəmi | O cümlədən | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Bitkiçilik məhsulları | Heyvan-darlıq məhsulları | | Bitkiçilk məhsulları | Heyvan-darlıq məhsulları | | Bitkiçilk məhsulları | Heyvan-darlıq məhsulları |
| Bütün təsərrüfat koteqoriyaları | | | | Kənd təsərrüfatı müəssisələri | | | Fərdi sahibkarlıq təsərrüfatları | | |
| **2015** | 5635,3 | 2761,1 | 2874,2 | 410,1 | 132,5 | 277,6 | 5225,2 | 2628,6 | 2596,6 |
| **2016** | 5632,4 | 2577,2 | 3055,2 | 449,2 | 145,8 | 303,4 | 5183,2 | 2431,4 | 2751,8 |
| **2017** | 6580,0 | 3019,0 | 3561,0 | 645,4 | 238,5 | 406,9 | 5934,6 | 2780,5 | 3154,1 |
| **2018** | 7010,0 | 3186,0 | 3824,0 | 660,9 | 262,1 | 398,8 | 6349,1 | 2923,9 | 3425,2 |
| **2019** | 7836,7 | 3751,2 | 4085,5 | 713,2 | 321,0 | 392,2 | 7123,5 | 3430,2 | 3693,3 |

***Qeyd:*** [89] əsasında müəllif tərtib etmişdir

2020-ci ilin yanvar-avqust ayları üzrə ölkəmizin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəricilərinə nəzər salsaq görərik ki, ÜDM-da kənd təsərrüfatı məhsullarının payı 5722,1 milyon manat təşkil edir ki, bunun da 2923,1 mln manatı bitkiçilik məhsullarının, 2799,0 mln manatı isə heyvandarlıq məhsullarının payına düşür.

Kənd təsərrüfatı məhsullarının istehsalının həcminin artırılması üçün sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi vacib hallardan hesab olunur. Bu hal isə yerli məhsulların istehsalının həcminin artırılması ilə sıx əlaqəlidir.

Bazar münasibətlərinin inkişafı şəraitində kənd təsərrüfatında mülkiyyət mənsubiyyətindən asılı olmayaraq çoxsaylı əmtəə istehsalçıları fəaliyyət göstərir. İlk növbədə fərdi sahibkarlar, fiziki şəxs statuslu ailə təsərrüfatları, eləcə də istehsal kooperativləri, kiçik müəssisələr və sair təsərrüfat subyektləri ictimai tələbatın ödənilməsində öz töhvələrini verirlər.

Təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatının ümumi məhsullarının strukturuna nəzər salsaq görərik ki, faktiki qiymətlərlə yekun faizinə görə 2014-2019-cu illər ərzində kənd təsərrüfatı müəssisələrində 2,6% artım, fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları müəssisələrində isə təxminən 1,4% azalma müşahidə olunur. Lakin bu göstərici heyvandarlıq məhsulları istehsal edən müəssisələr üçün keçərli deyildir. Belə ki, qeyd olunan illər üzrə bitkiçilik məhsulları ilə müqayisədə heyvandarlıq məhsullarında 0,9% artım olduğu görünür [8] (Cədvəl 2).

***Cədvəl 2***

**Kənd təsərrüfatının ümumi məhsullarının strukturu, faktiki qiymətlərlə, yekuna görə faizlə**

| İllər | Bütün təsərrüfat kateqoriyaları üzrə | | | | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | O cümlədən | | Cəmi | O cümlədən | |
| | | Bitkiçilik məhsulları | Heyvandarlıq məhsulları | | Bitkiçilik məhsulları | Heyvandarlıq məhsulları |
| | Kənd təsərrüfatı müəssisələri | | | Fərdi sahibkar ailə kəndli və ev təsərrüfatları | | |
| **2014** | 7,7 | 4,6 | 10,5 | 92,3 | 95,4 | 89,5 |
| **2015** | 7,3 | 4,8 | 9,7 | 92,7 | 95,2 | 90,3 |
| **2016** | 8,0 | 5,7 | 9,9 | 92,0 | 94,3 | 90,1 |
| **2017** | 9,8 | 7,9 | 11,4 | 90,2 | 92,1 | 88,6 |
| **2018** | 9,4 | 8,2 | 10,4 | 90,6 | 91,8 | 89,6 |
| **2019** | 9,1 | 8,6 | 9,6 | 90,9 | 91,4 | 90,4 |

***Qeyd:*** [9] əsasında müəllif tərtib etmişdir

Göründüyü kimi, 2014-cü illə müqayisədə 2019-cu ildə müəyyən qədər azalmalar müşahidə olunsa da aqrar sektorda ümumi məhsulun strukturunda məhsulun bu gün də 90%-dən çoxu fərdi sahibkar, ailə, kəndli və ev təsərrüfatlarının payına düşür.

Kənd təsərrüfatı sektorunun inkişaf meylləri. Qeyri-neft sektorunun prioritet sahəsi kimi hesab edilən kənd təsərrüfatının inkişafı, məhsul istehsalının və satışının stimullaşdırılması, habelə ərzaq təhlükəsizliyinin təmin edilməsi Azərbaycan dövlətinin sosial-iqtisadi siyasətinin əsasını təşkil edir. Dövlətimizin dəstəyi sayəsində qeyri- neft sektorunun bir sahəsi kimi kənd təsərrüfatının əhalinin işlə təmin olunmasında, əməktutumlu sahələrinin çoxluğu ilə xarakterizə olunması ilə birlikdə davamlı və dayanıqlı inkşafının zəruri hal kimi nəzərə alınaraq bu barədə uzunmüddətli inkşaf planı tərtib edilməkdədir. Dövlət tərəfindən həyata keçirilən elmi əsaslandırılmış dövlət proqramlarının müsbət nəticələri sayəsində kənd təsəsrrüfatının və emal olunan məhsulların həcmində artım müşahidə olunmaqdadır. Kənd təsərrüfatı və digər sahələri inkşafı məqsəqdilə dövlət proqramı ilə regionların sosial-iqtisadi inkşafı sahəsində görülən tədbirlər kənd yerlərində də əhalinin rifah halının yüksəlməsi yolunda da müsbət təsirlər göstərmişdir.

Əhalinin ərzaqla etibarlı təmin olunmasına yönəlmiş dövlət siyasətinin nəticəsi olaraq Azərbaycan Milli Elmlər Akademiyasnın respublikanın fərqli zonalarında yerləşən dayaq nöqtələri ərazisində yüksək keyffiyətli kənd təsərüfatı məhsulları yetişdirilməkdədir. Buna bir misal olaraq qeyd etmək lazımdır ki, Kürdəmir rayonunun ərazisində 50 hektar sahədə yüksək keyfiyyətə malik buğda becərilmişdir. Bunadan əlavə əldə olunmuş məhsul Fövqəladə Hallar Nazirliynin Dövlət Material Ehtiyyatları Agentliynin Dövlət Taxıl Fonduna təslim edilmişdir.

Aqrar sektorun qarşısında kənd təsərrüfatı məhsulları istehsalının gücləndirilməsi ilə bərabər eyni zamanda istehsalın iqtisadi səmərəliliyinin artırılması problemləri də durur. Buradan belə qənaətə gəlmək olar ki, istehsalın həcminin artırılması hələ hər şey demək deyildir. Bununla bərabər istehsal olunan məhsulun keyfiyyətinin də standartlara cavab verməsi əhalinin həmin məhsulları istehlak etməsinə maraqlı olmaları üçün vacib hesab olunur. Keyfiyyətin yüksək olması üçün isə davamlı sürətdə bu sahəyə dövlət tərəfindən nəzarətin həyata keçirilməsi vacib hesab olunur. Bu kənd təsərrüfatında məhsulları istehsal edərkən istehsal resurslarından, maddi texniki vasitələrdən, torpaqdan səmərəli şəkildə istifadə edilməsini, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsalda düzgün tətbiq edilməsini tələb edir.

Ölkəmizin potensial torpaq-iqlim şəraiti, mövcud işçi qüvvəsi, emal sənayesi müəsisələrin xammala olan tələbatının yerli istehsal hesabına ödənilməsi imkanları və mövcud ixrac potensialı kənd təsərrüfatının daha yaxşı inkişaf etməsi üçün əlverişli şərait yaradır. Ənənəvi kənd təsərrüfatı sahələrinin inkşafında mühüm nəticələr qeyri-neft sferasının dinamik inkşafı və iqtisadiyyatın şaxələndirilməsi yönündə reallaşdırılan məqsədyönlü tədbirlərlə mümkün olacaqdır.

**Nəticə**

Kənd təsərrüfatı özünəməxsus xüsusiyyətləri ilə iqtisadiyyatın digər sahələrindən fərqlənir. Təbii iqlim şəraitindən asılılıq bu sahənin səciyyəvi xüsusiyyətidir. Odur ki, kənd təsərrüfatının dayanıqlığını və ərzaq təhlükəsizliyinin davamlılığını təmin etmək üçün aqrar sahəyə dəstəkləyici tədbirlər hazırlanıb, inkişaf prioritetləri müəyyən edilib. Aqrar sektorda maliyyə, fiskal, vergi, bank və digər sahələr üzrə tətbiq olunmuş səmərəli mexanizmlərin daha da təkmilləşdirilməsi məsələləri başlıca prioritetlər hesab olunur.

Bu zərurətdən çıxış edərək aşağıda qeyd olunmuş məsələlərin də təmin olunması məqsədəuyğun hesab edilir:

➢ kənd təsərrüfatının dayanıqlığını və ərzaq təhlükəsizliyinin davamlılığını təmin etmək habelə xarici bazarların yerli istehsalla təchizatında fasilələr yaranmasına imkan verməmək üçün davamlı baza yaradılmalıdır. Bunun üçün yeni aqrar siyasətin əsaslarının işlənib hazırlanmasına ehtiyac var;

➢ dünyanin qlobal istehlak bazarlarında müşahidə olunan tendensiyaların tələbləri yeni aqrar siyasətdə nəzərə alınmalıdır;

➢ dövlətin aqrar siyasət qlobal bazarlarda baş verən dəyişmələrə uyğunlaşdırılmalıdır;

➢ dövlətin torpaq mühafizə tədbirləri, yerli kənd təsərrüfatı məhsullarının inkişafına dəstək siyasəti davam etdirilməlidir;

➢ əmtəələrin istehsalı, nəqli, emalı və marketinqi istiqamətində əhəmiyyətli tənzimləmə siyasəti həyata keçirilməlidir.

**İstifadə edilmiş ədəbiyyat**


1. "Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncami. Bakı 11 aprel 2017.
2. Azərbaycan Respublikası Prezidentinin 2016-ci il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsi" Bakı , Azərbaycan. 2016.
3. Abbasov A. F. Ərzaq təhlükəsizliyi. Bakı 2007.
4. E. A.Quliyev, "Aqrar iqtisadiyyat" , Ali məktəblər üçün dərslik , Bakı , Azərbaycan 2015
5. S. Lətifov, M. Səfərov, "Azərbaycanda kənd təsərrüfatı kooperasiyası : problemlər və perspektivlər" Şəki, Azərbaycan 2013.
6. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, "Azərbaycanın kənd təsərrüfatı" statistik məcmuə . Bakı, 2020, 273 s.
7. İ.İbrahimov "Aqrar iqtisadiyyatın aktual problemləri", Bakı 2002.
8. www.stat.gov.az
9. www.agro.gov.az


**Вусаля Керимова**

## МАКРОЭКОНОМИЧЕСКИЕ ПОКАЗАТЕЛИ РАЗВИТИЯ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В АЗЕРБАЙДЖАНЕ


***Резюме***

В статье рассматриваются в последних периодах темпы развития макроэкономических показателей в аграрном секторе. Оценена роль развития аграрного сектора в создании новых производственных предприятий в сельской местности и увеличение занятости. При этом обоснована важность продовольственной безопасности как гарантии здоровья населения.

Также, были затронуты влияние развития аграрного сектора на социально-экономическую жизнь населения страны и государственная поддержка в этой сфере.

***Цель*** – Внедрение направлений развития и макроэкономических показателей аграрной сферы Азербайджана.

***Методология*** – Исследование макроэкономических показателей развития сельского хозяйства.

***Результаты исследования*** – определить влияние развития сельского хозяйства на социально-экономическую жизнь населения.

***Ключевые слова:*** сельское хозяйства, макроэкономические показатели, продовольственная безопасность, занятость

**Vusala Karimova**

**MACROECONOMIC INDICATORS OF AGRIKULTURAL DEVELOPMENT IN AZERBAIJAN**

***Summary***

The article examines the pace of development of macroeconomic indicators in the agricultural sector in recent periods. The role of the development of the agrarian sector in the creation of new production enterprises in rural areas and increasing employment was assessed. At the same time, the importance of food security as a guarantee of public health was substantiated.

They also discussed the impact of the development of the agricultural sector on the socio-economic life of the country's population and state support in this area.

***Purpose*** – Application of development directions and macroeconomic indicators of agricultural spheres in Azerbaijan.

***Methodology*** – Statistical research methods were used in the research work.

***The results of the study*** – To determine the impact of agricultural development on the socio-economic life of the population.

***Keywords:*** agriculture, macroeconomic indicators, food security, employment

**Rəyçi: AƏSMA-nın “İqtisadiyyat və idarəetmə” kafedrasının dosenti Z.M.Əlizadə**

**Qəbul edilib: 12.04.2020**

**UOT 336**

**Türkan Hətəmova**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, magistr***
turkan.axmedova.87@mail.ru

# AZƏRBAYCAN – TÜRKİYƏ XARİCİ TİCARƏT DÖVRİYYƏSİNİN İNKİŞAF PRİORİTETLƏRİ

*Məqalədə Azərbaycan və Türkiyə xarici iqtisadi əlaqələrinin müasir vəziyyəti və təkmilləşdirilməsi yollarının əsas istiqamətlərindən bəhs edilir. Eyni zamanda Azərbaycan - Türkiyə qarşılıqlı iqtisadi əlaqələrin yaranma zərurəti, inkişaf mərhələləri və ikitərəfli iqtisadi əlaqələrin kompleks təhlil və qiymətləndirilməsi aparılmış, qarşılıqlı iqtisadi münasibətlərin gələcək perspektiv inkışafı haqqında proqnozlar verilmişdir.*

***Məqsəd*** – Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin mövcud vəziyyəti və inkişaf perspektivlərinin araşdırılmasıdır

***Metodologiya*** – Xarici ticarət dövriyyəsinin müəyyənləşdirilməsində iqtisadi statistik və təhlil metodlarından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** – Azərbaycan-Türkiyə iqtisadi əlaqələrinin əsas nəticələri müəyyən edilmişdir.

***Açar sözlər**:* xarici siyasət, xarici iqtisadi əlaqələr, ikitərəfli münasibətlər, saziş, müqavilə

## Giriş

Xarici iqtisadi əlaqələrin yaradılmasında Azərbaycanın potensial partniyorlarından biri kimi qonşu Türkiyə Respublikası çıxış edir. İki ölkə arasındakı əlaqələrin araşdırılması göstərir ki, müasir dövrdə Türkiyə ilə Azərbaycan arasında əməkdaşlıq iqtisadiyyatın bir çox sahələrində inkişaf edir. Lakin son vaxtlar, Azərbaycan və Türkiyə arasında iqtisadi əməkdaşlıq, xüsusən xarici ticarət və investisiya qoyuluşu istiqamətlərində daha çox inkişaf edir. Belə ki, Türkiyə ilə ticarət əlaqələrinin təhlili göstərir ki, bu ölkə Azərbaycanın xarici ticarət dövriyəsində özünəməxsus xüsusi çəkiyə malikdir.

Hər bir ölkə iqtisadiyyatının inkişafı bir sıra özünəməxsus amillərlə şərtlənir **(5, səh.50)**

- təbii resurslar balansı və ondan istifadə dərəcəsi;
- yığılmış kapitalın kəmiyyəti;
- cəmiyyətin demoqrafik quruluşu;
- milli mentalitet və dini inamların xüsusiyyəti;
- ölkənin ictimai-siyasi və dövlət quruluşu;
- ölkənin dünya iqtisadiyyatına qovuşması dərəcəsi.

Bütün sahələrdə olduğu kimi, iqtisadi sferada da uğurlu siyasətin davamı Azərbaycanın xarici ticarət yönümündə daha böyük müvəffəqiyyətlər əldə etməsilə nəticələnmişdir. Özəl biznesin inkişafı üçün yaradılan əlverişli şərait, istehsal münasibətlərində müsbət keyfiyyət dəyişiklikləri və bu qəbildən olan digər amillər ölkəmizin xarici ticarət dövriyyəsinin həcminin sürətlə artmasına səbəb olmuşdur. Bu isə, öz növbəsində,

Azərbaycanın dünyaya iqtisadi inteqrasiyasının sürətlənməsi və xarici iqtisadi əməkdaşlığın güclənməsində əsas amillərdən birinə çevrilmişdir. Prezident İlham Əliyev bununla bağlı demişdir: "Respublikanın sosial-iqtisadi vəziyyətini inkişaf etdirmək üçün biz xarici ölkələrlə və dünyanın bütün şirkətləri ilə sıx əməkdaşlıq etməyi, Azərbaycan ilə xarici ölkələr, şirkətlər arasında müştərək iş görməyi iqtisadiyyat sahəsində əsas istiqamətlərdən biri hesab edirik" **(3, səh.2).**

Azərbaycan-Türkiyə iqtisadi əlaqələri ulu öndər Heydər Əliyevin vurğuladığı "bir millət, iki dövlət" devizinə və tarixi-mədəni dostluq prinsipinə əsaslanan, strateji tərəfdaşlığa söykənən münasibətlər sistemini əhatə edir. Türkiyə Respublikası ilə iqtisadi əlaqələrimiz dərin tarixi köklərə dayansa da, bu münasibətlərin geniş vüsət alması müstəqilliyimizin qazanılmasından sonrakı dövrə təsadüf edir. Belə ki, Türkiyə ilə Azərbaycan arasında iqtisadi münasibətlər ölkəmiz müstəqillik qazandıqdan sonra yenidən bərpa olunmuşdur. İki ölkə arasında formalaşan iqtisadi əlaqələr dövlətlərarası maraqları özündə ehtiva etməklə yanaşı, geoiqtisadi mövcudluq baxımından regional və qlobal səviyyədə millətlərarası səmərəli əməkdaşlığa da töhfə verməkdədir. Strateji tərəfdaşlar olan bu iki ölkənin siyasi, mədəni bağlarının iqtisadi baxımdan möhkəmlənməsinin də bir sıra səbəbləri vardır. Belə ki, Türkiyə üçün Azərbaycan dayanıqlı enerji mənbəyi, Orta Asiya ölkələri ilə iqtisadi əlaqələrin genişlənməsi üçün sözügedən regiona açılan qapı, "İpək yolu" üzərindəki dövlətlərlə ticarətin yaradılması imkanı, böyük xammal ehtiyatları ilə təminat və s. rolunu oynayır. Azərbaycan üçün isə Türkiyə enerji ehtiyatlarının dünya bazarlarına çıxarılması, Avropa Birliyi ilə iqtisadi əlaqələrin dərinləşməsində tranzit ölkə, regional və beynəlxalq strateji layihələrdə dayanıqlı tərəfdaş və s. qismində çıxış edir **(1, səh. 50)**

Türkiyə və Azərbaycanın iqtisadi münasibətlərinin inkişafında Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istifadəyə verilməsi mühüm rol oynamışdır. Bu kəmər vasitəsilə dünya bazarlarına ixrac edilən neftdən əldə olunan gəlirlər hesabına Azərbaycanın makroiqtisadi dayanıqlığı güclənmiş, əhalinin gəlirlərində əhəmiyyətli artım müşahidə olunmuşdur. Bundan əlavə, Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin istifadəyə verilməsi nəticəsində hər iki ölkə arasındakı xarici ticarət əlaqələri daha da genişlənmişdir. Bu dəmiryolu xətti həm iki ölkə arasındakı iqtisadi əlaqələrin güclənməsində, həm də Mərkəzi Asiyadan Azərbaycana gələn yüklərin Türkiyə vasitəsilə dünya bazarına keçidində də əhəmiyyətli rol oynamışdır. Statistik məlumatlarıın təhlili göstərir ki, dəmiryolu xətti hər iki ölkəyə həm iqtisadi, həm də siyasi dividentlər qazandırır.

Bu ölkələr arasında xarici ticarət münasibətlərində artım davam edir. İtaliyadan sonra Azərbaycanın ən böyük xarici ticarət tərəfdaşı olan Türkiyə ilə xarici ticarət dövriyyəsi 2019-cı il üçün 33 faiz artaraq 4,5 mlrd ABŞ dollar təşkil etmişdir. Bu göstərici ilə Azərbaycanın ümumi xarici ticarət dövriyyəsində Türkiyə 13,54 faizlə ikinci yerdə qərarlaşmışdır. İxrac statistikasına nəzər yetirsək ötən il Azərbaycanın ixrac artımında yüksək faiz artımı ilə fərqlənən ölkə Türkiyə olmuşdur. Belə ki, 2019-cu ildə Azərbaycanın sözügedən ölkəyə ixracının həcmi 2,9 mlrd ABŞ dolları təşkil etmişdir ki, bu da ötən illə müqayisədə 36 faiz artım deməkdir. Qeyri-neft sektorunda müşahidə edilən artımda Türkiyəyə edilən ixrac mühüm rol oynayır. Azərbaycanın ümumi ixracda Türkiyənin payının artımı da müşahidə edilir ki, bu da 14,58 faiz təşkil edir. Digər idxal əməliyyatlarında isə 2019-cu il Türkiyədən idxalın həcmi 69,9 mln ABŞ dolları artaraq 1,6 mlrd ABŞ dolları təşkil etmişdir. Ümumiyyətlə, Azərbaycanın Türkiyə ilə xarici ticarət dövriyyəsində 2017-ci ildən müsbət saldoya malik olması müşahidə edilir **(7).**

Türkiyə Azərbaycanın əhəmiyyətli ticarət tərəfdaşı olmaqla, Azərbaycanın xarici ticarət dövriyyəsində və ixracında 2015-ci ildən, idxal əməliyyatlarında isə 2013-cü ildən

etibarən 2-ci yerdədir. Türkiyənin Azərbaycanın mal idxalında payı 2008-2019-cu illərdə 11,3%-15,8% arasında dəyişməklə, orta hesabla 13,5% faiz təşkil etmişdir. 2019-cu ildə bu ölkənin Azərbaycanın idxalında payı 1,6 milyard ABŞ dolları olmaqla 12% təşkil etmişdir. Türkiyədən idxalda əmtəə çeşidliliyi aydın müşahidə olunur. Ötən ildə Türkiyədən idxal olunan mal kateqoriyalarında 15%-lə maşın və mexaniki alətlər (251 milyon dollar) yer almışdır. İdxalda növbəti yerlərdə dəmir və polad (7%, 120 milyon dollar), dəmiryol və tramvay nəqliyyatları istisna olmaqla digər nəqliyyat vasitələri (7%, 118 milyon dollar), elektrik avadanlıqları (7%, 116 milyon dollar) olmuşdur **(2, səh.6).**

2020-ci ilin ilk yarısında Azərbaycan iqtisadiyyatına cəlb olunan birbaşa xarici investisiya (BXİ) qoyuluşuna görə, Türkiyə 259 milyon dollar investisiya məbləği və 12,3% xüsusi çəkidə Birləşmiş Krallıqdan sonra 2-ci sırada yer almışdır. Eyni dövrdə Türkiyə, Azərbaycan tərəfindən xarici iqtisadiyyata yönəldilən BXİ-nın həcminə görə 39,2 milyon dollar və 6% xüsusi çəki ilə 8-ci sırada yer almışdır **(6).**

“Azərbaycan Respublikası və Türkiyə Respublikası Hökumətləri arasında Preferensial Ticarət Sazişi” xarici ticarət dövriyyəsinin artırılması istiqamətində tarixi bir sazişdir. Azərbaycanın MDB ölkələri ilə də azad ticarət sazişləri mövcuddur ki, bu da yerli məhsulların sözügedən bazarlarda qiymət üstünlüyünə təsir edəcək amildir. Təsadüfi deyil ki, Rusiya Federasiyasına məhsul ixrac edən sahibkarlar azad ticarət sazişinin üstünlüklərindən istifadə edirlər. Türkiyənin də son üç ildə Azərbaycanın ixracında ikinci mövqedə qalması, bu ölkə bazarlarında imkanların mövcud olmasını göstərir. Bu baxımdan müəyyən edilmiş məhsullar üzrə preferensial müqavilə hər iki ölkə arasında idxal-ixrac əməliyyatlarını daha da artıracaqdır. Bundan əlavə, Türkiyə Cümhuriyyətiylə ticarət sazişinin bağlanması üzrə milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorlarına görə strateji yol xəritələrində müvafiq maddə qeyd edilmişdir.

Azərbaycan Avropa Birliyi, ABŞ, Norveç, Kanada, Türkiyə, İsveçrə və Yaponiyanın Ümumiləşdirilmiş Preferensiyalar Sisteminə qoşulmuşdur ki, bu da Azərbaycan mənşəli malların bu bazarlara rüsumsuz və ya aşağı rüsumlarla daxil olmasına imkan verir **(4, səh. 181).**

Bundan əlavə, “2012-ci il sentyabrın 11-də imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında texniki tənzimləmə, standartlaşdırma, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya və metrologiya sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nun icrasına dair 2020-2022-ci illər üzrə Fəaliyyət Planı” ticarət əməliyyatlarına ən yaxşı dəstək verəcək amildir. Fəaliyyət planının icrası nəticəsində hər iki ölkə məhsullarının texniki reqlamentləri və standartları uyğunlaşdırılacaq, mal və məhsul ticarətində mövcud sənədləşmənin sadələşdirilməsi ilə nəticələnəcəkdir. Fəaliyyət planı həmçinin Türkiyə təcrübəsindən də geniş istifadəyə şərait yaradacaqdər. Avropa Birliyi ölkələri Türkiyənin ixracında önəmli pay tutur. Bunun bir səbəbi Türkiyənin “Avropa Gömrük Birliyi”ndə təmsil olunmasıdırsa, digər səbəbi Avropa Birliyi ölkələrinin texniki reqlament və standartlarına uyğun mal və məhsul istehsal etməsidir. Bu baxımdan Türkiyənin bu sahə üzrə uzun illər formalaşmış təcrübəsi Azərbaycanın mal və məhsullarının Avropa Birliyi bazarlarına ixracına dəstək ola bilər.

Azərbaycanın Türkiyəyə yönəltdiyi ən böyük birbaşa xarici investisiya “SOCAR Turkey”in icra etdiyi layihələrlə bağlıdır. “SOCAR Turkey” ilk olaraq 2008-ci ildə “Petkim”in səhmlərinin satın alınması ilə Türkiyənin energetika bazarına daxil olub. Bu investisiya ilə hazırda tərəfdaş ölkənin neft-kimya xammalı tələbatının 18 faizi qarşılanır. “SOCAR Turkey” həmçinin Türkiyənin və regionun enerji təhlükəsizliyinin təminatında mühüm əhəmiyyəti olan bir çox işlərə imza atıb. Bu investisiyalar əsasən neft-kimya emalı və təbii qaz sektorlarını əhatə edir. Belə layihələrə 6,3 milyard dollar investisiya məbləği

ilə qurulan, 2019-cu ildə İzmirin Əliağa limanında fəaliyyətə başlayan və hazırda Türkiyənin ilkin emal olunan neft ehtiyacının 25 faizini qarşılayan “Star” neft emalı zavodu misal göstərilə bilər. Bu neftayırma zavodu Türkiyənin enerji kəsirinin ən mühüm komponenti olan mayeləşdirilmiş neft qazı, təyyarə yanacağı istehsal etməklə, dost ölkəyə illik təxmini 1,5 milyard dollar qənaət vəd edir. Azərbaycan Türkiyənin alternativ enerji sektoruna da investisiya qoyur. Bu sahədə enerji xərclərinə qənaəti və ətraf mühitin qorunmasını hədəfləyən “Petkim” külək enerjisi stansiyası (“Petkim” RES) xüsusi vurğulanmalıdır. “Petkim” RES-in istifadəyə verilməsi ilə İzmirin Əliağa ərazisində buraxılan karbon emissiyaları 120 min ton azalıb və elektrik enerjisinin istehsal gücü 22 faiz artmışdır**.** Energetika sahəsində istehsal və emaldan başqa, enerjinin paylanması, daşınması və kommunikasiya sistemlərinin inkişafı ilə bağlı SOCAR-ın Türkiyədə əhəmiyyətli investisiyaları var. Bu investisiyalara “SOCAR Terminal”, “SOCAR Dağıtım”, “SOCAR Depolama” və bundan başqa bir sıra əhəmiyyətli satınalmalar misal göstərilə bilər.

İnvestisiya qoyuluşuna gəlincə Azərbaycan Türkiyəyə ən çox investisiya yatıran ölkədir. Azərbaycanda hal-hazırda 4000-ə yaxın Türkiyə şirkəti fəaliyyət göstərir və 300-ə yaxın layihələrdə 16 mlrd ABŞ dolları civarında işlər görülmüşdür. Bundan əlavə, Azərbaycan Türkiyə iqtisadiyyatına 18 mlrd ABŞ dolları, Türkiyə isə Azərbaycan iqtisadiyyatına 12,5 mlrd ABŞ dolları investisiya qoyulmuşdur **(8).**

Türkiyənin enerji təhlükəsizliyində başlıca rol oynayan Azərbaycan son illər bu istiqamətdə nəhəng layihələr icra etmişdir. Belə ki, iki ölkənin təşəbbüsü ilə həyata keçirilən digər beynəlxalq əhəmiyyətli layihə - TANAP layihəsi Türkiyə və Avropa Birliyi ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsi və təchizatın diversifikasiyası baxımından böyük önəm daşıyır. TANAP çərçivəsində Türkiyəyə ilk qaz nəqlinə 2018-ci ildə başlanılmışdır. Başlanğıcda illik 16 milyard kubmetr təşkil edəcək nəql həcminin mərhələli surətdə əvvəlcə 24 milyard kubmetrə, daha sonra 31 milyard kubmetrə yüksəldilməsi nəzərdə tutulur. 1850 kilometrlik TANAP xətti 2020-ci ilin əvvəlindən etibarən Trans-Adriatik Təbii Qaz Boru Xəttinə (TAP) bağlanaraq, Cənubi Qafqaz Boru Xətti vasitəsilə alacağı təbii qazı Yunanıstan, Albaniya və İtaliya üzərindən Avropaya çatdıracaqdır **(8).**

Beləliklə, Türkiyə Cümhuriyyəti Prezidentinin Bakıya səfəri iki ölkə arasındakı investisiya qoyuluşları və turizmin inkişafında yeni mərhələyə səbəb olacaqdır. Bu prosesə başlıca səbəb imzalanan “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı vizadan azadetmə haqqında Saziş” -dir. Bu saziş nəticəsində Türkiyəli investorların Azərbaycanda bazar araşdırılması üçün sərf etdiyi günlərdə limit olmayacaq və azad şəkildə investisiya fəaliyyətini apara biləcəklər. Bundan əlavə, viza ləğvi hər iki ölkə vətəndaşlarının qarşılıqlı turizm səfərlərinə əlavə stimul verəcək və bu təbii ki, ölkələr arasında turizm sənayesinə töhfələrini göstərəcəkdir.

**Nəticə**

Azərbaycanla Türkiyənin iqtisadi münasibətləri müsbət xarakteri ilə seçilməkdədir. Türkiyənin enerji təhlükəsizliyində başlıca rol oynayan Azərbaycan son illər bu istiqamətdə nəhəng layihələr icra etmişdir. İşqaldan azad olmuş ərazilərdə infrastrukturun qurulması, turizm kimi sahələrlə yanaşı ticarət əlaqələrinin daha də möhkəmləndirməkdə Bakı-Tbilisi-Qars və tikilməsi nəzərdə tutulan Bakı-Naxçıvan-Qars dəmir yolu mühüm rol oynayacaq. Daşınma xərclərinin azalması qiymətlərin aşaği enməsinə və ticarət dövriyyəsinin möhkəmlənməsinə xidmət edəcəkdir.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Atakişiyev R.- “Azərbaycan-Türkiyə iqtisadi əlaqələri son illərin təhlilində” “Eco Vision”.-2015.-№ 22.-S.50-52
2. Bayramova A. Azərbaycan-Türkiyə iqtisadi əlaqələri “İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, 2020
3. Bayramov R, “Azərbaycanın xarici ticarət dövriyyəsi böyük sürətlə artır” “Azərbaycan” qəzeti, Azərbaycan-2009-10 yanvar
4. Mikayılova N.Y. “Azərbaycan iqtisadiyyatı” (dərslik). Bakı-“Müəllim” nəşriyyatı, 2018.-312 s.
5. Соколов В., (2007) Современный мир и национальная экономическая политика, Мировая экономика и международные отношения, М.ИНФРА, 74 с
6. https://www.cbar.az/page-43/external-sector-statistics
7. http://www.stat.gov.az/source/environment/az/010_2.xls
8. https://tusiad.org/tr/

**Тюркан Гатамова**

**ПРИОРИТЕТЫ РАЗВИТИЯ ВНЕШНЕТОРГОВОГО ОБОРОТА АЗЕРБАЙДЖАНА И ТУРЦИИ**

***Резюме***

В статье говорится о современном состоянии и путях совершенствования внешнеэкономических связей между Азербайджаном и Турции. Проведена комплексная оценка азербайджано-турецких взаимных экономических связей, изучение истории и этапов развития двусторонних экономических связей, после последовательного анализа дана оценка перспективном развитии взаимных экономических отношений, даны прогнозы о перспективном развитии этих отношений.

***Цель*** – изучение текущего состояния и перспектив развития азербайджано - турецких экономических отношений.

***Методология*** – Для определения внешнеторгового оборота использованы экономико-статистические и аналитические методы.

***Результаты исследования*** – Определены основные итоги азербайджано-турецких экономических отношений.

***Ключевые слова:*** внешняя политика, внешнеэкономические связи, двусторонние отношения, договор

**Turkan Hatamova**

**DEVELOPMENT PRIORITIES OF AZERBAIJAN-TURKEY FOREIGN TRADE TURNOVER**

***Summary***

The article discusses the current state of foreign economic relations with Azerbaijan and Turkey and identifies ways to improve them. The need for the establishment of Azerbaijan-Turkey economic relations, the study of historical and developmental stages and a comprehensive assessment of bilateral economic relations were organized, and after a series of analysis, research and evaluation, forecasts were made for the future and prospects of economic relations.

***Purpose of the research*** – is to study the current state and development prospects of Azerbaijan-Turkey economic relations

***Methodology*** – Economic statistical and analytical methods were used to determine foreign trade turnover.

***Findings*** – the main results of the Azerbaijani-Turkish economic relations have been identified.

***Keywords**:* foreign policy, foreign economic relations, bilateral relations, agreement, contract

**Rəyçi: AƏSMA-nın “Maliyyə və mühasibat uçotu” kafedrasının müdiri dos. N.Y.Mikayılova**
**Qəbul edilib: 27.11.2020**

**UOT 338.26.01**

**Anar Kərim oğlu Məlikov**
***Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, dissertant***
anarmk@tcsgl.com

# ƏMƏK ŞƏRAİTİNİN VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİNƏ ƏSAS METODOLOJİ YANAŞMALAR

*Məqalədə əmək şəraitinin vəziyyətinin qiymətləndirilməsinə əsas metodoloji yanaşmalar təhlil edilərək göstərilir ki, əmək şəraitinin və əməyin mühafizəsinin səmərəli idarə olunması istehsal mühiti amillərinin birlikdə işçiyə təsirini obyektiv qiymətləndirməyi tələb edir.*

*Həmçinin qeyd edilir ki, əmək şəraitinin vəziyyətini qiymətləndirmək üçün metodlar və meyarlar üçün zəruri şərt onların öyrənilən məsələyə adekvatlığıdır və burada əmək şəraitinin qiymətləndirilməsi metodları fərqləndirilir.*

***Məqsəd*** - əmək şəraiti və əməyin mühafizəsinin səmərəli idarə olunması məqsədilə ilə istehsal mühiti amillərinin birlikdə işçiyə təsirinin obyektiv qiymətləndirilməsi.

***Metodologiya*** – məqalədə əmək şəraitinin qiymətləndirilməsində müqayisəli təhlil metodundan istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** – insan sağlamlığının mənfi nəticələrinin aradan qaldırılması məsələləri əmək şəraitinin yaxşılaşdırılması probleminin elmi cəhətdən əsaslandırılmış norma və tələblərindən çox asılıdır.

**Açar sözlər**. əmək şəraiti, qiymətləndirmə, metodoloji yanaşma, əməyin mühafizəsi, sənaye müəssisələri, göstəricilər, zədələnmə, peşə xəstəliyi

## Giriş

Bilavasitə müxtəlif sənaye müəssisələrində və qeyri-istehsal sahələrində aparılan tədqiqatlar geniş materialların təhlili əsasında işlərin ağırlıq qrupuları fərqləndirilir. Daha sonra istehsal zədələnmələrinin, peşə xəstəliyinin və əmək qabiliyyətinin itirilmə dərəcəsini qiymətləndirən göstəricilər sadalanır.

Əmək şəraitinin və əməyin mühafizəsinin səmərəli idarə olunması istehsal mühiti amillərinin (işçinin sağlamlığı, işgörmə qabiliyyəti, yorğunluq, işdən məmnunluq) birlikdə işşçiyə təsirini obyektiv qiymətləndirməyi tələb edir:

Əmək şəraitinin vəziyyətini qiymətləndirmək üçün metodlar və meyarlar üçün zəruri şərt onların öyrənilən məsələyə adekvatlığıdır. Eyni zamanda, adekvatlığa iki tərəfdən baxılır: birincisi, meyarlar və metodlar keyfiyyətcə və kəmiyyətcə qiymətləndirilməli olan hadisələri və prosesləri maksimum obyektiv şəkildə əks etdirməlidir, ikincisi, onlar bu metod və meyarların tətbiqinə və həll edilməsinə yönəldilmiş. məqsəd və vəzifələrə uyğun olmalıdır,

İstehsal mühitinin vəziyyətini və onun işçinin orqanizminə təsirinin nəticələrini keyfiyyətcə və kəmiyyətcə qiymətləndirmək üçün elm və və təcrübədə müxtəlif metod və meyarlar işlənib hazırlanmış və idarəetmə fəaliyyətində tətbiq edilir [1].

Əmək şəraitinin qiymətləndirilməsi metodlarının üç qrupu fərqləndirilir.

- Əmək şəraitinin işgörmə qabiliyyəti və yorğunluq dinamikasının göstəriciləri ilə qiymətləndirilməsi.
- Əmək şəraitinin amil təhlili əsasında təsnifatı.
- Əmək şəraitinin işçilərə təsirinin mənfi nəticələri ilə peşə riskinin qiymətləndirilməsi.

**Əmək şəraitinin işgörmə qabiliyyəti və yorğunluq dinamikasının göstəriciləri ilə qiymətləndirilməsi**

Əmək prosesində bir insanın funksional vəziyyətinin hərtərəfli tədqiqatları əsasında müxtəlif əmək fəaliyyəti növləri üzrə əmək qabiliyyətinin vahid qiymətləndirilməsi metodologiyası əsasında tövsiyələr hazırlanmışdır. Metodologiyanı hazırlayarkən onun müəllifləri əsas məqamı - əmək prosesində müvafiq fəaliyyət göstərmək üçün insanın məqsədyönlü fəaliyyətinin ayrılmaz funksiyası olan mərkəzi sinir sisteminə (MSS) aid olduğunu gostərmişlər. Buna görə də, mərkəzi sinir sisteminin vəziyyətinin dəyişməsi ilə insanın işgörmə qabiliyyətinin dəyişməsi və vəziyyəti haqqında fikir söyləmək olar. Qoruyucu bir funksiya yerinə yetirən mərkəzi sinir sistemi bunun üçün bəzi vahid qeyri-spesifik reaksiyalardan istifadə edir. Bu fundamental müddəalara uyğun olaraq, əsasən mərkəzi sinir sistemindəki dəyişikliklərin müəyyənləşdirilməsinə yönəldilmiş. az sayda, (5-6) dəst üsul seçilmişdir.

Bu üsulların köməyi ilə əldə edilən təbii göstəricilər (hers, saniyə, vat və s.) bir-biri ilə müqayisə olunmur. Orqanizmin funksional vəziyyətindəki dəyişikliklərin ümumiləşdirilmiş kəmiyyət göstəricisini ($K_{kg}$) əldə etmək üçün, parametrik olmayan statistikaya əsaslanaraq belə bir göstəricinin tapılması üçün aşağıdakı formula təklif edilmişdir:

$$K_{kg} = (b-a) / (a + b + c), \qquad (1)$$

burada: a - əməliyyatdan əvvəlki vəziyyətin məlumatları ilə müqayisədə heç bir dəyişikliyin qeydə alınmadığı ölçmələrin sayı;
b – vəziyyətin yaxşılaşmasını göstərən ölçmələrin sayı;
c - vəziyyətin pisləşməsini göstərən ölçmələrin sayıdır.

Hazırlanmış metodologiyanın praktik tətbiqi ilə əlaqəli materiallarda göstərilmişdir ki, $K_{kg}$ orqanizmin öyrənilmiş funksiyalarındakı dəyişikliklərə obyektiv kəmiyyət dərəcəsini verir.

Eyni zamanda, istifadə olunan məhdud sayda üsulla belə, nəticədə mərkəzi sinir sisteminin funksional vəziyyətini, iş qabiliyyətinin səviyyəsini və yorğunluğun dərinliyini əks etdirən bir neçə $K_{kg}$ əldə ediləcəkdir. Göstəricilərin belə çoxluğu əməyin təşkilinin təkmilləşdirilməsi, onun normalaşdırılması və iş, istirahət və digər rasional rejimlərin qurulmasın üçün onların praktiki istifadəsini çətinləşdirir. Buna görə də, hərtərəfli eksperimental yoxlamadan sonra metodologiyanın yaradıcıları işgörmə qabiliyyətinin inteqral göstəricilərinin ($Kig_t$) müəyyən olunması üçün aşağıdakı sadə formulanı təklif etdilər:

$$(K_{igt})\ K_{yd} = K_{kg} / n, \qquad (2)$$

burada: n – $K_{yd}$ alınması üçün köməklik edən metodikaların sayıdır.

İş gününün (növbənin) müxtəlif seqmentlərində əldə olunan $Kig_t$ ilə müqayisə edərək, yorğunluq dərinliyinin (Kyd) göstəricisini əldə etmək olar. Bilavasitə müəssisələrdə aparılan tədqiqatlar işçilər arasında yorğunluğun dərinliyinin nisbi vahidinin 10 ilə 77 arasında dəyişdiyini göstərir. Əldə edilən empirik materiala əsasən üç qrup işçilər

yorğunluq dərinliyi ilə fərqlənir:

1-ci qrup: əhəmiyyətsiz fiziki və psixoloji stressin nəticəsi olan aşağı yorğunluqla xarakterizə olunan 25-ə qədər nisbi vahidlər;

2-ci qrup: orta fiziki və psixoloji stresslər ilə xarakterizə olunan 26-dan 40-a qədər nisbi vahidlər, onlardan yaranan yorğunluq iş və istirahət rejimində rasional daxili və növbə rejimlərinin köməyi ilə çıxarılır;

3-cü qrup: böyük fiziki və psixoloji stress, əlverişsiz iş şəraiti ilə xarakterizə olunan 41-dən 77-ə qədər nisbi vahidlər. Bu göstəricilər işçinin orqanizmindəki patoloji dəyişikliklərin təhlükəsi ilə həddindən artıq yorğunluğunu göstərir [2].

Sərbəst izah edilmiş metodologiya işgörmə qabiliyyətinin vahid qiymətləndirilməsi metodologiyasının təqdimatı və müvafiq olaraq yorğunluq dərinliyi, iş yerindəki əmək şəraitinin bütün elementlərinin təsir dərəcəsi haqqında araşdırılan hər bir işçi üçün xüsusi məlumat əldə etmək məqsədilə istifadə edilə biləcəyi üstünlüyə malikdir.

İşgörmə qabiliyyətinin və müvafiq olaraq yorğunluğun dərinliyinin inteqral qiymətləndirilməsinin sərbəst izah edilmiş metodologiyası, onun köməkliyi ilə araşdırılan hər bir işçi üçün xüsusi məlumatın əldə olunması və iş yerindəki əmək şəraitinin bütün elementlərinin təsir dərəcəsi haqqında konkret məlumat əldə etmək üçün istifadə edilə biləcək bir üstünlüyə malikdir. Bu metodikanın tətbiq olunmasının ən məqbul sahəsi iş yerlərində əmək şəraitinin düzgün təşkili, onun normalaşdırılmasıdır, xüsusən də normalaşdırmanın baza sisteminin işlənib hazırlanmasında, eləcə də növbədə işləmə və istirahət rejimlərinin qurulmasında istifadə edilməsidir.

**Əmək şəraitinin amil təhlili əsasında təsnifatı**

Əmək şəraitinin işçinin orqanizminə ümumi təsirinin ağırlıq dərəcəsinə görə təsnifləşdirmə metodu əmək şəraitinin insan orqanizminə istehsal mühitinin insan üçün potensial təhlükə baxımından qiymətləndirilməsini özündə əks etdirir. O əmək şəraitinin müvafiq amillərinin zərərli və təhlükəli təsirləri nəzərə alınmaqla müəyyən edilmiş standart və normalara uyğunluğunun qiymətləndirilməsinə əsaslanır.

İşin ağırlığını müəyyənləşdirmək üçün əsas meyar olaraq, müxtəlif istehsal amillərinin təsiri altında formalaşan orqanizmin keyfiyyətcə müəyyən edilmiş o funksional vəziyyəti götürülür ki, işin yerinə yetirilməsi prosesində, eləcə də sonrakı bir neçə il müddətində bu şəraitdə işləyən zaman müxtəlif istehsal amillərinin təsiri altında formalaşır. Orqanizmin keyfiyyətcə müəyyən edilmiş üç belə funkcional vəziyyəti məlumdur: normal, sərhəd (norma və patologiyaji arasında) və patoloji.

Sadalanan vəziyyətin xüsusiyyəti ondan ibarətdir ki, bu, işlərin ən müxtəlif növləri və şərtlərində - fiziki və əqli, o cümlədən əlverişsiz şəraitdə yerinə yetirilən işlərdə aşkar olunur. Onlar həm təcrid olunmuş şəkildə, həm də əmək şəraiti elementlərinin insan orqanizminə kompleks təsiri ilə yaranır.

Bilavasitə müxtəlif sənaye müəssisələrində və qeyri-istehsal sahələrində aparılan tədqiqatlar geniş materialların təhlili əsasında altı kateqoriyanın və ya işlərin ağırlıq qrupunu fərqləndirmək və mövcudluğunu obyektiv əsaslandırmaq imkanı yaratdı.

Orqanizmin funksional vəziyyətlərini fərqləndirərkən və işin ağırlıq dərəcələrini müəyyən edərkən onlardan hər birinin fərqləndirici əlamətləri qismində, aşağıdakı göstəricilər istifadə edilmişdir:

1) əmək şəraitinin bütün elementlərinə təsiri nəticəsində formalaşan iş növbəsinin və ya həftəsinin sonunda mərkəzi sinir proseslərinin xarakteri, dinamikası;

2) dövrün uzunluğu və işdən sonra pozulmuş funksiyaların bərpasının tamlığı;

3) işgörmə qabiliyyətinin dinamikasında müddət və faz nisbəti;

4) işin ağırlığı səbəbindən özünü göstərən istehsal yorğunluğunun artması nəticəsində yaranan istehsal zədələnmələrinin sayı, ağırlığının strukturu və səviyyəsi, eləcə də daha çox ehtimal olunan səbəblər;

5) işin nəticələrinin texniki-iqtisadi göstəriciləri (məhsul istehsalı, məhsulun keyfiyyəti, əməliyyata sərf olunan vaxt və digər.);

6) - əlverişsiz əmək şəraiti ilə əlaqədar və s. səbəblərə görə kadr axıcılığı.

İşlənib hazırlanmış təsnifat, əmək şəraitinin insana təsir dərəcəsini və xarakterini müəyyənləşdirməyə imkan verir, o işin ağırlığının altı kateqoriyasına uyğun gələn əmək şəraitinin altı kateqoriyasını fərqləndirir.

Birinci ağırlıq kateqoriyasına fiziki, zehni, əsəbi və emosional stresin yol verilən ölçüsü və xarici istehsal mühitinin rahat şəraitində yerinə yetirilən işlər daxildir. Praktik olaraq sağlam insanlarda belə şərtlər orqanizmin uyğunluğunu və onun işləmə qabiliyyətini artırır. Növbənin və həftənin sonundakı yorğunluq cüzidir, bütün əmək fəaliyyəti dövründə sağlamlıq və yüksək işgörmə qabiliyyəti qorunur.

İkinci ağırlıq kateqoriyasına icazə verilən maksimum sanitar qaydalara, normalara və erqonomik tövsiyələrə uyğun olaraq istehsal amillərinin icazə verilən ən yüksək konsentrasiyası və səviyyələrinə uyğun şərtlərdə görülən işlər daxildir.Belə iş üçün tibbi əks göstərişləri olmayan praktik olaraq sağlam insanlarda növbənin (həftənin) sonuna qədər əhəmiyyətli yorğunluq yaranmır.

Əzələ-dayaq sisteminin, yüksək sinir fəaliyyətinin və bədənin digər alt sistemlərinin gərginliyi və həyat fəaliyyətini təmin edən funksiyaların səfərbərlik dərəcəsi müəyyən bir peşə yükünün (fiziki, zehni, əsəbi və emosional) həcminə və məzmununa uyğundur. İşgörmə qabiliyyəti əhəmiyyətli dərəcədə pozulmur, peşə fəaliyyəti ilə əlaqəli sağlamlıq vəziyyətindəki sapmalar bütün əmək fəaliyyəti dövründə müşahidə edilmir. Beləliklə, əməyin ilk iki kateqoriyalı ağırlığı, planlaşdırılan tam nəticənin əldə edilməsində böyük funksional sistem "insan - istehsal mühiti" nin fizioloji və iqtisadi xüsusiyyətlərinin nisbətinin optimallığıdır.

Üçüncü kateqoriyaya çox əlverişli olmayan əmək şəraiti, o cümlədən sağlam insanlarda artan əzələ, zehni və emosional stress nəticəsində praktiki olaraq sağlam insanların orqanizminin sərhəd vəziyyətinə xas olan reaksiyaların əmələ gəldiyi işlər daxildir: işçi fasilələrdə fizioloji funksiyaların müəyyən göstəricilərinin pisləşməsi və xüsusilə işə başlanğıc səviyyəsi ilə müqayisədə işin sonunda, istehsal əməliyyatlarının yerinə yetirilməsi prosesində funksional göstəricilərin pisləşməsi, hər şeydən əvvəl, mərkəzi sinir sisteminin həm fiziki, həm də zehni işlərdə pisləşməsi; bərpa müddətinin uzanması;; istehsal göstəricilərinində bəzi pisləşmələr.

Əmək və istirahət rejimlərinin rasionallaşdırılması mənfi dəyişiklikləri nisbətən tez aradan qaldıra bilər ki, bu da böyük bir funksional sistem olan "insan – istehsal mühiti"-nin normal və faydalı nəticəsinə yaxınlığını göstərir, ciddi mənfi sapmalar olmadan əldə edilir.

Dördüncü ağırlıq kateqoriyasına, praktik olaraq sağlam insanlarda dərin (patologiya öncəsi) sərhəd vəziyyətiinə xarakterik olan əlverişsiz əmək şəraiti ilə reaksiyalara səbəb olan islər daxildir, Bu halda, fizioloji göstəricilərin əksəriyyəti həm əməliyyat aralığında (və xüsusilə iş dövrünün sonunda), həm də əmək fəaliyyəti dövründə pisləşir. Əmək qabiliyyətinin dinamikasında sabitlik və azalma dövrlərinin nisbəti və bunun nəticəsi olaraq saatlıq əmək məhsuldarlığının meyletmələri pisləşir.Digər istehsal göstəriciləri də azalır. Xəstəliyin səviyyəsi yüksəlir, istehsalla əlaqəli tipik "xəstəliklər" meydana çıxır və təhlükəli və zərərli istehsal amillərinə məruz qalma hallarında isə peşə xəstəlikləri də baş verə bilər, istehsal zədələnmələrinin sayı və ağırlığı artır.

Ağırlığın beşinci kateqoriyasına iş dövrünün sonunda (növbə, həftə) son dərəcə əlverişsiz (ekstremal) əmək şəraiti nəticəsində praktik olaraq sağlam insanların orqanizminin patoloji funksional vəziyyətinə xas olan reaksiyaların formalaşdığı işlər daxildir. Həyatı təmin edən alt sistemlərin (qan dövranı, maddələr mübadiləsi və s.) nisbi, bəzən isə mütləq funksional çatışmazlığı müşahidə olunur; bəzən mərkəzi sinir sistemindən və xüsusən daha yüksək sinir fəaliyyətindən qaynaqlanan təhrif olunmuş reaksiyalar olur, məsələn, artan emosional və intellektual gərginlik və s. işləyənlərin əksəriyyətində patoloji reaksiyalar tam istirahətdən sonra yox olur. Ancaq bəzi insanlarda müxtəlif səbəblərdən, o cümlədən fərdi xüsusiyyətləri ilə bağlı keçici patoloji reaksiyalar sabitləşə və çox və ya az inkişaf etmiş bir xəstəliyə keçə bilər.

Altıncı ağırlıq kateqoriyasına, xüsusilə əlverişsiz, həddindən artıq ekstremal iş şəraitində (beşinci ağırlıq dərəcəsi üçün xarakterik olan), hadisələr növbənin başlamasından qısa müddət sonra və ya iş həftəsinin ilk günlərində həddindən artıq, çox vaxt qəfil ani yükləmə nəticəsində, demək olar ki, psixi gərginlik altında kəskin patoloji reaksiyalar olduqda tez-tez həyati vacib orqanların funksiyalarının ciddi pozulması ilə müşayiət olunan kəskin patoloji reaksiyalar meydana gəlir.

Təsvir edilmiş metodologiyanın tətbiqi əmək şəraiti baxımından iş yerlərinin attestasiyasında, əlverişsiz əmək şəraiti olan işlərdə çalışan işçilərə zəruri kompensasiyaların təyin olunmasında, əməyin mühafizəsi tədbirlərinin işlənməsində qaçılmaz görünür. İşlənmiş metodikanın son nəşri 1988-ci ildə olmuşdur [3].

**Əmək şəraitinin işçilərə təsirinin mənfi nəticələri ilə peşə riskinin qiymətləndirilməsi**

İstehsal zədələnmələrinin, peşə xəstəliyinin və əmək qabiliyyətinin itirilmə dərəcəsini qiymətləndirən göstəricilər aşağıdakılardır:

- peşə xəstəliyinin tezliyi və ağırlığı (o cümlədən əmək qabiliyyətinin müvəqqəti və daimi itirilməsi, ölümlə nəticələnən);
- əmək qabiliyyətinin istehsal zədələnmələri və peşə xəstəlikləri səbəbindən aşağıdakı növlər üzrə: a) (HTEK rəyinin nnəticəsinə görə daimi əlilləк, ancaq əlillik qrupu təyin olunmadan), b) I qrup, II qrup III qrup əlillik qrupları təyin olunmaqla əmək qabiliyyətinin itirilməsi) əmək qabiliyyətinin itirilməsinin tezliyi və ağırlığı.

Peşə xəstəliklərini təhlil edərkən, istehsal-peşə əlamətlərinə görə halların tezliyi və ağırlığının kəmiyyət göstəricilərini hesablamaq lazımdır. Müqayisə olunan məlumatları əldə etmək üçün hesablama standart dəyər (10 min işçi) üzərində aparılmalı və müvəqqəti keçid 20-30 il ərzində, lakin 10-15 ildən az olmamalıdır.

Əlillik səviyyəsini (müvəqqəti və davamlı, qismən və tam), habelə ölümün nəticəsinin ölçülməsi vəzifəsi yalnız əlilliyin bütün növlərini özündə cəmləşdirən inteqral göstəricinin köməyi ilə həll edilə bilər.

Faktiki peşə riskinin səviyyəsini kompleks qiymətləndirmək üçün bu peşə qrupu üzrə 10 min işçiyə düşən o cümlədən ölümlə nəticələnən hallar da daxil olmaqla müvəqqəti və davamlı əlilliyə görə məbləği özündə əks etdirən inteqral göstəricidən istifadə olunur.

Bu göstəricini istehsal zədələnmələri və peşə xəstəlikləri səbəbindən əmək qabiliyyətinin tam itirilməsi göstəricilərini kəmiyyətcə müəyyən etmək üçün, habelə ölüm hallarının baza dəyəri üçün (100%) əsas dəyər kimi götürülür, 6000 adam-gün əmək qabiliyyətinin itirilməsinə bərabər və standart itkinin hər səviyyəsi (məsələn, 10%) əmək qabiliyyətinin tam itirildiyi günlərin sayına müvafiq qiymətləndirilməlidir.

İstehsalat zədələnmələri və peşə xəstəliyinin qiymətləndirilməsi metodlarının tətbiqinin əhatə dairəsi – istehsalatda bədbəxt hadisələr və peşə xəstəliklərindən məcburi

icbari sosial sığorta sistemində peşə riskinin dərəcəsini, habelə əmək şəraitinin və əməyin mühafizəsinin yaxşılaşdırılması tədbirlərinin işlənməsidir.

Elmi-texniki tərəqqinin nailiyyətlərinin həyata keçirilməsi, layihə konstruktor, elmi-tədqiqat təşkilatları layihələrin və texniki sənədləşmələrin işlənib-hazırlanmasının bütün mərhələlərində əlverişli əmək şəraitinin yaradılmasını tələb edir. Bu istiqamətdə görülən bütün işlərin uğuru bu təşkilatların müvafiq normativ materialların, tövsiyə və tələblərin təhlükəsizliyinin təmin edilməsindən asılıdır.

Ölkəmizdə elmi cəhətdən əsaslandırılmışı sanitariya-gigiyenik, fizioloji və erqonomik normaların, tövsiyələrin və tələblərin yaradılmasına çox diqqət yetirilir, bu işdə bir çox elmi-tədqiqat institutları, laboratoriyalar və universitet kafedraları iştirak edir.

Yeni texnika, texnologiya və istehsal obyektləri layihələndirilərkən sanitar norma və tələblərə aid məsələlərin həlli vaxtı fundamental əsasla əlaqədar son dərəcə əhəmiyyətli bir problem ortaya çıxır. Onun mahiyyəti belədir: onlar normallaşdırılmış amillərin və ya maddələrin bioloji fəallığının qiymətləndirilməsinə əsaslanmalıdırmı, yaxud bu normalar əsasən statistik məlumatlara və texniki imkanlara əsaslanmalıdır. Gördüyümüz kimi, problem son dərəcə ciddidir. Çünki norma və tələblərin hansı prinsiplərlə işlənib hazırlanması əmək şəraitinin vəziyyətindən çox asılı olacaqdır.

Bir sıra xarici ölkələrdə sanitar norma və tələblər müasir texniki imkanlar nəzərə alınmaqla həyata keçirilir. Bir vaxtlar sanitariya standartlarının SSRİ və ABŞ-da həyata keçirilən müqayisəli təhlili göstərdi ki, bu ölkələrin müvafiq sənədlərində olan 212 eyni kimyəvi tərkibli kimyəvi maddələr üçün ABŞ-da qəbul olunan konsentrasiyaların 40% -i sovet standartlarına nisbətən 10 və ya daha çoxdur, 15% - hallarda isə də. bu artıqlıq 50 qat və ya daha çoxdur. [4]

Beləliklə, son illərdə hazırlanmış sanitariya standartları müasir tələblərə cavab verdiyindən hazırda istifadə olunur. Məsələn, gündəlik iş zamanı 8 saat ərzində iş zonasında havada zərərli maddələrin maksimum icazə verilən konsentrasiyalarına riayət edilməsi, bütün iş təcrübəsi müddətində, birbaşa iş zamanı və ya uzunmüddətli perspektivdə, işçilərin sağlamlıq vəziyyətində müasir tədqiqat metodları ilə aşkar edilə bilən xəstəliklərə və ya kənarlaşmalara səbəb ola bilməz [5].

Ölkəmizdə həm layihə təşkilatlarının, həm də fəaliyyət göstərən müəssisələrin məcburi sanitariya standartlarını özündə cəmləşdirən əsas sənədlər "Sənaye müəssisələrinin layihələndirilməsi üçün sanitariya standartları (SN 245-71)", Dövlət Standartı ilə təsdiq edilmiş əməyin təhlükəsizliyinin Standartları Sistemi (SSBT) və bir sıra digər sənədlərdir.

**Nəticə**

Əmək şəraitinin məcmusunu təşkil edən müxtəlif elementlər üzrə konsentrasiyaları və optimal səviyyənin müəyyənləşdirilməsi problemi tam həll olunmamışdır. Hal-hazırda mövcud olan sanitar norma və tələblərin əksəriyyəti müəyyən maddələr və amilləri, onların insan sağlamlığı üçün mənfi nəticələrə səbəb olan keçidin yuxarı həddini müəyyən edir.

Mənfi nəticələrin aradan qaldırılması hələlik yeni texnikaların layihələndirilməsi mərhələsindədir, bu məsələlər əmək şəraitinin yaxşılaşdırılması problemini tədqiq edən elmi müəssisələrin işləyib hazırladığı elmi cəhətdən əsaslandırılmış norma və tələblərdən çox asılı olacaqdır.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Поляков И.А. Основы научной организации на предприятии: учеб. Пособие – М. 2001 – 201 с.)
2. Кульбовская Н. Качество жизни и условия труда // Охрана труда и социальное страхование. - 2010. с.40-43).
3. Количественная оценка тяжести Труда. Межотраслевые методические рекомендации. М— Экономика, 1988,122 с.)
4. Никитин В.С., Рябцев В.А. Сопоставление списков ПДК вредных веществ в воздухе рабочей зоны, опубликованных в 1972-1976 гг. Гигиена труда и профессиональные заболевания, 1979, № 2, с. 43-44.)
5. Санитарные нормы проектирования промышленных предприятий. СН--245-71. -М.: Стройиздат, 1972, с. 56-70.)

**Анар Меликов**

## ОСНОВНЫЕ МЕТОДОЛОГИЧЕСКИЕ ПОДХОДЫ К ОЦЕНКЕ СОСТОЯНИЯ УСЛОВИЙ ТРУДА

***Резюме***

В статье проанализированы основные методологические подходы к оценке состояния условий труда и показано, что эффективное управление условиями труда и охраной труда в совокупности требует объективной оценки воздействия факторов производственной среды на работника.

Также отмечается, что необходимым условием методов и критериев оценки состояния условий труда является их адекватность изучаемому вопросу, и здесь выделяются методы оценки условий труда.

***Цель*** – объективная оценка совокупного воздействия факторов производственной среды на работника с целью эффективного управления условиями труда и охраны труда.

***Методика*** – в статье использован метод сравнительного анализа при оценке условий труда.

***Результаты исследования*** – вопросы устранения негативных последствий для здоровья человека во многом зависят от научно обоснованных норм и требований проблемы улучшения условий труда.

***Ключевые слова:*** условия труда, оценка, методический подход, охрана труда, промышленные предприятия, показатели, травматизм, профессиональное заболевание

**Anar Malikov**

## BASIC METHODOLOGICAL APPROACHES TO ASSESSING THE STATE OF WORKING CONDITIONS

***Summary***

The article analyzes the main methodological approaches to assessing the state of working conditions and shows that effective management of working conditions and labor protection together requires an objective assessment of the impact of factors of the production environment on the employee.

It is also noted that a necessary condition for methods and criteria for assessing the state of working conditions is their adequacy to the issue under study, and here methods for assessing

working conditions are highlighted.

***Purpose*** – objective assessment of the total impact of factors of the production environment on the employee in order to effectively manage working conditions and labor protection.

***Methodology*** – the article uses the method of comparative analysis in assessing working conditions.

***Findings*** – the issues of eliminating negative consequences for human health largely depend on the scientifically based norms and requirements of the problem of improving working conditions.

***Keywords:*** working conditions, assessment, methodological approach, labor protection, industrial enterprises, indicators, injuries, occupational disease

**Rəyçi: AƏSMA-nın "İqtisadiyyat və idarəetmə" kafedrasının dosenti Ə.İ.Əliyev**

**Qəbul edilib: 27.02.2020**

# “ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR”

## Elmi-praktiki jurnal

## № 2 (14), 2020

**Redaktorlar:**
*Xanımbacı Cəfərli, Aygün Bağırzadə*

**Kompyuter tərtibatı:**
*İradə Əkbərova*

Nəşriyyatın direktoru: M.Şəfiyev
Texniki redaktor: S.Mamoyeva

“Müəllim” nəşriyyatında çap olunmuşdur.
Tel.: (+99412) 555 15 60
E-mail: muallim.mmc@gmail.com

Yığılmağa verilib: 01.02.2021
Çapa imzalanıb: 16.02.2021
Format: $60x84^{1/8.}$ 7,9 ç.v. Tiraj: 200